**VÜQAR A. BAYRAMOV**

# MİLLİ İQTISADİYYATIN DAYANIQLILIĞI

**MONOQRAFİYA**

**BAKI 2019**

**Elmi redaktor:** Rasim Həsənov, i.e.d., professor

**Rəyçilər:** Gülşən Yüzbaşıyeva, i.e.d., professor,
Asif Mustafayev, i.f.d.

**Bayramov V.A. Milli iqtisadiyyatın dayanıqlılığı. (monoqrafiya). Bakı**

Monoqrafiyada qloballaşan milli iqtisadiyyatın nəzəri-metodoloji aspektlərinin sistemli yanaşma konseptual məzmunu açıqlanmış, dayanıqlı inkişaf trayektoriyasına keçidin nəzəri interpretasiyası verilmiş və milli – qlobal qarşılıqlı münasibətlərində inteqrativ bağlılığın formalaşması zəruriliyi əsaslandırılmış formada təsbit edilmişdir.

Monoqrafiya iqtisadçı alimlər, metodoloqlar, sosioloqlar, iqtisadi profilli ali məktəb tələbələri üçün nəzərdə tutulmuşdur.

Eyni zamanda kitab geniş oxucu kütləsi üçün də faydalı ola bilər.

# ÖN SÖZ

Bəşəriyyətin təkamül tarixinin ən ziddiyətli, heç bir formada birmənalı qiymətləndirilməsi mümkün olmayan hadisə və proseslərin kütləvi şəkildə təzahür etdiyi bir dövrünə qədəm qoymuşuq. Baş verənlərin ilkin səbəbiyyətinin, yaradıcı mexanizmlərinin araşdırılması, anlaşılması və dərk edilməsi sferasında da problemlər yaşanmaqdadır. Belə bir situasiyada hər biri ayrı-ayrılıqda ziddiyətli-problematik məzmunu daşıyan qloballaşma →milli iqtisadiyyat →inkişaf üçlüyünün "vahid məxrəcə" gətirilməsini boş verin, heç olmasa nəzəri ümumiləşdirilməsini vermək mümkündürmü? Aydındır ki, üçlüyün sonuncusu əvvəlkilər arasındakı bağlılıqdan bir-başa asılılıqdadır. Digər diqqətçəkici məqam ondan ibarətdir ki, bu üçlükdə yalnız milli iqtisadiyyatın subyekt müəyyənliyi mövcuddur. Qloballaşma və inkişaf – müəyyən dəyərlər kompleksini özündə ehtiva edən zaman axınlarıdır. Göründüyü kimi, sözügedən üçlüklə bağlı nəzəri ümumiləşdirmə zaman məhfumuna istinadla aparılmalıdır. Deməli qəbul etməliyik ki, bu problemin (üçlük daxili nəzəri bağlılığın konseptuallığı) birdəfəlik həlli yoxdur, ən azı zamanca dəyişkəndir, dinamik xarakterlidir və riyazı dildə ifadəsi prinsipcə mümkün deyildir.

Belə bir qənaətə gəlməyimizin kökündə bir tərəfdən, müasir qlobal reallığın mürəkkəb məzmunluluğu, digər tərəfdən milli iqtisadiyyatın yetkin nəzəriyyəsinin hələ formalaşma mərhələsində olması, eləcə də dayanıqlı inkişafın konseptuallıq dərəcəsinin yetərli səviyyədə qərarlaşmaması dayanır.

Üçüncü minilliyin əvvəllərindən başlayaraq dünya iqtisadiyyatının "oyun qaydaları" və geoiqtisadi strukturunda əsaslı dəyişikliklər baş vermiş və bu yeniləşmə prosesi bu gün də davam etməkdədir. Dünya özünün tarixi təkamül prosesinin keyfiyyətcə yeni bir mərhələsinə qədəm qoyur. "Keyfiyyətcə yeni" ifadəsini əvvəlki dövrlə müqayisədə "daha yaxşı olan" vəziyyət kimi mütləq anlamda qəbuk etmək doğru olmazdı. "Keyfiyyətcə yeni" – sadəcə olaraq ötən dövrlərdəki keyfiyyət səviyyəsindən mahiyyətcə fərqli olan deməkdir. Yəni, bu "yenilik" pis də ola bilər. Məsələ burasındadır ki, dünya iqtisadiyyatı qloballaşdıqca – onun onsuz da heteroqen olan mahiyyəti və strukturu daha da mürəkkəbləşir, real gerçəklik virtual məkana keçir, iqtisadi varlığın özü belə az qala "görünməz" hala gəlir.

Insan → təbiət, insan → cəmiyyət və insan → dövlət münasibətlərində böhranlı situasiyalar qibtə ediləcək bir ardıcıllıqla növbələşirlər:

- Qlobal inkişaf problemlərinin həlli yönümündə həyata keçirilən beynəlxalq səviyyəli tədbirlər kompleksinin effektiv yekunlarına hələ də nail oluna bilinməmişdir.
- Ümumdünya səviyyəsində insan yaşayışı üçün zəruri olan ətraf mühitin təbii tarazlığının pozulması, geridönüşü yaxud bərpası mümkün olmayan neqativ proseslərin sürətlənməsi, ekoloji situasiyanın pisləşməsi ümumbəşəri gələcəyi böyük sual altında qoyur.

Ekspertlərin qiymətləndirmələrinə görə 20 il (1995-2015) ərzində 6457 təbii fəlakət baş vermiş, 606 min insan həlak olmuş, 4,1 mlrd insan bu və ya digər şəkildə (yaralanmış, evsiz qalmış və s.) zərər görmüşdür. Bu müddət ərzində dəyən maddi zərər 5-6 trln. dollar həcmində olmuşdur.

Hal-hazırda bəşəriyyətin tən yarısı – 3,5 mlrd. insan atmosferin çirklənmə səviyyəsi kritik həddən də yüksək olduğu ərazilərdə yaşayır. Havanın çirklənməsi nəticəsində həyatını itirənlər dünya üzrə ölənlərin 10%-ni (2013-cü il), yəni 5,5 mln. insan təşkil etmişdir. Çirkli sudan həlak olanların sayı isə 1,2 mln. nəfərə çatmışdır.

Eyni zamanda, müasir qiymətləndirməyə görə hər il planet 15 mlrd. ağac itirir ki, bu da ümumi meşə massivinin 0,5% deməkdir.[1]

Bütün bunlar və sadalamadığımız digər ümumbəşəri fəlakət doğura biləcək neqativ proseslər, əvvəlki tarixi inkişaf mərhələlərindən fərqli olaraq, mövcudluq və inkişafın gerçəkləşmə mexanizmində ekosistemin "təsərrüfat tutumluğunun" həlledici əhəmiyyət daşıdığını ortalığa qoyur.

- Dünyanın qabaqcıl ölkələrinin yeni cəmiyyət tipinə → postindrustrializmə keçidi qlobal "bərabərsizliyin" daha da dərinləşməsinə və yekun olaraq, müxtəlif miqyaslı sosial toqquşma və lokal müharibələrə, terrorizmin daha da güclənməsinə, bir növ ümumbəşəri ümidsizlik sindromunun meydana çıxmasına səbəb olmuşdur.

Müasir qiymətləndirməyə görə, bu gün dünyada 6 nəfərdən biri acdır, 5 nəfərdən biri tibbi xidmətdən istifadə edə bilmir, 4 nəfərdən biri savadsızdır, 3 nəfərdən biri təhlükəli ekoloji vəziyyətdə yaşayır, 2 nəfərdən biri baş verən proseslərə tam LAQEYDLİK nümayiş etdirir. Dünya əhalisinin 1%-i dünya nemətlərinin 40%-nə sahibdir. BMT-nin hesablamalarına görə bu gün dünyada 3 varlı insanın məcmu gəliri 48 ölkənin ÜDM-un cəmindən çoxdur.

Yaxud, 2004-cü ildə Avstraliya əhalisinin zibil kimi atdıqları ərzaq qalıqlarının dəyəri 4,1 mlrd. dollar təşkil edib. Bu isə 2003-cü ildə dünyanın ən yoxsul ölkələrinə (50-dən çox) humanitar yardım kimi göndərilmiş ərzağın dəyərindən 13 dəfə çoxdur. Qlobal inkişafın dəstəklənməsi məqsədilə inkişaf etmiş ölkələr inkişaf etməkdə olan ölkələrə rəsmi yardım göstərmə haqqında beynəlxalq öhdəlik götürmüşlər. BMT-nin təsbitinə görə illik rəsmi yardımın (inkişaf məqsədilə) həcmi inkişaf etmiş ölkələrin Məcmu Milli Məhsulunun 0,7%-i civarında olmalıdır. Amma, yardımın ünvanlığı problemi həll edilməmiş qalmaqdadır. Belə ki, donor ölkələr yardım göstərilən ölkənin əsas prioritet olan yaxud ən çox əziyyət çəkdiyi sferaya deyil, digər istiqamətlərə yönəldirlər. Bu aspekt – qlobal səviyyədə "ədalətsizliyin" mövcudluğu, dayanıqlı inkişaf mexanizminə ekoloji təhlükəsizlikdən heç də az təsir göstərmir.

Inkişaf – bəşəriyyətin mövcudluq formasıdır. Insan cəmiyyəti inkişaf etməyə bilməz. Əlbəttə, söhbət prosesin fasiləsizliyindən getmir. Tənəzzül – inkişafın doğurduğu hadisədir. Amma, uzunmüddət davam etdiyi halda insan yaşayışının əsaslarını dağıdır: təkcə maddi təminat sferasında problem yaratmaqla kifayətlənmir, insani dəyərlər siteminin, mənəviyyatın deqradasiyasına gətirib çıxarır. Inkişaf – insanölçülü prosesdir. Lakin, sadəcə inkişaf, abstrakt sosiuma xidmət edən inkişaf sırf təxəyyül məhsulundan başqa bir şey deyildir. Inkişaf – proses olmaq etibarilə həmişə dəyər "yüklü" olur. Dəyərlər isə öz növbəsində milli – sivil müstəvidə fərqli məzmuna malik olurlar.

Fərqliliyin gerçək məzmun daşıdığını anlamaq üçün əməyə, yaşam standartlarına və birgəyaşayış prinsiplərinə münasibətdə Cənub-Şərqi Asiya ölkələri ilə postsovet məkanında yerləşən ölkələr arasında müqayisə aparmaq kifayətdir. Fərqlər o qədər spesifik və o qədər böyükdür ki, sanki müqayisə edilən regionlar eyni planetdə deyil, müxtəlif dünyalarda yaşayırlar. Bu aspektdən A.Smitin "iqtisadi insan" abstraksiyası da yardımçı ola bilmir. Iqtisadi münasibətlər sistemi – iqtisadi proseslərin təşkili, gedişi, tənzimlənməsi və nəticələrinin interpretasiyasında əsaslı yeri və rolu olan dəyərlər kompleksinin yaratdığıdır. Inkişaf fenomeni – milli dəyərlər sisteminin yaratdığı milli iqtisadiyyata, milli varlığa aid olandır, konkretdir, milli mənsubiyyətlidir. Əks təqdirdə inkişaf səviyyəsi baxımından dünya ölkələri, hətta eyni qrupa (məsələn, inkişaf etmiş ölkələr qrupu) aid olan ölkələr arasında bu qədər fərqliliklər ola bilməzdi.

---

[1] А.Вебер. Экологическая политика: опыт изменение эффективности и цели устойчивого развития//Социологическая наука и социальная практика. №3. 2016

Şübhəsizdir ki, elmi araşdırmaların əsas məqsədi həqiqəti aşkarlamaqdan ibarətdir. Lakin, iqtisadi tədqiqatlarda bu aspekt spesifik özəlliyi ilə fərqlənir. Belə ki, iqtisadiyyatda – həqiqət normativ xarakterlidir və "necə olmalıdır" anlamını daşıyır. Və bu da məqsəddə yer alır. Yəni, gerçəkliyin həqiqi qiymətləndirilməsi o anlamı daşıyır ki, məqsəddə nəzərdə tutulan "necə olmalıdır" tələbi hansı dərəcədə reallaşmışdır. Bir məhdudiyyət də ondan ibarətdir ki, həqiqətin (məqsədin yaxud hədəfin) aşkarlanmasına (məqsədin reallaşma dərəcəsi) prosesin gedişində deyil, nəticədə nail oluna bilər. Beləliklə, iqtisadi tədqiqatlarda axtarılan şey mahiyyət (hadisə və proseslərin) və onun dəyişmə qanunauyğunluqları deyil, makrosabitlik formalaşdıra biləcək şərtlər və faydalılığın artımı imkanlarıdır.

Bununla bahəm, milli iqtisadiyyatın konseptuallığı problemi də öz həllini gözləməkdədir. Şübhə yoxdur ki, milli iqtisadiyyata həm nəzəri-metodoloji, həm də empirik səviyyələrdə yanaşmanın sistemli xarakter daşımasının alternativi yoxdur. Yalnız bu yolla dövlət → vətəndaş cəmiyyəti →bazar üçlüyündə, eləcə də iqtisadi azadlıq və sosial ədalətlilik, həmçinin iqtisadi həyatın universal → milli aspektləri, formal və qeyri-formal institutları arasında optimal uyğunluğa nail olmaq mümkündür.

Milli iqtisadiyyatın konseptual təsviri mücərrəd xarakterli nəzəri konstruksiyalar kimi yalnız və yalnız təsərrüfat sistemini (həm də yalnız makroiqtisadi səviyyədə) əhatə etmir. O, sosio-iqtisadi gerçəkliyin bütün səviyyələrini, ictimai həyatın bütün spektrini ehtiva etməklə elmlərarası sintezə söykənir. Sosial elmlər arasında bir daxili vəhdaniyyət mövcuddur. Məsələn, iqtisad elmi motivasiyanın təhlilindən, iqtisadi inkişaf pillələrinin stimulların təkamülü ilə bağlılığından davranış tərzinin sosio-psixoloji kontekstindən və s. kənarda qala bilməz.

Milli iqtisadiyyatın altsistemi olduğu cəmiyyət üzvi vəhdət halındadır. Buna görə də, iqtisadi reallığın tədqiqatı "xalis" iqtisadi formada həyata keçirilməməlidir. Ona görə ki, ən azı əldə edilən nəticələr və onların bazasında irəli sürülən interpretativ yanaşmalar birtərəfli – yarımçıq səciyyə daşıyacaqdır.

Beləliklə, bizim doktorluq dissertasiyasının mövzusu çərçivəsində apardığımız araşdırmaların bir hissəsini əhatə edən monoqrafiyada tədqiq etdiyimiz problemlərlə bağlı nəzəri ümumiləşdirmə aparmağa çalışmışıq. Monoqrafiyanın strukturu ümumi – təkcə xətti üzrə tərtib olunmuş, tədqiqat prosesinin konsepsiyası və metodologiyası eklektik səciyyə daşıyır. Eyni zamanda, kitabda yer almış bəzi mövzular üzrə müxtəlif elmi jurnallarda məqalələr dərc edilmişdir. Və, nəzəri-metodoloji aspektdən araşdırılan problemlərin Azərbaycan üzərində proyeksiyasını əks etdirəcək tədqiqat materialları növbəti monoqrafiyada öz əksini tapacaqdır.

Monoqrafiyada yer alan konseptual mühakimələrlə əlaqədar və bütövlükdə kitab haqqında fikir bildirəcək hörmətli oxuculara əvvəlcədən təşəkkür edirəm.

***MÜƏLLIF***

**Mündəricat**

**Ön söz**

**I Fəsil**. Qloballaşma prosesi: qlobal "bütövləşmə" problemi
**§1.1.** Fenomenal şərhin yetərsizliyi
**§1.2.** Qloballaşmanın konseptual məzmunu
**§1.3.** Qlobal çağırışların milli müstəvidə proyeksiyası

**II Fəsil.** Qlobal iqtisadi gerçəklik: ölkələr bölümündə qiymətləndirmə.
**§2.1.** Dünya iqtisadiyyatının inkişaf xronikası (XIX – XX əsrlər)
**§2.2.** Dünya ölkələrinin tipologiyası: kriteriya seçimi problemi
**§2.3.** Dünya ölkələrinin iqtisadi inkişaf modelləri: nəzəri xülasə

**III Fəsil.** Cəmiyyət tiplərinin təkamülü prosesi: keyfiyyət dəyişikliklərinin xarakteristikası.
**§3.1.** Modern cəmiyyət tipinin sosial-iqtisadi mahiyyəti
**§3.2.** Postindustrial təsərrüfat tipi: konseptual yozumun ziddiyyətliliyi

**IV Fəsil.** Milli iqtisadiyyatın formalaşması prosesinin nəzəri interpretasiyası.
**§4.1.** Milli iqtisadiyyat fenomeni: retrospektiv baxış
**§4.2.** Milli iqtisadiyyatda əlaqələr sistemi və sərhədlilik problemi
**§4.3.** Müasir konseptual yanaşmanın metodoloji aspektləri

**V Fəsil.** İqtisadi inkişaf konsepsiyası: vahidlik → müxtəliflik dilemması.
**§5.1.** Nəzəri baxışlarda müxtəlifliyin panoraması
**§5.2.** Təkamülçü – sinergetik paradiqmanın mahiyyət özəllikləri
**§5.3.** İnkişaf probleminə sözardı: nəzəri mülahizələr
**§5.4.** İqtisadi artım anlayışına sistemli yanaşma

**IV Fəsil.** "Milli iqtisadi inkişaf" anlayışı: dayanıqlılıq problemi
**§6.1.** Milli iqtisadi inkişaf konsepsiyası.
**§6.2.** Dayanıqlı inkişafın model identifikasiyası.
**§6.3.** İqtisadi artımla cəmiyyət tipləri arasında bağlılığın xüsusiyyətləri
**§6.4.** Dayanıqlı inkişafın ölçmə metodikası.
**§6.5.** İnkişaf prosesində problemli situasiyalar: konseptual baxış

**ƏDƏBIYYAT SIYAHISI.**

# I FƏSİL. QLOBALLAŞMA PROSESİ: QLOBAL "BÜTÖVLƏŞMƏ" PROBLEMİ

Milli iqtisadiyyatın təkamülü və inkişafı prosesinin müasir dövrü 1980-ci illərdən başlayan əsaslı keyfiyyət dəyişikliklərinin sistemli xarakter aldığı, yeni keyfiyyətdə və yeni arxitekturada dünya iqtisadiyyatının fərqli inkişaf mərhələsinə keçdiyi bir dövr kimi səciyyələndirilə bilər. Dünya ölkələri arasında son 200 il ərzində formalaşmış və modern epoxasının təməl prinsipləri üzərində qurulmuş qarşılıqlı əlaqələr sistemi, iqtisadi həyatın beynəlmiləlləşməsi prosesi tamamilə yeni məzmunlu yeni mərhələyə - qloballaşmaya transfer etmişdir. U.Bek yazır: "Müasir dövrdə heç bir ölkə, yaxud ölkələr qrupu digərlərindən ayrıla, təcrid oluna bilməz. Bütün kəşflər, qələbələr və fəlakətlər bütün dünyaya təsir göstərir".[2]

Yəni, müasir dünya o qədər "kiçilmişdir" ki, əksər sosial və sosial-iqtisadi hadisə və proseslərə yanaşmada lokal - qlobal bölgüsü, sözün tam mənasında şərti xarakter almışdır. Və bu, "kiçilmədə" əsas itkiyə qlobal əlaqələr sisteminin aparıcı faktorları olan milli dövlətlər məruz qalmışlar. Kapitalın transmilliləşməsi prosesinin əsas hərəkətverici qüvvə kimi çıxış etdiyi qloballaşma paralel şəkildə postindustrial cəmiyyət tipinin formalaşması ilə müşaiət olunmaqdadır. Qloballaşma – özünün müasir təzahür formasında sistemli yaranışa (qlobal "vahidlik") yönələn bir meqaproses olmaqla, modern erasının əsas yaranışlarından biri olan milli dövlətlərin müdaxilə və təsir gücünün kəskin şəkildə zəifləməsi, qlobal əlaqələr sisteminin primatlığının təminatı istiqamətində əhəmiyyətli irəliləyişlərə nail ola bilmişdir. Postmodern dəyərlər sisteminin qərarlaşması (sənayecə inkişaf etmiş ölkələrdə), modernin təməl prinsiplərinin "eroziyası" qloballaşmanın intensivliyinin yüksəlməsində, həqiqətən ümumplanetar, ümumbəşəri xarakter almasında əlahiddə rol oynamışdır. Iqtisadi sərhədlərin şəffaflaşması, milli iqtisadiyyatların açıqlıq dərəcəsinin yüksəlməsi, istehsal amilləri və hazır məhsulların (xidmətlərin) sərbəst miqrasiyasına maneə olan məhdudiyyətlərin aradan qaldırılması yaxud minimum səviyyəyə qədər azaldılması milli iqtisadiyyatların indi→gələcək yönümlü təkamülü və inkişafı prosesində yeni keyfiyyətli, mürəkkəb məzmunlu iqtisadi reallığın təşəkkülünə gətirib çıxarmışdır.

Milli dayanıqlı iqtisadi inkişafın qlobal səviyyədən asılılığı maksimum dərəcədə yüksəlmişdir. Onu da qeyd edək ki, qloballaşma fenomeninin əksər sferalara aidliyi bir sıra hallarda interperasiya müxtəlifliyi doğurmaqdadır.

## §1.1. Fenomenal şərhin yetərsizliyi

Qloballaşmanın həm proses, həm də nəticə aspektindən qiymətləndirilməsində, onun mənbələrinə münasibətdə formalaşan konseptual baxışların geniş diapozonu mövcuddur.

Belə ki, tarix elmi qloballaşmanı kapitalizmin inkişaf mərhələlərindən biri, iqtisadiyyat – maliyyə bazarlarının transmilliləşmə prosesi keyfiyyətində, fəlsəfə, o cümlədən sosiologiya müxtəlif ölkə və regionların əhalisinin, mədəniyyətin və bəşəri dəyərlərin universallaşması çərçivəsində, yaşam tərzlərinin yaxınlaşması təmayülü, mədəniyyətşünaslıq mədəniyyətin qərbləşməsi prosesi kimi səciyyələndirirlər. Politologiya üçün əsas hərəkətverici qüvvə demokratik institutların yayılması və intensivliyidir. Eyni zamanda, qloballaşmaya münasibətdə hissəvi yanaşmalar (məs.: informativ-texnoloji yanaşma və s.) da geniş yayılmışdır.

Ümumiləşdirmə mövqeyindən yanaşdıqda, aydın olur ki, qloballaşma neoliberal modelli bir proses olmaq etibarı ilə yuxarıda sadalananların sıx qarşılıqlı asılılıqda olduğu mürəkkəb

---

[2] У.Бек. Национальное государство утрачивает суверинитет//Сумерки глобализации. М:2004; с. 48;210

iyerarxiyalı kompleksi özündə ehtiva edir. Və, bu kompleks sahə və sferalar arasındakı struktur bərabərliyi prinsipinə söykənir. Keyfiyyət yeniləşməsinin iqtisadiyyat → mədəniyyət dilemmasına ürcah edilməsi yanılmadır. Onlardan hansının aparıcı olması – tsiklin müxtəlif fazalarında baş verən dəyişikliklərin xarakterindən asılı olmayaraq – mütləq məna daşımır. Digər tərəfdən, prosesin zamanca sürətlənməsi də sözügedən bölümdə fərqlilik yaradır. Belə ki, mədəniyyətlə müqayisədə iqtisadiyyatda keyfiyyət dəyişikliyi daha sürətli olur. Amma, sözügedən asinxronluq nə prosesin gedişində, nə də nəticəyə münasibətdə yuxarıda qeyd etdiyimiz "kompleksliliyə" elə bir təsir gücündə olmur. Başqa sözlə, təsvir etdiyimiz situasiya mahiyyətcə təkamül prosesinin gedişini özündə ehtiva edir. Eyni zamanda, kommunikativ nöqteyi-nəzərdən "kiçilmə" sosial konteksdə hansısa bir effekt yaratma gücündə deyildir.

Qloballaşma prosesi dərinləşdikcə, ona yanaşma tərzləri də yenilənir. Məsələn, M.Fridmen ilkin olaraq qloballaşmanı – azad kapitalist bazarı daxilində texnologiya və maliyyə sferasının qlobal səviyyəli inteqrasiyası kimi müəyyənləşdirirdi.[3] Sonrakı araşdırmalarında isə dünyanın kompaktlığının təminatı aspektindən bazarların, texnologiya və telekommunikasiya sistemlərinin "sıxılması"ndan bəhs edirdi.[4]

Digər qrup tədqiqatçıların fikrincə (G.Qelbreyt, A.Toynbi, S.Amin və s.) qloballaşma – kapitalizmin sistem böhranının nəticəsi və dünya maliyyə oliqarxiyasının ekspansiyasıdır. Məqsəd qlobal səviyyəli siyasi və iqtisadi proseslər üzərində nəzarətə sahib olmaqdan ibarətdir.[5]

Tədqiqatçıların böyük əksəriyyətinin ümumi olan mövqeyi ondan ibarətdir ki, qloballaşmanı ictimai həyatın hər hansı bir sferası ilə bağlamaq yalnışlıqdır. Qloballaşma "...təkcə təsərrüfat, yaxud maliyyə, iqtisadi fenomen deyildir. Qloballaşma – bəşəriyyətin əhəmiyyətli hissəsinin sosial, mənəvi və siyasi həyatına birbaşa, yaxud dolayısı ilə təsir göstərən proseslər məcmusudur".[6]

M.Listopad haqlı olaraq, qeyd edir ki, qloballaşma prosesində əsas olan cəhət – postindustrial iqtisadiyyatın formalaşma və inkişafının ilkin – mahiyyət qanunauyğunluğu milli dövlətlərdə deyil, qlobal səviyyədə təşəkkül tapmışdır.[7] Qlobal qanunauyğunluqların ilkinliyi o deməkdir ki, ölkələrarası qarşılıqlı əlaqələr və qarşılıqlı təsir ikinci, törəmə xarakteri kəsb etməyə başlayır.

Tədqiqatçıların böyük bir qrupu (P.Druker, A.Neklessa,Q.Bruner, A.Libman və s.) qloballaşmanı dünya inteqrasiya proseslərinin inkişafı və iqtisadiyyatların açıqlıq dərəcəsinin artması prosesi kimi səciyyələndirirlər.[8] Eyni zamanda, yanaşma tərzinin sadəliyinə baxmayaraq, onun mürəkkəb, ziddiyyətli, çoxamilli və çoxlaylı hadisə olduğunu da inkar etmirlər.

Amma, "qapalı" inteqrasiya bloklarının yaranması və inkişafı qloballaşma prosesinə yalnız mənfi yönümlü təsir göstərir.

Qloballaşmanın tarixi aspektindən də vahid yanaşma yoxdur:

1) Ən qədim dövrlərdən, bəşər tarixinin yarandığı andan mövcuddur;
2) Modernizmin doğurduğu yaranışdır;

---

[3] Л.Туроу. Процес становления глабальной экономии. Мировая экономика и международные отнашения.1998. №4, стр.134

[4] M.Freedman. Frec to Choice. №4.1980. p.198

[5] В.Н.Малейченко. Глобализация как выражение системного кризиса капитализма. Глобализация и проблемы экономического развития. Россия Россия.М:2002; с.80

[6] Дилеммы глобализации. Социумы и цивилизации: иллюзий и риски. М:1992; с.11;10

[7] М.Е.Листопад. Проблемы постиндустриальной трансформации национального хозяйства в глобальном экономическом пространстве. Проблемы современной экономики. №4. 2008. с.36

[8] Е.Л.Драчева, А.М.Либман. Проблемы глобализации и интеграции международного бизнеса и их влияние на российскую экономику. Маркетинг в России и за рубежом. 2005. №7, с.15-17

3) Ən yeni tarixin – postindustrial eranın məhsuludur.[9]

Birinci yanaşma, ümumiyyətlə, heç bir elmi tənqiddə dözmür. Bəşəriyyətin zooloji sürüdən ibtidai icmaya keçidi ilə başlanan təkamül prosesi doğurdanmı qloballaşma təmayülü ilə müşayiət olunmuşdur? Belə bir tarixi fakt mövcud deyildir.

Bəşər tarixi – ümumiləşmə, eyniləşmə deyil, parçalanma, lokallaşma, fraqmentallaşma tarixidir. Hətta, imperiyalar dövrünü belə bütövləşmə kimi (obyektiv xarakterli) qəbul etmək yalnışlıq olardı. Belə ki, qeyd edilən aspektdə bütövləşmə süni yanaşma olmaqla, konkret zaman sərhədlərində mövcud olmuşdur. Bununla belə, tədqiqatçıların böyük əksəriyyəti tarixçilik mövqeyində qalmaqla, qloballaşmanın yeni yaranış olmadığını göstərirlər. Məsələn, V.Tolstıx yazır ki: "...obyektiv bəşəri tarix həmişə vahid olmuş... Hansısa bir mənada dünya həmişə qlobal olmuşdur"[10]

Q.Pomerans qeyd edir ki: "...qloballaşma bu gün başlamamışdır. Mən, bu anlayışa vahid tarixi-dini proses çərçivəsində yanaşıram"[11]

Bu prizmadan formalaşdırılan yanaşma daha çox teokratik səciyyə daşıyır:

- Əvvəli eyniyyətdə olanın sonu da eyniyyətə gələcəkdir!

Verifikasiyasi mümkün olmayan, ehramçı məzmun daşıyan tezis, digər tərəfdən, heç də o anlama gəlmir ki, vahidləşmə prosesi (yəni, qloballaşma) çox qədim tarixi köklərə söykənir.

Bizim fikrimizcə, qloballaşmanın tarixi ilə bağlı irəli sürülən ikinci yanaşma konseptual aspektdən yetərsiz hesab olunmalıdır. Modernizm iqtisadiyyata "özündə inkişaf" kimi yanaşır. Yəni, iqtisadi proses həmişə yüksələn xətlə gedir, tərəqqi istiqamətlidir, inkişaf – dünya iqtisadiyyatının əsas qanunudur və s. Düzdür, iqtisadi həyatın milli sərhədlərdən kənara çıxışının sistemlilik keyfiyyəti məhz modern erada, industrial təsərrüfat tipində meydana çıxmışdır. Amma sözügedən sistemli çıxış (təkrar istehsal prosesinin bütün fazaları üzrə) məzmunca iqtisadi həyatın beynəlmiləlləşməsi demək idi. Beynəlmiləlləşmə qloballaşma deyil, ümumplanetar məzmun daşımır və heç bir halda eyniləşmə, vahidləşməni özündə ehtiva etmir. Milli dövlətlər əsas aktorlar kimi fəaliyyətlərini davam etdirirlər. Tamamilə müxtəlif dəyərlər sisteminə, inkişaf səviyyəsinə, iqtisadi potensiala, müxtəlif məqsədlərə malik olan ölkələr çoxluğu nəinki vahidləşməni, hətta hər hansı bir formada qlobal universumu belə formalaşdıra bilməzlər. Ən yaxşı situasiyada regional çərçivəli ümumi bazar meydana çıxa bilər. Və, ümumi bazarı yaradan prosesi (maksimum nəticə keyfiyyətində) qloballaşma kimi səciyyələndirmənin əsaslandırma tipi mövcud deyildir.

Digər tərəfdən, məlumdur ki, dünyanın aparıcı iqtisadiyyatlarında tip dəyişkənliyi – industial eradan posindustrial dövrə keçid – 1960-cı illərdən start götürmüşdür. Və, yalnız 1980-ci illərin əvvəllərində "qloballaşma" anlayışı elmi dövriyyəyə daxil edilmişdir...

Biz, hesab edirik ki, qloballaşma – "1980-ci illərin əvvəllərində neoliberal ideologiyanın triumfu ilə başlamış, yəni postmodern, postindustrial yanaşmaların "məhsuludur".[12]

## §2.2. Qloballaşmanın konseptual məzmunu

1980-ci ildən başlayaraq bu günə qədər aparılan elmi tədqiqatlarda qloballaşma fenomeninin mənbəyi, strukturu, qanunauyğunluqları və sosial-iqtisadi, eləcə də siyasi nəticələri ilə bağlı yekdil fikir formalaşmamışdır. Konseptual baxışların dəyişmə diapozunu hədsiz

---

[9] M.Waters. Globalization.L.№4.1995. p.4
[10] В.И.Толстых. Глобализация в социокультурном изменении. Труды фонда Горбачова. Т.7. М:2000. стр.220
[11] Г.С.Померанц. Культ этики или диалог культур? Материалы семинара Клуба ученых. Вип.6. М:2001. стр.103
[12] R.Cilpin. The political economy of international reeations. Princeton.1987

dərəcədə genişdir: qloballaşmanın inkarından tutmuş onun mütləqləşdirilməsinə qədər (bax. Şəkil 1.1.)

Apardığımız araşdırmalar göstərir ki, interpretasiya müxtəlifliyinə baxmayaraq, konseptual yanaşmaların hissəvi olaraq üst-üstə düşdüyü nüanslar da mövcuddur. Belə ki, qloballaşmanın qeyri-xətti və müxtəlif istiqamətliliyi, çoxölçülü olması, ziddiyyətliliyi və s. bu qəbildən olan keyfiyyət xarakteristikaları aspektindən əsaslı fərqlilik müşahidə edilmir.

Qloballaşma prosesinin xarakterik cəhətləri sırasında qeyri-xəttilik və diskretlik keyfiyyətlərinə istinad tarixçilik mövqeyindən yanaşmanın əsas çıxış nöqtəsi kimi götürülür. Hesab edilir ki, qloballaşma ayrı-ayrı "dalğaların" növbələşməsi prosesidir. Məsələn, T.Terborn qloballaşmanın 6 böyük tarixi "dalğa"sını fərqləndirir. Birinci dalğa bizim eradan əvvəl IV-VII əsrlərdə (dinin yayılması) başlamışdır. Onun fikrincə, bu dalğalar müəyyən zaman kəsiyi ərzində mövcud olmuş, sonra dayanmış və "əks-qloballaşma" prosesi başlanmışdır.[13]

Lokal sivilizasiyaların növbələşməsi prosesi eyni ilə qloballaşmaya şamil edilir. Bu "dalğalar" arasında təkamül nöqteyi-nəzərindən hansısa bir bağlılıq olmuşdurmu sualına isə konkret cavab verilmir. E.Toffler isə 3 dalğanı fərqləndirir**:**

1) Birinci dalğa: istehlakçı iqtisadiyyatdan istehsal iqtisadiyyatına keçid;
2) İkinci dalğa: ənənəvi cəmiyyətdən industrial cəmiyyət tipinə keçid;
3) Üçüncü dalğa: qloballaşma-bəşəriyyətin prinsipcə yeni inkişaf mərhələsinə keçidi.[14]

Əslində birinci və ikinci dalğalar cəmiyyətin və iqtisadiyyatın tip dəyişkənliyini ehtiva edirlər. Bu dəyişkənliklərin müasir anlamda qloballaşma ilə əlaqələndirilməsinin, əsaslandırma tipi məlum deyildir. Y.Yakovesə görə: "...Qloballaşma prosesi heç də yeni bir şey deyildir... Lokal sivilizasiyalar arasında hansısa bir formada əlaqə və bağlılıqlar olmuşdur...Bu mənada qloballaşma tarixi prosesdir.[15] Və, sadəcə olaraq, XX əsrin sonlarında bu proses daha çox intensiv xarakter almağa başlamışdır. "Dünya – sistem" nəzəriyyəsi də qloballaşmanın 3 mərhələsi yaxud "dalğa"sını fərqləndirir. Çıxış nöqtəsi 1450-ci ildən başlanır. Yəni, qloballaşmanın antik dövrə aidiyyəti olmadığını ortalığa qoyur.[16]

---

[13] Г.Терборн. Глобализация и неравенство (фрагмент). Сумерки глобализации.М.2004; С.80
[14] Э.Тоффлер. Третья волна. М:2004
[15] И.Воллерстайн. Конец знакомого мира. Социология XX века. М:2004; с.82
[16] D.Held, A.McGrew: Global transformations. Combriedge, 1999, p.49




***Şəkil 1.1. Qloballaşmaya konseptual baxışların əsas istiqamətləri.***
***Mənbə: müəllif tərəfindən tərtib olunmuşdur.***

Beləliklə, qloballaşma fenomeninə yanaşma tərzlərini aşağıdakı kimi qruplaşdıra bilərik:

1. Yeni hadisə deyil, bəşəriyyətin inkişaf tarixinin bütün mərhələlərində müxtəlif formalarda təzahür etmişdir;
2. Modern erasının yaranışıdır. Beynəlmiləlləşmə prosesinin müasir mərhələsidir;
3. Tamamilə yeni yaranışdır. Hər hansı bir tarixi analoqu mövcud deyildir.

B.Badi qloballaşmanın üç ölçü kriteriyasını fərqləndirir:[17]

1. Qloballaşma - uzun tarixi dövr ərzində inkişafda olan tarixi prosesdir;
2. Qloballaşma – dünyanın homogenləşməsi, universallaşma, eyni standartlara (dəyər anlamında) keçiddir;
3. Qloballaşma – sürətlə genişlənməkdə olan qarşılıqlı aslılığın daha da güclənməsi, milli dövlətlərin müstəqilliyinin itirilməsi, trans-milli idarəetmə strukturlarının yaranması prosesidir.

Qloballaşma proseslərinin konseptuallaşma istiqamətləri və prinsiplərinin təsnifatı D.Xeld tərəfindən də aparılmışdır. Qloballaşmanın məna tutumuna və gələcəyinə münasibətdə üç istiqamət fərqləndirilir: skeptik, hiperqloballaşma və transformasiya.[18]

Prosesin konseptuallaşma yönümlərinin nəzəri tədqiqi belə bir nəticəyə gəlməyə imkan verir ki, qloballaşma - bir proses olmaq etibarı ilə ikili məzmun daşıyır: Bir tərəfdən, iqtisadi, siyasi, sosial və mədəni əlaqələrdə qarşılıqlı asılılığı genişləndirir və gücləndirir, digər tərəfdən isə cəmiyyətin müxtəlif fəaliyyət sferalarında disproporsiyaların dərinləşməsinə və böhranlı situasiyaların yaranmasına şərait yaradır. Hətta, o dərəcədə ki, R.Robertsonun qeyd etdiyi kimi: "...Qloballıq – mahiyyətcə müasir dünyanın labüd probleminə" çevrilir.[19]

Həqiqətən də, qloballaşma prosesi müasir dünyanın reallığına çevrilmiş və məntiqi aspektdən labüdlük keyfiyyəti əxz etmişdir. Əvvəlcədən də göstərdiyimiz kimi prosesin labüdləşməsində postmodern dəyərlərin rolu həlledici əhəmiyyət kəsb etmişdir. Amma, sırf nəzəri-metodoloji rakursdan bəşəriyyətin qloballaşma prosesindən gözlədiklərini ala bilməsi ehtimalının bu gün də birmənalı qiymətləndirilməsi problemi açıq qalmaqdadır. Məntiqi baxımından heç bir şübhə doğurmayan bir həqiqət mövcuddur ki, bəşəriyyətin sağlam gələcəyi,

---

[17] Дилеммы глобализации. Социумы и цивилизации: иллюзий и риски. М:1992; с.11;10
[18] D.Held, A.McGrew: Global transformations. Combriedge, 1999, p.49
[19] R.Robertson. Globality, global culture, and images of world. Haferkamp and smelser.1992.p.400

daha dəqiq ifadə etsək – xilas yolu dünyanın bütövləşməsindən qlobal inteqrativ bağlılıqların formalaşmasından keçir. Bununla belə, bugünki dünyanın daxili müxtəlifliliyi (bütün parametrlər üzrə), sosio-iqtisadi və sosio-mədəni aspektlərdən qlobal səviyyəli identifikasiyası problemlərinin mövcudluğu qloballaşmanın arzu edilən nəticə ilə yekunlaşacağına böyük şübhələr yaradır. Müxtəlif cəmiyyət tiplərində yaşayan dünya ölkələrinin ümumiməxrəcə gəlməsi, yaxud gətirilməsinin, hətta alınacağı təqdirdə belə çox uzunmüddətli vaxt intervalı tələb edir. Yəni, bu problemin yaxın gələcəkdə (20-30 il) həlli imkanları mövcud deyildir.

Şəkildə əks etdirdiyimiz spesifik özəlliklərə nəzər yetirmək kifayətdir ki, söz açdığımız problemin, həlli mümkünsüz olanlar sırasında yer aldığını anlaya biləsən.

Ənənəvi cəmiyyət tipində yaşayan ölkələrin hər hansı bir formada qloballaşma prosesinə qoşulması imkanları həddən artıq məhduddur. Bəzi fərqli nüansları istisna etməklə eyni vəziyyəti dini cəmiyyətlərə də aid etmək olar. Ən azı ona görə ki, mental dəyərlər sisteminin qapalı saxlanması həmin cəmiyyətlərin varoluşunun əsas şərtidir. "Qapalı" ifadəsi tam şəkildə təcrid olunma anlamında başa düşülməməlidir. "Qapalılıq" – yalnız yabançı dəyərlərin "idxalına" qarşı dayanma üsuludur. Özünəxas dəyərlərin "ixracı" yolu nəinki açıqdır və heç bir məhdudiyyət tətbiq olunmur, əksinə, prosesin (dəyərlərin "ixracı") hərtərəfli stimullaşdırılması və dəstəklənməsi həyata keçirilir. Amma, bir məqamı da qeyd etmək lazımdır ki, dini cəmiyyətlər – yəni dövlət quruluşu, rəsmi dövlət ideologiyası və hüquq sistemi dini ehkamlar üzərində qurulan ölkələr yalnız islam dünyasındadır. (cəmi 13 ölkə)




***Şəkil 1.2. Ayrı-ayrı cəmiyyət tiplərinin qloballaşma prosesində iştirakının anatomiyası.***

O da məlumdur ki, dini dəyərlər sistemi qloballaşma prosesində - həmin dəyərləri "qloballaşdırmaq aspektində" – aktiv şəkildə iştirak etməkdə israrlıdır. Lakin, qlobal ümumilik –

mahiyyət etibarı ilə birtərəfli yox, çoxtərəfli və qarşılıqlı proseslərin üzvi bağlılığından formalaşa bilər.

Qloballaşmanın – bir proses kimi əsas fərqli xüsusiyyətləri modern və postmodern arasındakı fərqliliklərdən doğur. Belə ki, qloballaşmanın industrial cəmiyyət dövrünün həm gedişi, gözləntiləri, həm də məqsədi növbəti postindustrial dövrdən əhəmiyyətli dərəcədə fərqlənir. Belə ki, modern erasında qloballaşma – homogen dünyanı formalaşdırmalı və yekun olaraq ümumrifah dövləti yaratmalı idi. Yəni, əsas məqsəd – ümumbəşəri rifahı yüksəltməkdən ibarət olmuşdur. Postindustrializmdə isə belə bir "altrurizm" müşahidə olunmur.

Postindustrial qloballaşmanın əsas məqsədi – ümumbəşəri azadlıqdır. Və, eyni zamanda, prosesin gedişini milli dövlətlər deyil, şəbəkə sistemi (transmilli) tənzimləyir. Dünya daha da mürəkkəbləşir, heterogen mahiyyət ön planda tutulur. Qlobal səviyyədə əsas fiqur kimi, sosium yaxud dövlət deyil, individ çıxır edir. Yəni, ümumbəşəri səviyyədə məqsəd dəyişikliyi baş verir: rifah azadlıqla əvəz olunur. Və, hesab edilir ki, azadlıq – rifahın əsas şərti və mənbəyidir.

Eyni zamanda, cəmiyyət tiplərinin yaxud ayrı-ayrı ölkələrin qloballaşma prosesinə qoşulmasında sürət fərqliliyi mövcuddur. Ənənəvi cəmiyyət tipi ilə bağlı bu məsələnin gerçək mahiyyətini yuxarıda qeyd etmişik. Qoşulmanın sürət fərqliliyi bir sıra amillərlə izah oluna bilər:

1) Cəmiyyət tipinin qərarlaşma (ölkədə) tipinin qeyri-adekvatlığı: Məsələn, dünya ölkələrinin, daha konkret desək, inkişaf etməkdə olan ölkələrin əksəriyyəti modern epoxasındadırlar. Lakin, bu ölkələrin heç də hamısında modernləşmə prosesi tam şəkildə yekunlaşmamışdır. Bu aspektdən 3 qrupu fərqləndirmək olar: a) "Hibrid" cəmiyyətlər – modern yeniləşmə ilə ənənəvi cəmiyyətin bir sıra elementlərinin "simbiozu"; Ənənənin hələ də dominant mövqedə olması; İndustrial təsərrüfat tipinin sistemli şəkildə qərarlaşmaması; Ayrı-ayrı "anklavlar"-ın mövcudluğu; b) Modern erasında olan, lakin prosesin müxtəlif aspektlərində yeniləşmə keyfiyyətinin paralel şəkildə getmədiyi (məsələn, siyasi azadlıqlar formalaşıb, lakin iqtisadi azadlıqlar ciddi məhdudiyyət çərçivəsindədir, yaxud əksinə), sistemsizliklə qarşılaşan ölkələr; c) modernləşmə prosesinin başa çatdığı və podtmodernizmə keçid "sərhəd"dində olan ölkələr;

Bu gün 230 ölkədən tam şəkildə qloballaşma prosesinə qoşulanların sayı 65-70 civarındadır.

2) Ölkələr arasında iqtisadi gücün qeyri-bərabər bölgüsü. Bu prizmadan aydındır ki, iqtisadi gücü böyük olan ölkələr nəinki daha sürətlə qloballaşmaya qoşulurlar, həm də bu prosesin "ayrı qaydalarını" müəyyənləşdirirlər.

3) Və, nəhayət geosiyasi və geoiqtisadi mövqelərin əlverişsizliyi qloballaşma prosesinə qoşulmada, təbii olaraq ləngli k doğurur.

Eyni zamanda, qloballaşma "dalğa"larının növbələşməsi gerçəkliyini, yaxın gələcək aspektində, məzmun və məqsəd nöqteyi-nəzərindən dəyişməsinin ehtimallı proqnozunu da vermək olar.

Şəkildən də göründüyü kimi, dalğaların dəyişmə, yeniləşmə proqnozu, çox tünd optimist ovqatla verilmişdir. Yəni, pessimist yanaşmada bunların tam əksi də ola bilər.




*Şəkil 1.3. Qloballaşma dalğalarının inkişaf (yeniləşmə) proqnozu.*

Amma, müasir qlobal gerçəklik – qlobal problemlərin kəskinləşməsi – insanlığın gələcəyi üçün bugün, yubanmadan ümumbəşəri səyləri birləşdirməyi və ictimai həyatın bütün sferalarında dayanıqlılığın təminatı üçün intensiv şəkildə çalışmağı tələb edir. Planetin ümumekoloji vəziyyətinin getdikcə pisləşdiyi bir situasiyada geridönüşü yaxud bərpası mümkün olmayan proseslərin kütləvi hal aldığı anda artıq hər şey cox gec ola bilər!

## §1.3. Qlobal çağırışların milli müstəvidə proyeksiyası.

Müasir qloballaşma prosesi milli → qlobal səviyyələr arasındakı münasibətlər sistemini kardinal şəkildə dəyişikliyə uğratmışdır. Belə ki, əvvəlki paraqraflarda da qeyd etdiyimiz kimi, industrial qloballaşma dalğasının əsas hərəkətverici qüvvəsi olan milli dövlətlər müasir şəraitdə, yəni postindustrial qloballaşmanın intensiv şəkildə davam etdiyi bir situasiyada öz dominant mövqelərini itirmiş və arxa plana keçmişlər. Bir sözlə, mahiyyət aspektindən – qloballaşma A.Smitin "iqtisadi insanını" hakimiyyətə gətirmişdir. Başqa sözlə, qlobal səviyənin, qlobal səviyyədə formalaşmış münasibətlər kompleksinin, "oyun qaydalarının" milli dövlətlərlə funksional bağlılığı qırılmış, qlobal sistem "müstəqilləşmiş", həmin statusda da öz varlığını, mövcudluğunu davam etdirməkdədir.

Belə bir şəraitdə, aydındır ki, qlobal gerçəkliyin dəyişdirilməsi, milli iqtisadiyyatların mənafelərinə cavab verə biləcək yeni dəyər tutumuna malik yeni sistemin formalaşdırılması mümkünsüz görünür. Bunun üçün ən azı qlobal inkişaf paradiqmasının neoklassik yozumundan əl çəkmək gərəkir. Amma, əvvəla müasir gerçəklik, dünya ölkələrinin müasir inkişaf səviyyəsi yetərli deyil, ikincisi, bugün aparılması zəruri hesab edilən paradiqma yeniləşməsi (birinci səbəbə görə) dünya iqtisadiyyatının çöküşü ilə nəticələnə bilər.

Beləliklə, geriyə yeganə yol qalır: qlobal iqtisadi sistemə adaptasiya olunmaq! Bəribaşdan, qeyd edək ki, dünya iqtisadiyyatına adaptasiya olma mexanizminin vahid resepti yoxdur. Ayrıca götürülmüş milli iqtisadiyyatın yaxud cəmiyyətin sosio-iqtisadi tipi və inkişaf səviyyəsi oxşar olan ölkə qrupunun özünəxas adaptasiya mexanizmi mövcuddur.

Metodoloji aspektdən hesab edirik ki, adaptasiya mexanizminin dünya iqtisadiyyatına effektiv inteqrasiya və yalnız bu çərçivədə formalaşdırılması uzunmüddətli dövr ərzində strateji məqsədlərə nail olma imkanları yaratmayacaqdır. Effektivlik – az ya çox olmasından asılı olmayaraq hər şeydə - bütün fəaliyyət sferalarında aramsız olaraq müsbət nəticəliliyi hər şeydən üstün tutan anlayışdır.

Başqa sözlə, rəqəmlərlə işləyən, kəmiyyət çoxalmasını həlledici sayan anlayışdır. Amma, məlumdur ki, inkişaf – bir proses kimi keyfiyyətə önəm verir və bu prosesin gedişində (məsələn, struktur dəyişiklikləri zamanı) mənfi effektlə də qarşılaşa bilir. Bu anlamda, ölkənin qlobal iqtisadi sistemə adaptasiya mexanizmi konseptual olaraq strateji "yüklü" olmalı, "indi" ilə "gələcək" arasında imkan və potensialın bərabər yaxud ədalətli bölgüsünü aparmağa, qısaca olaraq dayanıqlılığın uzunmüddətli təminatına şərait yaratmalıdır. Ümummilli mənafelər nöqteyi-nəzərindən "indi" və "gələcək" ayrı-ayrılıqda olan zamanlar (dövrlər) deyil, üzvi vəhdətdə birləşmiş ictimai həyat yoludur. Industrial dövrdə (qloballaşma aspektində) dünya iqtisadiyyatına inteqrasiya yaxud qovuşmanın adaptasiya mexanizmi nisbətən sadə, "görünən" və proqnozlaşdırılması mümkün olanlar sırasında idi: milli iqtisadiyyat sabit, dünya iqtisadiyyatı asılı dəyişən – funksiya kimi çıxış edirdi. Yəni, milli iqtisadiyyat "qloballaşırdı"!

Indiki dövrdə isə arqumentlə funksiyanın yeri dəyişib: qloballıq "milliləşir". Birinci halda, milli iqtisadiyyatların inteqrasiya forma və səviyyəsini seçmə imkanları vardı. Müasir dövrdə belə imaknlar yoxdur. Inteqrasiya aspektindən yaxud inteqrasiyaya təhrik etmə yönümündə qlobal sistemin milli iqtisadiyyatlar üzərində güclü pressinqi mövcuddur.

Beləliklə müasir qloballaşma – çoxfaktorlu sinergetik proses olmaqla iqtisadi, maliyyə, informasiya – kommunikasiya şəbəkələrini qlobal səviyyədə "bütövləşdirir" və yekun etibarı ilə ümumplanetar inteqrasiyanın qərarlaşması yolundakı maneələri aradan qaldırır. Bu o deməkdir ki, regional və milli səviyyələrdə gedən oxşar proseslərdə məkanın "sıxlaşdırılması"nın qlobal səviyyədə proyeksiyası həyata keçirilir. Ona görə də, müxtəlif "kalibrli" amillərin təsir gücü və miqyası ənənəvi situasiyadan kardinal şəkildə fərqlənir. Hətta, adətən ən əhəmiyyətsiz hesab edilən bir amilin qlobal səviyyədə özünü "necə" aparacağı əvvəlcədən "görünmür". Eyni zamanda, sivilizasiyanın səviyyələri, ayrı-ayrı altsistemləri arasındakı natarazlıq, sosial bərabərsizlik və s. effektləri mahiyyətcə, elə qloballaşmanın bir meqaproses kimi doğurduğu neqativ effekt formasında təzahür edirlər. İnkişaf nöqteyi-nəzərindən ən böyük problemlərdən biri elə sıx qarşılıqlı bağlılıqda olanların doğurduğu neqativ effektlərdən hansının daha önəmli olması problemidir. Yəni, seçim problemidir. Seçimi müşkülə salan məsələ isə sözügedən bağlılığın sinergetik effekt doğurmasıdır.

Milli → qlobal qarşılıqlı münasibətlərinin hansı səviyyədə olduğunu, strateji məzmun kəsb edib – etmədiyini göstərən əsas amillərdən biri prosesdə hansı modeldən istifadə olunması məsələsidir. (şəkil 1.4.)

Şəkildən də göründüyü kimi qlobal “bütövləşmə” dalğalarının hər biri model seçimi baxımından fərqli məzmun daşıyırlar. Beynəlmiləlləşmə dövrü – bir qayda olaraq, beynəlxalq tədavül sferasında ölkələr arası qarşılıqlı bağlılığın gerçəkləşməsi məqsədini ön planda tuturdu.




***Şəkil 1.4. Milli iqtisadiyyatların qlobal səviyyə ilə bağlılığının təkamül aspektindən interpretasiyası.***

Hətta real sektor çərçivəsində yaranan “birgəlik”də əsasən tədavül yönümlü olur, milli iqtisadiyyatlar arasında hansısa bir formada inteqrativ bağlılıq doğurmurdu. Eyni zamanda, bu proses – heç bazarların “birləşməsini” belə ehtiva etmirdi. Prosesin əsas ağırlıq mərkəzi ölkələrin beynəlxalq tədavül sferasında qarşılıqlı ticarət aparma imkanlarının yaradılması üzərinə düşür və hansısa şəkildə yeni qlobal yaranışın meydana çıxmasına istiqamətlənməmişdir. Buna görə də, milli iqtisadiyyatların xarici iqtisadi fəaliyyəti ya “təchizat - satış”, ya da “ticarət – vasitəçilik” modelləri əsasında həyata keçirilirdi.

Müasir qloballaşma prosesində ənənəvi yanaşma üsullarının əksəriyyəti, o cümlədən yuxarıda qeyd etdiyimiz makro – modellər yarasız hala gəlir. Düzdür, inkişaf etməkdə olan ölkələrin böyük əksəriyyətində ticarət modelləri hələ də tətbiq edilməkdədirlər. Sübüt etməyə ehtiyac yoxdur ki, belə şəraitdə milli iqtisadiyyatın qlobal iqtisadi sistemə inteqrasiyası heç bir halda strateji səciyyə daşıya bilməz. Bu halda ölkələrin xarici iqtisadi fəaliyyətdən əldə etdiyi fayda yalnız ticarət uduşları formasında təzahür edir ki, onun da daimiliyi qətiyyən mümkün deyildir.

Ənənəvi yanaşmaları geoiqtisadi fəaliyyətlə əvəzləmədən dövrün əsas modeli olan istehsal – investisiya modelinə keçid mümkünsüzdür. Bunun üçün əsas baza real sektorun sərhəd

– xarici məkana sistemli çıxışı, beynəlxalq təkrar istehsal tsikllərinə qoşulmaq, dünya gəlirinin formalaşması və bölgüsü prosesində aktiv iştirak və yekun olaraq ölkənin “ölkə - sistemə” transferi gərəkir. “Ölkə - sistemə” transfer – ölkənin regionlaşması, transregionlaşması və qloballaşması deməkdir. Söhbət açdığımız keçid mürəkkəb islahatlar kompleksinin tətbiqi əsasında baş tuta bilər. Geoiqtisadi fəaliyyətin ənənəvi xarici iqtisadi fəaliyyətlə müqayisədə böyük üstünlükləri vardır.




***Şəkil 1.5. Klassik və geoiqtisadi yanaşmaların mahiyyət fərqliliyi***

Göründüyü kimi, yanaşmalar arası dəyişiklik kardinal formadadır. Digər tərəfdən, keçid qaçılmaz zərurətdir. Belə ki, qloballaşma prosesi dərinləşdikcə milli dövlətlərin müstəqilliyini təhdid edən çoxlu sayda problemlər meydana çıxır. Sosio-iqtisadi inkişafla müstəqillik arasında ziddiyətli nisbətlər yaranmağa başlayır. Bu halda ura – patriotizm mövqeyindən nəyin bahasına olursa – olsun müstəqilliyin hər hansı dərəcədə məhdudlaşdırılması zərurətini inkar etməkdənsə, xarici iqtisadi fəaliyyəti geoiqtisadi müstəviyə keçirmək və bununla da sivil qaydada milli təhlükəsizliyi qorumaq mümkündür. Lakin, geoiqtisadi yanaşmaya keçid o qədər də asan məsələ deyildir.

Bunun üçün:

1) Ölkədə kapitalın transmillliləşməsi və bu sferada fəaliyyət göstərmək iqtidarında olan iri şirkətlərin yaradılması lazımdır;
2) Geoiqtisadi klasterlərin təşkili;
3) Geoiqtisadi rəqabətin institutsional təminatı;
4) Inteqrasiya proseslərinə strateji hədəflər prizmasından qoşulma və s.

Bu sadalanları ilkin şərt kimi qəbul etmək lazımdır. Gözlənilən qlobal “dalğanın”gətirəcəkləri, məcmu halda dünyanın yenidən doğuşu, yeni dünyanın yaranmasını şərtləndirəcək. Dayanıqlı inkişafa keçidin zəruriliyi, gec ya tez, qlobal inteqrativ bağlılığın gerçəkləşməsinə, dünyanın “vahidləşməsinə” səbəb olacaqdır.

Belə bir şəraitdə artıq neoiqtisadi makromodelə ehtiyac yaranacaqdır. Qısa məzmunu ilə söhbət həyat (yaşam) keyfiyyətinin təkrar istehsal tsiklləri modelindən gedir. Bu modelin tam gücü ilə işləməsi üçün isə ümumbəşəri səviyyədə dəyərlərin inteqrasiyası baş verməlidir. Həm sistemin (milli və qlobal), həm də inkişafın dayanıqlığına nail olmanın alternativ yolu, sadəcə olaraq yoxdur.

Beləliklə, Iqtisadi qloballaşma – nə hansısa bir mexanizm, nə də hansısa bir “özündə hərəkət” deyildir. O, transmilli korporasiyaların və onların yaratdıqları institut və koalisyaların

həyatda keçirdiyi siyasi layihədir. Və, bu siyasət bütünlüklə neoliberalizmə istinad edir.[20] Bu anlamda, qloballaşmanın subyekti yaxud subyektləri ilə bağlı aydın təsəvvürün olmaması və onun «simasızlığı” heç də paradoksal səslənmir. Bu aspekt qloballaşmanı subyektiv amildən asılı olmayan təbii hadisə kimi səciyyələndirmək imkanı verir. Amma hesab edirik ki, qeyd edilən “təbiilik” sözün müəyyən mənasında qondarmadır yaxud subyektiv “təbiilikdir”. Yəni, qloballaşma prosesində spontanlıq elementlərinin təsir gücü çox aşağı səviyyədədir. Qloballaşma – şüurlu şəkildə yönəldilən, subyektiv amilin dominant mövqedə olduğu bir prosesdir.

İqtisadi qloballaşmanı milli təsərrüfatlararası qarşılıqlı asılılığın güclənməsi prosesi kimi xarakterizə etmək, onu beynəlmiləlləşmə ilə eyniləşdirmək, prosesin konseptual məzmunu və perspektiv nəticələrinə industrial eranın təməl prinsipləri mövqeyindən yanaşmaq deməkdir. İndustrial dövrün yaranışı olmaq etibarı ilə milli təsərrüfatlar tamlıq, bütövlük keyfiyyətinə malik olan müstəqil sistemlər kimi çıxış edirlər. İqtisadi həyatın beynəlmiləlləşməsi prosesi, hətta sözün müəyyən mənasında, təsərrüfatlararası qarşılıqlı asılılığın güclənməsi belə sözügedən milli bütövlüyü pozmur, iqtisadi inkişafın məntiqi nəticəsi olaraq, onun, yəni, inkişafın uzunömürlüyünə dəstək verən amil rolunu oynayır. Beynəlmiləlləşmə - milli səviyyənin primatlığına elə bir xələl gətirmir. Milli dövlətlər – yenə də qlobal səviyyədə əsas aktorlar kimi çıxış edirlər. Eyni zamanda, empirik faktların təhlili göstərir ki, qarşılıqlı asılılıq deyilən bir şey əslində qlobal səciyyə daşımır. Yaxud, daşıyır – yalnız inkişaf etmiş ölkələr arasında mövcuddur. İnkişaf etməkdə olan ölkələr inkişaf etmiş ölkələrdən birtərəfli asılılığa düşmüş və bu qrupun formalaşdırdığı “oyun qayda”larına əməl etmək məcburiyyəti ilə qarşılaşmışlar. Və, bu prosesi obyektiv xarakter daşıyan qloballaşma kimi səciyyələndirmək elmi sadəlövlükdən başqa bir şey deyildir.

Qloballaşma – hakimiyyətin dəyişməsi prosesidir. Əksər inqilablarda olduğu kimi, qloballaşma da hakimiyyətin bir əldən digərinə keçidi anlamını daşıyır. Dünya ölkələrinin böyük əksəriyyətində hakimiyyət dövlət və bürokratiyadan özəl sektor və sahibkarların əlinə keçir.[21] Yəni, heç bir demokratik prinsiplərə (məsələn, seçkilər) fikir vermədən hakimiyyət dəyişikliyi baş verir.

Liberalizm → demokratiya cütlüyündə birincinin “tam və qəti” qələbəsi reallaşır. Təfsilata varmadan, qeyd edək ki, iqtisadi azadlığın (liberal məzmunlu) hüdudsuzluğu özünün əksini doğurur:Kapitalın şəriksiz hakimiyyəti altında iqtisadi əsarət yaranır. Kosmopolit təbiətli iri biznes “...milli dövlətlərin, bir çox sferalarda davranış modellərini” işləyib hazırlayırlar.[22]

Beləliklə, qloballaşma prosesinin milli iqtisadiyyata təsiri üç istiqamətli ola bilər:

1) Müsbət təsir: iqtisadi artımın sürətlənməsi – miqyas genişlənməsi şəraitində ölkəyə xas olan üstünlüklərin kumullyativ effektini daha da yüksəldir. Effektin yüksəklik dərəcəsi də ölkə iqtisadiyyatının açıqlıq səviyyəsindən funksional asılılıqdadır. Yəni, açıqlıq nə qədər çox “açıqdırsa”, bir o qədər çox effekt verir. İqtisadiyyatın açıqlıq dərəcəsi ilə iqtisadi artım templəri arasında yüksək korrelyasiya mövcuddur. Eyni zamanda, korrelyasiya bağlılığı ikili məzmun daşıyır: ölkədəki yüksək artım tempi milli iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin yüksəlməsi ilə müşahidə olunur ki, bu da “açıqlığın” daha da dərinləşməsini zərurət halına gətirir.

2) Mənfi təsir: iqtisadi inkişafın mahiyyətcə təhrif olunması, xarici tələbin artımının təsiri altında aparıcı və əsas olmayan sahələrdə artım baş verir. Məsələn, xammal-yanacaq məhsulları üzrə, yaxud anklav xarakterli, sistemlilik keyfiyyəti olmayan iqtisadi artım iqtisadi inkişafın milli hədəflərə yönəlməsində problemli situasiyalar yaradır. İnkişafda nəinki sistemlilik

[20] У.Бек. Национальное государство утрачивает суверинитет//Сумерки глобализации. М:2004; с. 48;210
[21] Т.Фридмен. Лехис и олива. СПБ.2003.с.321;
[22] Т.Фридмен. Лехис и олива. СПБ.2003.с.129

alınmır, hətta tənəzzülə uğrama təhlükəsi meydana çıxır, inkişaf prizmasından regional və sahəvi assimmetriklik daha da dərinləşir, sosial rifahla bağlı konflikli situasiyaların növbələşməsi avtonom proses xarakteri kəsb etməyə başlayır.

3) Mənfi təsir: Qlobal iqtisadi konyukturadan asılılıq böhranlı situasiyaların "idxalına" yol açır. Məsələn, 2008-ci ilin qlobal iqtisadi böhranının Azərbaycanla heç bir əlaqəsi yox idi. Böhran-qlobal yaxud "əcnəbi" mənşəli idi. Amma...milli iqtisadiyyata (Azərbaycana) hissediləcək dərəcədən də yüksək təsir göstərmişdir.

Qloballaşmanın sistemli bütövlük keyfiyyətinə yiyələnməsi – aparıcı ölkələrdə cəmiyyətin tip yeniləşməsi ilə - industrial cəmiyyətdən postindustrial cəmiyyətə keçid – paralel şəkildə gedirdi. 1968-ci ildə, yəni sistemli keyfiyyət dəyişikliklərinə transformasiyanın ilkin başlanğıcında Z.Bjezinski yazırdı ki: "...Bizim epoxa – təkcə inqilabi deyildir. Biz bəşəriyyətin inkişaf tarixinin yeni metamorfozası fazasına keçirik. Dünya – elə bir transformasiya dövrünə qədəm qoyur ki, özünün tarixi və bəşəri nəticələri baxımından fransız yaxud bolşevik inqilablarından daha dramatik məzmunludur. "Robespyer və Lenin çox "yumşaq" islahatçılar olmuşlar"[23] (18;74). Son dərəcə aydın və açıq mətnlə ifadə olunan gerçəkliyin gerçək mahiyyəti üzrə, hesab edirik ki, əlavə şəhrə ehtiyac yoxdur.

## II FƏSİL. QLOBAL İQTİSADİ GERÇƏKLİK: ÖLKƏLƏR BÖLÜMÜNDƏ

Milli iqtisadiyyatın dayanıqlı inkişafında ekzogen mühit həlledici yer tutur. Ayrıca götürülmüş hər bir ölkənin həm bugünü, həm də gələcəyi milli → regional → qlobal səviyyələr arasında formalaşmış münasibətlər kompleksinin funksiyası kimi səciyyələnə bilər. Buna görə də, müasir qlobal reallığın mahiyyət çalarlarına, reallığın empirik səviyyəsinə ümumiləşdirmə mövqeyindən nəzər yetirmək gərəkir.

Bu fəsildə empirik situasiyanın ölkələr arası bölümdə nələrə gətirib çıxardığını araşdıracağıq. Ilkin olaraq dünya iqtisadiyyatının inkişaf xronikasından başlamaqla ayrı-ayrı ölkə və ölkə qruplarının bugünə əldə etdikləri inkişaf səviyyələrinin müqayisəsi və inkişaf modellərinin fərqli konseptuallığı tədqiq ediləcəkdir.

### §2.1. Dünya iqtisadiyyatının inkişaf xronikası: XIX – XXI əsrlər

Bu günə qədər aparılan tarixi – iqtisadi tədqiqatlar dünya iqtisadiyyatının formalaşması prosesinin əksər spesifik xüsusiyyətlərini aşkara çıxarmış, konkret konseptual ümumiləşdirmələr və nəzəri baxışlar ortalığa qoya bilmişdir. Bu paraqrafda bizim məqsədimiz nəzəri təkamülün qeyd edilən sferasını sistemli şəkildə araşdırmaq nəyin həqiqət, nəyin yanılma olduğunu qiymətləndirmək deyil, sistemin formalaşması dövründə dünya iqtisadiyyatının həmçinin aparıcı ölkələr bölümündə, inkişaf dinamikasına təsvirçi mövqedən nəzər salmaqdan ibarətdir. Aydındır ki, bu məqsədlə qədim və ilkin orta əsrlər dövrünə nəzər salmağa lüzum yoxdur. Dünya iqtisadiyyatının qlobal sistem forması aldığı yaxud almağa başladığı tarix XIX əsrin birinci yarısından, sənaye inqilabının baş verdiyi andan başlanır. Natural və patriarxal təsərrüfat tiplərinin bazar iqtisadiyyatı ilə əvəzlənməsi və sənaye inqilabı nəticəsində əmək

---

[23] .Максименко. Глобализация, риторика, идеология, реальность. Аналитическое обозрение.(ч.1) (Электронный ресурс). URL. www.provoslavie.ru/analitik/ qlobalishtion.html

məhsuldarlığının kəskin şəkildə artımı kapitalın dünya liderliyinə keşməsini obyektiv – məntiqi proses halına gətirmişdir.

Dünya iqtisadiyyatı üzrə aparılan əksar tədqiqatlarda gəlinən nəticənin – inkişaf prosesinin zamanca sürətlənməsi, bəzi hallarda isə sıçrayış xarakterli olmasının həqiqi məzmun daşıdığı növbəti dəfə öz təsdiqini tapdı.

Bəşəriyyətin, son 50 min illik tarixini orta ömür uzunluğuna bərabər olan 62 illik hissələrə bölsək, təxminən 800 belə parça alınır. Bunlardan 650-sini insan mağaralarda yaşamışdır. Yalnız axırıncı 70 belə ömür parçası ərzində yazı vasitəsilə informasiyanı effektiv şəkildə bir nəsildən digərinə ötürmək mümkün olmuşdur. Yalnız sonuncu 4 ömür parçasında zamanı dəqiqliklə ölçmə həyata keçirilmişdir. Və, nəhayət bu gün bizim yararlandığımız maddi nemətlərin mütləq əksəriyyəti (90%-dən çoxu) sonuncu, 800-cü ömür parçasında ərsəyə gətirilmişdir.[24]

Cədvəldə (2.1) verilən dinamikanın təhlili inkişafın sürətlənmə xüsusiyyətinə malik olduğunu bir daha ortalığa qoymaqdadır. 3 əsri (XIX – XX – XXI əsr) əhatə edən təxminən 200 il ərzində QMM – 91,1 dəfə, bəşəriyyətin sayı isə təxminən 7 dəfə artmışdır. Birinci yüz il (1820 – 1913) sözügedən göstəricilər müvafiq olaraq, cəmi 3,5 dəfə və 1,6 dəfə yüksəlmişdir. Ikinci yüz il (1913 – 2016) QMM 25,7 dəfə, əhalinin sayı isə 4,1 dəfə artmışdır. Göründüyü kimi, son 200 ilin hər 100 ili arasında artım sürətləri əhəmiyyətli dərəcədə fərqlənirlər. Baxmayaraq ki, sonuncu 100 ildə (1913 – 2016) 100 mln. Insanın ölümünə səbəb olmuş iki dünya müharibəsi baş vermişdir.

Əlbətdə, artım sürətinin "sürətlənməsini" əsaslandırmaq üçün çoxlu sayda səbəblər göstərmək olar. Amma, problem söz açdığımız səbəblərin çoxluğu yaxud azlığında deyildir. Problem sürətlənmənin bir növ təbii səciyyə daşımasındadır. Bu dinamik sırada digər bir maraqlı məqam ondan ibarətdir ki, iki əsas göstərici arasında qeyd etdiyimiz təbii şəkilli sürətlənmə (artım nöqteyi-nəzərindən) yaxud 200 illik artım templəri arasında "uçurum" mövcuddur. Belə ki, QMM 91,1 dəfə əhalinin sayı 6,8 dəfə, adambaşına düşən QMM isə cəmi 13,2 dəfə artmışdır. Sonuncu göstərici birincinin cəmi 14,5%-ni təşkil edir. Yaxud, artım templəri arasındakı fərq 6,9 dəfədir. Müqayisə üçün qeyd edək ki, ikinci 100 illikdə (1913 – 2016) sözügedən fərq 4,1 dəfə, yəni 40,1 % aşağı düşmüşdür. 1998-ci illə müqayisədə isə artım templəri arasında fərq 71,5% azalmışdır. Məhz bu xüsusi artımın inkişafa keçidini xarakterizə edən əsas göstəricilərdən biridir.

***Cədvəl 2.1. Dünyanın iqtisadi inkişaf dinamikası (XIX-XX-XXI əsrlər).***

| Göstəricilər | 1820 | 1913 | 1998 | 2016 | 2016-cı il | | |
|---|---|---|---|---|---|---|---|
| | | | | | 1820-ci ilə nisbətən (%) | 1913-cü ilə nisbətən (%) | 1998-ci ilə nisbətən (%) |
| Qlobal məcmu məhsul (QMM), mlrd.dol. | 831 | 2941 | 36836 | 75730 | +91,1 dəfə | +25,7 dəfə | +2,1 dəfə |
| Əhali (min nəfər) | 1068 | 1772 | 5952 | 7323,2 | +6,8 dəfə | +4,1 dəfə | +23% |
| Adambaşına QMM (dollar) | 778 | 1660 | 6189 | 10340 | +13,2 dəfə | +6,2 dəfə | +67% |

***Qeyd: 1993-cü ilin qiymətləri ilə***

Dünya iqtisadiyyatında xüsusi yeri olan iri iqtisadiyyata malik 10 ölkənin son 100 illik inkişaf dinamikasında da inkişaf → tənəzzül əvəzlənməsi açıq şəkildə müşahidə edilməkdədir.

[24] Ş.Hacıyev, Ə.Bayramov və b. İqtisadiyyat fəlsəfəsi / elmi redaktor Ə.İ.Bayramov. Bakı. 2010. s.284

Sabit yüksəliş xətti yalnız ABŞ və Yaponiyada müşahidə edilir. Almaniya və Fransanın dünya iqtisadiyyatındakı reytinqi 1913-cü il səviyyəsində qalmaqdadır. Bu dövr ərzində ən yüksək artım templərinə Çin (26,6 dəfə) və Yaponiya (29,6 dəfə) nail olmuşlar.

*Cədvəl 2.2. Son 100 illik dinamikada ilk onluqda olan aparıcı iqtisadiyyatlar.*

| Ölkələr | 1913 | | 2012 | | 2016 | | 2016-cı il | |
|---|---|---|---|---|---|---|---|---|
| | ÜDM Mlrd. dol. | Dünyada yeri | ÜDM Mlrd. dol. | Dünyada yeri | ÜDM Mlrd. dol. | Dünyada yeri | 1913-cü ilə nisbətən (%) | 2012-ci ilə nisbətən (%) |
| **İngiltərə** | 986 | 1 | 2323 | 8 | 2782,3 | 5 | +2,8 dəfə | +19,7% |
| **ABŞ** | 917 | 2 | 15660 | 1 | 18153,4 | 1 | + 19,7dəfə | +15,9% |
| **Rusiya** | 464 | 3 | 2509 | 6 | 1425,7 | 11 | +3,1 dəfə | -43,2% |
| **Almaniya** | 440 | 4 | 3194 | 5 | 3609,4 | 4 | +8,2 dəfə | +13% |
| **Çin** | 428 | 5 | 12380 | 2 | 11393,5 | 2 | +26,6 dəfə | -0,8 % |
| **Fransa** | 299 | 6 | 2253 | 9 | 2605,8 | 6 | +8,7 dəfə | +15,6% |
| **Yaponiya** | 163 | 8 | 4617 | 4 | 4825,2 | 3 | +29,6 dəfə | +4,5 % |
| **İtaliya** | 162 | 9 | 1834 | 10 | 1914,1 | 8 | +11,8 dəfə | +4,3 % |
| **Hindistan** | X | X | 4735 | 3 | 2220,0 | 7 | X | -53,2 % |
| **Braziliya** | X | X | 2362 | 7 | 1835,9 | 9 | X | -32,8 % |

Müasir dövrdə dünya ölkələrinin inkişaf səviyyələri və əldə etdikləri yaşam standartları, bir qayda olaraq müxtəlif beynəlxalq qurumlar (BMT, BVF vəs.), eləcə də elm mərkəzləri tərəfindən hesablanan reytinq göstəricilərinin müqayisəsi əsasında qiymətləndirilir. Bu cür qiymətləndirmə artıq kütləvi hal almışdır. Bəri başdan bir məqamı xüsusilə qeyd etmək istərdik ki, ayrı-ayrı ölkələrdə ictimai həyatın əksər sferalarını əhatə edən reytinq qiymətləndirilməsinin nəticələrini mütləq həqiqət kimi qəbul etmək yalnışlıq olardı. Ona görə ki, hesablama metodikası ən azı iki yönümdən "mənfiliklə" üzləşir: natamam və müəyyən anlamda qeyri-dəqiq informasiyalarla işləmək məcburiyyətində qalmaqla yanaşı, modernist paradiqmanın daima yüksələn xəttilik "tələsindən" qurtula bilmir. Buna görə də, real situasiyanın adekvat qiymətləndirilməsi sferasında (natamam və qismən dəqiq olmayan informasiya və paradiqmal yasnaşmanın yetərsizliyi ucbatından) dəqiqliyə nail olmaq imkanları əhəmiyyətli dərəcədə daralır. Növbəti iki cədvəldə verilən empirik məlumatlardan da görəcəyimiz kimi, inkişaf prosesində mühüm rol oynayan göstəricilər arasında adi gözlə müşahidə edilən fərqliliklər mövcuddur. Məsələn, iqtisadiyyatın həcminə görə ilk 15-likdə olan ölkələrin bir çoxu – Çin, Hindistan, Meksika, Braziliya adambaşına düşən ÜDM-un həcminə, eləcə də informasiya – kommunikasiya texnologiyalarının inkişaf indeksinə görə heç birinci 60 ölkə arasında da deyildirlər. Axı, hər iki göstərici həm iqtisadi artımın "keyfiyyətliyini", yəni inkişafa yönlənməyini, həm də postindustrial cəmiyyət tipinə keçidi imkanlarını xarakterizə edirlər. Eyni situasiya digər mühüm göstəricilər üzrə də müşahidə edilməkdədir.

*Cədvəl 2.3. Dünyanın ən iri 15 iqtisadiyyatının reytinq göstəriciləri.*

| **Ölkələr** | **ÜDM Mlrd. dol.** | **Adambaşına ÜDM (dol.)** | **Yeri** | **Informasiya – kommunikasiya texnologiyasının inkişaf indeksi** | **Yeri** | **Ekoloji effektivlik indeksi** | **10 il ərzində dəyişmə (+,-)** | **Yeri** |
|---|---|---|---|---|---|---|---|---|
| **1.ABŞ** | 18153,4 | 59501 | 7 | 8,19 | 15 | 84,72 | +10,93 | 26 |
| **2.Çin** | 11393,5 | 8643 | 71 | 5,05 | 82 | 65,10 | +12,73 | 109 |
| **3.Yaponiya** | 4825,2 | 38439 | 23 | 8,47 | 11 | 80,89 | +5,72 | 39 |
| **4.AFR** | 3609,4 | 44549 | 17 | 8,22 | 14 | 84,26 | +8,43 | 30 |
| **5.İngiltərə** | 2782,3 | 39734 | 22 | 8,75 | 4 | 87,38 | +7,02 | 12 |
| **6.Fransa** | 2605,8 | 39869 | 21 | 8,12 | 17 | 88,20 | +8,70 | 10 |
| **7.Hindistan** | 2220,0 | 1982 | 138 | 2,69 | 131 | 53,58 | +20,87 | 141 |
| **8.İtaliya** | 1914,1 | 31984 | 25 | 7,12 | 38 | 84,48 | +8,43 | 29 |
| **9.Braziliya** | 1835,9 | 9894 | 65 | 6,03 | 61 | 78,90 | +16,94 | 46 |
| **10.Kanada** | 1584,3 | 45077 | 16 | 7,76 | 23 | 85,06 | +5,17 | 25 |
| **11.Rusiya** | 1425,7 | 10608 | 62 | 6,91 | 44 | 83,52 | +24,34 | 32 |
| **12.Cənubi Koreya** | 1414,4 | 29891 | 27 | 8,93 | 1 | 70,61 | +6,01 | 80 |
| **13.Avstraliya** | 1313,0 | 55707 | 10 | 8,29 | 13 | 87,22 | +21,75 | 13 |
| **14.İspaniya** | 1277,9 | 28358 | 29 | 7,66 | 26 | 88,91 | +10,01 | 6 |
| **15.Meksika** | 1152,7 | 9304 | 69 | 4,68 | 95 | 73,56 | +10,69 | 67 |

***Cədvəlin davamı***

| Ölkələr | Iqtisadi azadlıq indeksi | Yeri | Qanunun aliliyi indeksi | Yeri | Xoşbəxtlik səviyyəsi indeksi | Yeri |
|---|---|---|---|---|---|---|
| **1.ABŞ** | 75,4 | 11 | 0,74 | 18 | 7,104 | 13 |
| **2.Çin** | 52,0 | 144 | 0,48 | 80 | 5,245 | 83 |
| **3.Yaponiya** | 73,1 | 22 | 0,78 | 15 | 5,921 | 53 |
| **4.AFR** | 74,4 | 17 | 0,83 | 6 | 6,994 | 16 |
| **5.İngiltərə** | 76,4 | 10 | 0,81 | 10 | 6,725 | 23 |
| **6.Fransa** | 62,3 | 75 | 0,72 | 21 | 6,478 | 32 |
| **7.Hindistan** | 56,2 | 123 | 0,51 | 66 | 4,404 | 118 |
| **8.İtaliya** | 61,2 | 86 | 0,64 | 35 | 5,977 | 50 |
| **9.Braziliya** | 56,5 | 122 | 0,55 | 52 | 6,952 | 17 |
| **10.Kanada** | 78,0 | 6 | 0,81 | 12 | 7,404 | 6 |
| **11.Rusiya** | 50,6 | 153 | 0,45 | 92 | 5,856 | 56 |
| **12.Cənubi Koreya** | 71,7 | 27 | 0,73 | 19 | 5,835 | 58 |
| **13.Avstraliya** | 80,3 | 5 | 0,81 | 11 | 7,313 | 9 |
| **14.İspaniya** | 68,5 | 43 | 0,74 | 24 | 6,361 | 37 |
| **15.Meksika** | 65,2 | 62 | 0,46 | 88 | 6,778 | 21 |

*Cədvəl 2.4. Dünyanın ən iri 15 iqtisadiyyatında həyat səviyyəsi göstəriciləri.*

| **Ölkə** | **Iqtisadiyyat** | **Biznes mühiti** | **Dövlət idarə etməsi** | **Təhsil** | **Səhiyyə** | **Təhlükəsizlik** | **Vətəndaş azadlıqları** | **Sosial Kapital** | **Ekologiya** | **Həyat səviyyəsi üzrə reytinq** |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| **1.ABŞ** | 10 | 1 | 20 | 7 | 30 | 60 | 28 | 9 | 34 | 18 |
| **2.Çin** | 32 | 49 | 122 | 38 | 44 | 63 | 139 | 139 | 135 | 90 |

| | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| **3.Yaponiya** | 23 | 22 | 18 | 18 | 4 | 4 | 46 | 101 | 43 | 23 |
| **4.AFR** | 9 | 12 | 12 | 15 | 12 | 16 | 17 | 17 | 12 | 11 |
| **5.İngiltərə** | 7 | 5 | 10 | 8 | 19 | 17 | 18 | 16 | 9 | 10 |
| **6.Fransa** | 25 | 19 | 23 | 19 | 18 | 37 | 25 | 43 | 4 | 19 |
| **7.Hindistan** | 56 | 65 | 41 | 99 | 109 | 134 | 100 | 82 | 139 | 100 |
| **8.İtaliya** | 44 | 68 | 46 | 24 | 39 | 25 | 30 | 54 | 65 | 30 |
| **9.Braziliya** | 53 | 106 | 77 | 85 | 70 | 88 | 37 | 52 | 23 | 54 |
| **10.Kanada** | 15 | 4 | 9 | 13 | 24 | 24 | 2 | 6 | 18 | 8 |
| **11.Rusiya** | 70 | 85 | 115 | 26 | 102 | 109 | 143 | 130 | 56 | 101 |
| **12.Cənubi Koreya** | 31 | 35 | 39 | 17 | 15 | 29 | 74 | 93 | 90 | 36 |
| **13.Avstraliya** | 20 | 7 | 14 | 5 | 10 | 22 | 15 | 1 | 10 | 9 |
| **14.İspaniya** | 37 | 33 | 30 | 25 | 16 | 12 | 16 | 19 | 17 | 20 |
| **15.Meksika** | 54 | 29 | 82 | 57 | 51 | 122 | 59 | 116 | 52 | 61 |

Məsələn Çin - dünyanın ikinci iqtisadiyyatı, iqtisadi azadlıq indeksinə görə dünyada 144-cü yeri, ekoloji effektivlik indeksinə görə 109-cu yeri, adambaşına düşən ÜDM görə 71-ci yeri, sosial kapital indeksinə görə isə 90-cı yeri tutur. Göstəricilərin səthi müqayisəsi belə ölkədə real vəziyyətin qiymətləndirmə metodikasında böyük yalnışlıqlara yol verildiyini ortalığa qoyur. Başqa sözlə, həyat səviyyəsi ilə sosial kapital və iqtisadi azadlıq göstəriciləri arasında bu qədər fərqliliklər ola bilməz.

Təbiidir ki, sadalanan göstəricilər arasındakı bağlılığın konseptual qiymətləndirilməsinin praktiki müstəvidə olduğu kimi əks olunması zəruriliyindən söhbət getmir. Başqa nümunə: Dünyanın 8-ci iqtisadiyyatı olan İtaliya iqtisadi azadlıq indeksinə görə 86-cı, sosial kapital indeksinə görə 54-cü (Braziliyadan 2 punkt aşağı???), ekoloji effektivlik indeksinə görə 65-ci, həyat səviyyəsinə görə isə 30-cu? yeri tutur. Bu üç göstərici, adambaşına ÜDM – göstəricisi ilə (İtaliya -25-ci yer), birlikdə, həyat səviyyəsinin 4 əsas təməl göstəriciləridir. Və, bu mənada da təsvir etdiyimiz nisbətlərdə böyük fərqliliklərin olması ən azı konseptual anlaşılmazlıq yaradır. Həmçinin, həyat səviyyəsi göstəricisinə görə ən iri 15-lik ölkələrindən ilk 15-də yalnız 4 ölkə yer almaqdadır: Kanada 8-ci yer, Avstraliya 9-cu yer, İngiltərə 10-cu, Almaniya 11 yer!

Sözsüz ki, müqayisə etdiyimiz göstəricilər arasında öncül mövqe insan inkişafı indeksinə məxsusdur. Həyat səviyyəsi ilə bağlı gerçək situasiyanın adekvat qiymətləndirilməsində bu göstərici kumulyativ-yekunlaşdırıcı rol oynayır. Növbəti cədvəldə insan inkişafı indeksi üzrə hər qrupun ilk 5 ölkəsini əhatə edən məlumatlar yer almışdır.

Məlumdur ki, müxtəlif ölkələr və bölgələr arası sosio-iqtisadi inkişafın əsas göstəricisi olan həyat səviyyəsinin ölçülməsində İİİ (insan inkişafı indeksi) ən mühüm metodiki üsullardan biri kimi çıxış edir. Indeks – ilk dəfə olaraq – 1990-cı ildə Mahbub -əl –haqq (Д.Медоуз, Й.Рандерс. Пределы роста: 30 лет спустя. М. Бином 2012, с.353) tərəfindən işlənib hazırlanmışdır. Bu indeks – eyni zamanda, insan kapitalının inkişaf prosesinin gerçək məzmununu görməyə imkan verir.

Cədvəldəki məlumatlardan göründüyü kimi, İİİ-nin çox yüksək olduğu ilk 5-də dünyanın iri iqtisadiyyatına malik ölkələrdən yalnız Avstraliya yer (2-ci yer) almaqdadır. Cədvəldə verilmiş digər göstəricilərlə müqayisə belə bir qənaəti ortalığa qoyur ki, insan inkişafı – iqtisadidən (baxmayaraq ki, son dərəcə mühüm əhəmiyyət kəsb edir) daha çox sosial-siyasi və ideoloji məzmun daşıyır. Yəni, cəmiyyətdə adambaşına artan gəlirlərin insana, onun inkişafına yönəldilməsi maddi təminatın dərəcəsi ilə məhdudlaşa bilməz. Maddi təminat – hüdudludur, sərhədlidir və onun aramsız yüksəlişi prinsipcə mümkünsüzdür. Amma, eyni şeyi mental dəyərlər haqqında söyləmək olmaz. Mental anlam daşıyan nə varsa sonsuzluğa yönəlmir və bu da əslində sözügedən dəyərlərin varolma forması kimi qəbul edilməlidir. Və, bu amilin maddi

təminatla və yalnız bu göstərici ilə şərhi, əlbəttə ki, yalnışdır. Yalnışlığın anatomiyasını Avstraliya və İsveçrəni müqayisə etməklə açıq-aydın şəkildə müşahidə etmək olar. Məlumatlardan göründüyü kimi, adambaşına düşən ÜDM göstəricisinə görə Avstraliya 17-ci, İsveçrə 7-ci qlobal rəqabətqabiliyyətliliyi indeksinə görə isə Avstraliya 21-ci, İsveçrə 1-ci yerdədir. Reytinqə görə əhəmiyyətli fərqlər mövcuddur. Amma, insan inkişafı ilə bağlı sferada Avstraliya İsveçrəni üstələyir.

Ölkələrarası müqayisədə xüsusi maraq doğuran göstəricilərdən biri də sosial tərəqqi indeksidir. Bu indeks üzrə aparılan araşdırmalar bizim yuxarıda gəldiyimiz qənaəti birmənalı şəkildə təsbit edir.

Sosial tərəqqi indeksi ayrı-ayrı ölkələrdə sosial inkişafın səviyyəsini ölçmək üçün tətbiq edilir. 2013-cü ildə M.Porterin rəhbərliyi ilə hazırlanmış ölçmə metodikası ölkələr bölümündə ictimai rifah və sosial tərəqqinin əldə olunan səviyyəsini qiymətləndirir. Maraqlı cəhət ondan ibarətdir ki, indeks iqtisadi inkişaf göstəricilərini nəzərə almır. Sosial inkişafın göstəriciləri iqtisadi inkişafının alternativ göstəriciləri kimi qəbul edilir. Bu cür ayırma nəticə etibarı ilə hər iki tərəf arasındakı qarşılıqlı əlaqələri daha sistemli şəkildə öyrənmək imkanı verir.

Toplanan məlumatların (ölkələr üzrə), daha doğrusu yığılmış informasiyanın tam şəkildə həqiqəti əks etdirdiyini iddia etmək, müəyyən mənada problematikdir. Belə ki, məlumatların 12% - ictimai rəy sorğusu, 25% ekspert qiymətləndirməsi, 61%-i isə beynəlxalq təşkilatlar vasitəsilə toplanır. Insan inkişafı indeksindən fərqli olaraq (əsasən rəsmi informasiyaya istinad edir), sosial tərəqqi indeksi dövlətlərin statistika xidmətlərindən yararlanmırlar.

Sosial tərəqqi indeksi 3 qrupda qruplaşdırılmış 50 göstərici üzrə hesablanır. Konkret olaraq, söhbət insanın əsas tələbatlarından, rifahını təmin edən göstəricilərdən və inkişaf imkanlarından gedir.

Bu aspektdən sosial tərəqqi indeksi ölkənin nail olduğu inkişaf səviyyəsinin qiymətləndirmə metodikasının adekvatlıq dərəcəsini əhəmiyyətli diapazonda yüksəltmək iqtidarındadır. Ayrı-ayrı ölkə qruplarının cədvəldə verilmiş reytinq göstəricilərini müqayisə etmək kifayətdir ki, sosial tərəqqi indeksi ilə insan inkişafı indeksi arasında proporsional uyğunluğun olduğunu təsbit edə biləsən.

Dünyanın ən varlı 29 ölkəsi ilə bağlı hesablanan reytinq göstəriciləri arasında da oxşar situasiya müşahidə olunmaqdadır.

***Cədvəl 2.5. İnsan İnkişafı İndeksi: qruplar üzrə (2017)***

| Ölkələr | iii | yeri | Sosial tərəqqi indeksi | yeri | Adambaşına düşən məcmu milli gəlir | yeri | Qlobal rəqabət qabiliyyətlilik indeksi | yeri | Təhsil indeksi | | Ömür uzunluğu indeksi | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | | | | indeks | yeri | indeks | yeri |
| **I. İİİ-nin çox yüksək olduğu ilk 5-lik ölkələr. 1.Norveç** | 0,94 | 1 | 90,27 | 4 | 82330 | 6 | 5,4 | 11 | 0,916 | 4 | 81,6 | 18 |
| **2.Avstraliya** | 0,93 | 2 | 89,30 | 9 | 54420 | 17 | 5,2 | 21 | 0,939 | 1 | 82,4 | 8 |

| | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | | | | | | | |
| **3.İsveçrə** | 0,93 | 3 | 90,10 | 5 | 81240 | 7 | 5,9 | 1 | 0,891 | 11 | 83 | 5 |
| **4.Danimarka** | 0,92 | 4 | 90,57 | 1 | 56730 | 13 | 5,4 | 12 | 0,923 | 2 | 80,2 | 31 |
| **5.Niderland** | 0,92 | 5 | 89,82 | 7 | 46310 | 21 | 5,7 | 4 | 0,897 | 9 | 81,6 | 17 |
| **II. İİİ yüksək olduğu ilk 5-lik 1.Belarus** | 0,79 | 50 | 67,80 | 65 | 5600 | 112 | X | X | 0,834 | 26 | 71,3 | 108 |
| **2.Rusiya** | 0,79 | 50 | 67,17 | 67 | 9720 | 87 | 4,6 | 38 | 0,816 | 34 | 70,1 | 116 |
| **3.Oman** | 0,79 | 52 | x | X | 18080 | 65 | 4,3 | 62 | 0,652 | 103 | 76,8 | 50 |
| **4.Rumıniya** | 0,79 | 52 | 73,53 | 44 | 9470 | 88 | 4,3 | 68 | 0,769 | 52 | 74,7 | 76 |
| **5.Uruqvay** | 0,79 | 52 | 80,09 | 31 | 55230 | 69 | 4,1 | 76 | 0,717 | 69 | 77,2 | 45 |
| **Azərbaycan** | 0,75 | 78 | 65,33 | 76 | 4760 | 123 | 4,7 | 35 | 0,723 | 64 | 70,8 | 112 |
| **III. İİİ orta səviyyədə olduğu ilk 5-lik 1.Botsvana** | 0,69 | 106 | 64,44 | 80 | 6610 | 105 | 4,3 | 63 | 0,658 | 96 | 64,5 | 146 |
| **2.Moldova** | 0,69 | 107 | 66,31 | 72 | 2120 | 164 | 4,0 | 89 | 0,725 | 63 | 71,6 | 107 |
| **3.Misir** | 0,69 | 108 | 63,76 | 82 | 3460 | 145 | 3,9 | 100 | 0,601 | 120 | 71,1 | 109 |
| **4.Türkmənistan** | 0,68 | 109 | X | X | 6670 | 104 | X | X | 0,629 | 111 | 65,6 | 142 |
| **5.Qabon** | 0,68 | 110 | X | X | 7210 | 99 | X | X | 0,618 | 115 | 64,4 | 147 |
| **IV. İİİ-nin aşağı səviyyədə olduğu ilk 5-lik 1.Keniya** | 0,54 | 145 | 56,17 | 95 | 1380 | 175 | 4 | 91 | 0,518 | 136 | 61,6 | 160 |
| **2.Nepal** | 0,54 | 145 | 60,08 | 91 | 730 | 195 | 4 | 88 | 0,475 | 149 | 69,6 | 119 |
| **3.Pakistan** | 0,53 | 147 | 51,54 | 105 | 1510 | 173 | 3,7 | 115 | 0,395 | 170 | 66,2 | 139 |
| **4.Myanma** | 0,53 | 148 | 55,69 | 96 | 1190 | 178 | X | X | 0,410 | 167 | 65,9 | 141 |
| **5.Anqola** | 0,53 | 149 | 40,73 | 125 | 3440 | 146 | X | X | 0,482 | 146 | 52,3 | 184 |

***Mənbə: Elektron resurs. Url: Qtmarket.ru/raitings***

Cədvəldən göründüyü kimi, alıcılıq qabiliyyətinin pariteti əsasında hesablanmış adambaşına ÜDM göstəricisinə görə müsəlman ölkəsi olan Qətər birinci yerdədir – 128,7 min dollar! Amma, həyat səviyyəsi və onun qərarlaşmasında mühüm rol oynayan göstəricilər sistemi üzrə Qətər heç birinci 30-luqda da yer almır. Ən varlı (adambaşına 45 min dollardan çox ÜDM düşən ölkələr) 29 ölkə sırasında 7 müsəlman ölkəsi vardır. Və, onların əksəriyyəti üçün qeyd etdiyimiz proporsional uyğunsuzluq xasdır. Eyni zamanda, dünyanın ən iri iqtisadiyyata malik 15 ölkəsindən yalnız 6-ı bu kateqoriyaya daxil ola bilmişdir. Bu ölkələrdə, müsəlman ölkələrindən fərqli olaraq, müqayisə edilən reytinq göstəriciləri arasında kəskin dirproporsiyalar müşahidə edilmir. Eyni reytinq göstəriciləri üzrə müxtəlif ölkələrin müxtəlif cür yer tutmaları inkişaf prosesinə fərqli prinsiplər bazasında yanaşmaları ilə izah oluna bilər. Adambaşına ÜDM–

un nəyin hesabına artması, artımın sistemli yoxsa anklav xarakter daşıması, milli gəlirin formalaşması prosesində ölkə əhalisinin iştirak dərəcəsi, eləcə də sosial-siyasi və ideoloji sferalarda tətbiq edilən məhdudiyyətlərin əhatə dairəsi və s. eyni göstəricilərə münasibətdə ölkə fərqliliyini əsaslandıran əsas səbəblərdir.

***Cədvəl 2.6. Dünyanın ən varlı ölkələri.***

| **Ölkələr** | **Adambaşına ÜDM dol. AQP-i əsasında** | **Insan inkişafı indeksi** | **Təhsil indeksi** | **Ömür uzunluğu indeksi** | **Sosial tərəqqi indeksi** | **Həyat səviyyəsi indeksi** |
|---|---|---|---|---|---|---|
| | | **Yeri** | **Yeri** | **Yeri** | **Yeri** | **Yeri** |
| **1.Qətər** | 128702 | 37 | 96 | 39 | 32 | 47 |
| **2.Makao** | 122702 | X | X | X | X | X |
| **3.Lüksemburq** | 110870 | 21 | 30 | 16 | 22 | 14 |
| **4.Sinqapur** | 98014 | 9 | 6 | 4 | 26 | 17 |
| **5.İrlandiya** | 79924 | 4 | 10 | 23 | 8 | 12 |
| **6.Bruney** | 79726 | 39 | 70 | 37 | X | X |
| **7.Norveç** | 74065 | 1 | 4 | 18 | 4 | 1 |
| **8.BƏƏ** | 68662 | 34 | 65 | 46 | 27 | 39 |
| **9.Kuveyt** | 66673 | 56 | 94 | 79 | 44 | 80 |
| **10.HonKonq** | 64533 | 7 | 21 | 1 | 61 | 24 |
| **11.İsveçrə** | 63379 | 3 | 11 | 5 | 5 | 4 |
| **12.ABŞ** | 62152 | 13 | 7 | 36 | 9 | 18 |
| **13.San Marino** | 61169 | X | X | X | X | X |
| **14.Niderland** | 56435 | 10 | 9 | 17 | 7 | 6 |
| **15.Səudiyyə Ərəbistanı** | 55859 | 39 | 64 | 82 | 51 | 78 |
| **16.islandiya** | 54121 | 6 | 28 | 6 | 3 | 13 |
| **17.İsveç** | 53077 | 7 | 14 | 11 | 19 | 5 |
| **18.Almaniya** | 52801 | 5 | 15 | 21 | 17 | 11 |
| **19.Tayvan** | 52304 | X | X | X | X | 22 |
| **20.Avstraliya** | 52190 | 3 | 1 | 8 | 9 | 9 |
| **21.Avstriya** | 51936 | 20 | 12 | 19 | 15 | 15 |
| **22.Danimarka** | 51643 | 11 | 2 | 31 | 1 | 7 |
| **23.Bəhreyn** | 50102 | 43 | 67 | 51 | X | 62 |
| **24.Kanada** | 49775 | 12 | 12 | 12 | 6 | 8 |
| **25.Belçika** | 48258 | 17 | 9 | 25 | 25 | 16 |
| **26.Finlandiya** | 46342 | 15 | 3 | 26 | 12 | 3 |
| **27.Oman** | 46723 | 48 | 103 | 50 | 69 | 73 |
| **28.İngiltərə** | 45565 | 14 | 8 | 27 | 16 | 10 |
| **29.Fransa** | 45473 | 24 | 19 | 10 | 43 | 19 |

Qloballaşan dünyada olkələrarası "bərabərsizliyin" uçurum şəkildə qərarlaşması, qlobal səviyyəli sosial ədalətsizliyin "ayaq tutub yeriməsini" aşağıdakı müqayisədən əyani şəkildə görmək olar. (Cədvəl 2.7). Cədvəldəki məlumatlarda dünyanın ən varlı və ən yoxsul 15 ölkəsində adambaşına düşən ÜDM göstəricisi və onun son 12 ildə artım tempi verilmişdir. Rəqəmlərin müqayisəsindən göründüyü kimi, söhbət sanki başqa dünyalarda yaşayan ölkələrdən gedir: 108 min və 300 dollar! Bu qədər böyük bir fərqin olduğu dünyanın "vahidləşməsi" yalnız möcüzə şəklində başverə bilər. Son 12 il ərzində (2005 – 2017) yoxsul ölkələr qrupunda artım tempi son dərəcə əhəmiyyətsiz olmuşdur. Məsələn, Burundidə adambaşına ÜDM göstəricisi, müqayisə edilən dövr ərzində 2 dəfə artmış və... 301 dollara çatmışdır, iki ölkədə isə - Syerra-Leone və Qambiyada sözügedən göstərici müvafiq olaraq, 3,3% və 3,6% azalmışdır. Varlı ölkələr qrupunda isə yalnız "cırtdan" dövlət olan San-Marinoda azalma (21,9%) baş vermiş və 2017-ci ildə bu göstərici 51,5 min dollara (hələ azalıb) bərabər olmuşdur. Bu statistikada maraqlı

məqam ondan ibarətdir ki, postsosialist ölkəsi olan Tacikistan da dünyanın ən yoxsul 15 ölkəsi arasında yer almaqdadır. Adambaşına düşən ÜDM göstəricisi, son 12 il ərzində 92,6% artmış və 643 dollara bərabər olmuşdur. Bu göstəricilər belə bir qənaəti ortalığa qoyur ki, sözügedən 15 ən yoxsul ölkələrdə humanitar fəlakət yaşanmaqdadır. Müqayisə üçün qeyd edək ki, analoji göstərici Azərbaycanda 2,4 dəfə artmışdır. Əgər, manatın devalvasiya baş verməsə idi, 2017-ci ildə adambaşına düşən ÜDM-un həcmi 8,2 min dollara bərabər olacaqdır.

***Cədvəl 2.7. Dünyanın ən varlı və ən yoxsul ölkələri.***

| **Ən varlı 10 ölkə** | **Adambaşına ÜDM, dol.** | **Ən yoxsul 10 ölkə** | **Adambaşına ÜDM, dol.** | **2005-ə nisbətən (%)** | |
|---|---|---|---|---|---|
| | | | | **Varlı ölkələr** | **Yoxsul ölkələr** |
| **1.Lüksemburq** | 108004,9 | 4.Cənubi Sudan | 398,8 | +34,5% | +80,6% |
| **4.Qətər** | 67269,6 | 3.Madaqaskar | 390,4 | +24% | +41,7% |
| **3.Norveç** | 72046,3 | 7.Mozambik | 423,4 | +8,1% | +17,1% |
| **7.ABŞ** | 58952,0 | 8.Niger | 436,7 | +33,3% | +65,5% |
| **5.Makao** | 61365,3 | 14.Syerra-Leone | 633,8 | +2,4 dəfə | -3,3% |
| **8.İrlandiya** | 57219,6 | 1.Malavi | 300,9 | +11,8% | +41,7% |
| **10.Sinqapur** | 54052,8 | 9.Liberiya | 501,8 | +12,4% | +2,4 dəfə |
| **13.Avstraliya** | 50795,3 | 12.Qvineya | 532,5 | +40,5% | +1,7 dəfə |
| **15.Avstriya** | 46316,6 | 5.Qambiya | 400,2 | +20,5% | -3,6% |
| **9.Danimarka** | 55068,2 | 10.Konqo | 503,7 | +12,6% | +2,5 dəfə |
| **6.islandiya** | 60920,4 | 6.MAR | 416,6 | +6,7% | +1,2 dəfə |
| **12.San-Marino** | 51525,6 | 2.Burundi | 301,3 | -21,9% | +2,0 dəfə |
| **2.İsveçrə** | 79347,7 | 11.Əfqanıstan | 521,3 | +44,4% | +2,1 dəfə |
| **11.İsveç** | 52108,7 | 13.Haiti | 617,6 | +21,2% | +57,7% |
| **14.Niderland** | 46594,0 | 15.Tacikistan | 643,1 | +11,8% | +92,6% |

***Qeyd. Cənubi Sudan üzrə müqayisə 2015 – 2017 illəri əhatə edir.***

Məlumdur ki, təkamül prosesi, yeni keyfiyyət situasiyalarının təşəkkülü mahiyyət etibarı ilə insan nəslinin gələcək dövrlərdə də mövcudluğunu şərtləndirən, dünya tarixinin gedişatının da göstərdiyi kimi, müəyyən fasilələrlə davam etməkdə olan və qaçılmazlıq səciyyəsi daşıyan bir meqa prosesdir. Məhz həmin prosesin hərəkət vektorları ictimai həyatın bütün sferalarında tərəqqini mümkünlük anlayışından zərurətə çevirir.

Tərəqqi – iqtisadi sferada iqtisadi inkişaf anlamında təzahür edir. Təməlində iqtisadi artımın durduğu inkişaf prosesinin sonsuz olmadığı praktiki müstəvidə dəfələrlə verifikasiyadan keçmiş və onun sonlu və hüdudlu olduğu gerçəkliyi bütün təfərrüatı ilə üzə çıxmışdır. Iqtisadi artım və inkişaf proseslərinin müəyyən sərhədlər (zaman və məkanca) çərçivəsində olmasının bariz dəlillərindən biri kimi vaxtaşırı baş verən qlobal iqtisadi böhranları göstərmək olar. Böhran baş verdiyi zaman kəsiyində artımın həmin andakı məhdudiyyət sərhədlərini aşkar şəkildə nümayiş etdirir. 1857-ci ildən bu yana dünyada 11 iqtisadi böhran baş vermişdir, sonuncu (2008) istisna olmaqla əksəriyyəti (hətta, böyük depressiya) müəyyən vaxt ərzində aradan qaldırılmış, iqtisadi artımın davamlılığına şərait yaradılmışdır. Lakin, sonuncu, 2008-ci ildə baş verən böhranla bağlı belə bir təsbit irəli sürmək mümkün deyildir.

Qlobal səviyyədə real və spekulyativ kapital arasındakı “uçurum” 1970-ci illərin sonunda cəmi 20 trln. dol. təşkil etmişdir. O dövrdən keçən 30 ilə yaxın müddət ərzində “uçurum” 10 dəfə dərinləşərək 540 trln. dollara çatmışdır. Spekulyativ kapitalın dövriyyəyə girməsinin əsas səbəblərindən biri 1971-ci ildə ABŞ höküməti tərəfindən dolların qızıl məzmunun ləğv edilməsi oldu. Beynəlxalq iqtisadi əlaqələrdə böyük xüsusi çəkiyə malik olan dolların hərə hansı bir təminatı olmadan artırılması yolunda artıq heç bir maneə qalmamışdır.

Fond birjalarının real formada qloballaşması isə digər tərəfdən dünya maliyyə sisteminin "piramida" formasında quruculuğuna təkan vermiş, virtuallaşma isə bu prosesi ifrat fotmada sürətləndirmişdir. Dolların maddi təminatı problemi rəvan şəkildə inkişaf etməkdə olan ölkələrin üzərinə keçirilmişdir. Məhz bu aspekt sözügedən ölkələrin mərkəzi banklarını "ayaqda" tutan yeganə amildir.

Sözügedən böhran – təzahür formasını dəyişməklə borc böhranına çevrilmiş və bu gün də dünya iqtisadiyyatının sabahını təhdid edən əsas təhlükələrdən biri kimi davam etməkdədir. Eyni zamanda, nəzərə alsaq ki, böhran məhz bu iki sefraya dağıdıcı təsir göstərir, onda bu günkü situasiyanın dünya ölkələrinə ( inkişaf dərəcəsindən asılı olmayaraq) borclanmadan qeyri çıxış yolu buraxmadığını aydın şəkildə müşahidə edə bilərik. (bax: cədvəl 2.8).

Digər tərəfdən, müasir dövrdə inkişaf prizmasından mühüm əhəmiyyət kəsb edən maliyyə sferasının effektivliyi (o cümlədən, səhmdarlar sisteminin) iqtisadi artımın potensial imkanlarından birbaşa asılılıqdadır. Belə ki, artımın ləngiməsi, yaxud tənəzzülə çevrilməsi şəraitində səhmlər ucuzlaşır, kredit riskləri kəskin şəkildə yüksəlir və yekunda maliyyə sferası çökür. Beləliklə, artımın məhdudiyyət sərhədlərini "çızan" əsas amillərədn biri kredit risklərinin yüksəlməsidir. Qəbul olunmuş (elmi ictimaiyyət tərəfindən) qiymətləndirməyə görə ölkə üzrə problemli kreditlərin xüsusi çəkisi (ümum kredit portfelində) 3% civarındadırsa, onda, həyəcan təbili çalınmalıdır. Müqayisə üçün, deyək ki, Azərbaycanda bu göstərici 16%-dən çoxdur.

Inkişaf etmiş ölkələrdə istehlak özünün maksimum səviyyəsinə çatmışdır. Və, onun daha da yüksələ bilməsi ehtimalı sıfıra yaxındır. Yəni, maksimum istehlakı – daha konkret formada – israfçılığı dayandıran şey mental dəyərlərin akruallaşması deyil, iqtisadi artımın sərhədliyidir.




***Şəkil 2.1. Real və spekulyativ kapital arasında "uçurumun" dinamikası.***

*Mənbə: Большаков Б.Е., Полынчев Д.А. Методология моделирования устойчивого развития страны. // Наука и промышленность России. 2005. №1-2, с.12 - əsasında müəllif tərəfindən hazırlanmışdır.*

***Cədvəl 2.8. Dünyanın iri iqtisadiyyatlarında beynəlxalq ehtiyatlar və dövlət borcu.***

| Ölkələr | ÜDM mlrd.dol. | QMM xüsusi çəkisi % | Adambaşına ÜDM | Beynəlxalq ehtiyatlar | Dövlət borcu (ÜDM-a nisbətən |
|---|---|---|---|---|---|

| | | | | (mlrd.dol.) | %-lə) |
|---|---|---|---|---|---|
| **1.ABŞ** | 17947 | 24,30 | 57220 | 451,3 | 1075 (19900) |
| **2.ÇİN** | 10983 | 14,80 | 8833 | 3080,7 | 46,2 |
| **3.Yaponiya** | 4123 | 5,90 | 35793 | 1260 | 239 (9000) |
| **4.Almaniya** | 3358 | 4,50 | 43269 | 199,9 | 67,6 (2400) |
| **5.İngiltərə** | 2849 | 3,90 | 43699 | 150,8 | 89,2 (2100) |
| **6.Fransa** | 2422 | 3,30 | 39126 | 156,3 | 96,6 (2400) |
| **7.Hindistan** | 2091 | 2,80 | 6616 | 361 | 69,5 (900) |
| **8.İtaliya** | 1816 | 2,50 | 30995 | 151,1 | 132,6 (2400) |
| **9.Braziliya** | 1773 | 2,89 | 7495 | 365 | 78,3 |
| **10.Kanada** | 1552 | 2,09 | 41921 | 86,6 | 92,3(800) |
| **11.Rusiya** | 1326 | 1,80 | 7742 | 432,7 | 18,0 |

Problemdən çıxış yolunu arayan ölkələr demək olar ki, mümkün hesab edilən bütün vasitələrdən (dövlət xərclərinin artırılması, ipoteka və s.) yararlanırlar. Lakin, kredit riskləri artmaqda davam edir.

Real iqtisadiyyatda artımın sərhəd situasiyasına yaxınlaşması kapital artıqlığını daha da şövqləndirir. Nəticədə kapital ucuzlaşır, maliyyə resursları sferasında təklif artır, amma risklər yüksəlməkdə davam edir. Ziddiyyət elə bir forma almaqdadır ki, hətta uçot stavkasının aşağı salınması belə risklərin kompensasiyasına nail ola bilmir....Və, zəncirvari reaksiya dövriyyəyə girir: kapital artıqlığı problemi daha da kəskinləşir, inflyasiya yüksəlir ki, bu da uçot stavkasını yüksəltmək zərurəti yaradır. Yəni bütövlükdə sistemdaxili hərəkət dalana dirənir.

Bir sözlə, nəinki iqtisadi artım, bütövlükdə bəşəriyyətin gələcəkdə mövcudluğu beynəlxalq maliyyə sistemindən funksional asılılığa düşür. Buna görə də, dünyanın əksər ölkələri beynəlxalq maliyyə sisteminin dağılmaması yönümündə dəstək vermək məcburiyyətində qalırlar.

Digər tərəfdən iqtisadi artımın davamlılığını təmin edən amillər sırasında əmək məhsuldarlığı, resurslar və zamanla bağlı birmənalı olmayan situasiya formalaşmışdır. Belə ki, əmək məhsuldarlığının fasiləsiz artımı yalnız qısamüddətli dövr ərzində müəyyən müsbət nəticələrlə sonuclanır. Amma uzunmüddətli dövrdə işsizliyin artımına gətirib çıxarır. Resurslarla bağlı hansısa bir fikir söyləməyə elə də ehtiyac yoxdur. Bununla belə, resurs anlayışını yalnız maddi formada təqdim etmək düzgün olmazdı. Fiziki anlamda resursların məhdudluğu birmənalı qəbul olunur. Lakin mental anlamda bir sıra resurslar mövcuddur ki, iqtisadi artım və inkişaf nöqteyi-nəzərindən heç də az əhəmiyyətli rol oynamırlar. Məsələn, sosial kapitalın və insan kapitalının formalaşması prosesində həlledici əhəmiyyət kəsb edən mental dəyərlər vardır. Sosial əməkdaşlıq, sosial həmrəylik, sosio-mədəni identiklik, yaxud sosiumun iqtidara olan inamı, sosial ədalət və s. nəinki iqtisadi, həmçinin bütövlükdə cəmiyyətin inkişafında yeni keyfiyyət mərhələsinə keçidində əvəz edilməz yer tutmaqdadılar. Eyni zamanda, zaman məhfumu, ələlxüsus asudə vaxtın uzunluğu mühüm əhəmiyyət kəsb edir. Əslində, bütün digər amilləri sərf-nəzər etsək və problemin həqiqi mahiyyətinə nəzər yetirsək, onda görməmək mümkün deyildir ki, inkişaf dediyimiz şey elə asudə vaxtın interval uzunluğunun artması deməkdir. Istehlakla və onun kəskin təzahür forması olan israfçılıqla bağlı problemin, yəni istehlakın sonsuz olaraq artması imkanını məhdud çərçivəyə salan da məhz asudə vaxtın interval uzunluğudur. Eyni vaxt vahidi ərzində müxtəlif məhsul və xidmətləri toplu şəkildə istehlak etmək mümkün deyildir. Başqa sözlə, izafilik, artıqlıq (istehlak nöqteyi-nəzərindən) hüdudludur, sonludur.

### §2.2. Dünya ölkələrinin tipologiyası: kriteriya seçimi problemi.

Qloballaşma prosesinin intensiv gedişinə baxmayaraq dünyanın heterogen məzmunu öz varlığını sürdürməkdədir. Dünya ölkələri və ölkə qrupları arasında əsaslı fərqliliklər daha da genişlənərək qlobal iqtisadi sistemi ziddiyyətli "bütövlük" halına gətirmiş, qarşılıqlı münasibətlərdə uyğunsuzluq getdikcə daha sürətli şəkildə dərinləşməkdədir. Bir sözlə, ümumbəşəri rifahın təminatı nöqteyi-nəzərindən, ultraqlobalistlərin gözlədikləri kimi qlobal vahidləşmə, qlobal səviyyəli "eyniyyətə" gəlmə yerinə, tam əks proses getməkdədir. Eləcə də, dünya ölkələri arasında inkişaf prizmasından formalaşmış "uçurumla" bağlı da analoji situasiya müşahidə edilməkdədir. Ölkələrarası fərqliliklər çox geniş diapazonu əhatə edir: həm ictimai həyatın bütün spektrinə, həm də ayrı-ayrı göstəricilər arasındakı nisbətlərə qədər: məsələn, inkişaf səviyyəsini xarakterizə edən ÜDM-un adambaşına düşən hissəsi göstəricisi üzrə dəyişmə diapazonu 108 min dollarda (Lüksemburq) 300 dollara (Burundi) qədər genişliyə malikdir.

Eyni zamanda inkişaf səviyyəsinə və iqtisadi gücünə görə dünyanın birinci iqtisadiyyatı olan ABŞ-ın analoji göstəricisi Qətərin göstəricisinin təxminən 50%-ni təşkil edir. Və, Qətər – inkişaf etmiş ölkə hesab olunmur. Şübhə yoxdur ki, qlobal sosio-iqtisadi reallığın adekvat qiymətləndirilməsi zəruriliyinin əsas çıxış nöqtələrindən biri dünya ölkələrinin həmin adekvatlıqla real məzmunlu tipologiyasının aparılmasıdır.

Tarixən bu yönümdə müxtəlif kriteriyalardan, bir çox hallarda kriteriya çoxluğundan istifadə olunmuş, bu gün də həmin ənənə davam etməkdədir. Və, maraqlıdır ki, dünya ölkələrinin tipologiyasını aparan strukturlar – BMT, BVF, DB – vahid deyil, müxtəlif kriteriyalardan istifadə edirlər: ölkənin coğrafi mövqeyindən inkişaf səviyyəsindən tutmuş gəlirlilik dərəcəsinə qədər!

Beləliklə, dünya ölkələrinin tipologiyası müxtəlif əlamətlər üzrə aparıla bilər. Yəni, görmə bucağından və tədqiqatın predmet özəlliyindən asılı olaraq dünya ölkələrinin müxtəlif qruplar şəklində təsvir etmək mümkündür.

Şəkildə əks olunmuş tipologiyadan göründüyü kimi, bir yox, 3 kriteriyadan istifadə olunmuş və bəzi ölkələrin iki fərqli qrupa daxil edilməsi müşahidə olunur. Əvvəla qeyd edək ki, son 30-40 il ərzində birmənalı olaraq "inkişaf etmiş ölkələr" 2 tipə və 5 qrupa bölünür. Yəni yüksək inkişaf, orta səviyyəli inkişaf etmiş ölkələr, həmin qrup arasında yaranmış əsaslı fərqlər ucbatından ayrı-ayrı qruplar şəklində təsnif olunurlar. Yüksək inkişaf etmiş ölkələr öz növbəsində 3 qrupa parçalanırlar. Şəkildən də göründüyü kimi, dünyanın əsas ölkələri heç də dünyanın ən varlı ölkələri deyildirlər. Milli dövlətlərə münasibətdə varlılıq anlayışının interpretasiyası yalnız bir makrogöstəriciyə əsaslanır: ÜDM-un adambaşına düşən hissəsi. Əgər bu göstərici həm də alıcılıq qabiliyyətinin pariteti əsasında hesablanırsa, onda bütün yaşam səviyyəsi haqqında daha düzgün dəyərləndirmə aparmaq mümkün olur.

Varlı dövlət – milli sosiumun, hər bir vətəndaşın varlı olduğu dövlətdir. Iri iqtisadiyyat, Qlobal Məcmu Məhsulda yüksək xüsusi çəki, dünyanın iqtisadi nizamının qurulması və davam etdirilməsində iştirak ölkənin "əsas", aparıcı ölkə olduğunu təsbit edir. Amma, bu xüsusi tipologiyadan da göründüyü kimi, həmin ölkənin birmənalı şəkildə varlı olduğuna, həmin ölkədə həyat səviyyəsinin ən yüksək nöqtədə qərarlaşdığına dəlalət etmir. Yəni, bu kateqoriyadan olan ölkə varlı olmaya bilər. Məsələn, 11 trln.dollarlıq ÜDM istehsal edən və dünyanın 2-ci iqtisadiyyatı olan Çin adambaşına ÜDM göstəricisinə görə dünyada 60-cı yerdədir. Göründüyü kimi, "inkişaf etmiş ölkə" ifadəsi daha çox yayğınlığı ilə səciyyələnir. Ümumiyyətlə, ifadə tərzinin incələnməsi də paradoksallığın mövcudluğunu üzə çıxarır! "İnkişaf etmiş" – yəni, bu ölkədə "inkişaf dediyimiz şey artıq başa çatıb, yekunlaşıb və yenidən bu prosesə başlamasına (ölkənin) ehtiyacı yoxdur?! Yəqin ki, əlavə əsaslandırmağa lüzum yoxdur.

Inkişaf – ölkənin mövcudluğu və gələcəyini təyin edən prosesdir. Yəni, bütün ölkələr inkişaf prosesindədirlər. Prosesin sonlu, hüdudlu olması o anlama gəlmir ki, inkişaf artıq dayanıb və heç vaxt bərpa oluna bilməz. Sonluluq – prosesin tsiklik yaxud dalğavari yeniləşməsinin əvvəli, çıxış nöqtəsidir. Buna görə də, əksər dünya ölkələri, əgər bu prosesdə məntiqi inkar etmiriksə, inkişaf etməkdə olan ölkələr kimi qəbul olunmalıdır. XXI əsrin birinci yarısında ölkələri həyat səviyyəsinə, insan inkişafı dərəcəsinə, sosial tərəqqi göstəricisinə, ekoloji effektivlik səviyyəsinə görə təsnifləşdirmək, gələcəyə yönəlik dayanıqlığa necə nail oluna bilər sualına cavab axtarışında istinad nöqtəsi kimi çıxış edə bilər. Modernizm erasının qərarlaşdırdığı və artıq ənənəvi səciyyə daşıyan yanaşma tərzlərindən, baxış bucaqlarından uzaqlaşmaq lazımdır. Söhbətin gələcəkdən getdiyi təqdirdə bu "imtina" xüsusi önəm daşımağa başlayır.

Ənənəvi tipologiyada inkişaf etməkdə olan ölkələr qrupu ilə bağlı analoji nöqteyi-nəzər olduğu kimi qalmaqdadır.




*Şəkil 2.2. Dünya ölkələrinin tipologiyası*

Ənənəvi xarici iqtisadi fəaliyyətin geoiqtisadi yanaşma ilə əvəzləndiyi müasir dövrdə dünya ölkələrinin məhz "ölkə" kimi tipologiyası ümumiyyətlə, öz aktuallığını itirir. Belə ki, ölkənin "ölkə-sistemə" keçidi klassik baxışların geoiqtisadi fəaliyyət nöqteyi-nəzərindən ümidsiz şəkildə köhnəldiyini ortalığa qoyur. Ayrıca götürülmüş bir ölkənin beynəlxalq arenada iqtisadi fəaliyyətinin effektivlik dərəcəsi ayrı-ayrı ölkələrin yeri və rolundan daha çox, həmin ölkələrin yerləşdiyi geoiqtisadi məkanın spesifikasından asılılığa düşür.

Eyni zamanda, geoiqtisadi yanaşma – dünya ölkələrinin tipologiyasını effektivlik və rasionallıq aspektindən həyata keçirməyə imkan verir.

Dünyanın geoiqtisadi arxitekturası dünya – sistem nəzəriyyəsinə istinadla fərqli tipologiya ortalığa qoyur.

Göründüyü kimi, ənənəvi tipologiyada dünyanın əsas ölkələri kimi səciyyələndirilən qrup yoxdur. Onun yerinə yeni Şimal qruplaşması var. Yəni, Şimal – iki səviyyədə nəzərdən keçirilir: Yeni Şimal və ənənəvi Şimal. Əsas ölkələr qrupundan Yeni Şimalda cəmi 4 ölkə - ABŞ, İngiltərə, Almaniya və Fransa yer almaqdadır. Bu qruplaşma, həm də dünyanın ən iri TMK-larını özündə ehtiva edir. Və, bugün dünya iqtisadiyyatındakı "oyun qaydaları" məhz həmin qruplaşma – Yeni Şimal tərəfindən formalaşdırılır və həyata keçirilir. Sxemdən də göründüyü kimi, ənənəvi Şimal-Qərb ölkələrinin əhatə edir.

Eyni zamanda, dünya iqtisadiyyatının arxitekturasında transmilli geoiqtisadi məkanlar və "dərin cənub" lokallaşması yer almışdır. Bu cür qruplaşma, qlobal iqtisadiyyat miqyasında transmilli geoiqtisadi məkanların önəmli (aparıcı) rol oynaması ilə bağlıdır. Eyni zamanda, dünya iqtisadiyyatının arxitekturası ümumi formada deyil, geoiqtisadi lokallaşma (geoiqtisadi məkanın) prizmasından verilmişdir. Və, dünya – sistem nəzəriyyəsinin 3 strukturlu dünya iqtisadiyyatları prinsipi arxitekturada əyanilik məqsədilə öz əksini tapmışdır.

Nəhayət, inkişaf, ələlxüsus dayanıqlı inkişaf nöqteyi-nəzərindən əsl diqqət yetirilési məsələ hansısa ölkənin hansısa kriteriyalara görə dünyadakı yeri və mövqeyi deyil, həmin ölkənin də aid olduğu geoiqtisadi məkanda fəaliyyət göstərmək imkanları, məkanın sərhəd keçiriciliyi və "oyun qayda"larının əlverişliyidir.

Əsas cəlbedici məqam ondan ibarətdir ki, konkret geoiqtisadi məkanda sistemli fəaliyyət nəinki məcmu iqtisadi effektin yüksəlməsində mühüm rol oynayır, həmçinin ölkənin sosio-iqtisadi tipi ilə yanaşı sosio-mədəni tipinində dövrün tələbləri aspektindən "qloballaşdırır", zənginləşdirir və daha yüksək keyfiyyət səviyyəsinə çıxmasına imkan yaradır.

Yekunda, qeyd etdiyimiz proseslər çoxluğu geoiqtisadi məkan çərçivəsində milli iqtisadiyyatlararası inteqrasiya əlaqələrinin intensivliyini əhəmiyyətli dərəcədə artırmaqla dayanıqlı inkişaf trayektoriyasına keçid üçün münbit zəmin hazırlayır. Eyni zamanda, ayrıca götürülmüş bir ölkə üçün fəaliyyət göstərdiyi geoiqtisadi məkanda tərəf-müqabillərinin milli dövlətlər yoxsa transmilli yaxud çoxmillətli korporasiyalar olmasının heç bir fərqi yoxdur. Söhbət açdığımız inteqrativ bağlılığın sırf korporativ məzmun daşıması isə daha məqsədəuyğun hesab edilə bilər (siyasi-ideoloji dəyərlərə toxunmadan).




*Şəkil 2.3. Geoiqtisadi dünya düzəninin sadələşdirilmiş strukturu.*

Milli iqtisadiyyatın inkkişafı ilə onun sosio-iqtisadi tipi arasındakı məntiqi bağlılıqdan çıxış etməklə dünya ölkələrinin tipologiyasını fərqli müstəviyə keçirmək və ölkə qruplarının daha gerçəkli "obrazını" formalaşdırmaq, fikrimizcə daha məqsədəuyğun olardı.

Tipologiyada istifadə olunan əlamətlər çoxluğu ilə müqayisədə cəmiyyətin tipi reallığı daha dəqiq əks etdirə bilir. Ona görə ki, bu əlamət birmənalı olaraq, keyfiyyət yüklüdür. Məsələn, modernist paradiqmadan yaralanmaqla 3 cəmiyyət tipindən danışa bilərik:

- Ənənəvi cəmiyyət tipi: dini cəmiyyətlər də bu tipə aiddir. Məsələn, dünyada 13 islam dövləti mövcuddur ki, bu dövlətlərdə sosio-iqtisadi proseslər şəriətin prinsipləri əsasında tənzimlənir. Yəni, qlobal səviyyədə formalaşmış "oyun qaydaları" və onların dəyər tutumu bu ölkələr üçün elə bir önəm daşımır. Yaxud, "dərin cənub" ölkələri eyni görmə bucağından qiymətləndirilə bilər. Digər tərəfdən, industrial cəmiyyət tipinə sahib olan ölkələr də modernləşmənin müxtəlif mərhələlərində olduqları üçün fərqli məqsədlərə doğru irəliləyirlər (inkişaf nöqteyi-nəzərindən).
- Postindustrial ölkələr qrupu ən az saylıdır. Eyni zamanda, postmodern dəyərlərin kütləvi şəkildə qərarlaşması prosesi hələ davam etməkdədir. Bununla belə, inkişaf prosesinin sistemli və kompleks səciyyə daşıması, çıxış nöqtəsinin rəqəmlərlə ölçülən hansısa bir göstəricilərə istinadla aparılan tipologiyanın xüsusi bir önəm daşımadığını ortalığa qoyur. Belə hesab edilir ki, hər bir ölkədə, gec ya da tez modernist paradiqmanın irəli sürdüyü sintaqramma uyğun cəmiyyətin tip dəyişikliyi baş verəcəkdir. Amma, qlobal reallığın məzmunu inkişafın, o cümlədən tip dəyişkənliyinin düzxəttli olmadığını bütün təfsilatı ilə sübuta yetirmişdir.

Əlbətdə ki, cəmiyyət tipləri arasında həm dəyər sistemi, həm də sosio-iqtisadi proseslərin təşkili, tənzimlənməsi və qarşıya qoyulan məqsədlər baxımından kəskin fərqlər mövcuddur. Qeyd etdiyimiz müxtəliflik – məzmun və təzahür formaları üzrə deyil, birbaşa mahiyyət müxtəlifliyidir. Hesab edirik ki, bu aspekt milli iqtisadiyyatlararası qlobal səviyyəli inteqrativ bağlılığın gerçəkləşməsi prosesinə və deməli, nəticədə qlobal iqtisadi inkişafın dayanıqlılığına nail olma imkanlarına əks-zərbə vuracaqdır.




***Şəkil 2.4. Dünya ölkələrinin cəmiyyət tipləri aspektindən tipologiyası***

## §2.3. Dünya ölkələrinin iqtisadi inkişaf modelləri: nəzəri xülasə

Neoliberal paradiqmanın “vahid” inkişaf trayektoriyasını yeganə düzgün və alternativi olmayan yanaşma kimi ortalığa qoymasına baxmayaraq, inkişaf modellərinin çox zəngin bir panoraması formalaşmışdır.

Əslində, qeyd edilən müxtəliflik – təbii xarakterlidir. Hər bir ölkə yaxud oxşar sosio-iqtisadi xüsusiyyətlərə malik olan ölkələr qrupu inkişafın model identifikasiyasını özlərinəxas olan spesifikadan çıxış etməklə həyata keçirirlər. Bu anlamda nəinki ölkənin dünya təsərüfatında və beynəlxalq əmək bölgüsündə yeri, inkişaf səviyyəsi, sahib olduğu potensialın strukturu və s., həm də mental – dəyərlər sistemi həlledici əhəmiyyət kəsb edirlər. Model seçimində yaxud mövcud inkişaf modelləri arasındakı fərqlərin olmasında sadaladığımız (və,sadalamadığımız) amillər mühüm rol oynayırlar.

Bu paraqrafda model müxtəlifliyinin dünya ölkələrinin aşağıda sıraladığımız qrupları (ölkələri) üzrə təsvirini verməyi daha məqsədəuyğun hesab edirik:

1) Inkişaf etmiş ölkələr qrupu;
2) Inkişaf etməkdə olan ölkələr qrupu:
    a) Çin;
    b) Yeni sənaye ölkələri qrupu;
    c) Latın Amerikası ölkələr qrupu;
    d) Postsosialist ölkələr qrupu;
    e) Ənənəvi cəmiyyət tipli ölkələr qrupu;

Hesab edirik ki, bu cür bölgü inkişaf modelləri arasındakı müxtəlifliliyi daha dəqiq təsvir etmə və anlama imkanı yaradır.

Inkişaf etmiş ölkələrdə 4 model tipi mövcuddur: liberal, korporativ, sosial-demokrat və qitə modeli;

Liberal inkişaf modeli bir qayda olaraq, Amerika (ABŞ) modeli kimi ifadə olunur. Bununla belə, Kanada və İngiltərədə də tətbiq edilən inkişaf modeli liberal modeldən o qədər də fərqlənmir. Modelin əsas ağırlıq mərkəzi yaxud əsas hədəfləri rəqabətin inkişafı, iri şirkətlərin təsir dairəsinin daha da genişlənməsinə imkan verməmək (antitrest qanunu) və əksər sosial qrupların maraqlarının müdafiəsidir. Dövlət – sahibkarlıqla demək olar ki, məşğul deyildir.

Modelin əsas xüsusiyyətləri: 1) iri şirkətlərin dominantlığı, kiçik biznesin avtonomluğu; 2) Bazar mexanizminin şəriksiz hegemonluğu; 3) Sosial – iqtisadi differensiya maksimum həddədir; 4) Tənzimləmə vergi və pul-kredit siyasəti vasitəsi ilə həyata keçirilir.

Sosial-demokratik model - əsasən Skandinaviya ölkələrinə xas olan inkişaf paradiqmasıdır. Modelin əsas məzmunu aşağıdakılarda əks olunmuşdur:

1) Iki əsas imperativ vardır: tam məşğulluq və gəlirlərin "bərabərləşdirilməsi";
2) Makrosabitlik, yüksək həyat səviyyəsi, yüksək iqtisadi artım;
3) Çox güclü sosial yönümlülük: Dövlət büdcəsinin 50%-dən çoxunu sosialyönümlü xərclər təşkil edir.
4) Vergilərin yüksək səviyyəsi;
5) Qarşılıqlı güzəşt sistemi, yüksək korporativ və siyasi mədədniyyət;
6) Hökümət → biznes (iri və kiçik) arasında tərəfdaşlıq münasibətləri;
7) Innovasiyanın hökümət tərəfindən dəstəklənməsi;
8) Insan kapitalının yüksək inkişaf səviyyəsi;
9) Və, nəhayət effektiv dövlət nəzarəti: gəlirlərə və kapitaldan istifadə səviyyəsinə, qiymət səviyyəsinə və məşğulluq səviyyəsinə. Məşğulluğun 1/3 dövlət tərəfindən təşkil olunur.

Qitə modeli təkcə Almaniyada deyil, eləcə də Fransa və İtaliyada tətbiq olunur. Modelin fundamentində sosial bazar təsərrüfatı dayanır. Insana – sosial məsuliyyətini nəzərə almaqla öz həyat şəraitini yaxşılaşdırmaq imkanı və dəstəyi verillir. Dövlət → özəl sektor əməkdaşlığı yüksək səviyyədədir. Fransa və İtaliyada ümummilli iqtisadi proqramlaşdırma həyata keçirilir. Dövlət sosial öhdəliklər götürür və aktiv surətdə sahibakarlıqla məşğul olur.

Modelin əsas xarakterik cəhətlərinə aiddir:

1) Fərdi sahibkarlıq fəaliyyəti azadlığı və rəqabətin dövlət tərəfindən dəstəklənməsi;
2) Sosail bərabərlik;
3) Innovativ və texnoloji inkişafın dəstəklənməsi;
4) Dövlət → bazar münasibətlərinin şəffaf və ədalətli şəkildə qurulması;
5) Güclü bank sektoru.

Korporativ model – Yapon inkişaf modelidir. Bu model liberal → sosial-demokratik modellərə münasibətdə orta mövqe tutur. Yəni, ABŞ-a nisbətən daha sosial, Avropaya nisbətən isə daha liberaldır.

Bu bir korporativ tənzimləmə modelidir. Dövlət – sahibkarlıqla məşğul olmur. Milli ənənələrə uyğunluq (kollektivçilik, qruppizm) yüksək səviyyədədir. İndikativ planlaşdırma həyata keçirilir ki, nəticədə həm hökümət, həm özəl sektor eyni yönümlü olurlar.

Beləliklə, yapon modelinin 4 əsas prinsipi mövcuddur:

1) Ciddi dövlət tənzimlənməsi, istehsal amillərinin yüksək mobilliyi;
2) Ixrac yönümlülük;
3) Xarici kapitalın (innovativ sferaya) cəlb edilməsi;
4) Iri şirkətlərə prioritet yanaşma.

Inkişaf prosesində mental aspekt – zəhmətsevərlik, intizam, təmkinlik, minimal tələbat, kollektivçilik, işverənə sədaqət və s. mühüm rol oynamaqdadır. Sosial ədalətlilik, ələlxüsus gəlirlərin bölgüsü sferasında yüksək səviyyədədir. Menecerlə (rəhbərlə) işçinin əmək haqqı arasındakı nisbət maksimumu 1:10-dir. Məsələn, ABŞ-da analoji göstərici 1:100-dir.

Çinin inkişaf modelinin əsas fərqləndirici xüsusiyyəti ondan ibarətdir ki, bu ölkə nəzəriyyənin qeyri-mümkün hesab etdiyini reallaşdıra bilmişdir. Hələ 1970-ci ilin əvvəllərində sosialist bazar təsərrüfatı yaratmağı əsas vəzifə kimi qarşıya qoymuş və nə qədər paradoksal görünsə də, mümkünsüz olanın öhdəsindən, hələ ki, gəlməkdədir. “Hələ ki” ifadəsini ona görə işlədirik ki, kommunist ideologiyası ilə bazar kortəbiiliyi, ali şüurluluqla “görünməyən əl”in uzunmüddət birlikdə olması ehtimalı sıfırdır. Antoqonist ziddiyyətlilik ya tərəflərdən birinin dəyişməsi ilə yekunlaşacaq, ya da bütövlükdə ölkənin çöküşü qaçılmaz olacaqdır.

Çinin inkişaf modeli qradualist təbiətlidir. Əsas xarakterik cəhətlərə aşağıdakıları aid etmək olar:

1) Dövlət bazarı tənzimləyir, bazar isə subyektləri yönləndirir; Artım sabit qədəmlidir və sürətlə intensiv yola keçməkdədir;

2) Metodoloji aspektin eklektik xarakteri və özünəməxsusluğu; a) Reallığa əsaslanma, “indi”nin gələcəklə müqayisədə üstün aktuallığı; b) ilkin olaraq – məhsuldar qüvvələrin inkişafı; c) islahatların makrosabitlik və inkişafla paralel gedişi; d) Makrotənzimləmə və makronəzarət – yəni, real iqtisadi tənzimləmə və kommunist partiyasının nəzarəti arasında “düzgün” nisbətlərin qurulması;

- Tənzimləmə və nəzarətin əsas sferaları: a) kənd təsərrüfatı və dövlət müəssisələrində effektivlik çox aşağı səviyyədədir; b) Regional fərqlər getdikcə dərinləşir. Əsas həlqə: ictimai mülkiyyətdir. c) Plan, pul dövriyyəsi və maliyyə ehtiyatlarının qarşılıqlı asılılığı mexanizmi qurulmalıdır. d) Sosial təminat və tibbi sığorta sistemi təkmilləşdirilməlidir. e) Milli və xarici subyektlər üçün eyni start vəziyyəti formalaşdırılmalıdır. f) iqtisadi qanunvericilik təkmilləşdirilməlidir.

Çində bugünə formalaşmış situasiyanın xüsusi cəhətləri də prosesdə müəyyən rol oynayırlar:

- Əhalinin say çoxluğu; Ərazinin böyüklüyü; vahid partiyanın (kommunist partiyası) hökmranlığı; Kəndlilərin mülkiyyət hüququnun yoxluğu; Etnik xarici çin kapitalının böyük təsiri (məsələn, Honkonq, Tayvan, Sinqapur və s. əhalisi çinlilərdən ibarətdir).
- Ucuz ekologiya, sosial siyasətin yetərsizliyi, doğum məhdudiyyətləri və s.

Inkişaf modelinin effektivliyini təmin edən amillər:

1) İxracyönümlülük; 2) Ucuz işçi qüvvəsi; 3) Dövlətin aktiv rolu; 4) Xarivi investisiya və yeni texnologiyaların kütləvi idxalı; 5) ÜDM-da investisiyaların yüksək xüsusi çəkisi (təxminən 40%); 6) Təkpartiyalılıq – siyasi sabitlik və cəlbedicilik;

Çin – bugün dünyanın 2-ci iqtisadiyyatıdır. Və, bir sıra məhsullar üzrə böyük xüsusi çəkiyə malikdir. Məsələn, dünya üzrə kömür hasilatının 50%-i (3mlrd.ton), dəmir filizinin 40% (1mlrd.ton) filizin emal məhsulu istehsaılının 45%-ni (600 mln.ton), sement istehsalının 55%-ni (1,9 mlrd.ton) və s. verir. Iqtisadiyyatın iriliyi bəzi tədqiqatçı və siyasətçilərin yalnış proqnoz vermısinə səbəb olmuşdur. Iddia olunur ki, yaxın gələcəkdə Çin dünyanın liderinə çevriləcəkdir. Fikrimizcə, bü mümkün deyildir. Istehsalın həcmi ölkənin dünyadakı yerini müəyyənləşdirir ifadəsinin inkişafla, ələxüsus dünya liderliyi ilə bağlılığı yoxdur. Ona görə ki, həyat səviyyəsi, elementar insan azadlıqları, insan inkişafı və s. deyilən və çox mühüm əhəmiyyət kəsb edən məsələlər mövcuddur. Bu aspektdən Çin dünyada 90-cı sırada dayanır. Inkişafın hansı dayanıqlılığından danışmaq olar ki, havaya buraxılan ($CO_2$) karbon qazının dünya üzrə 30%-i

Çinin payına düşür. Hər il ekoloji zəhərlənmədən 500 min nəfər həlak olur və s. dünya liderliyinə çıxış üçün təkcə iqtisadi, hətta siyasi –hərbi güc belə yetərli deyildir.

Dünyaya ideya vermək lazımdır. Məsələn, ABŞ-ı azadlıq və demokratiya ideyalarını önə sürdülər. Yəni, təkcə fiziki – maddi deyil, həm də ruhi-mənəvi təsir imkanlarına yiyələnmək lazımdır ki, dünya liderliyinə iddia edə biləsən!

Əvvəldə də qeyd etdiyimiz kimi Çində bugün yaranmış və inkişaf illyuziyası doğuran situasiyanın dəyişmə ehtimalı kifayətqədər böyükdür. Bu qəbildən qəti əminlik haradan qaynaqlanır? Məlumdur ki, postindustrial cəmiyyət tipinin inkişafda gördüyü, can atdığı əsas hədəf – Azadlıqdır. Özü də onun təkcə neqativ deyil, həm də pozitiv formasında! Yəni, heç bir məhdudiyyət sistemi tətbiq edilməyən iradə azadlığı – hamıya və hər kəsə münasibətdə! Kommunist ideologiyası azadlığı dərk edilmiş zərurət hesab edir; Əvvəla “zərurət” anlayışı konkret determinik məna daşıyır; Azadlıq isə - heç bir determinasiyaya tabe olmayandır – yəni “azaddır”! Və, bu aspektdən də zərurətin dərk edilib – edilməməsinin mahiyyət rakursundan heç bir fərqi yoxdur; ikincisi, axı, nəyin zərurət olduğunu da kommunist partiyası müəyyənləşdirir. Belə olan tərzdə hansısa bir obyektivlikdən yaxud qanunauyğunluqdan danışmaq yersizdir. Bu aspektdən çoxlu sayda ziddiyyətli məqamları nümunə kimi göstərmək olar. Ona görə də, Çində situasiyanın dəyişəcəyi ehtimalı həmişə yüksək olaraq qalacaqdır.

Yeni sənaye ölkələri – inkişaf etməkdə olan ölkələr qrupunda xüsusi yer tuturlar. Bu qrupun müəyyənləşdirilməsində müxtəlif yanaşmalar (ölkələrin sayı ilə bağlı) mövcuddur. Bizim fikrimizcə, 14 ölkələri qruplaşdırma daha düzgün yanaşma hesab edilməlidir.

Bu qrupun formalaşmasında (1960-cı illərdən başlayaraq) 4 dalğanı fərqləndirirlər:

I dalğa: Cənubi Koreya, Sinqapur, Honkonq, Tayvan;

II dalğa: Malayziya, Tailand, Hindistan, Çili;

III dalğa: Kipr, Tunis, Türkiyə, İndoneziya;

IV dalğa: Filippin, Çin;

Bu qrupa daxil olan ölkələrin əsas nailiyyətlərindən biri iqtisadi artımın böyük sürətlə getməsidir. Bu aspektdən, yəni artımın sürətinə görə YSÖ-ləri ABŞ –ı 8 dəfə, Yaponiyanı 4 dəfə qabaqlayırlar. Inkişaf modelinin spesifik cəhətləri sırasına aşağıdakıları aid etmək olar:

- Yüksək artım tempi: əksər tədqiqatçılar bunu 3 amillə bağlayırlar: a) ixracyönümlülük və ümumiyyətlə xarici amillərin, ekzogen mühitin həlledici rol oynaması; b) Dövlət → özəl sektor münasibətlərinin unikal xarakter daşıması; c) Milli mentalitet;
- Dövlətin aktiv rolu: dövlət müəssisələri aid olduqları sferanın aparıcı qüvvəsi kimi çıxış edirlər.

Ümumiyyətlə, dövlət – 1) Sənaye siyasətinin məqsədlərini, parametrlərini və istiqamətini müəyyən edir; 2) Sosial və iqtisadi infrastrukturu inkişaf etdirir; 3) Sənaye sahibkarlığı ilə məşğul olur; 4) Milli sahibkarlığın inkişafına dəstək verir.

Funksional aspektdən yanaşdıqda isə daha çox ixrac siyasətinin dünya bazarının tələbatları üzərində qurulması, zəif inkişaf etmiş ölkə bazarlarının prioritet kimi götürülməsi, bazarların mərhələli diversifikasiyasının aparılması, əmtəə çeşidlərinin daima yenilənməsi, yeni nişa və prioritetlərin seçilməsi, azad iqtisadi zonalara geniş yer verilməsi xüsusilə diqqət cəlb edir. Və, əlbəttə ki, mənəvi-etik dəyərlərin əlahiddə rolu və yeri vardır.

Latın Amerikası ölkələri arasında fərli xüsusiyyətlərin çoxluğuna baxmayaraq, inkişafın model identifikasiyası rakursunda bir sıra oxşar cəhətlərin də mövcudluğunu qeyd etmək olar:

1. Bərpa xərcləri ayrılmadan təbii resursların intensiv istismarı;
2. Ucuz kütləvi işçi qüvvəsi;
3. Sosio-iqtisadi effektivliyin ifrat aşağı səviyyədə qərarlaşması;

4. Korrupsiya və kriminalın geniş yayılması;
5. Sosial bərabərsizliyin ifrat dərinliyi;
6. Yüksək səviyyəli xarici borc;

Model yanaşması nöqteyi-nəzərindən sözügedən regiona münasibətdə 3 qrupu fərqləndirmək olar:

I. Sakitokean hövzəsi alyansı: Kolumbiya, Peru, Çili, Meksika. Bu qrupun inkişaf modelinin əsas xüsusiyyətləri aşağıdakılardan ibarətdir:

1) Dünya iqtisadiyyatına, xarici bazarlara maksimum açıqlıq;
2) Liberallaşma – həm proses, həm də nəticə olaraq, yüksək qiymətləndirilir;
3) Kapitala (həm yerli, həm də xarici) dövlət zəmanəti.

II. Mühafizəkar qruplaşma – Merkosur: Braziliya, Argentina, Uruqvay, Paraqvay. Modelin əsas xüsusiyyətləri açıqlıq → proteksionizm ikiliyində ikincinin xeyrinə formalaşmış, əsas məqsəd daxili (endogen) imkanlar və resurslar hesabına inkişafa nail olmaqdır.

III. Radikal qruplaşma – Boliviya Alyansı: Venesuela, Boliviya, Kuba, Ekvador və s. Əsas xüsusiyyətlər aşağıdakılardan ibarətdir:

1) Milli, proteksionist və populist siyasət;
2) Xarici bazarlara çıxışın selektiv məhdudlaşdırılması;
3) Regionun pul hesablaşma mexanizminin qurulmasına cəhd göstərilməsi.

Postsosialist ölkələr qrupu üzrə tamamilə fərqli situasiya formalaşmışdır. Model identifikasiyasının müşkülə düşməsi bu ölkələrin yaşadığı sistem dəyişikliyinin özəllikləri ilə bağlıdır.

Tərtibçilər hesab edirdilər ki, "şokun" doğurduğu itkilər "şok"-dan əvvəlki situasiyanın itkilərindən az olacaqdır. Bu yanaşma neoklassikanın artıq ehkam "statusu" almış tezislərinə söykənir: "Təkmil" mühit azad bazar iqtisadiyyatıdır. Ümumi tarazlığın əsasında individlərin rasional davranış tərzi dayanır.

Qradualizmdə isə keçid sürətinin tezliyi həm mənasız, həm də zərərlidir. Keçid – uzunmüddətlidir və "şok"dan fərqli olaraq məcmu tələb və məcmu təklifin strukturunun dəyişməsinə xidmət edir. Böyük resurs tutumludur. Bu yanaşma, dəyişikliyin zamanca sürətlənməsinə deyil, tədriciliyinə və bu aspektdən də hərəkət ideyasına istinad edir.

Qeterortodoksal yanaşma – mahiyyətcə ortodoksal nəzəriyyənin təftişidir. Sürətli hərəkət və son nəticənin vacibliyini rədd etmir. Eyni zamanda, yeni nəzəri ideya da ortalığa qoyulmur. Prosesin əsas ağırlıq mərkəzini institutsional aspektin üzərinə keçirir.

Hər üç yanaşma - əslində transformasiyanın sistemliliyi nöqteyi-nəzərindən bir-birini tamamlayırlar. Amma, iqtisadi siyasətin konkretliliyi baxımından, əlbəttə də ki, fərqlər meydana çıxır:

"Şok" terapiyası – sosiumun bugünkü tələbatlarını və ictimai rəyi nəzərə almadan prosesi sürətlə tamamlamağı və keçidin "təhlükəli" trayektoriyasında dayanmamağı tövsiyyə edir. Bu model üçün əsas olanlar maliyyə sabitliyi (hətta dövlət xərclərinin - əsasən sosial yönümlü – azaldılması hesabına olsa da), qiymət liberallaşması, sürətli özəlləşdirmə və iqtisadi açıqlığın təminatından ibarətdir.




***Şəkil 2.5. Postsosialist ölkələrdə transformasiya – inkişaf modellərinin qısa xülasəsi.***

Qradualizm isə istehsal və məşğulluğun struktur adaptasiyası və sənaye siyasətini ön plana çəkir. Struktur – institutsional və fərdi iqtisadi davranışlarda baş verən dəyişikliklərə uyğunlaşır. Tələskənliyə yol verməməyi, istehsalların sabitliyinin qorumaq yolu sistemli islahatların həyata keçirilməsi üçün zəruri olan əlverişli sosial şəraitin yaradılmasını prioritet kimi qəbul edirlər. Qeterortodoksal yanaşmada isə, bir tərəfdən, hər iki yanaşmanın hissəvi sintezi, digər tərəfdən mülkiyyət hüququ, antiinhisarçılıq, maliyyə bazarının infrastrukturunun inkişafı iqtisadi siyasətdə mərkəzi yer tuturlar. Yeri gəlmişkən qeyd edək ki, problemlə bağlı "köhnə" və "yeni" institutsionalizm arasında fərqli baxışlar mövcuddur. Belə ki, "köhnə"lərə görə transformasiya prosesi sosial dəyərlərin təkamülü və qeyri-spontan, yəni məqsədyönlü,

şüurlu prosesdir. "Yeni"lərə görə isə keçid prosesi – spontan seçmə yolu ilə institutsional dəyişikliklərin təkamülü prosesidir və son nəticədə "təkmil" azad bazar modeli formalaşır.

Bununla yanaşı, postsosialist ölkələrinə müvafiq olaraq 1990 (Vaşinqton konsensusu) və 1997 (PostVaşinqton konsensusu) illərdə texnokrat hökümət proqramları formasında tövsiyyələr də irəli sürülmüşdür.

Yəni bazar iqtisadiyyatına keçid prosesini yaşayan ölkələr nə etməlidirlər:

| Vaşinqton konsesusu (1990) | Postvaşinqton konsesusu (1997) |
|---|---|
| - Büdcə kəsiri və inflyasiyaya nəzarət;<br>- Sosial xərclər – siyasi yox, iqtisadi yönümlü olmalıdır;<br>- Vergi tutma limiti azaldılmalıdır;<br>- Faiz dərəcəsini bazarın konyukturası müəyyənləşdirir;<br>- Valyuta məzənnəsi ixracı stimullaşdırmalıdır;<br>- Qeyri-tarif məhdudiyyətləri 10-20-%-ə qədər azalmalıdır;<br>- Investisiyalara bərabər rəqabət mühiti yaradılmalıdır;<br>- Sürətli özəlləşdirmə həyata keçirilməlidir;<br>- Dövlətin iqtisadiyyata təsiri minimuma endirilməlidir;<br>- Mülkiyyət hüququ təsbit olunmalıdır. | - Vergi inzibatçılığı gücləndirilməli, yığım həcmi artırılmalıdır;<br>- Torpaq vergisi tətbiq olunmalıdır;<br>- Sosial xərclərin ünvanlılığının təminatı həyata keçirilməlidir;<br>- Banklar üzərində nəzarət gücləndirilməlidir;<br>- Regionlararası ticarət stimullaşdırılmalıdır;<br>- Azad rəqabətlilik təmin olunmalıdır;<br>- Mülkiyyət hüququ qanuni şəkildə qorunmalıdır;<br>- Banklara, fiskal orqanlara, məhkəmələrə müstəqillik verilməlidir;<br>- Təhsil xərcləri artırılmalıdır; |

***Şəkil 2.5. Postsosialist ölkələrə "keçid" tövsiyyələri.***

Son 25 illik təkamülün gedişi göstərir ki, postsosialist ölkələrinin dəqiq, reallığa adekvat və konseptual "sərhədləri" olan inkişaf modeli (özünəxas olma aspektindən) hələ də formalaşma mərhələsindədir. Şübhə yoxdur ki, inkişafın model identifikasiyası real təcrübədən konseptual dəyərləndirmə yolu ilə həyata keçirilir. Yəni, bu anlamda yaranmış situasiyanı təbii qəbul etmək lazımdır.

Ənənəvi cəmiyyət tipində yaşayan ölkələrlə bağlı inkişafın model identifikasiyası homogen məzmunlu deyildir. Belə ki, bu cəmiyyət tipi – qəbul edilmiş yanaşmalara görə - iki fərqli cəmiyyəti özündə ehtiva edir.

1) Arxaik cəmiyyət tipi;

2) Dini cəmiyyət tipi;

Arxaik cəmiyyətlər – özünəməxsus dəyərlər sistemi və təsərrüfat mexanizmi olan müstəqil cəmiyyətdir. Bu cəmiyyətləri qədim dövrdə və ilkin orta əsrlərdə olan analoqları ilə mexaniki surətdə eyniləşdirmək yol verilməzdir. O mənada ki, müasir arxaik cəmiyyətlər bu və ya digər aspektlərində "yeniləşmiş" və tarixi analoqlarından daha üstün vəziyyətlərə malikdirlər. Təsərrüfat tipinin əsas xüsusiyyətləri sırasında aşağıdakıları qeyd etmək olar:

1) Patriarxal təsərrüfat tipi: sahibkarlıq fəaliyyəti çox cüzidir, bazar yox səviyəsindədir; Əsas resurs torpaqdır; kiçik əmtəə istehsalçıları – sənətkarlar, kəndli təsərrüfatları və s. üstün mövqedədir.

2) Dövlətin iqtisadiyyata təsiri yox dərəcəsindədir; İqtisadi proseslərin tənzimlənməsi icma başçıları tərəfindən həyata keçirilir;

3) Mülkiyyət formaları müxtəlifdir. Iqtisadiyyatın texnoloji səviyyəsi ifrat dərəcədə aşağıdır; Əl əməyi dominantdır; İşçi qüvvəsinin ixtisas səviyyəsi mövcud texnologiyalara uyğundur, yəni son dərəcə aşağı səviyyədədir; Və, yekun olaraq məhsuldarlığın dərəcəsi ifrat aşağıdır;

4) Ənənə və adətlər dominant mövqedədir.

Bu qəbildən olan ölkələr dünyanın bir çox regionlarında, əsasən də Saxaradan cənubda yerləşirlər və kənar yardım olmasa humanitar fəlakət baş verə bilər.

## III FƏSİL. CƏMİYYƏT TİPLƏRİNİN TƏKAMÜLÜ PROSESİ: KEYFİYYƏT DƏYİŞİKLİKLƏRİNİN XARAKTERİSTİKASI.

Son orta əsrlərdən eitbarən bəşəriyyətin sosial-iqtisadi inkişaf tarixində tamamilə yeni bir mərhələ başlandı. Neolit inqilabından tutmuş bizim eranın XVI əsrinə qədər olan uzun tarixi dövr (11 min 600 il) ərzində analoqu olmayan yeniləşmə prosesi cəmiyyət quruculuğunun təməl prinsipləri, yaşam standartları və mental dəyərlər sisteminə qədər çox geniş bir diapazonu əhatə edirdi. Düzdür, qeyd etdiyimiz sistem yeniləşməsi bütövlükdə dünyada deyil, yalnız qərb ölkələrində meydana çıxmışdır. Şərq ölkələri isə əvvəlki prosedur və qaydalarla öz mövcudluqlarını davam etdirməkdə idilər. Başqa sözlə, sözügedən yeniləşmə birmənalı olaraq qərb hadisəsi kimi qəbul olunur. Diqqət çəkəndir ki, zooloji sürüdən primitiv ibtidai icmaya keçiddə mövcud olan məzmun identikliyi sonrakı mərhələdə - sivilizasiya mərhələsində pozulmuş, şərq və qərb (Roma və Yunan) cəmiyyətlərinin özünəməxsusluğu formalaşmış və mahiyyət fərqlilikləri sistemli xarakter almışdır və həmin dövrdən etibarən Şərq→Qərb müxtəlifliyi getdikcə dərinləşmiş, müxtəlif keyfiyyət xarakteristikasına malik fərqli cəmiyyətlər formalaşmışdır. Eyni aspektdən şərq (Asiya) və qərb (Antik) təsərrüfatçılıq modelləri təşəkkül tapmışdır...

### §3.1. Modern cəmiyyət tipinin sosial-iqtisadi mahiyyəti.

Müasir elmi fikir – XVI əsrə qədər mövcud olmuş cəmiyyətləri (məzmun və mahiyyət fərqliliklərinə baxmayaraq) bir qayda olaraq, ənənəvi cəmiyyət adlandırır. Yəni, sözügedən dövrə qədərki tarixi prosesdə mövcud olmuş arxaik, dini, quldarlıq və feodal cəmiyyətləri – bütün parametrlər üzrə fərqli cəmiyyət tipləri olsa da, bir ümumi adla (ənənəvi cəmiyyət) ümumiləşdirilir. Əslində isə, sadalananların hər biri fərqli struktura, fərqli dəyərlər sisteminə, fərqli funksional bağlılıqlara malik olan fərqli cəmiyyətlərdir. Qeyd edilən ümumiləşmə yalnız modernist paradiqma çərçivəsində aparılır. Yəni modernist paradiqma modern erasına qədər olan dövrü bir növ eyniyyətdə götürür. Həmin paradiqmaya görə inkişaf məhz ənənəvi cəmiyyətdən modern (müasir) cəmiyyətə keçid prosesidir. Müasir elmi fikirdə cəmiyyətlərin tipologiyası və təsnifatı üzrə çoxsaylı yanaşmalar yer almaqdadır:

- Təkamülçü baxış: İbtidai icma, antik , aqrar, industrial və postindustrial cəmiyyətlər. Cəmiyyət tiplərinin bu ardıcıllıqla növbələşməsi obyektiv tarixi prosesin məntiqi nəticəsidir.
- Formasiyalı baxış: ibtidai icma, quldarlıq, feodal, kapitalist, kommunist cəmiyyətləri fərqləndirmə istehsal və mübadilə üsuluna görə aparılır. Cəmiyyət tiplərinin göstərilən sıra ilə növbələşməsi məhsuldar qüvvələrin inkişaf səviyyəsi ilə istehsal münasibətləri arasında yaranan uyğunsuzluqdur (ziddiyyətdir).
- Sivilizasiyalı baxış: Vəhşilik, barbarlıq, sivilizasiya. Sosio-mədəni amillərin rolu əsas götürülür. Bu yanaşma ənənəvi cəmiyyət→modern→postmodern sintaqramından çıxış edir. Yəni, əsas çıxış nöqtəsi inkişaf və onun keyfiyyət xarakteristikasıdır.

- Blüxerin 3 mərhələli modeli: “Təbii” (natural yaxud ev) təsərrüfatı; “Pul” (yaxud şəhər) təsərrüfatı; “Kredit” (yaxud xalq) təsərrüfatı: Məhsul yeridilişinin uzunluğundan asılı olaraq belə bir təsnifat aparılır.[25]

- J.Qurviçin 5 cəmiyyət tipi: Ən qədim cəmiyyət; Teokratik; “Gənc” cəmiyyət; Feodal cəmiyyəti; şəhər cəmiyyəti. Bu təsnifat aqrar və aqrar-industrial cəmiyyətlər arasında struktur fərqliliyi aşkara çıxarır və s.[26] Hal-hazırda bu qəbildən olan yanaşmaların sayı kifayət qədər çoxdur. Müxtəlif kriteriyalara istinadla aparılan təsnifat və qruplaşdırmaların heç biri sistemli səciyyə daşımır.

Nəzəri baxışların metodoloji yetərsizliyi cəmiyyətlərin tipologiyasında abstrakt quruluşlu qruplaşdırmalardan istifadə zəruriliyi doğurur. Buna görə də, aparılan təsnifatların böyük əksəriyyəti birölçülü məntiqi proseduradan yararlanırlar. Qeyd edilən yönümdə qədim dövrdən formalaşmış müxtəliflik (cəmiyyət tiplərinə münasibətdə) bu gün də davam etməkdədir.

Müasir dünya da cəmiyyət tiplərinə münasibətdə homogen hesab edilə bilməz. Müxtəlifliyin diapazonu o qədər genişdir ki, hər hansı bir ümumilikdən danışmağın heç bir məntiqi əsası yoxdur. Müasir dünya-müxtəlif tarixi epoxalara, müxtəlif sosial zamanlara aid olan ölkələri özündə ehtiva edir:

1) İndustrializməqədərki cəmiyyət tipi: İki əsas növü mövcuddur - Arxaik və dini cəmiyyətlər. Eyni zamanda ənənəvi və modern cəmiyyətlərin statik sintezindən formalaşmış aqrar-sənaye tipli cəmiyyətləri də bu sıraya daxil etmək olar. Ənənəvi-modern qarışığının formalaşdırdığı cəmiyyət tipini arxeomodern (sosioloji baxış) yaxud “Hibrid” cəmiyyət də adlandırmaq olar. Bu baxımdan onun ənənəvi cəmiyyət tipinə aidiyyati dəqiq qiymətləndirmə kimi qəbul edilməməlidir. (Cənubi Asiya, Afrika, Latın Amerikası)

2) Modern yaxud industrial cəmiyyət tipi (inkişaf etməkdə olan ölkələrin böyük əksəriyyəti).

3) Postmodern yaxud postindustrial cəmiyyət tipi (inkişaf etmiş ölkələr).

Beləliklə, yuxarıda da qeyd etdiyimiz kimi müasir elmi fikirdə cəmiyyətin tipologiyası ənənəvi→modern→postmodern sintaqram bazasında aparılır. Başqa sözlə prosesin (tipalogiya) mərkəzi elementi kimi modernizim (müasirləşmə) çıxış edir.

Müasir standartlara görə modern cəmiyyət tipi birmənalı şəkildə inkişaf etmiş cəmiyyət statusunda qəbul olunur. Bütün bunlarla bahəm modernləşmənin (müasirləşmənin) mahiyyət açıqlanması sferasında fərqli yanaşmalar çoxluğu mövcuddur. Digər tərəfdən, modern cəmiyyət - industrial cəmiyyət eyniyyəti var. Bu eyniyyət postindustrial dövrün gerçəkliyi çərçivəsində eyni məzmun daşıyırmı? sualına verilən cavablar da müxtəlif yönümlü və müxtəlif məzmunludur

Yəni XVI əsrdən başlayan modernləşmə prosesinin nəzəri dərki sferasında müxtəlif baxışların geniş panoraması formalaşmışdır.

“Modernləşmə” - ənənəvi cəmiyyətin müasir cəmiyyətə keçidi prosesidir. Prosesin başlandığı ilkin dövrdə (XVI) “müasir” cəmiyyət hansı cəmiyyətdir yaxud hələ mövcud olmayan, gələcəkdə formalaşacaq cəmiyyət tipi nəzərdə tutulursa, onda “indiki dövrü” xarakterizə edən müasirlik nədə təzahür edir? P.Stomka yazır ki, anlayışa 3 aspektdən yanaşmaq lazımdır.[27](3)

1) Modernləşmə - cəmiyyəti irəli aparan əksər sosial (o cümlədən iqtisadi, siyasi və mədəni) dəyişikliklərin sinonimidir.Bu aspektdən yanaşdıqda zooloji sürünün insan cəmiyyətinə keçidi də modernləşmə hesab olunmalıdır.

---

[25] К.Блюхер. Возникновение народного хозяйства. Директмедиа Паблишинг, М:1997.
[26] G.Gourvitch. Determinismes sociauxet liberte humanaivie. Paris.1963. p.261.
[27] П.Штомка. Социология. Анализ современного общества: Пер. с польск. СМ. Червонной. М.: Логос, 2005, 664 с.

2) Modernləşmə - müasirlik anlayışı ilə identik məna daşıyır və XVI əsrdə (qərb ölkələrində) başlanan XIX-XX əsrdə maksimum səviyyəyə yüksələn iqtisadi, sosial, siyasi və mədəni dəyişikliklər kompleksidir. Yəni, modernləşmə - indiki zamanda həyata keçirilən dəyişikliklərdir. Və, yalnız "indi" ilə identik anlam kəsb edir.

3) Modernləşmə -geri qalmış ölkələrin inkişaf etmiş ölkələr səviyyəsinə çatma prosesdir. Yəni, əyalətdən mərkəzə doğru hərəkət trayektoriyasıdır. Bu o anlama gəlir ki, (dünya-sistem nəzəriyyəsi nöqteyi-nəzərindən) "mərkəz" – modern, yarıməyalət-arxeomodern yaxud "hibrid", əyalət isə ənənəvi cəmiyyət tipindədir. Əslində, bu prizmadan baxış ifrat sadələşdirilmiş yanaşma təsiri bağışlayır.

Bu qəbildən olan interpretasiyalarda modernləşmənin nə iləsə bağlılığına (məqsəd,strategiya və s.) ümumiyyətlə, toxunulmur. Yəni, modernləşmə (müasirləşmə) birmənalı olaraq dəyişikliklərin sinonimi kimi yozulur. Amma, dəyişiklik dinamik xarakterli proses olmaqla yüksəlişi deyil, sadəcə olaraq yerdəyişməni, yəni, hər hansı bir yeniləşməni yox, "yüksüz" hərəkəti ehtiva edirsə onda modernləşmə ilə eyniyyətə gətirilə bilməz. Ona görə də, əksər interpretasiyalarda prosesin "gələcəklə" bağlılığı qabarıq şəkildə ifadə olunmalıdır. Eyni zamanda göstərmək lazımdır ki, qeyd etdiyimiz yanaşmalar sosioloji məzmunludur.

Məhz həmin prizmadan yanaşmaqla E.Qiddens müasir cəmiyyəti ənənəvidən fərqləndirən üç əsas cəhətin olduğunu qeyd edir:

1) Sosial proseslərdəki dəyişikliklərin artan surəti; Xüsusi ilə texnoloji dəyişikliklərlə bağlı surətli tezləşmə.

2) Sosial və informativ aspektdən fərqlənən dünyanın müxtəlif rayonlarının bir-biri ilə qarşılıqlı təsirə cəlb olunması (qlobalizasiya).

3) Müasir institutların daxili təbiətinin dəyişməsi;[28]

Məsələnin ümumi şəkildə qoyuluşu ziddiyyətli deyildir. Lakin sadalanan cəhətlərin formalaşma mexanizmi naməlum olaraq qalmaqdadır. Belə ki, texnoloji deferminizm sosial dəyişiklikləri zamanca necə tezləşdirə bilər? Yaxud, dünya ölkələri arasındakı sosial və informativ fərqliliklər (hətta qarşılıqlı təsirin maksimum səviyyəsində də belə) hansı yolla oxşar hala gəlir? Yaxud, müasir institutların – müasir, yəni, modern olmalarına baxmayaraq daxili təbiəti niyə dəyişir və s. tipli suallara adekvat cavab verilmir.

Modernləşən cəmiyyət nələri özündə ehtiva edir sualına isə ümumiləşdirilmiş yanaşma ilə cavab verilir.

Modernləşən cəmiyyət:

- Zəkaya, biliyə və elmə istinad edir;
- Ardıcıl sənayeləşməni həyata keçirir;
- Əmək məhsuldarlığını kəskin şəkildə yüksəldir;
- İdarəetmənin ələlxüsus iqtisadiyyatda rolu yüksəlir;
- İnkişafın dinamizmi və dayanıqlığını təmin edir;
- İctimai sistemi mürəkkəbləşdirir, kommunikasiyanı intensivləşdirir, tədricən dünya ictimaiyyətini formalaşdırır.

Cəmiyyətin tip dəyişkənliyi eləcə də cəmiyyət quruculuğunun sosial məzmunu ilə bağlı neoliberal yanaşma yenə də öz ampluasında qalmaqda davam edir.

Məlumdur ki, cəmiyyət quruculuğunun istiqamətini müəyyən edən "sosial məqsədlər", "ictimai vəzifələr" bir qayda olaraq, "ictimai nemətlər", "ümumi rifah" kimi səciyyətləndirilir. "Çox asanlıqla görmək olar ki, bu anlayışlar məzmun etibarı ilə (nə zəruri, nə də kafi səviyyədə)

---

[28] Э.Гиддунс. Социология. М: 2004

konkret hərəkəti özündə ehtiva etmirlər".[29] Yəni, xalqın rifahı və hər bir fərdin xoşbəxtliyi çoxlu sayda səbəblərdən asılıdır ki, bunu da vahid məqsədlə ifadə etmək (adekvat formada) mümkün deyildir. Cəmiyyət quruculuğunun istiqamət müəyyənliyi kimi bir problemə qeyd olunan yönümdə yanaşma nəyin ilkin, nəyin törəmə və nəyin də mücərrəd olmasından çıxış edir. İfrat fərdiləşmə, sosial bütövlüyün inkarı və yalnız konkret olanın ön plana çıxarılması, gerçəkliyin sistemli dərki nöqteyi-nəzərindən anlaşılmazlıq doğurur. Fərd (individ) – öz qiymətini yalnız fərdlərarası münasibətlər sistemində, intersubyektiv səviyyədə alır. Sistemin mərkəzi fiquru və elementinin individlər olması sosial bütövün reallığını inkar etmir. "Xalqın rifahı" – məhz sosial bütövlükdən qaynaqlanandır və tam şəkildə "vahid məqsədlə" ifadə oluna bilər. "Fərdin xoşvəxtliyi" anlayışı isə sözün ən ciddi mənasında, neoliberalların "söz oyunundan" başqa bir şey deyildir. Xoşbəxtlik – sırf psixoloji effektdir, hiss olaraq ifrat dərəcədə dəyişkəndir və onun hər hansı bir ölçü proseduru mövcud deyildir. Bu anlamda "xalqın rifahı" kimi son dərəcə mühüm əhəmiyyət kəsb edən anlayışı "fərdin xoşbəxtliyi" ilə bir sıraya qoymaq rasional məntiq çərçivəsində başa düşülən deyildir.

Ümumiyyətlə modernləşmə prosesinin nəzəri dərkində 3 istiqamət formalaşmışdır:

1) Liberal yanaşma: Cəmiyyətin tip dəyişkənliyi - ənənəvi cəmiyyətdən modern cəmiyyətə keçiddir. Proses universal xarakterli, yəni, əksər dünya ölkələri üçün identik məzmun daşıyan dəyişikliklər kompleksini əhatə edir. Başqa sözlə, cəmiyyət modernləşməyə bilməz, modernləşmə labüd və qaçılmazdır. Prosesin yekunu olaraq, ənənəvi cəmiyyətə xas olan dəyərlər sistemi modern dəyərlər sistemi ilə əvəz olunur: Demokratiya, azadlıq, rasionalizm, bazar iqtisadiyyatı, informasiya-telekommunikasiya texnologiyaları və s.

2) Radikal yanaşma: Liberal modelli modernləşmə mahiyyətcə, "qərbləşmədir", sırf ideoloji məzmuna malikdir, asılılıq inkişafın əsas xarakteristikasına çevrilir. Bu model digər sivilizasiyalar (qeyri-qərb) üçün yararsızdır.

3) Mühafizəkar yanaşma: Liberal modelli modernləşmənin daxili əksllikləri var, siyasi→institutsional bölgüdə, yəni siyasi sabitlik və qaydaların qorunması aspektindən konflikt mövcuddur. Eyni zamanda, inkişaf etməkdə olan ölkələrin inkişaf prosesinin istiqamətləri və xarakteri prizmasından milli→tarixi bölgüdə uyğunsuzluq müşahidə edilir.

Məzmun fərqliliyinə baxmayaraq, hər üç yanaşma sırf ideoloji səviyyə daşıyır. Məlumdur ki, əvvəllər də göstərdiyimiz kimi, modernləşmə - bir qərb hadisəsidir. Buna görə də, modernləşmə prosesinin qərb ölkələrindəki spesifikası aparıcı hesab olunur və bu anlamda da modernləşmə - qərbləşmə kimi anlaşılır. Mədəniyyətin rasionallaşdırılması (M.Veber)[30] – milli mədəniyyətlərin "qərbləşdirilməsi" anlamında işlədilmişdir. Yəni, ənənəvi cəmiyyətin müasir cəmiyyətə transferi – öz mahiyyəti etibarı ilə mədəniyyətin rasionallaşdırılması kimi şərh edilir. Amma, unutmaq olmaz ki, pis yaxud yaxşı mədəniyyət yoxdur. Sadəcə olaraq, müxtəlif mədəniyyətlər, mədəniyyətlər çoxluğu mövcuddur.

Beləliklə, ümumiləşdirmə prizmasından "modernləşmə" anlayışının müxtəlif mənatutumlu yozumları sirasında aşağıdakılar daha çox populyardır.

Modernləşmə prosesi:

- İqtisadi artımın, ümumrifahın yüksəlməsinə, insan kapitalının inkişafının stimullaşdırılmasına yönəlmiş sosio-iqtisadi xarakterli tədbirlər kompleksidir... Siyasi anlamda isə... müasir demokratiyalara adekvat olan siyasi institutların qərarlaşmasıdır.[31]

---

[29] Ф.Фон Хайек. Дорога к рабству. Пер. с. Англ. М: 1992. с.7

[30] М.Вебер. Избранные сочинения М: Прогресс, 1990.

[31] В.Гельман. Авторитарная модернизация: каковы ее перспективы в России (elekt. resusrs) http//www.eu.spb.ru 2008.

- Bu, nə avadanlıqların dəyişməsi, nə də məhsulun yeniləşməsi deyildir... Söhbət, dayanıqlı inkişafın və inkişaf etmiş millətlər sırasında layiqli mövqenin əldə edilməsinin təminatı nöqteyi-nəzərindən ölkənin, həm iri sahələr üzrə, həm də bütövlükdə beynəlxalq rəqabətqabiliyyətliliyinə nail olmaqdan gedir.[32]
- İctimai və texnoloji dəyişikliklər məcmusu olmaqla, qərb ölkələrinin inkişaf səviyyəsinə çatma prosesidir.[33]
- İnnovasiyalar əsasında iqtisadiyyatın müasir modelinin formalaşması prosesidir. Məqsəd yeni mənafelər, dəyərlər və prioritetlər əsasında cəmiyyətdə keyfiyyət dəyişikliklərinə nail olmaqdan ibarətdir.[34]

Göründüyü kimi, modernləşmə prosesi əsasən iki prizmadan şəhr edilir:

1) Dayanıqlı inkişafın təminatı situasiyasının formalaşdırılması məqsədi ilə zəruri olanların (müasirliyin diqtəsi) həyata keçirilməsi prosesidir. Yəni, modernləşmə - məqsədli prosesdir yaxud məqsədə, seçilmiş strateji hədəfə aparan prosesdir. Proses olma etibarı ilə formalaşdırılan və tənzimlənəndir.
2) Modernləşmə prosesi - elə inkişafın özüdür.

Araşdırmalarımız göstərir ki, modernizm nəzəriyyəsi, təkamül prosesinə metodoloji yanaşma fərqliliyi əsasında müəyyən mərhələlərə bölünə bilər:

1) Klassik nəzəriyyə; XX əsrin 50-60-cı illərində geniş populyarlıq qazanmışdır. (M.Levi, Э.Хаген və s.) “Ənənə” və “müasirlik” əsas anlayışlar kimi çıxış edirlər. Klassik baxış bu anlayışların mütləq əksliyini irəli sürürdü. Buna görə də modernləşmənin inqilabi xarakter daşıdığını önə çəkirdilər. Hesab olunurdu ki, ənənəvi cəmiyyətdən müasir cəmiyyətə keçid:

- İnqilabi xarakterlidir: Yəni, sosial həyat modelinin radikal şəkildə dəyişməsidir;
- Mürəkkəbdir: İnsan fikri və davranışının istisnasız olaraq bütün komponentlərini əhatə edir;
- Sistemlidir: Bir sferada baş verənlər digərlərində adekvat dəyişikliyə səbəb olur;
- Qlobal səviyyəlidir: Bütün dünya ölkələrini əhatə edir;
- Uzun müddətlidir: Zamanca müəyyən interval uzunluğundadır;
- Mərhələlidir: Mərhələli şəkildə gedir;
- -Geridönməzdir: Əksər cəmiyyət tipləri üçün eyni istiqamətlidir;
- Proqressivdir: Maddi-mənəvi rifahı yüksəldir.

Ənənə - birmənalı olaraq, mühafizəkar qüvvə, inkişafın, innovasiya və yeniləşmənin başlıca maneəsi kimi xarakterizə olunurdu. Bu anlamda, inkişaf - ənənənin aradan qaldırılması prosesi kimi başa düşülürdü.

2) Klassik nəzəriyyənin tənqidi mərhələsi (1950-1980):

Müxtəlif cəmiyyətlərin (keçid situasiyasında olan) müxtəlif formalı “davranışlarını”, onlara xas olan daxili dinamikanın spesifikasını, eləcə də müstəqil şəkildə inkişaf edə bilmə imkanlarını klassik nəzəriyyə şəhr etməkdə acizdir. Eyni zamanda, ənənə → modern dixotomiyasına yanaşma üsulu qəbul edilmir. Bu dixotomiyanın tarixi deyil, qərb mərkəzçiliyi mövqeyindən şəhr edildiyi bildirilir.

Yaponiyanın timsalında sübut olunurdu ki, modernləşmə - milli ənənələr çərçivəsində də gedə bilər. Və, bu o demək idi ki, ənənə - labüd olaraq radikal şəkildə dağıdılmalı, aradan qaldırılmalıdır deyən klassik baxış yanlış yoldadır. Bu aspektdən əsas olan məsələ ənənədə nəyin

---

32 Е.Г.Ясин. Модернизация и общество // модернизация экономики М;2007 и общественное развитие: в 3 кн. кн. 1.
33 В.А.Красильщиков. Модернизация: зарубежный опыт и уроки для России. // Модернизация России: условия, предпосылки, шансы.. М; 2009
34 И.В.Макарова. Потенциал модернизации машиностроительного комплекса региона. Екатеринбург, 2010, с. 23

modernləşməyə əngəl törətdiyini anlamaqdan ibarətdir. Yəni, ənənə-bütövlükdə əngəllərdən (dəyişmə prizmasından) ibarət deyildir.

Ənənəvi və müasir institutların – bir çox hallarda – dəyişikliklərə effektiv adaptasiya olunma meylliliyi üst-üstə düşür. Hətta, o dərəcədə ki, modernləşmə - ənənəvini daha da aktuallaşdıra bilər.

3) Müasir nəzəriyyə - Keçən əsrin 80-cı illərindən sonra klassik baxışın sistemli tənqidinə istinadla yeni yanaşma formalaşdı. Müasir baxış modernləşmənin qərbləşmə olmadığını, milli-mədəni dəyərləri saxlamaqla həyata keçirilmə imkanın gerçək olduğunu ortalığa qoydu. Bu, əslində artıq böhran dövrünü yaşayan modernizm nəzəriyyəsinin yeni əsaslarda bərpası deməkdir. K.Levi-Stross texnoloji, funksional və qlobal modernləşmədən bəhs edirdi.[35] Nəzəri yeniləşmə prosesi özünə xas yeni[36] yanaşmaların da formalaşmasına gətirib çıxardı:

- Ənənəvi modernizm – klassik dəyərlər sistemi: fərdiyyətçilik, demokratiya, elm, din, hamı üçün eyni olan təkamül yolu və s.
- Neomodernizm nəzəriyyəsi: modernləşmə - tarixi baxımdan sərhədli proses olmaqla müasir institut və dəyərləri – bazar, demokratiya, təhsil, əmək etikası və s. – "qanuniləşdirir".
- Postmodernizm nəzəriyyəsi: iqtisadi effektivlik, hakimiyyətin bürokratik strukturu və elmi rasionalizmə (modernizmin əsasında dayananlar) deyil, daha humanist olan cəmiyyətə keçidin zəruriliyini ortalığa qoyur. Elə cəmiyyət ki, şəxsiyyətin özünü ifadəsi, müstəqilliyi və müxtəlifliyin qorunması aspektindən geniş imkanlar mövcud olsun.
- Ekoloji modernizm: Texnologiyada baş verən dəyişikliklər təkcə sosial yox, həm də ekoloji prosesləri də sürətləndirir. Mühitin təbii və sosial bölgüsü öz mənasını itirir. Ekoloji problemlər - cəmiyyətin problemlərinə çevrilir.
- Antimodernizm: ümumbəşəri inkişafın sadə sxemləri, qərb – qeyri-qərb dəyərlərin fərqləndirilməsi.

Modernləşmə prosesi – sistemli və kompleks səciyyə daşımaqla ictimai həyatın bütün sferalarını əhatə edir.

Şübhə yoxdur ki, iqtisadi transformasiyanın perspektiv gözləntiləri aspektindən adekvatlıq dərəcəsinin təminatında siyasi modernləşmə prosesi həlledici rol oynamaq iqtidarındadır. Və, buna görə də, təəccüblü deyildir ki, qərb ölkələrinin iqtisadi inkişaf nəzəriyyəsi modernləşməni sənayeləşmənin demokratik idarəetmə formalarına keçidlə bağlayırlar. Şəkildən də göründüyü kimi, siyasi elementin önçüllüyünü əyani formada nümayiş etməyə cəhd göstərmişik. Siyasi və iqtisadi modernləşmə prosesi arasında əlaqə sıxlığı hədsiz dərəcədə yüksəkdir. Amma qeyd edilən önçüllüyün mütləq anlamda qəbul edilməsi də düzgün olmazdı. Nəinki siyasi və iqtisadi, eləcə də sosio-mədəni sferanın modernləşməsi prosesləri bir-birindən həm səbəbiyyət, həm də funksional asılılıqdadırlar. Bu mənada, nəyin, hansı sferanın yaxud komponentin önçül olması məsələsi nisbidir, dəyişən xarakterlidir və hər hansı bir prizmadan universallıq keyfiyyətinə sahib deyildir. Nəyin birinci, aparıcı olması:

1) Tarixi dövrün spesifikasından;
2) Konkret ölkədə formalaşmış konkret situasiyanın daxili təbiətindən;
3) Zaman axıcılığının tezlik dərəcəsindən;
4) Geosiyasi situasiyanın ölkəyə təsir gücündən;

[35] К.Леви–Стросс. Race et histoire (1952, рус. пер. Раса и история, 2000)
[36] А.И.Уткин. Глобализация: процесс и осмысливание. М; Логос,2002.

5) İnkişafın konkret fazasının xüsusiyyətlərindən asılı olaraq müəyyənləşir.




***Şəkil 3.1. Modernləşmə prosesinin əsas tipləri və sferaları.***

Xüsusi əhəmiyyət kəsb edən əsas problem modernləşmə zamanının sahələrarası sinxron paylanmasının praktiki olaraq qeyri-mümkünlüyü ilə əlaqədardır. Belə ki, siyasi, iqtisadi, sosial-mədəni sferalarda modernləşmə müxtəlif surətliliyi ilə səciyyələnir. Qeyd edilən asinxronluq – iqtisadi sferada bütün hədəflərə yetişdiyi halda da belə modernləşmənin sistemlilik və komplekslilik keyfiyyətinə mənfi-parçalayıcı təsir göstərir ki, onun qarşısı vaxtında alınmadığı

təqdirdə, proses – anklav xarakteri almağa başlayır. Yəni, “yarımçıq”lıq, sistemsizlik prosesin nəticələri kimi meydana çıxır və s. Məhz XX əsrin əvvəllərindən başlayaraq modernləşmə prosesində mədəni-mental dəyərlərin dəyişməsinin həlledici əhəmiyyət kəsb etməsi problemə fəlsəfi və sosioloji yanaşmalarda geniş yer tutmağa başlamışdır. Hesab edirdilər ki, qərb məzmunlu modernləşmə mədəniyyətin və ictimai xaosun bu və ya digər formalarının transformasiyasından başlanır. Bu sırada təfəkkür tərzinin modifikasiyası da mühüm hesab olunur.

Modernləşmə prosesinin geriyə dönüşü yoxdur. Lakin, əgər söhbət sırf klassik anlamda ənənəvi cəmiyyət tipinə qayıdışdan gedirsə, onda yuxarıda qeyd etdiyimiz təsbit doğrudur. Amma, söhbət modernin əldə etdiyi keyfiyyət səviyyəsinin itirilməsindən gedirsə, onda təsbit doğru deyildir. Məsələn, modernin avanqardı olan Qərb ölkələrində baş verən proseslər də, onun “modernin doğurduqlarının” itirilməsi müşahidə edilməkdədir:

1) Əkssənayeləşmə: Yüksək texnoloji sektorun önə çıxması ilə əks—industrializasiya baş verməkdədir. Yəni, modern cəmiyyət= industrial cəmiyyət eyniyyəti aradan qalxır:

2) Assimillyasiya – multikulturalizmlə əvəzlənir. Modern eynilik postmodern “müxtəlifliyə” çevrilir:

3) Nəticə olaraq, cəmiyyətin etno-mədəni müstəvidə fraqmentallaşması baş verir:

4) Sosial polyarlıq yüksələn xətlə gedir və s.

Qeyd edilənlərə yekun etibarı ilə iki aspektdən yanaşmaq olar:

1) Cəmiyyətin sosio-iqtisadi və sosio-mədəni tipi dəyişir. Modern – postmodern ilə, eyniyyət - müxtəlifliklə, müasirlik – postmüasirliklə əvəz olunur. Yəni, sadalananlar modernin “yaratdıqlarını” itirmək deyil, yeni keyfiyyət səviyyəsinə keçidlə bağlı olanlardır. Modern – tarixi kateqoriyadır, əvvəli və sonu var!

2) Modern sivilizasiya prosesində “qırılma” nöqtəsidir. Belə ki, yeni adlandırılan “keyfiyyət” səviyyəsinin hələ ki, pozitiv hesab oluna biləcək yaranışları yoxdur. Modernləşmə - müəyyən şərtlərin mövcudluğu şəraitində özünün əksinə çevrilə bilər. Modernləşmə əslində birdəfəlik akt deyildir və onun klassik məzmunu bugünki reallığa qətiyyən uyğun gəlmir.

Modernləşmə - fasiləsiz müasirləşmədir! Müasirliliyin dəyişmə tezliyinə adekvat olaraq davam etdirilməlidir. Modernləşmə - permanent xarakterli prosesdir. Eləcə də modernləşmə = inkişaf və modernləşmə = innovasiya eyniyyətləri yoxdur. Modernləşmə - inkişafın fundamental əsaslarını, yəni potensial inkişaf situasiyasını yaradır, inkişaf prosesi – bundan sonra başlanan prosesdir. İnnovasiya – texniki-iqtisadi inkişafa birbaşa təkan verir, yəni inkişaf prosesinin daxili ünsürlərindən biri statusuna malikdir. Eyni zamanda, modernsiz nə inkişaf, nə də innovasiya hansısa bir effektə gətirib çıxara bilməz.

Modernist paradiqmanın əsas məqsədi umumi rifahın dayanıqlı yüksəlişinə nail olmaq prizmasından iqtisadi subyektlərin xüsusi davranış tipinin formalaşdırılmasıdır. Modernizmi xarakterizə edən əsas cəhətlərə aşağıdakıları aid etmək olar:

- İdarəolunma, tənzimlənmə, modernləşmə - subyektiv amilin məqsədyönlü fəaliyyəti üzərində gedən prosesdir. Ənənəvi cəmiyyət – mütləq modernləşəcək tipli hər hansı bir gerçəklik mövcud deyildir. Ənənəvi cəmiyyət – “keçmişlə” yaşayan cəmiyyətdir və öz özlüyündə istənilən məzmunlu yeniləşmə prosesinə güclü müqavimət göstərir. Modernləşmə - labüddür deyimi birmənalı olaraq yanlış deyimdir.

- Sistemlilik və komplekslilik prosesləri ictimai sahə və sferaları qarşılıqlı asılılıq və qarşılıqlı bağlılıqla əhatə edir. Modernləşmə - anklav xarakterli ola bilməz yaxud çox qısa bir zaman kəsiyində anklavlılıq nümayiş etdirə bilər.

- Geridönməzlik – başa çatmış proses olmaq etibarı ilə modernizm – geriyə - ənənəvi dövrə qayıda bilməz. Amma, prosesin gedişində yaranan asinxronluğun dərinliyi və yekun olaraq, ictimai sferaların biri yaxud bir neçəsinin yeniləşmə potensialının yetərsizliyi “hibrid” (arxeomodern) cəmiyyət tipinin formalaşmasına gətirib çıxara bilər:

- Differensiallıq – müxtəlif ölkə və ölkə qruplarında modernləşmənin müxtəlif, fərqli təzahür formalarının qərarlaşması mümkündür. Yəni, formatın universallığı deyilən bir şey yoxdur.

- Homogenlik - fərqliliklərə baxmayaraq, modernləşmə prosesi dünya ölkələri arasında unifikasiyaya müsbət təsir göstərir.

Modernizmin iqtisadi tutumu klassik nəzəriyyənin yanaşma tərzində birmənalı şəkildə qiymətləndirilir. Modernizm nəzəriyyəsinin klassik variantı (M.Veber[37]; Э.Dyüqqeym, F.Tennis və s.) əsas vurğunu industrial cəmiyyətin formalaşması üzərinə qoyur. Modernləşmə - sənayeləşmə prosesi ilə paralel şəkildə gedir. Yaxud, başqa sözlə, modernləşmə - sənayeləşmə prosesi kimi təzahür edir.

Klassik variant – modernləşmənin “ilkin” – birinci mərhəlsi kimi xarakterizə olunur. “İkinci” mərhələ - geri qalmış ölkələri əhatə edən modernləşmə prosesidir. Bu aspektin mühümlüyü elə bir səviyyədədir ki, bir çox hallarda modern cəmiyyət “industrial cəmiyyət” anlayışı ilə əvəz olunur.

“İndustrial cəmiyyət” anlayşı ilə bağlı irəli sürülən interpretasiyalar arasında elə bir fərq müşahidə edilmir:İndustrial cəmiyyət..... bəşəri inkişafın müasir mərhələsi,ənənəvi cəmiyyəti əvəz edən cəmiyyət tipi, sənaye inqilabının doğurduğu yeni inkişaf mərhələsi və s. kimi şəhr olunmaqdadır.

İndustrial cəmiyyət – iri, texniki-texnoloji cəhətdən inkişaf etmiş, milli iqtisadiyyatın formalaşdırılmasında sistem yaradan ünsür kimi çıxış edən və onun (milli iqtisadiyyatın) əsas aparıcı sahələrinə çevrilən sənaye sektorunun yaradılması prosesi başa çatmış və özünəmüvafiq sosial – siyasi strukturlar formalaşdırmış cəmiyyət tipidir. İndustrial cəmiyyət – maşınlı istehsalın inkişafı, ona adekvat olan əməyin təşkili formaları, texniki – texnoloji tərəqqinin nailiyyətlərinin tətbiqi, bir sözlə sənayeləşmə prosesi və onun nəticələri əsasında formalaşmış cəmiyyətdir.[38]

Tədqiqatçıların böyük əksəriyyətinin fikrincə :industrial cəmiyyət - inkişafın texnogen xarakteri və sənaye istehsalının üstünlük təşkil etdiyi cəmiyyətdir, cəmiyyətin iqtisadi inkişaf mərhələsi yaxud tipidir.Yəni, tarixi kateqoriyadır. Bəşəri inkişafın müəyyən mərhələsində meydana çıxmış yeni (ənənəvidən fərqli)cəmiyyət tipidir. Təkamül prosesinin (sosioloji və tarixi baxışlar) məhsuludur.[39]

- “İndustrial cəmiyyət – cəmiyyətin iqtisadi inkişafının mərhələsi olmaqla, inkişaf etmiş sənaye istehsalı və inkişafın texnogen xarakter daşıması ilə səciyyələnir”[40]

İndustrial cəmiyyət nəzəriyyəsinin əsas istinad (xarakterik) nöqtələrini Osipov aşağıdakı kimi sıralayır:[41]

- İndustrial sivilizasiyanın inkişaf mərhələsi statusundadı;
- Güclü şəkildə ixtisaslaşmış və inkişaf etmiş əmək bölgüsü sistemi;
- Kütləvi standartlaşmış istehsal;

---

[37] М.Вебер. Избранные сочинения М: Прогресс, 1990.
[38] Б.А.Райзберг. Современный социоэкономический словарь. М: 2012, с.330.
[39] Философский словарь /авт.С.Я.Подопригора и др .Ростов 2013. с.138
[40] Теория и методология исторической науки. Терминологический словарь. М: 2014: стр. 128.
[41] Социологический словарь(ред.Осипов и др.). 2014. Стр. 292

- İstehsalın mexanikləşdirilməsi və avtomatlaşdırılması;
- Nəqliyyat - kommunikasiya vasitələrinin yüksək inkişafı;
- Urbanizasiya prosesinin kəskin şəkildə intensivləşdirilməsi:

Sözügedən anlayışın interpentasiyasında A.Lopuxov əsas diqqəti cəmiyyətin sosial təşkilinə yönəldir.[42]

- İki yeni sinif formalaşır:proletariat və burjaziya;
- Sosial mobillik güclənir;
- Siyası sistem demokratikləşir;
- Qanunlar liberallaşır;
- Fərdiləşmə prosesi güclənir;

İndustrial cəmiyyətin əsas xüsusiyyətləri sırasına adətən aşağıdakılar aid edilir:

1) Cəmiyyətin bütün sferalarında (sosial,mədəni,iqtisadi və s)industrial texnoloji ukladın dominant mövqeyə keçidi;

2) İqtisadiyyatda məşğulluğun sahələr üzrə xüsusi çəkisinin dəyişməsi: aqrar sfera 3-5%, sənaye istehsalı-50-60% xidmət sektoru - 40-45%;

3) Milli dövlətlərin yaranması;

4) Urbanizasiya prosesinin kəskin şəkildə intensivləşməsi;

5) Təhsilin inkişafı :Milli təhsil sistemlərinin yaranması;

6 ) Siyasi hüquq və azadlıqların qərarlaşması;

7) Ümumi rifahın yüksəlməsi; “istehlakçı” cəmiyyətinin formalaşması;

8) İş vaxtı və asudə vaxtın strukturunun dəyişməsi;

9) İnkişafın demoqrafik tipinin dəyişməsi.

İndustrializm – daha geniş sosial prosesin - modernizmin fundamental rolunu oynayır.

Mühüm məsələlərdən biri – müasir dünyada modernizmin postmodernizmlə əvəz olunması təmayülünün getdikcə güclənməsidir. Bu dəyişiklik diqər müstəvidə də adekvat yeniləşmə doğurmaqdadır: İndustrialist cəmiyyət postindustrialist cəmiyyətlə əvəzlənir. Başqa sözlə, “indi” (müasir) adlandırdığımız zaman modusunun “gələcəklə” struktur aspektdən çulğalaşması baş verir.

***Cədvəl 3.1. İndustrial və postindustrial cəmiyyət tiplərinin müqayisəli qiymətləndirilməsi***

| **Müqayisə əlamətləri** | **Cəmiyyətin tipi** | |
|---|---|---|
| | **İndustrial cəmiyyət** | **Postindustrial cəmiyyət** |
| **İnsana münasibət** | İşçi qüvvəsi, “iqtisadi insan” | Sistemin mərkəzi fiquru |
| **Sistem bütövlüyünə münasibət (əsas prinsiplər)** | Eyniyyət;<br>Mərkəzləşmə;<br>Uyğunluq;<br>Unifikasiya; | Müxtəliflik;<br>Plüralizm;<br>Əks-mərkəzləşmə;<br>Fraqmentarlıq; |
| **Azadlığa münasibət** | İqtisadi azadlıq: neqativ və pozitiv azadlıq; | İnsan azadlığı |
| **İnkişafın əsas amili** | Kapital | Bilik |
| **İqtisadiyyatın əsas strukturu** | Sənaye | Xidmət |
| **Məşğulluğun strukturu** | Sənaye – 85%<br>Aqrar sfera – 10%<br>Xidmət – 5% | Sənaye – 30%<br>Aqrar sfera – 3%<br>Xidmət – 66% |
| **İqtisadi zamana münasibət** | Modern xətti zaman modeli: tərəqqi | Postzaman modeli: zaman “burulğanı” |
| **Siyasi quruluşa münasibət:** | Milli dövlətlərin dominantlığı; | Qlobal sistemin (şəbəkə sistemi) |

[42] М.Лопухов. Словарь терминов и понятии по обществознанию. М:2013. с.124

| | | |
|---|---|---|
| | Vətəndaş cəmiyyətinin formalaşması;<br>Hakimiyyət bölgüsü:<br>Qanunvericilik, məhkəmə, icra: | dominantlığı;<br>Siniflərin aradan qalxması;<br>Ümumbəşəri dəyərlər: |

Qeyd etməyi zəruru sayırıq ki, bu cəmiyyət tipləri arasındakı konkret xronoloji sərhəddi müəyyən etmək çətinliyi mövcuddur. Ənənəvi cəmiyyətdən industrial cəmiyyət tipinə keçiddən fərqli olaraq, bu transformasiyanın, məhz keçidin mahiyyəti və xarakterini formalaşdıran amillərin birmənalı dəyərləndirilməsi imkanlarının ifrat məhdudluğu ucbatından, məntiqi əsaslandırılması problemi kifayət qədər aktualdır.

Postindustrial dəyərlərin sistemli şəkildə qərarlaşması industrializmin həmin aspektdən mövcudluğu üzərində gerçəkləşə bilər. Qeyd edilən keçid prosesində "sıçrayış" mümkün deyildir. Hətta, innovasiyaların kütləvi "istehsalı" belə sıçrayışa təkan verə bilməz. Ən yaxşı halda yeni keyfiyyət səviyyəsinə keçid anklav xarakter daşıyacaqdır ki, onun da inkişafın sistemliyinə təsir göstərmək imkanı yoxdur.

### §3.2. Postindustrial təsərrüfat tipi: konseptual yozumun ziddiyətliliyi.

Bəşəriyyətin inkişaf tarixi lokal sosiumların tip dəyişkənliyi tarixidir. Modernist baxışların sərgilədiyi inama görə cəmiyyətin yeni tipə (həm sosio-iqtisadi, həm də sosio-mədəni prizmadan) keçidi, özünün bütün təfərrüatı ilə inkişaf prosesi kimi qəbul olunur. Postmodernizm – modernist sintaqramda sonuncu (hələ ki!) cəmiyyət tipidir. Bu tipin formalaşması tarixi elə də uzun dövrü əhatə etmir. Modernist yanaşmanın böhranlı təzahürlərlə qarşılaşmasına baxmayaraq, müasir elmi fikir birmənalı olaraq postindustrial təsərrüfat tipinə keçidi yeni keyfiyyət mərhələsinə keçid statusunda dəyərləndirir. Bu prosesdən kənarda qalan cəmiyyətlərin rəvan templərlə inkişaf trayektoriyasına çıxışı mümkünsüz hesab edilir. Eyni zamanda, postmodernizm – modernizmin uzantısıdırmı yoxsa müstəqil yaranışdır sualı ətrafında elmi polemika bügün də davam etməkdədir. Eləcə də, fenomenin mahiyyət açıqlanması müstəvisində də yekdillik müşahidə edilmir.

"Postindustrializm" termini ilkin olaraq A.Kumarasvanın əsərlərində yer almışdır. "Postindustrial cəmiyyət" anlayışını isə ilk dəfə Q.Risman elmi dövriyyəyə daxil etmişdir.[43]

Postindustrial cəmiyyət konsepsiyasının müəllifi isə haqlı olaraq, D.Bell hesab edilir. Məhz o, ilk dəfə olaraq, cəmiyyətin iqtisadi alt sistemində baş verən struktur dəyişiklikləri aşkara çıxarmış, xidmət sferasının qərarlaşması və elmi biliyin müstəqil amilə çevrilməsi prosesinin konseptual məzmununu formalaşdırmışdır.

Postmodern dəyərlər sisteminə istinad edən yeni cəmiyyət tipinin formalaşması tarixi 1960-cı illərdən start götürmüşdür. Cəmiyyətin tipinin ənənəvi→modern→postmodern yönümlü dəyişmə prosesi daha çox sivilizasiya paradiqması çərçivəsində interpretasiya olunur (bax.şəkil 3.2). Sxematik təsvirdən də göründüyü kimi, cəmiyyətin qeyd etdiyimiz sintaqram yönümlü dəyişməsi prosesi məntiqi ardıcıllıqla, hər hansı bir kənarlaşmanın mümkünsüzlüyü, determinləşmiş növbəlilik və obyektivlik prizmasından qəbul edilir.

---

[43] А.Н.Лащенов. Аналитика постиндустриального общества: от кибернетических к социологическим теориям//Социология и социальная антропология. Том IX. №4; 2006




*Şəkil 3.2. Cəmiyyətin tip dəyişkənliyi prosesinin E.Toffler yanaşması.*[44]

E.Toffler hesab edirdi ki, postindustrial cəmiyyət (onun ifadəsində "üçüncü dalğa cəmiyyəti") daha dayanıqlı və daha demokratik olacaqdır. Müxtəliflik, müxtəlif məzmunlu çoxluq eyniyyətdən, vahidlikdən, yeganəlikdən daha dayanıqlı olur. Cəmiyyət tipləri (ənənəvi→modern→postmodern) arasında mental-dəyər fərqlilikləri, kifayət dərəcədə polyardır.

*Cədvəl 3.2. Cəmiyyət tipləri arasında mental – dəyər fərqlilikləri*

| Cəmiyyət tipləri | Təsərrüfatın xarakteri | Sosiallaşma forması | Azadlığa münasibət | Zamana münasibət | İnkişafın mahiyyəti |
|---|---|---|---|---|---|
| **1.Ənənəvi cəmiyyət** | Natural təsərrüfat | İcma | Şəxsi asılılıq | Tsikl | Keçmişin təkrar istehsalı |
| **2.İndustrial cəmiyyət** | Bazar təsərrüfatı | Vətəndaş cəmiyyəti | Əməyin azadlığı | Tərəqqi | Sərvətin artımı |
| **3.Postindustrial cəmiyyət** | Postbazar təsərrüfatı | Fərdin (təkcənin) avtonomluğu | Sərhədsiz azadlıq | Burulğan | Biliklərin artımı |

Cəmiyyət tiplərinin dəyərcə qiymətləndirilməsi, o qədər böyük fərqlilik yaradır ki, hətta industrial və onun "davamı" kimi çıxış edən postindustrial cəmiyyət tipləri belə ziddiyyətli fərqlilik nümayiş etdirirlər. Bu aspekt milli iqtisadiyyatın dayanıqlı inkişafı prosesində mütləq anlamda nəzərə alınmalı bir aspektdir. Belə ki, tip dəyişkənliyi –

[44] Э.Тоффлер. На пороге будущего. «Американская модель»: с будущим в конфликте. М: 1984; с. 30-32

postindustrial cəmiyyətə keçid - təkcə ölkənin iqtisadi quruluşu, iqtisadi münasibətlər sistemi və funksional fəaliyyət mexanizminin dəyər tutumunun dəyişməsinə deyil, yaxud onunla bahəm icitmai həyatın bütün sahələrində adekvat yönümlü keyfiyyət yeniləşməsinə gətirib çıxarır. Və, buna görə də təəccüblü deyildir ki, sözügedən sistemli dəyişikliyin yaxud sistem yeniləşməsinin mənatutumu və ifrat dərəcədə geniş əhatə dairəsini nəzərə alan tədqiqatçıların böyük əksəriyyəti modernizmin böhran istilahından çıxış edirlər.

Postindustrial cəmiyyət tipinin mahiyyət xarakteristikasına aşağıdakılar aid edilir:[45]

- istehsalatda dəyişikliklərin fundamental əsasına çevrilən nəzəri biliklərin mərkəzləşməsi;
- sosio-iqtisadi problemləri həll edəcək yeni intellektual texnologiyanın yaranması;
- bilik və informasiya istehsalçıları sinifinin formalaşması;
- məşğulluğun strukturunda peşəkarların xüsusi çəkisinin böyüklüyü;
- xidmət sektorunun dominantlığı;
- hakimiyyət münasibətlərinin dəyişməsi – meritokratiyaya (layiq olanların hakimiyyəti) keçid;
- informasiya iqtisadiyyatının təşəkkülü, fərdi rəqabət strategiyasından kooperativ əməkdaşlıq strategiyasına keçid.

Bu aspektdə verilən interpretasiyanın məntiqi aşağıda sıralanan ideyalara söykənir:

1) Texnologiyaya sosial dinamikanın əsas hərəkətverici qüvvəsi kimi baxılır;

2) Yeni informasiya texnologiyaları informasiya cəmiyyətinin yaranmasının əlaməti kimi çıxış edir;

3) Texnoloji innovasiyaların həcmi sosial sferanın yenidən qurulmasına gətirib çıxarmalıdır. Zira bu təsir sosial aspektdən həlledici əhəmiyyət kəsb edir;

4 )Kompüter texnologiyaları informasiya əsrində, mexanikləşdirmənin sənaye inqilabı dövründə oynadığı rolu oynayır.[46]

İlkin olaraq, D.Bell tərəfindən verilən xarakteristikanın müasir interpretasiyası daha geniş əhatəli məzmundadır.[47]

Beləliklə, postindustrial cəmiyyətin sosio-iqtisadi və sosio-mədəni anlamda əsas xarakterik xüsusiyyətlərinə aşağıdakıları aid etmək olar:

- klassik anlamda ümumilik, bütövlük və tamlığın inkarı; ayrıca götürülmüş fərdin mərkəzi fiqura çevrilməsi;
- məqsədlər çoxluğu və məqsəd müxtəlifliyinin təsbiti. Məqsəd - spontan şəkildə formalaşır;
- fərd→sosial institutlar dilemmasında üstünlük birmənalı olaraq, fərdə verilir;
- cəmiyyət daxili proseslərin vahid mərkəzdən tənzimlənməsi aradan qaldırılır. Koordinasiya→üfüqi şəbəkə sisteminin spontan fəaliyyətindən doğan “norma” və “qayda”lar əsasında həyata keçirilir;
- ideya, intellektual resurslar və innovasiya ümumtərəqqinin fundamental amilləri kimi çıxış edirlər;
- azadlığın “sərhədsizliyi” qərarlaşır. Vətəndaş azadlıqlarının bütövlük aspektindən insan və şəxsiyyət azadlıqlarına mahiyyət uyğunluğu təmin edilir;

---

[45] Д.Белл.Постиндустриальное общество. «Американская модель»: с будущим в конфликте. М: 1984; с. 19-24

[46] О.Б.Скородумова. Отечественные подходы к интерпретации информационного оющества: постиндустриалисткая, синергетическая и постмодернистская парадигмы.М:2007. С.4

[47] Д.Белл. Грядущее постиндустриальное общества.М:1973

- cəmiyyət çoxpartiyalıdır və siyasi plüralizm hökm sürür. Demokratik prinsiplər cəmiyyətin ən dərin qatlarına nüfuz edir;

- hakimiyyətin hər 3 qanadı (icra, qanunvericilik və məhkəmə) müstəqildirlər;

- cəmiyyət – postmodernist dəyərlər sisteminin qərarlaşdığı sosiuma çevrilir.

U.Xarmen postindustrial cəmiyyətə keçid prosesinin əsas maneələri kimi aşağıdakıları ön plana çəkir:

1) Şəxsi rifahın dalınca qaçma resursların tükənməsinə səbəb olur;

2) Texnoloji və mədəni dəyişikliklərin ifrat tezliyi idarəetmənin ənənəvi texnikasını aşındırır.

Bu aspektdən müasir dövrün fundamental probleminin mahiyyət açıqlanmasını verir:

- artımın neqativ nəticələri;

- idarəetmə, nəzarət və innovasiyaların mənfi effekti;

- qlobal bərabərsizlik (ədalətsizlik – daha doğru ifadədir – V.B.);

- əməyin yeni mənasız və hətta təhlükəli növlərinin meydana çıxması (industrial ölkələrdə).[48]

Belə qənaətə gəlir ki, "bütün sistem dəyişməli, ondan (həmin sistemdən) heç nə qalmamalıdır". Buna görə də, mərkəzində mahiyyətcə canlı insanın dayandığı yeni transindustrial cəmiyyətin formalaşmasını məqsədəuyğun hesab edir. Transindustrial cəmiyyət-qənaətçil cəmiyyətdir, əvvəllər mövcud olan istehlak etikası və israfçılığı inkar edir, yeni ekoloji etika və yeni insan obrazı təklif edir.

Araşdırmalar göstərir ki, istinad edilən nəzəriyyələrin – vahid industrial cəmiyyət (P.Aron), yeni industrial cəmiyyət (C.Qelbreyt), U.Rostounun artım mərhələləri konsepsiyası, postindustrial cəmiyyət (D.Bell) və superindustrial cəmiyyət (O.Toffler) - əksəriyyəti bir amilli determinizmə - texnoloji determinizmə - söykənirlər.

Texnoloji determinizmin real fakt keyfiyyətində qəbulu və əsaslandırılmasına bir sıra araşdırmalarda rast gəlmək olar. Məsələn, L.Uayt yazır ki: "...öz mahiyyəti etibarı ilə sosial sistemlər – ikinci dərəcəli yaranışdır və texniki sistemlərdən asılıdır... Texnologiya-müstəqil, sosial sistem isə asılıdır" (törəmədir –V.B.).

Eyni zamanda, Z.Bjezinski qeyd edir ki, cəmiyyətin "...sosial, iqtisadi, psixoloji və mədəni resursdan formalaşması prosesi texnikanın təsiri altında baş verir."[49]

Nəzəri konstruksiyaların fundamental əsasının biramilliyi fərqlilikdən daha çox oxşarlıq, eyniyyət yaradır. Görünən fərqlər isə onunla şəhr edilə bilər ki, hər bir nəzəriyyə inkişaf prosesinin, daha doğrusu elmi-texniki tərəqqinin ayrı-ayrı mərhələlərini özündə ehtiva edir. Yəni, araşdırılan və gəlinən nəticələr eyni prosesin gedişində üzə çıxan nəticələrdir. Sadəcə olaraq, prosesin ayrı-ayrı, lakin ardıcıl dəyişən mərhələləri ayrı-ayrılıqda nəzəri dərkin oblastı kimi götürülmüşdür. İctimai həyatın əksər sahə və sferalarında (siyasət, sosial-mədəni, iqtisadi və s.) baş verən dəyişiklik biramillə - texnoloji determinizmlə izah edilir. Texnoloji amil yaxud elmi-texniki tərəqqi, digər amillərdən asılı olmayaraq, müstəqil şəkildə hərəkətdədir və cəmiyyətin inkişafını təmin edən amildir. D.Bell hesab edir ki, yaranmaqda olan postindustrial cəmiyyət üçüncü texnoloji inqilabın məntiqi nəticəsidir. O, texnoloji inqilabın qısa (mahiyyətcə) xarakteristikasını da verir:

1) Birinci texnoloji inqilab – buxar gücünün aşkarlanması;

---

[48] Д.Белл. Культурные противоречия капитализма. М:1978. с.143-146

[49] И.И.Кравченко. Экологическая проблема в современных теориях общественного развития. М: 1982. с.66-67

2) İkinci texnoloji inqilab – elektrik enerjisi və kimyanın istehsal prosesinə tətbiqi;

3) Üçüncü texnoloji inqilab – kompüter texnologiyaları və telekommunikasiyanın ictimai həyatın bütün sferalarına, o cümlədən istehsalata tətbiqi.[50]

Və, sadalanan inqilab seriyaları əmək məhsuldarlığının görünməmiş dərəcədə yüksəlməsinə, sərvətin və yekun olaraq, ictimai rifahın dəfələrlə artmasına səbəb olmuşdur.Texnoloji determinizmin həllediciliyindən çıxış edən postindustrial cəmiyyət nəzəriyyəsi, kommunikasiyanı (telekommunikasiyanı) yeni cəmiyyət tipinə keçidin əsas hərəkətverici qüvvəsi kimi görür. "...Kompüter erasının başlanması ilə iş yerlərinin ciddi fiksasiyasının zəruriliyi aradan qalxır...müasir bazar isə - ərazini yox, kommunikativ şəbəkəni özündə ehtiva edir".[51] Və, nəticədə işgüzar aktivlik kəskin şəkildə yüksəlir, işgüzar kontaktların sürəti və tezliyi əhəmiyyətli dərəcədə artır. Amma, hər halda etiraf edilir ki, postindustrial cəmiyyətə transformasiyada istehsalın yeni şəraitinə adekvat reaksiya verə biləcək və dəyər oriyentasiyalarını dəyişmə iqtidarında olan "yeni sosial strukturların" yaradılması zəruridir. Bu strukturların yaranması labüddür və gec ya tez müəyyən ziddiyət aradan qalxan kimi yeni yaranış meydana çıxacaqdır.

Beləliklə, texnoloji determinizm sosial dəyişikliklərin məntiqi zərurətlə baş verəcəyini iddia edir...

Əlbəttə, cəmiyyətin inkişaf prosesində texnoloji amil mühüm rol oynayır. Amma, bu prosesin təşkili və məntiqi sonluğa çatmasında yeganə amil kimi çıxış etmir. İqtisadi proses – dəyər "yüklü" prosesdir.

Maddi və qeyri-maddi olanlar arasında qarşılıqlı təsir bərabər güclüdür. Buna görə də, texnoloji determinizm təsirin və əks-təsirin (hər iki tərəf arasında) hansı mahiyyət və yönümdə olacağını əsaslandırma gücündə deyildir. Keyfiyyət dəyişikliyi prosesi amillər çoxluğunun (siyasi, sosial, mədəni və s.) birbaşa təsiri altındadır. Eyni zamanda, bu amillər arasında çox sıx qarşılıqlı bağlılıq mövcuddur.

Həmçinin, nəzəriyyənin (baxmayaraq ki, postmodern məzmunludur) əsas çatışmazlıqlarından biri cəmiyyətin tip dəyişkənliyini – postindustrial eraya keçidini labüd proses hesab etməsidir. Modern erasına aid olan düzxətli yüksəlişin mütləq məzmunda reallığına istinad etmək tarixi prosesin (inkişaf - tarixi prosesdir) gerçək mahiyyətinə "göz yummaq" deməkdir.

Nəzəriyyənin təsvir etdiyi cəmiyyət tipinə keçid – indsutrial təsərrüfat sisteminin "sərhəd situasiyasına" gəlməsi yaxud gətirilməsindən sonrakı mərhələdir. Yəni, industrial dəyərlər sistemində ən yüksək inkişaf səviyyəsinə çatmaq lazımdır ki, qeyd olunan yönümlü keyfiyyət dəyişikliklərinə start vermək mümkün olsun. Əgər, nəzərə alsaq ki, müəlliflər (D.Bell və s.) postindustrial cəmiyyət tipini gələcəyin paradiqması kimi görürlər, onda transformasiya ilə bağlı problematika daha da mürəkkəbləşir. Başqa sözlə, öngörmə xarakterli nəzəri müddəaların həqiqiliyi problemi önə çıxır. Digər tərəfdən, postindustrializmi – yeni cəmiyyət tipi kimi deyil, industrial eranın yeni formada davamı hesab ediriksə, onda dəyişiklik proseslərindən (keyfiyyətlə bağlı) yox, industrial inkişafın dayanıqlılığından danışmalıyıq. Yəni, yeni və köhnə arasında, onların əsaslı fərqlərini ifadə edən "sərhəd" yoxdursa, deməli, keçid – köhnənin yeniləşməsinə deyil, köhnənin yeni "libasda" təzahürünə transformasiya anlamı daşıyacaqdır. Ənənəvi cəmiyyətlə industrial cəmiyyət arasında, həqiqətən də böyük fərqlər mövcuddur. Və,

---

[50] Д.Белл. Грядущее постиндустриальное общества.М:1973

[51] В.И.Коваленко. Критика новейшик буржуазных конценции государственно – монополистического капитализма. М:1987

ənənəvi ilə industrialı bir-birindən ayıran konkret "sərhəd" vardır. Amma, keçidin labüdlüyü deyilən bir şey nəinki yoxdur, hətta keçid prosesi yarıda dayana da (arxeomodern kimi) bilir.

Beləliklə, qeyd etdiyimiz transformasiyaya münasibətdə aparılan tədqiqatların nəticələrinin ümumiləşdirilməsi aspektindən yanaşma müxtəlifliyi hədsiz dərəcədə genişdir:

1) Postindustrial cəmiyyət tipinə keçid obyektiv xarakterlidir və qaçılmazdır. İqtisadi inkişaf vektorlarının yönümü keçidin birmənalı məzmun daşıdığını ortalığa qoyur;

2) Sözügedən keçid qaçılmaz deyildir və hər hansı obyektivlikdən (əsas xassə kimi) danışmağın yeri yoxdur. Proses subyektiv xarakterlidir, idarəedilən prosesdir və sonsuz sayda variasiyaları mövcuddur;

3) İndustrial→postindustrial çevrilmə birbaşa baş vermir. Aralıq mərhələ kimi informasiya cəmiyyəti formalaşmalıdır;

4) İnformasiya cəmiyyəti – keçid yox, müstəqil cəmiyyət tipidir.

5) Bəşəri inkişaf tarixinin ənənəvi – industrial – postindustrial tipli fərqləndirilməsi və tip dəyişkənliyinin düzxətliliyinin təsbiti yanlışdır.

Transformasiya məntiqi zərurətlə baş vermir və heç də həmişə sona çatmır. Məsələn, arxeomodern tipli cəmiyyətlərin mövcudluğunu əyani misal kimi göstərmək olar.

Postindustrial cəmiyyətin tam şəkildə qərarlaşması ilə bağlı irəli sürülən mühakimələrin kafi əsası yoxdur. İqtisadiyyatda müşahidə etdiyimiz yeni xüsusiyyətlər cəmiyyətin iqtisadi tipinin dəyişməsini əsaslandırmaq rakursundan yetərli deyildir...

Bütün bunlar realdır, amma industrial tipin bazasında yaxud çərçivəsində baş verir və onun dəyişməsi anlamında qəbul edilməməlidir. Yəni, cəmiyyətin tip dəyişkənliyi baş vermir...Sadəcə olaraq, industrial cəmiyyətin inkişafında növbəti mərhələ başlayır.[52] Dəyişiklik üçün yeni sivilizasiya formalaşmalıdır.

Mühüm aspektlərdən biri də "informasiya cəmiyyəti" anlayışının qeyd edilən sistem dəyişikliyi prosesində yeri və rolu ilə bağlıdır.

**Informasiya cəmiyyəti – müstəqil tipmidir?**

"İnformasiya cəmiyyəti" konsepsiyası o dövrdən bu günə qədər müxtəlif yönümlü və müxtəlif məqsədli elmi araşdırmaların obyekti kimi çıxış etməkdədir.

F.Uebster informasiya cəmiyyəti üzrə aparılan tədqiqatlarda 5 yönümün olduğunu və onların hər birinin "yeniliyin identifikasiya parametri" kimi çıxış etdiyini göstərir: texnoloji, iqtisadi, məkan, məşğulluq, mədəni sferalar.[53]

Bu anlamda "informasiya cəmiyyəti"nin oynadığı rola münasibətdə üç paradiqmal yanaşma formalaşmışdır (şəkil 3.3). Sxematik təsvirdən göründüyü kimi, yalnız sinergetik paradiqma postindustrial cəmiyyətlə informasiya cəmiyyətinin eyniyyətdə olmadığı, hər ikisinin fərqli tip olduğu qənaətindədir.

---

[52] С.Бодрунов.Новое индустриальное общество второго поколения: человек, производство, развитие. Общество и экономика: №9. 2016

[53] Ф.Уэбстер. Теория информационного общества. М:2004



***Şəkil 3.3. İnformasiya cəmiyyətinə paradiqmal baxışlar.***

Paradiqmal baxışla yanaşı, "informasiya cəmiyyəti" nəzəriyyəsinə həsr edilmiş konseptual yanaşmaların qruplaşdırılmasına da cəhdlər edilmişdir. Bu aspektdən, bir qayda olaraq, iki yanaşma fərqləndirilir:

1) Texnoloji yanaşma: informasiya-birmənalı olaraq, elmi bilik kimi səciyyələndirilir;

2) Humanitar yanaşma: informasiya-sosial kommunikasiya kimi qəbul edilir.

Keçən əsrin ikinci yarısından etibarən başlanan kardinal dəyişikliklər, yekun olaraq, elmin dominant mövqeyə keçidi və cəmiyyətin inkişafının əsas amilinə çevrilməsi ilə nəticələndi. Elmin ön plana çıxışı industrial cəmiyyətin mahiyyətcə dəyişməsinə, yeni keyfiyyətli "keçid situasiyasının" formalaşmasına və məntiqi son olaraq cəmiyyətin yeni tipə keçidinə səbəb oldu. P.Draker yazırdı ki: "... Bu gün bilik artıq özünə tətbiq edilir. Və, bunu idarəetmə sferasında inqilab adlandırmaq olar. Bilik – kapital və işçi qüvvəsini arxa plana keçirməklə istehsalın əsas amilinə çevrilməkdədir".[54] "Keçid situasiyasının" heterogen məzmunda formalaşması yeni yaranışın müxtəlif cür adlanmasını əsaslandıran əsas səbəb olmuşdur ("texnotron cəmiyyət", "bilik cəmiyyəti" və s.). 1960-cı ildən sonra yeniliyə

[54] P.Drucker The New Society.(1950)

münasibətdə meydana çıxan ad müxtəlifliyi aradan qalxdl və yeni tip informasiya cəmiyyəti kimi xarakterizə olunmağa başladı.[55]

İnformasiya cəmiyyətinin nəzəri dərkinə humanitar yanaşmanın formalaşması, məna tutumu nəzərə alınmadan kəmiyyət göstəriciləri üzərində aparılan araşdırmaların (texnoloji yanaşma) yetərsizliyi və konseptual aspektdən ziddiyyətliliyinin doğurduğu yekun kimi səciyyələndirilə bilər.

Eyni zamanda, humanitar yanaşma çoxaspektliliyi ilə xarakterizə olunur.




***Şəkil 3.4. Humanitar yanaşmanın aspekt müxtəlifliyi.***

Təbiidir ki, bizim üçün mühüm əhəmiyyət daşıyan sosial-iqtisadi aspektdir. Yeri gəlmişkən qeyd edək ki, bu aspektdən yanaşmanın məhdudluğu artıq xeyli vaxtdır ki, tənqid olunmaqdadır. Məsələn, F.Uebster hesab edir ki, informasiya cəmiyyətinin xüsusiyyətlərinin qiymətləndirilməsində istifadə olunan iqtisadi, kriteriyalarda subyektiv amilin xüsusi çəkisi həddən artıq yüksəkdir. Belə ki, icmal xarakterli statistik məlumatlar bütün fəaliyyət növlərini labüd olaraq “eyniləşdirir”, informasiya fəaliyyətin differensasiya imkanlarını aradan qaldırır və onun (informasiyanin) cəmiyyətdə yalnız xüsusi çəkisini müəyyənləşdirməyə imkan verir.[56]

Ümumiyyətlə, informasiya cəmiyyətinin sosio-iqtisadi konsepsiyasına görə, informasiya kapital kimi yığıla, toplana və gələcəkdə istifadə oluna bilər.

Postindustrial təsərrüfat tipi çərçivəsində milli informasiya resursları – sərvət toplamanın ən böyük potensial mənbəyidir.

F.Maxlup informasiya fəaliyyəti sferasına təhsili, hüququ, kütləvi kommunikasiya vasitələrini, kompüter istehsalını aid etmiş və hətta onların iqtisadi dəyərini müəyyənləşdirməyə cəhd göstərmişdir.[57]

---

[55] F.Machlup. The Production and Distribution of Knowledge in the United States. Princeton University Press. 1962.p.49

[56] Ф.Уэбстер. Теория информационного общества. М:2004, с.23.

[57] F.Machlup. The Production and Distribution of Knowledge in the United States. Princeton University Press. 1962.p.64

Müasir dövrdə iqtisadiyyatın inkişaf amilləri sırasında elmi-texniki və innovativ-intellektual potensial xüsusi yer tutur. Postindustrial təsərrüfat tipinə keçidlə başlanan yeni iqtisadiyyatın formalaşması prosesi böyük intensivliklə getməkdədir. Bu sırada hiperiqtisadiyyat[58], yaxud geoiqtisadiyyat[59], neoiqtisadiyyat[60], bilik iqtisadiyyatı[61], hətta yeni siyasi iqtisad tipli nəzəri konstruksiyalara böyük diqqət yetirilir. Hətta milli siyasi iqtisadın formalaşdırılmasına cəhdlər göstərilir.[62]

Qeyd etməyi zəruri sayırıq ki, sadalananların əksəriyyəti futuroloji məzmunludur. Məsələn, neoiqtisadiyyat tipli yeni yanaşma kimi. Neoiqtisadiyyatın məzmunu aşağıdakılardan qaynaqlanmaqla formalaşdırılır:

1) Sivilizasiyalı inkişafın postindustrial mərhələsindən sonra gələn cəmiyyət tipidir;
2) Qlobal sistemin yeni dəyərlər sisteminə söykənən sivilizasiya modelidir;
3) Yaşamın keyfiyyət standartlarının təkrar istehsalı aspektindən texnogen və sistemdən kənar amillərin harmonik simbiozudur.

Bəzi tədqiqatçılar "yeni iqtisadiyyatın" müxtəlif formada ifadə tərzini vahid adla əvəzləməyi məqsədə uyğun hesab edirlər. Məsələn, M.Çentsova hesab edir ki, diskussiya xarakterli konseptual (müasir iqtisadiyyatla bağlı) baxışları "bilik iqtisadiyyatı" adı altında ümumiləşdirmək olar.[63] Yəni, "bilik iqtisadiyyatı, sözün geniş mənasında həm postindustrial iqtisadiyyat, informasiya iqtisadiyyatı, innovativ iqtisadiyyat, həm də qlobal şəbəkə iqtisadiyyatı anlamını daşıyır.

Başqa anlamda, "yeni iqtisadiyyat", sözün geniş mənasında elə "bilik iqtisadiyyatı" deməkdir.

Postindustrial cəmiyyət tipi ilə bağlı aparılan araşdırmaların bir çoxunda formal məntiqin çərçivəsinə sığmayan dəyərləndirmələrə də rast gəlinir. Məsələn, bəzi tədqiqatçılar postindustrializmi – "postiqtisadiyyat", "postəmək" cəmiyyət tipi kimi xarakterizə edirlər.

Yəni, iqtisadi alt-sistem aparıcı mahiyyətini itirir, əmək isə sosial-iqtisadi münasibətlərin fundamental əsası olma statusundan "əl çəkir". Və, bu məntiqlə davam etsək, onda belə bir nəticəyə gələcəyik ki, insan-özünün iqtisadi mahiyyətini itirir, "iqtisadi insan" anlayışı "unudulur", o (insan), postmaddi dəyərlərə istiqamətlənir. Əsas diqqət sosial-humanitar problemlərə yönəlir, əsas prioritetlər kimi təhlükəsizlik və keyfiyyətli yaşam standartları, fərdin özünü təsdiq imkanlarının genişlənməsi, şəxsiyyətin hərtərəfli inkişafı diqqət mərkəzinə gətirilir ki, bu əsasda da rifahın yeni kriteriyaları formalaşdırılır.[64]

Bizim fikrimizcə, bu qəbildən olan yanaşmalar müasir dövrdə cəmiyyətin tip dəyişkənliyi prosesində qeyri-müəyyənlik aspektinin çox geniş diapazonda təzahür etməsindən doğur. Məzmunca, kommunizm xülyasına oxşar olan belə baxışların ciddi elmi əsasları ola bilməz və yoxdur:

1) Dünya iqtisadiyyatı o qədər mürəkkəb, dünya ölkələri arasındakı fərqlər o qədər dərindir ki, cəmiyyətin tip dəyişkənliyi yaxud iqtisadi inkişaf vektorunun hansı istiqamətdə gedəcəyini bu günün reallıqlarından çıxış etməklə müəyyənləşdirmək, prinsipcə mümkün deyildir;

---

58 Б.В.Прыгин. Новейшая теоретическая экономика. Гиперэкономика.М: ЮНИТИ; 1998
59 А.Г.Кочетов. Геоэкономика. М: 1999
60 Экономическая теория на XXI века; Неоэкономика. под.ред. Ю.М.Осипова и др. М:2001
61 В.В.Глухов; С.В.Коробко; Т.В.Марина. Экономика знаний. СПБ.Питер.2003
62 А.А.Олейников. Экономическая теория. Политическая экономия национального хозяйства. М: 2011
63 М.В.Ченцова. Особенности формирования экономики знаний в современных условиях. Автореферой. М:2008. с.11
64 В.Л.Иноземцев. концепция постэкономического общества: теоретические и практические аспекты. М:1998

2) Bəşəriyyətin inkişaf tarixinin müəyyən mərhələlərində ictimai həyatın hansısa bir sferasının ön mövqeyə çıxışı, yəni dominantlılığı mümkündür və bu yönümdə çoxlu sayda faktlar mövcuddur. Lakin belə bir fərqlənmə hələ o demək deyildir ki, cəmiyyətin gələcək tipi məhz həmin sferanın sosial-iqtisadi təbiətinə adekvat olacaqdır. Gerçəklik ondan ibarətdir ki, sistemdaxili elementlərin qarşılılqlı təsiri və həmin təsirin sinxronluq dərəcəsindən asılı olaraq tamamilə fərqli məzmun daşıyan yeni konstruksiya yarana bilər;

3) İqtisadi alt-sistemin “arxa plana” keçirilməsi, ondan imtina kimi başa düşülməməlidir. Sadəcə olaraq, hesab edilir ki, nə vaxtsa iqtisadiyyatın effektivliyi və rasionallığı elə bir keyfiyyət səviyyəsinə yüksələcəkdir ki, iqtisadi problem deyilən bir şey qalmayacaqdır. Hesab edirik ki, bu qəbildən olan inam – sosial-iqtisadi gerçəkliyin deyil, nəzəri təfəkkürün məhsuludur və sözün bütün mənalarında xalis yanılma xarakteri daşıyır;

4) “Postəmək” mənalı qiymətləndirmə, ümumiyyətlə heç bir çərçivəyə sığmır. Yüksək səviyyəli ixtisaslaşmış əmək-əməkdən imtina deyildir. Cəmiyyət tipinin spesifikasından asılı olmayaraq, əmək məcmu ictimai proseslərin, o cümlədən, sosial və iqtisadi münasibətlərin substansiyası olaraq qalacaqdır.

“Məqsəd subyektiv yüklüdür, şüurlu elementin formalaşdırdığı hədəfdir. Mənayaratma prosesində isə şüurlu elementin müdaxilə imkanlarının genişliyinə baxmayaraq, spontan qaydanın gətirdiyi “təbiilik” xassəsi, heç də az əhəmiyyətli rol oynamır. Yəni, məqsəd-subyektiv şəkildə müəyyənləşdirilən, məna isə atributlaşmış aspektdə formalaşandır. Buna görə də, eyniyyətin, üst-üstə düşmənin “labüd olmaqlıq” kimi səciyyələndirilməsini yalnış hesab edirik”.[65]

## IV FƏSİL. MİLLİ İQTİSADİYYATIN FORMALAŞMASI PROSESİNİN NƏZƏRİ İNTERPRETASİYASI.

Bəşəriyyətin iqtisadi inkişaf tarixinə yanaşma tərzində universallıq həmişə dominant mövqedə olmuşdur: iqtisadi proses ayrı-ayrı ölkələrin, yaxud ərazilərin spesifikasından asılı olmayaraq eyni qanunauyğunluqlar çərçivəsində gedir. İfrat mücərrədlik dərəcəsinə baxmayaraq bu qəbildən olan “həqiqətlər” müasir dövrdə də öz populyarlığını saxlamaqdadır. Keçilən tarixi yol və müasir iqtisadi inkişaf mərhələsinin spesifik xüsusiyyətləri eyniləşdirmənin yalnış olduğunu birmənalı şəkildə nümayiş etdirməkdədir. Təzahür formasından asılı olmayaraq iqtisadi hərəkətin (inkişaf, təkamül, artım və s.) ayrı-ayrı ölkələr bölümündə fərqli özünəməxsus məzmun daşıdığı, fərqli dəyərlər sisteminə malikliyi heç bir şübhə doğurmur. Söhbət iqtisadi prosesə və onun məna tutumuna obyektiv/subyektiv bölgüdə yanaşmadan deyil, mahiyyətcə fərqli olan iqtisadi situasiyanın mövcudluğundan gedir. Bu mənada qlobal iqtisadi gerçəklik – müxtəlif məzmunlu lokal (milli, ərazi və s.) gerçəkliklərin müxtəlif kombinasiyalı ziddiyyətli bütövlüyünü özündə ehtiva edir. Yəni, bir növ fərqliliklərin , müxtəlifliklərin kontiniumu formasındadır... Gerçəkliyin qeyd edilən yönümlü ziddiyyətliliyi də məqsəd müxtəlifliyini doğurur. Bu aspekt bəşəriyyətin tarixi inkişaf prosesinə sivilizasiyalı yanaşmada aparıcı element statusunda çıxış edir.

E.Toffler yazırdı ki: “... Müxtəlif cəmiyyətlər eyni yolla hərəkət etmirlər. ... Əslində çoxlu sayda şaxələnmələr var. Vahid dəmiryolu xətti yoxdur. Və, cəmiyyətlər müxtəlif yollardan istifadə etməklə inkişafın müəyyən səviyyəsini əldə edə bilərlər”.[66]

---

[65] Ə.Bayramov. İqtisad elminin fəlsəfəsi: zaman, həqiqət və azadlıq. Bakı, 2016. səh.57
[66] Э.Тоффлер. Третья волна. М: 1980, с.474

Göründüyü kimi inkişaf prizmasından eyniyyətin yoxluğu, qlobal miqyasda baş verən hadisə və proseslərin mühüm əhəmiyyət kəsb etməsinə baxmayaraq, milli spesifikanın əlahiddə rol oynadığını ortalığa qoyur. Bu aspektdən "milli iqtisadiyyat" anlayışının nəzəri dərki və təkamülü proseslərinin öyrənilməsi ayrıca götürülmüş hər bir ölkənin mövcudluq şərtlərinin və inkişaf strategiyasının formalaşdırılmasının fundamental əsası kimi çıxış edir. Milli iqtisadiyyatın təkamül tarixi modern erasının başlanğıcına (XVI əsr) təsadüf edir. Bu proses ilkin olaraq Qərbi Avropada start götürmüşdür. Müqayisə üçün qeyd edək ki, Şərq ölkələrində milli iqtisadiyyatın təşəkkülü prosesi XIX əsrin ortalarına təsadüf edir. Qərb ölkələrində isə XVI əsrdən başlayaraq natural təsərrüfat tipinin dağılması, şəhərlərin inkişafı, əmtəə-pul münasibətlərinin mürəkkəbləşməsi, bank fəaliyyətinin ortaya çıxması və milli dövlətlərin formalaşması prosesi başlanmışdır. Bu proses cəmiyyət həyatının bütün sferalarında yeni keyfiyyət mərhələsinə keçidi (sənaye inqilabının məntiqi nəticəsi kimi) reallaşdırdı. İqtisadiyyatın yeni keyfiyyət mərhələsinə transformasiyası prosesi XIX əsrin ikinci yarısına qədər davam etmişdir. Dəyişmənin ardıcıllığı iqtisadi proseslərin öncüllüyünə istinadla formalaşmış və məntiqi zərurətlə sosial-siyasi və sosial-mədəni sferaları da əhatə etmişdir.

### §4.1.Milli iqtisadiyyat fenomeni: retrospektiv baxış.

"Milli təsərrüfat" anlayışı son orta əsrlərdə leksikona daxil olmuş və iqtisadi siyasətin milli müstəvidə çərçivələnməsi baş vermişdir. O dövrdə həyata keçirilməsinə cəhd edildiyi əsas məqsədlərdən biri milli sərhədlərlə əhatə olunmuş daxili bazarın formalaşdırılması və siyasətin vahid mərkəzdən – dövlət tərəfindən yeridilməsi idi. Praqmatik müstəvidə həyata keçirilən siyasətin nəzəri bazası kimi merkantilizm çıxış edirdi. Amma merkantilizm – milli təsərrüfat siyasətinin yalnız bir istiqamətini – xarici ticarəti əhatə edirdi. Başqa sözlə sistemlilikdən ( milli təsərrüfatın yaranması nöqteyi-nəzərindən) uzaq, birtərəfli səciyyə daşıyırdı və sözün bütün mənalarında milli iqtisadiyyatın nəzəri bazası kimi xarakterizə (merkantilizmi) etmənin yanlış olduğunu düşünürük. Belə ki mahiyyət etibarı ilə bu siyasət o dövrlərdə inkişafın kifayət qədər yüksək (o dövr üçün) səviyyəsinə çatmış şəhər təsərrüfatları üçün də keçərlidir. Məhz şəhər təsərrüfatlarının birləşməsi nəticəsində milli təsərrüfatlar formalaşmışdır. "Birləşmənin" nə gedişi, nə zəruriliyi, nə də spesifikası merkantilizmdə nəzərə alınmamışdır.

Sözügedən təkamül prosesinin nəzəri dərki sferasında ən geniş yayılmış təmayül ümumiyyətlə iqtisadiyyat və milli iqtisadiyyat anlayışlarının eyniləşdirmə cəhdi ilə bağlıdır. Bizim fikrimizcə, bu anlamda baxışların həyata vəsiqə olması milli iqtisadiyyatın vahid nəzəriyyəsinin yoxluğu ilə şərtlənir. Həmçinin iqtisadi nəzəriyyənin abstrakt müddəaları əsasında milli iqtisadiyyatda praqmatik fayda əldə etmənin mümkünsüzlüyünü çox asanlıqla aşkarlamaq olar. İqtisadi fikrin təkamülü tarixi milli iqtisadiyyatla bağlı aspektin fraqmentar xarakter daşıdığını ortalığa qoyur. Və, nəzərdən keçirdiyimiz konseptual yanaşmaların böyük əksəriyyəti problemin nəzəri dərkinin sistemliliyinə deyil, yalnız hissəvi olaraq, ayrı-ayrı element və ünsürlərin şərhinə yönəlmişdir.

Beləliklə, milli iqtisadiyyata nəzəri baxışların təkamülü prosesində iki cərəyan müşahidə edilməkdədir:

1) Universallıq: İqtisadi inkişafın səbəbləri, gedişi, məqsədləri, milli fərqliliklərdən asılı olmamaqla universal xarakterli qanunauyğunluqlarla müəyyənləşir;

2) Millilik: İqtisadi inkişaf milli spesifikadan funksional asılılıqdadır.İnkişafın vahid resepti yoxdur.

Təkamül prosesinə nəzəri baxışların sxematik–xronoloji təsvirindən (şəkil 4.1.) göründüyü kimi ,milli iqtisadiyyatla bağlı sistemli məzmun daşıyan konseptual yanaşma alman tarix məktəbinə məxsusdur.(F.List) Klassık siyasi iqtisadi kosmopolitizmdə ittiham edən tarix məktəbi cəmiyyətin inkişafı prosesinin təminatında millilik spesifikasının həlledici rol oynadığını ortalığa qoymuşdur.




*Şəkil 4.1. Milli iqtisadiyyata nəzəri baxışların təkamülü.*

Tarixi məktəb hesab edir ki, iqtisadi inkişaf adət-ənənələri,dili,hüquq və psixologiyanı özündə “daşıyan” üzvi prosesdir . Buna görə də ,yalnız iqtisadi kateqoriyalarla “işləyən” iqtisad elmi yarımçıqlıq və birtərəfliliklə səciyyələnir.[67]

Bu aspekti eynilə klassık bazarının formalaşması prosesinə də şamil etmək gərəkdir. Belə ki,bazar-klassık anlamında iqtisadi proseslərin təbii tənzimləyicisi olmaqla cəmiyyətin qeyri-formal dəyər və normalarını da özündə ehtiva edir. Əks təqdirdə spontan tənzimləmə mexanizmi formalaşa bilməzdi. Həmin mexanizmdə “tənzimləyici” adı altında yer alan nə

[67] М.К.Бункина. Национальная экономия. М: 2002, с.18

varsa ,hamısı istisnasız olaraq dəyər yüklüdür. Və, bu məcmuluqdan yalnız iqtisadi məzmun daşıyanı ayırmaq, yalnız ona istinadla praqmatik və konseptual müddəalar formalaşdırmaq, heç bir situasiyada sistemlilik keyfiyyəti əxz edə bilməz. Bu cür yanaşma-üzvi vəhdətdə olan məcmuluğun süni şəkildə parçalanması anlamından qeyri heç bir əhəmiyyət kəsb etmir.

M.Veber yazırdı ki,bazar təsərrüfatının genesizi avropa sivilizasiyası ələlxüsus protestant əxlaqı ilə sıx surətdə bağlıdır.Ona görə də, qeyri-avropalı ənənəvi cəmiyyət tiplərinin kapitalist modernləşdirilməsi mümkün deyildir. O, idarəetmənin "ideal"tiplərinin də təsnifatını vermişdir.

1) Leqal-radikal idarəetmə :qanunvericiliklə formalaşmış rasional hüquqa söykənir.

2)Ənənəvi İdarəetmə :tarixi təkamül prosesində formalaşmış normalara istinad edir.

3)Xarizmatik idarəetmə :Liderin unikal qabiliyyətlərinə olan inam və sədaqətə istinad edir.[68]

O, hakimiyyətin sadalanan ideal tiplərinin təhlilini aparmaqla iqtisadi araşdırmalara daha sivil qaydada yanaşma zəruriliyini əsaslandırırdı. Məşhur sosioloqun milli təsərrüffatın formalaşması prosesinin sosial-iqtisadi təbiətinə istinadla gəldiyi qənaətlər problemə yanaşmanın sivil müstəvidə həyata keçirilməsi zəruriliyini bir daha aktuallaşdırır. Bu mənada ki, yalnız iqtisadi prosesə istinadla aparılan araşdırmalar milli təsərrüfatın təkamülü spesifikasını aşkarlamaq nöqteyi-nəzərindən yetərli deyildir. Məhz bu hal, bizim fikrimizcə, iqtisadi elminin "yarımçıqlıq"sindromunu doğuran əsas səbəbdir. Yeni yaranışla sonuclanan tarixi-təkamül prosesinin amillər çoxluğu, subyektiv/obyektiv səciyyə daşımasından yaxud cəmiyyətin hansı sferasının (iqtisadi,sosial,siyasi,mədəni) dominant mövqedə olmasından asılı olmayaraq, qarşılıqlı bağlılıq və qarşılıqlı asılılıq nöqteyi-nəzərindən araşdırılmalıdır.

O.Ananina qeyd edir ki:"Yeni tarixi məktəb ələlxüsus marjinalizm meydana çıxdıqdan sonra iqtisad elminin "yeganəliyinə"son qoyuldu.[69] Bu qəbildən olan yanaşmalar belə bir məntiqə istinad edir ki, əgər iqtisad elmi "yeganə" və universaldırsa, onda bütün ölkələr və bütün sosial zamanlar üçün eyni olan universal nəticələr (prinsiplər və qaydalar və s.) ortalığa qoyulacaqdır. Və, əgər nəzərə alsaq ki,iqtisadiyyat "İdeoloji konstruksiyadır", onda həmin nəticələr də "ideoloji yüklü"olacaqdır.

Göründüyü kimi ,təkcə milli iqtisadiyyatın təkamülü prosesinə deyil, ümimiyyətlə istənilən tarixi dövrdə baş vermiş yaxud baş verməkdə olan ictimai hadisə və proseslərə münasibətdə "iqtisadi imperalizmi" adekvat yanaşma hesab etmək mümkün deyildir. İqtisadiyyat – mühümdür, əlahiddə əhəmiyyət kəsb edir, vazkeçilməzdir, həlledici təsir gücünə malikdir, lakin "yeganə" deyildir. İqtisadiyyat - insan fəaliyyətinin müstəqil sferasına çevrildiyi dövrdən (modernizm erası) başlayaraq, heç bir tarixi inkişaf mərhələsində "müstəqil olmamış", ictimai həyatın bütün spektri ilə sıx qarşılıqlı bağlılıq və asılılıqda fəaliyyət göstərmişdir. Bu mənada milli iqtisadiyyat - təkcə iqtisadi deyil, həm də sosial-siyasi, sosial-mədəni və ideoloji yük daşıyan yaranışdır və aydındır ki, belə bir yaranışın təkamülü prosesi də sadalanan sferaların qarşılıqlı bağlılığını özündə ehtiva edir.

Digər tərəfdən Keynsçi yanaşma klassık baxışın həm təhlil metodunu, həm də prinsiplərini şübhə altına saldı. Belə bir müddəa irəli sürüldü ki,bazar tipli iqtisadi sistem natarazlıqda olur və mexaniki olaraq bu situasiyanı təkrarlayır. Natarazlıq – prinsipial xarakter daşıyır. Ona görə də, bir sıra obyektiv səbəblər üzündən məcmu tələb mövcud iqtisadi imkanlardan geridə qalma təmayülü nümayiş etdirir. Prosesin yekunu da məntiqi labüdlük

---

[68] М.Вебер. Избранные произведения. М: 1990, с.44-135
[69] О.Ананина. карл Маркс и его «Капитал»: из XIX в XXI век//Вопросы экономики. №9. 2007, с.51

formasında ortalığa çıxır: resurslardan tam deyil, hissəvi istifadənin xroniki hal alması və böhranlı situasiyanın formalaşması baş verir.

Eyni zamanda qeyd edilir ki, bütün bunlar yalnız makroiqtisadi səviyyədə aparılan təhlil nəticəsində aşkara çıxır. Milli İqtisadiyyatla bağlı keynşçi yanaşma birmənalı olaraq dövlət tənzimlənməsi mexanizminin mahiyyət açıqlanmasına həsr edilmişdir. Bu aspektdən mühüm olan məsələ nəyin tənzimlənməsi yox, bu tənzimləmənin hansı çərçivədə həyata keçirilməsi məsələsidir.Yəni, keynşçi baxışları, olduğu kimi inteqrasiya blokunda iqtisadiyyatın tənzimlənməsi kimi də qəbul etmək olar. Başqa sözlə milli çərçivədən regional miqyasa çıxış, milli dövlətin regional səviyyəli fövqəlhökumət qurulmaları ilə əvəzlənməsi keynşçi baxışlar üçün önəmli deyildir. Bu cür yanaşma ,sadəcə olaraq iqtisadi prosesin sabitqədəmli gedişinə təminat verə biləcək funksional aspektin önə çıxmasının zəruriliyini əsaslandırır. Konkret olaraq belə bir qənaət hasil olur ki, keynsçi yanaşma klassikaya münasibətdə daha çox “milli” anlam daşısa da sözün həqiqi mənasında “millilik yalnız dövlətə, onun funksiyalarına olan münasibətdə təzahür edir. Yuxarıda qeyd etdiyimiz kimi, bu nəzəriyyə üçün iqtisadiyyatın tənzimlənməsi prizmasından milli dövlət və regional səviyyəli inteqrasiya blokunun fövqəlhökümət qurumları arasında heç bir fərq yoxdur. Fikrimizcə, bu cür eyniləşdirmə onunla izah edilə bilər ki,o dövrdə (1930-cu illər) real məzmunlu regional inteqrasiya blokları mövcud olmamışdır.

Problemə neoliberal baxışın (F. Xayek) əsas çıxış nöqtəsi bazar qaydalarının spontan xarakterliliyidir. Neoliberallar hesab edirlər ki, bazar qaydaları haqqında digər sistemlərdən (texnoloji və s) fərqli olaraq – hər hansı bir təsəvvür əldə etməyin əsas yolu proses iştirakçılarının davranış tərzinin adekvat anlama imkanlarından keçir. Və, təbiidir ki, bu yolla əldə olunan bilik sırf individual və subyektiv səciyyə daşıyır. Buna görə də, nəticəni əvvəlcədən “görmək”, yaxud prosesə məqsədyönlü şəkildə təsir göstərmək ehtimalı sıfıra yaxındır. Mövcud informasiya müxtəlifliyi qiymət sistemi vasitəsilə bazar tərəfindən ümumiləşdirilir. Neoliberal yanaşma qəti surətdə əminlik ifadə edir ki, məhz bu üsulla nəinki ən effektiv qərarlar qəbul olunur, eyni zamanda yenidən yaranan tələbatlar nəzərə alınır və yeni resurslar təsərrüfat prosesinə cəlb olunur... Prosesin şüurlu mexanizminin heç bir variantı bu anlamda, spontan qaydalarla müqayisəyə gələ bilməz. Ona görə ki, şüurlu (subyektiv) yanaşma yeni tələbatları və onların ödənilməsinin təminatı üçün zəruri olan yeni resurs və texnologiyaları nəzərə almaq iqtidarında deyildir. Yenilik – prosesin ilkin başlanğıcında (praktiki anlamda) deyil, gedişində meydana çıxır. “Meydana çıxma” - sistemdaxili qarşılıqlı bağlılıq və qarşılıqlı asılılığın konkret zaman kəsiyində formalaşdırdığı yeni konstruksiyanın həyata keçirdiyi aktdır. Başqa sözlə, əvvəlcədən proqnozlaşdırılması ifrat dərəcədə məhdud, yaxud mümkünsüz olan yeni yaranışı layihənin hazırlandığı dövrdə (ilkin başlanğıcda) nəzərə almaq imkansızlığı mövcuddur. Eyni ilə, müxtəlif yönümlü əlaqə və bağlılıqların funksional müstəvidə “toqquşmasından” yaranan “təsadüflər” kimi, bu aspekt də bütünlüklə spontan qaydanın “hakimiyyəti” altındadır. Neoliberal yanaşmanın universal məzmunluluğu gerçəkliyin həqiqi məzmunlu interpretasiyasında da problemli situasiya yaradır.

Bizim fikrimizcə, spontanlıq, spontan qaydaların dominantlığı daha çox tarixi anlamda müəyyən əhəmiyyət kəsb edir. Yəni, klassik bazarın mövcud olduğu (“görünməyən əl”in şəriksiz hökümran olduğu) çox qısa bir zaman intervalında spontan qaydalar həqiqətən də həlledici rola malik olmuşdur. Lakin eyni şeyi müasir bazara münasibətdə söyləmək mümkün deyildir.

Müasir bazarda – kimə mənsub olduğu bilinməyən və görünməyən əl bilinən və görünən haldadır. Digər tərəfdən, şüurlu elementin iştirakı olmadan hər hansı bir qaydanın formalaşması və uzunömürlülüyü mümkün deyildir. Qayda – prosesin iştirakçılarının davranışını tənzimləyən mexanizmdir. Yəni, hətta spontanlıq deyilən şey belə həmin individual davranış vektorlarının

qarşılıqlı təsiri və qarşılıqlı asılılığı bazasında təşəkkül tapır. Bu mənada, həmişə subyektiv amilin təsir dairəsində (təsirin dərəcəsindən asılı olmayaraq) olur. Hətta, o dərəcədə ki, spontanlıq anlayışında belə subyektiv "iz" aşkarlamaq mümkündür.

Neoliberal baxışın milli iqtisadiyyata yanaşma tərzi, yuxarıda qeyd etdiyimiz universallıq çərçivəsindədir. Milli spesifika, milli varlığın dəyərlər sistemi, milli inkişafın həmin spesifikadan asılı olaraq fərqli məqsəd güdməsi və s. neoliberalizm üçün heç bir əhəmiyyət kəsb etmir.

Eyni zamanda, dünya iqtisadiyyatına açıqlığın neoliberal yozumu milli fərqliliklərə "göz yummaqda" davam edir. Baxmayaraq ki, müasir dünya praktikası göstərir ki, açıqlıq problematikası ilə iqtisadi inkişaf səviyyəsi arasında çox sıx bağlılıq mövcuddur. Ölkə - yüksək iqtisadi inkişaf səviyyəsinə çatmışsa, açıqlıq müsbət, əks-halda isə zahiri görünüşcə hissəvi olaraq müsbət, mahiyyətcə, perspektiv anlamda isə mənfi rol oynayır. Söz açdığımız mənfilik-birmənalı olaraq milli özgürlüyün, milli mövcudluğun itirilməsi anlamında dərk edilməlidir.

M.Kastels neoliberal yanaşmanın əksinə olaraq yazır ki..."heç bir texnologiya yaxud biznes öz özlüyündə qlobal iqtisadiyyatı inkişaf etdirə bilməz. Qlobal İqtisadiyyatın əsas agentləri milli hökumətlərdir. - ələxüsus böyük 7-lik və onların yaratdığı beynəlxalq təşkilatlardır.[70]

C.Kruqman da oxşar mövqe sərgiləyir: Dövlət tənzimlənməsinin hər hansı bir formada aradan qaldırılması real sektorda böhrana səbəb olacaqdır.[71] Maraqlıdır ki, hələ 1997-ci ildə Dünya bankı ("Dəyişən dünyada dövlət" məruzəsində) qeyd edirdi ki..."Yaxşı Hökumət -həyati zərurətdir. Effektiv dövlətsiz nə sosial, nə də iqtisadi sferada dayanıqlı inkişaf mümkün deyildir".[72]

Bütün bu gəlinən qənaətlər iqtisadi reallığın diqtə etdikləridir. Yəni, sırf praqmatik məzmunlu təsbitlərdir. Hesab edirik ki,yalnız bir aspekti qabartmaq kifayətdir ki,(ictimai kapitalın hərəkəti üzərində effektiv nəzarətin zəruriliyi) cəmiyyətin dayanıqlı iqtisadi inkişafında dövlətin yeri və rolunun həlledici əhəmiyyət kəsb etdiyini anlayasan. Geniş təkrar istehsal prosesinin normal gedişi tənzimlənəndir, idarəedilən dir. Bu prosesdə spontan qayda yalnız mikrosəviyyədə funksional fəaliyyət mexanizmində müəyyən rol oynayır. Eyni zamanda, deyilən prizmadan iri korparasiyalar da yalnız dəstəkçi statusunda çıxış edə bilərlər.

Frayburq məktəbi (Oyken,Erxard) neoliberalizmin mütləq "universallıq" keyfiyyətinin daha çox nisbi xarakter daşıdığını, azad rəqabətli bazarın mühümlüyünü qeyd etməklə yanaşı, onun müxtəlif variasiyalarının mövcud olduğunu ortalığa qoydu. Böyük üstünlüklərə malik olmasına rəğmən bazar təsərrüfatı, öz-özlüyündə yalnız özünəməxsus olanlarla fəaliyyət göstərə bilməz. Ən azı ona görə ki:

1) Təmərküzləşmə təmayülü – bazar prosesinin daxili təbiəti ilə determinə olunur, yəni tam olaraq obyektivdir və həmin mövqedən də rəqabəti "boğur", aramsız olaraq inhisarçı birliklərin yaranmasına rəvac verir;

2) Rəqabətin "boğulması" bazarın fiaskosu ilə yekunlaşır.

3) Azad bazar –makrosabitliyə mənfi təsir göstərən sosial proseslərin meydana çıxmasına şərait yaradır

- Gəlirlərin qeyri-bərabər bölgüsü;
-Ayrı-ayrı sosial qrup yaxud təbəqələrin maddi təminatında yaranan problemlər;
- Məşğulluq səviyyəsinin kəskin dəyişikliklərə məruz qalması;

---

[70] М.Кастельс. Глобальный капитализм и новая экономика:значение для России//Посиндустриальный мир и Россия. М:2000, с.75
[71] Мировая экономика и международные отношения. 2002, №1, с.29
[72] The state and changing model. Washington. 1997, p. 7-12

-Ekoloji problemlər və s.

4) Azad bazar –"təkbaşına" fəaliyyət göstərdiyi təqdirdə, özünün yaranışında əsas dəyər kimi çıxış edən iqtisadi azadlığı məhdudlaşdırır,onun gerçək mahiyyətini deformasiyaya uğradır,əməyin azadlığını "işsizliyin azadlığına" çevirir və antidemokratik bir konstruksiyaya transfer edir və s.

5) Azad bazar- özünün bütün məziyyətləri ilə birlikdə antidemokratik ,xarakterlidir. Kənar (dövlət) müdaxilənin olmadığı bir şəraitdə bazar paylarının təmərküzləşməsi və mərkəzləşməsi prosesi qaçılmaz olur.Təmərküzləşmənin dərəcəsi yüksəldikcə "görünməyən əl" bir yaxud bir qrup insanın (subyektin) simasında görünən hala gəlir. Və, bazar proseslərinin diqtə altında tənzimlənməsi başlanır. Bu nəticə artıq bazarın "intiharı" deməkdir.

Sonuncu böhran (2008-ci il) qlobal iqtisadi qaydaların dayanıqlığı haqqında neoliberalların qəti inamla söylədiklərinin xülya olduğunu, milli→qlobal münasibətlər sistemində kəskin ziddiyyətlərin mövcudluğunu əyani şəkildə ortalığa qoydu. Bu aspekt həm də iqtisadi nəzəriyyənin universallığının, əksər dünya ölkələri üçün keçərli olması müddəasının böhranı idi. Real iqtisadi gerçəkliyi adekvat şəkildə anlama imkanı verə biləcək yeni iqtisadi nəzəriyyənin yaradılması zəruriliyi meydana çıxdı. Təbii ki, söhbət milli spesifika ilə ölkədaxili və qlobal miqyaslı iqtisadi gerçəkliyin mahiyyətinin konkret konseptual sərhədlər çərçivəsində nəzərə ala biləcək nəzəri konstruksiyadan gedirdi. Yeni nəzəriyyənin əsas cəhətlərinə aşağıdakıların aid edilməsi məqsədəuyğun hesab edilmişdir.

- Ehkamçılıqdan imtina;
- Artımın unuversal nəzəriyyəsinin yaradılmasından imtina;
- Elmlərarası yanaşmadan istifadə;
- Konkret tarixi, coğrafi, mədəni, institutsional, siyasi və sosial ölçmələrdən təşkil olunmuş çoxölçülü məkanda yerdəyişmə;
- Sair;[73]

Yeniləşmə və təkmilləşmə zəruriliyi eynilə iqtisad elminin metodologiyasına da aid edilməlidir. Söhbət, hər şeydən əvvəl, milli iqtisadi reallığın adekvat formalı sistemli tədqiqinə imkan verə bilərək prinsip və qaydaların tədbiqindən gedir. Məsələn, şübhə yoxdur ki, əsas metod kimi praqmatika çıxış etməli və konseptual-nəzəri ümumiləşdirmələr, hər şeydən əvvəl, praqmatik qaydaya istinadla aparılmaldır.

Beləliklə, milli iqtisadiyyat – modenizm erasının məhsuludur və sistem olaraq XIX əsrin əvvəllərində qərarlaşmışdır. Nəzəri aspektin "qədimləşdirilməsi" cəhdlərinə baxmayaraq, bu prosesdə həlledici mövqelər köhnə və yeni tarixi məktəbə mənsubdur. Köhnə tarixi məktəbin başçısı F.List-milli iqtisadiyyat nəzəriyyəsinin banisi hesab olunur. Bu nəzəriyyə ilə bağlı köhnə tarixi məktəbin və başlıca olaraq, F.Listin əsas ideyaları kimi aşağıdakıları göstərmək olar:

1) Milli iqtisadiyyat - əxlaqi-etik elmdir. Onun əsas obyekti – "İqtisadi insan" deyil, iradə azadlığı olan insandır. Azadlıq insanın və iqtisadi sistemin gələcək inkişaf amilidir.

2) Klassikanın "Laisser-faire"si, dövlət roluna neqativ münasibəti inkar olunur. Azadlıq - əsasdır, lakin kifayətedici deyildir. Effektiv iqtisadi sistemin formalaşdırılmasında dövlətin aktiv iştirakı zəruridir:

3) Milli sənayenin beynəlxalq rəqabət qabiliyyətini artıqmaq üçün "tərbiyyəvi" rüsumlardan (gömrük) istifadə olunmalıdır.

4) Milli siyasi iqtisad milli sərvət toplama qabiliyyətində olmalıdır.

---

[73] Г.Колодко. Неолиберализм и мировой экономический кризис//Вопросы экономики. 2010, №3, с.63-64

XIX əsrin sonlarına yaxın yeni tarixi məktəb yaranır (Q.Smoller, R.Bluxep və s.). Bu məktəb milli spesifikadan (dil ümumiliyi, mədəni dəyərlər, adət-ənənələr, tarix və s.) çıxış etməklə milli iqtisadiyyat konsepsiyasını işləyib hazırlamışdır. Onların fikrincə, sadalananlar iqtisadi əlaqələrdən daha çox və daha intensiv şəkildə milləti birləşdirə bilirlər. Buna görə də, siyasi iqtisad tarixi-etik elm olmalıdır.

Milli spesifikliyi müəyyənləşdirən amilləri nəzərə almadan iqtisadi təhlilin aparılmasını yalnış hesab edirdilər. O cümlədən, hesab edirdilər ki, insan davranışı o dərəcədə mürəkkəbdir ki, onun riyazi modelləşdirilməsi mümkün deyildir.

XX əsrin birinci yarısında "Ordoliberalizm" cərəyanı yaranır. Bu yanaşmanın əsas müəllifi V.Oyken[74] olmuşdur. Onun əsas istinad nöqtəsi kimi "təsərrüfat qaydaları" çıxış edirdi. Qayda – formal və qeyri – formal qayda və davranış normalarının, adət-ənənələrin məcmusu, həmçinin onların realizasiyasını təmin edən mexanizm kimi başa düşülürdü. Eyni zamanda, iqtisadi qaydalar - ictimai sistemin digər qaydaları ilə sıx qarşılıqlı bağlılıqda olan element (ictimai sistemin) kimi qəbul edilirdi. Daha konkret formada, bu o deməkdir ki, iqtisadiyyat alt-sistem olmaqla, siyasi, sosial və hüquqi sferalarla sıx qarşılıqlı bağlılıqdadır. Və, nəhayət, təsərrüfat qaydalarının effektivliyi azad rəqabət vasitəsi ilə gerçəkləşə bilər. Ordoliberal yanaşmada istinad edilən əsas nüanslara münasibətdə ziddiyyətli məqamlar da olmamış deyildir. Belə ki, azadlıq → azad rəqabət → sosial yönümlülük üçlüyündə optimallığın haradan keçdiyini empirik müstəvidə qiymətləndirmək çətinliyi mövcüddur. Bu aspektdən əsas qənaət o ola bilər ki, ordoliberalizm – iqtisadiyyatda dövlətin "iştirakını" konkret sərhədlər çərçivəsində əbədi hesab edir.

Oykenə görə, məhz təsərrüfat qaydaları iqtisadi inkişafda dövlətin həqiqi rolunun hansı dərəcədə olduğunu (tənzimləmə və dəstəkləmə nöqteyi nəzərdən), məhdud resurslardan effektiv istifadənin təminatındakı yerini üzə çıxarır. Təsərrüfat sistemlərini xarakterizə edərək tarixi mövqedən yanaşmaqla iqtisadi siyasətin tipologiyasını da aparır: Azad fəaliyyət; planlı mərkəzləşdirilmiş idarəetmə siyasəti; "Orta yol siyasəti"; rəqabətli qaydalar siyasəti; "nöqtəvi" siyasət. Sosial-bazar təsərrüfatını cəmiyyətin sosio–iqtisadi anlamda ideal tipi kimi qəbul edən tarixi məktəb üstünlüyü "orta yola", yəni dövlət–bazar dixtomiyasının optimal sintezinə verir. Rəqabətli qaydalar və "nöqtəvi" siyasət isə "orta yolun" (müəyyən situasiyalarda) tamamlayıcı və dəstəkləyici yönümləri kimi çıxış edirlər. Müasir dövrdə baş verən proseslər həm qlobal səviyyədə yeni situasiyanın formalaşmasına, bazarın sosio-iqtisadi təbiətində kardinal dəyişikliklərin yaranmasına, həm də dövlətin iqtisadi rolu və funksiyalarının yeniləşməsinə (ifrat dərəcədə zəifləmə rakursundan) gətirib çıxarmışdır. Artıq kütləvi hal alan virtuallaşma prosesi dövlət-bazar dixotomiyasına neoklassik anlamda yanaşmanın mənasızlığını təsbit etməkdədir. Bazarın konyukturasının trendlə dəyişməsi sözügedən ikilikdə hansısa bir optimal səviyyənin aşkarlanmasını mümkünsüz etmiş, böhranlı situasiyaların "qəflətən" meydana çıxmasını nəinki asanlaşdırmış, hətta bu növbələşməni tsiklik dəyişiklik halına gətirmişdir. Yəni, nə dövlətin, nə də bazarın, tənzimlənmə nöqteyi-nəzərindən ənənəvi yozumu artıq "işləmir" yaxud zahiri görünüş yaratmaqdan qeyri bir effektə sahib deyildir. Qeyd edilən təmayüllər milli iqtisadiyyatla bağlı ordoliberalizmin mövqelərinin əhəmiyyətli dərəcədə itirilməsi deməkdir.

L.Turou yazır ki: "XIX əsrin sonunda lokal təsərrüfat sistemləri milli təsərrüfatlarla əvəz olundu. XX əsrin sonlarında isə milli təsərrüfatlar qlobal iqtisadiyyatda birləşdilər."[75]

---

[74] В.Ойкен. Основные принципы экономической политики. М:1952

[75] Л.Турои. Процесс становления глобальной экономики//Мировая экономика и международные отношения. 1998, №4, с.6

C.Folte isə qeyd edir ki, qloballaşmanın təsiri nəticəsində milli sərhədlərin ləğvi prosesi gedir və dominant rolda dövlətlər deyil , transmilli elita çıxış etməyə başlayır.[76]

V.Ovçinnikov daha da irəli gedərək, göstərir ki, qlobal iqtisadi qaydaların təşkili ümumplanetar səviyyəli meqasubyekt tərəfindən həyata keçirilir....[77]

Neoliberallar hesab edirlər ki, iqtisaqiyyat üzərindəki dövlət nəzarəti "virtual reallığa" çevrilibdir:

"Əvvəllər hər bir ölkənin təsərrüfatı özünü təkrar istehsal edən sistem kimi fəaliyyət göstərirdi"... İndi isə milli dövlətlər arxa plana keçir. Transmilli kapital milli dövlətlərin nəzarətində deyildir... Qloballaşma şəraitində milli bazarın tənzimlənməsinə bəslənən ümidlər mənasızdır"[78]

Həqiqətən də milli dövlətlərin (iqtisadiyyata münasibətdə) rolu və funksiyaları getdikcə zəifləməkdədir, və bu təmayül milli iqtisadiyyatın dayanıqlı inkişafına nail olma nöqteyi-nəzərindən yaxşı heç nə vəd etmir.

### §4.2. Milli iqtisadiyyatda əlaqələr sistemi və sərhədlilik problemi.

Milli iqtisadiyyatda əlaqələr sistemi "xalis" iqtisadi yanaşmadan əhəmiyyətli dərəcədə fərqlənir. Şəkildən də göründüyü kimi, hətta ifrat dərəcədə sadələşdirdiyimiz sxematik təsvir milli iqtisadiyyatın mürəkkəb məzmunlu bir yaranış olduğunu bütün təfərrüatı ilə əks etdirir. Göründüyü kimi, əsas hədəflər sırasında makrososial sabitlik öndə gələnlərdəndir. Əslində, məzmun nöqteyi-nəzərindən makrososial sabitlik və onun dayanıqlılığı nəinki milli iqtisadiyyatda, eləcə də bütövlükdə cəmiyyət miqyasında inkişaf prosesinin normal gedişinə, strateji hədəflərə doğru davamlı hərəkətliliyinin mövcudluğuna bir sübutdur.

Belə ki, makrososial sabitliyin davamlı olması cəmiyyətdə mənafelərin tarazlığının formalaşdığını, effektiv hökümətin varoluşunu və milli mental dəyərlər sisteminin "fəaliyyətdə" olduğunu göstərir. Yalnış təsəvvürləri önləmək üçün, qeyd etməyi zəruri sayırıq ki, makrososial sabitlik anlayışı heç də hərəkətsizliyi, dəyişməzliyi ifadə etmir. Makrososial sfera daima hərəkətdə, daima dinamikada olan bir makroprosesdir. Sadəcə olaraq, dinamizm cəmiyyətdə formalaşmış tarazlığa, müvazinətə mənfi işarəli təsir göstərmir. Əksinə, söhbət açdığımız konkret situasiya daxili əlaqələr sisteminin tərəfləri arasında üzvi bağlılıqdan qaynaqlanmaqla hər hansı bir səviyyədə yaxud dərəcədə baş verən keyfiyyət dəyişikliklərinə həmişə açıqdır və bu dəyişikliklər sabitliyin uzunömürlülüyünü təmin etmək prizmasından son dərəcə mühüm rol oynayırlar. Bütün bunlarla bahəm, etiraf etmək gərəkdir ki, təsvir etdiyimiz situasiya "ideal" situasiyadır. Yəni, real mövcud olanların nəzəri ümumiləşdirilməsi, yaxud "nəzəri situasiyadır. Dünya ölkələrinin heç birində (inkişaf səviyyəsindən yaxud iriliyi – kiçikliyindən asılı olmayaraq) belə bir "ideal" vəziyyət yoxdur və heç gələcəkdə də olacağı gözlənilmir.

Başqa sözlə, elə bir ölkə yoxdur ki, milli sosiumun hər bir üzvünün, hər bir strukturunun mənafelərini tam şəkildə nəzərə ala bilsin. Bu aspektdən milli iqtisadiyyatın xidmət etdiyi əsas sferada (sosial sfera) makrosabitliyin sonlu, keçici, dəyişkən olduğu aksiomatik məna daşıyır. Məsələn, bu yaxınlarda Fransada baş verən proseslər yüksək həyat səviyyəsinin mövcudluğunun heç də daimi olmadığını ortalığa qoydu. Baş verən hadisə yüksək inkişaf səviyyəsinə baxmayaraq milli iqtisadiyyatda dayanıqlılıq probleminin kəskin şəkildə təzahürü idi.

---

[76] J.Scholte. Qlobalization: A criticial introduction. L.Macmillan. 2000, p.92

[77] В.Н.Овчинников. Глобализационные императивы модернизации экономики России//Россия в глобализирующейся мировой экономике. Ростов-на-Дону. 2006,с.4.

[78] The state and changing model. Washington. 1997, p. 7-12

Digər tərəfdən, şəkildəki sxematik təsvirdən də göründüyü kimi, milli iqtisadiyyatda formal qaydaların effektiv tətbiqi və tənzimlənməsi həyata keçirildiyi halda (şüurlu, məqsədyönlü şəkildə), qeyri-formal (şəkildə - etik münasibətlər) dəyərlər spontan şəkildə qərarlaşır. Yəni, konkret şəkil və formada tətbiq edilmir. Düzdür, formal qaydalar, əslində qeyri-formal dəyərləri (milli məzmunlu) özündə ehtiva edir yaxud etməlidir. Lakin, dünya ölkələrinin inkişaf tarixi göstərir ki, bu məqam bir çox hallarda prosesdən sərf-nəzər edilir. Əvvəllər də qeyd etdiyimiz kimi, formal qaydalar, ələlxüsus keçid dövrünü yaşayan və eləcə də inkişaf etməkdə olan ölkələrin böyük əksəriyyətində inkişaf etmiş ölkələrdən "idxal" olunur. Bu aspekt təbii ki, uzunmüddətli dövr ərzində milli iqtisadiyyatın "millilik" keyfiyyətinə "kölgə" salır. Amma, sırf praktiki müstəvidə nəyə yaxud nələrə (neqativ nəticələr anlamında) gətirib çıxardığını nə kəmiyyət, nə də keyfiyyət prizmasından qiymətləndirmək imkanı hələ ki, yox səviyyəsindədir.




***Şəkil 4.2. Milli iqtisadiyyatın daxili əlaqələr sisteminə sistemli baxış***

Beləliklə, milli iqtisadiyyatın normal inkişaf trayektoriyasına çıxışı həm cəmiyyətdə, həm də qlobal miqyasda formalaşmış "oyun qaydalarının" mahiyyət çalarlarından və onlara adaptasiya olma dərəcəsindən birbaşa asılıqdadır. "Oyun qaydalarına" adaptasiya olunma

obyektiv zərurətdir. Bu halda iqtisadi proseslərin həm gedişi, həm də yönümü aspektindən qeyri-müəyyənliyin əhatə dairəsi daralır, qarşılıqlı münasibətlərin strukturlaşmasına nail olunur və gələcəyin proqnozlaşdırılması imkanları genişlənir. Milli sosium çərçivəsində "oyun qayda"ları iki institutun "yaratdıqları" üzərində qərarlaşır:

1) Formal institutlar: qanunvericilik bazası, iqtisadi proses və münasibətlərin hüquqi tənzimlənməsi, bir sözlə, hüquqi çərçivənin qurulması;

2) Qeyri-formal institutlar: milli dəyərlər sistemi, adət-ənənələr, davranışın etik normaları, dini və psixoloji amillər;

Bu institutlar arasında əsaslı fərqlər mövcuddur:

- Formal instututlar sosio-iqtisadi sistemdə baş verən dəyişikliklər aspektində yeniləşə, təkmilləşə və bəzi elemetləri ləğv edilə bilər;

Bir çox hallarda oxşar sistemlərə malik olan, eləcə də inkişaf etmiş ölkələrin tarixi inkişaf yoluna çıxmağı planlaşdıran ölkələrdə formal institutların kütləvi "idxalına"da rast gəlinir. Bütün bu institutsional dəyişikliklər qısa zaman kəsiyində həyata keçirilə biləndir.

- Qeyri-formal institutlar isə konkret sosiumun tarixi təkamül prosesinin uzun yüzillikləri ərzində formalaşmış mental dəyərlər sistemidir.

Aydındır ki, bu institutların kütləvi "idxalından" söhbət gedə bilməz. Qarşılıqlı "zənginləşmə" əslində real məzmunlu deyildir. Formal institutların "məhsulları"nın dəyər tutumu məhz qeyri-formal (milli səviyyədə) institutlardan qaynaqlanmalıdır. Amma, bir çox hallarda bu mühüm cəhət nəzər-diqqətdən kənarda qalır.

Beləliklə, milli inkişafın institutsional təminatında həm obyektiv, həm də subyektiv xarakterli problemlər mövcuddur. Həmçinin, bu problemlər ayrıca götürülmüş bir ölkənin dünya təsərrüfat sistemində yaxud beynəlxalq əmək bölgüsündəki yerindən, iqtisadi gücündən, resurslarla təminatı və inkişaf səviyyəsindən asılı olmayaraq əksər ölkələr (ənənəvi cəmiyyətlər istisnadır) üçün keçərlidir:

1) Formal və qeyri-formal institutlar arasındakı bağlılığın "formal" xarakter daşıması; üzvilik keyfiyyətindən uzaqlığı; sözügedən bağlılığın mexaniki səciyyə daşıması makrososial sabitliyin ifrat dəyişkənliyini şərtləndirən əsas amildir. Milli sosiumun varoluşunda mühüm rol oynayan qeyri-formal institutlar - əslində, "yiyəsizdir". Onların sahibi – millətin özüdür. Və, millətin öz-özlüyündə qeyd edilən sferaya yaxud özünəxas olan dəyərlər sisteminə əməl edilməsini həyata keçirə biləcək subyekti mövcud deyildir. Başqa sözlə, dəyərlər sistemi – nəzarətdən kənardır. Institutlararası bağlılığın mexaniki xarakter daşıması tərəfləri ayrı-ayrılıqda "özündə şeyə" çevirmişdir. Yaranmış situasiyadan yeganə çıxış yolu sözügedən bağlılığın üzvilik tutumunun yüksəldilməsindən keçir.

2) Ümumiləşdirmə aspektindən makrososial sabitlik milli iqtisadiyyatın, eləcə də bütövlükdə cəmiyyətin dayanıqlılığının "məhsuludur". Bu mənada dayanıqlılığın uzunömürlüyü ilə makrososial sabitliyin zaman sürəsi arasında birbaşa, düzmütənasib asılılıq mövcuddur. Yəni, sabitlik → dayanıqlılığın məntiqi nəticəsidir. Eyni zamanda, dayanıqlı inkişaf = ədalətli (həm müasir, həm gələcək nəsillərə, həm də təbiətə münasibətdə) inkişaf eyniyyəti mövcuddur. Bu eyniyyətin dəyər tutumu iqtisadi proseslərin daşıdığı dəyər "yük"ündən çoxdur. Məsələn, cəmiyyətin bir qrupuistehlakda israfçılıqla məşğuldur, digər qrupunun isə elementar qidalanma problemi getdikcə kəskinləşir. Israfçılığa son vermənin həllər çoxluğu hüquqda deyil, qeyri-formal dəyərlər sistemində "gizlənibdir". Yəni, israfçılıq probleminin həlli mənəviyyatla bağlıdır, yaxud israfçılıq – tam şəkildə irrasional "yaranış" kimi mənəvi xarakter daşıyır. Və, əvvəldə də qeyd etdiyimiz kimi, dəyərlər kompleksini "idarəedən" subyektin yoxluğu sözügedən problemin həlli mümkün olmayanlar sırasına daxil olmasını şərtləndirən əsas amildir. Yekun

olaraq, göstərmək istərdik ki, qeyd edilən problem mövcud olduqca real məzmunlu dayanıqlı inkişafdan danışmağın mənası yoxdur.

3) Sosio-iqtisadi effektivlik aspektindən yalnız iqtisadi effektivliyə istinadla həyata keçirilən siyasət ümumcəmiyyət miqyasında disproporsiyaların daha da dərinləşməsinə, inkişafın dayanıqlığına deyil, uzunmüddətli resessiya situasiyasının yaranmasına səbəb olur. Gəldiyimiz bu qənaət bir çox ölkələr üzrə apardığımız empirik tədqiqatların nəticələrinə istinadla formalaşmışdır. Başqa sözlə, sözügedən qənaət – nəzəri-məntiqi mülahizlərdən deyil, real gerçəklikdən əldə olunmuşdur. Beləliklə, "nəyin bahasına olursa olsun" tipli iqtisadi artım iqtisadi inkişafa deyil, struktur böhranına aparır. Daha konkret şəkildə ifadə etsək: sosial effekti olmayan iqtisadi artım yalançı inkişaf təsəvvürü yaratmaqdan qeyri heç bir məna daşımır.

Milli iqtisadiyyat çərçivəsində gedən geniş təkrar istehsal prosesi konkretliyi, bütövlüyü (konkret sərhədlər çərçivəsində), sərhədliliyi ilə özünəməxsusluq görünüşü yaradır. Əsas əlamətlər kimi, aşağıdakıları qeyd etmək olar:

1) Təkrar istehsal prosesinin milli bütövlüyü, sistemliliyi, hərəkət vektorlarının konkretliliyi, məqsədliliyi və digər sferalarla sıx qarşılıqlı bağlılıqda olması;
2) Prosesə və artım yönümünə sərbəst müdaxilənin yoxluğu;
3) Qərar qəbulu prosesinin çoxlu sayda amil və şərtlərdən funksional asılılığı;
4) Ölkənin cari və strateji inkişaf məqsədlərinə doğru istiqamətlənməsi;
5) İdarəetmə və tənzimlənmənin sistemli və kompleks səciyyə daşıması

Bir sözlə, milli iqtisadiyyat əslində cəmiyyətin sosio-iqtisadi "həyatının" təkrar istehsalını özündə ehtiva edən nəzəri konstruksiyadır. Bu anlamda geniş təkrar istehsal prosesinin (həm daxili, həm də xarici kəsimdə) milli bütövlük keyfiyyəti ərz etməsi əsas və başlıca şərtdir.

Iqtisadiyyata münasibətdə "millilik" aspektinin ön plana çıxarılması qlobal ümumilikdən ayrılma, yəni universallığı inkar etmə kimi başa düşülməməlidir. Bu cür yanaşma 1980-ci illərə qədər hökmran mövqedə olan industrial təsərrüfat tipi çərçivəsində birmənalı əlahiddələşmə səviyyəsi daşıyırdı. Buna görə də, hər cür proteksionizm yaxud müəyyən qrup inhisarçıların mənafeyi naminə "daxili bazarın qorunması" tipli məhdudiyyətlər sistemi kifayət qədər geniş yayılmış və hal-hazırda da dünyanın bir çox ölkələri tərəfindən xüsusi önəm daşıyan siyasət alətləri kimi tətbiq edilməkdədir. Əslində, müasir dövrün reallıqlarına daha dərindən və sistemli nəzər salmaq kifayərdir ki, qeyd olunanların "bumeranq" effektindən qeyri bir nəticə ilə sonuclanmadığını aydın şəkildə görə biləsən. "Milliliyin" qorunması, mühafizəsi əlahiddələşmə vasitəsi ilə həyata keçirilə bilməz. Qorunmanın yeganə yolu sosiumun iqtisadi həyatının təkrar istehsalının dəyər bütövlüyünü saxlamaqla tərəqqi trayektoriyasına rəvan keçidin təminatından keçir. Yəni, müasir dünyada müdafiə deyil, hücum strategiyası yürüdülməli, müxtəlif "oyun qayda"ları ilə tənzimlənən geoiqtisadi məkanlarda kommunikativ keçiciliyə nail olmaqla effektiv fəaliyyətin sistemliliyini təmin etmək lazımdır. Yalnız bu halda qloballaşmadan daha mühüm əhəmiyyət kəsb edən və milli iqtisadiyyatın "milli" bütövlüyünü (dəyər anlamında) pozmayan real məzmunlu inteqrativ bağlılığa nail olmaq mümkündür. Eyni zamanda, qlobal inteqrativ bağlılıq nəinki getdikcə daha güclü şəkildə təzahür edən qlobal problemlərin təsir dairəsinin daralmasında, baş vermə ehtimalı kifayət qədər böyük olan qlobal iqtisadi böhranlara qarşı birgə, priventiv tədbirlərin həyata keçirilməsində, həmçinin milli aspektdən iqtisadi inkişafın dayanıqlılığının formalaşmasında və yekun olaraq makrososial sabitliyin uzunömürlüyünün qərarlaşmasında son dərəcə mühüm rol oynamaq iqtidarındaıdr. Hesab edirik ki, qeyd edilənlərin prizmasından "sərhəd" tematikasına, ələlxüsus "iqtisadi sərhəd" anlayışına yeni dövrün çağırışları prizmasından yanaşma ənənəvi baxışdan əl çəkmək zamanı artıq gəlmişdir. Bu anlamda Dövlət sərhədi = ölkənin iqtisadi sərhədi eyniyyətdədirmi? Yəni, üst-üstə düşürlərmi?

sualını məntiqi cəhətdən cavablandırmaq gərəkir. Sual əslində ritorik xarakter daşıyır. "Yalnız öz sərhədləri olan şey – onun özüdür (Hegel)[79] ifadəsi heç də sərhəddin "özü" olanın kənar nöqtələrindən keçdiyini ehtiva etmir. Sosiumun müxtılif sahə və sferaları arasında da "sərhəd" mövcuddur. Yəni, sosio-iqtisadi anlamda "sərhəd" varlığın kənarından deyil, daxilindən keçir. Yəni, bir yox, sərhədlər çoxluğu mövcuddur. Sosio-iqtisadi məkanın çoxölçülü kommunikativ məkana çevrilməsinin yaxud çevrilməsi zəruriliyinin əsasında məhz bu məqam dayanır. Eyni cür yanaşma "milli sərhəd" anlayışına da aid eidlə bilər.(Təbii ki, "milli" termini ilə dövləti deyil, milləti nəzərdə tuturuqsa). Məsələn, qonşu İran İslam Respublikasında 35 mln. nəfər azərbaycanlı yaşayır. Hesab edirik ki, bunun hər hansı bir formada şəhrinə ehtiyac yoxdur. Maraqlıdır ki, A.Toynubi sərhəd anlayışına yanaşmada nisbiliyin əsas olduğunu önə çıxarır: "...Simvolik olaraq müəyyən edilmiş sərhəd möhkəm divara münasibətdə daha etibarlıdır... Amma, keçilməz maneə təbiətin inkarı deməkdir ki, o da insanı çox qəzəbli nəticələrlə təhdid edir"[80]

O sanki, modernist paradiqmanın tətbiqi imkanlarının sonlu olduğunu əvvəlcədən duya bilmişdir. Anlayışla bağlı birmənalılıq baxımından ən dəqiq yanaşmanı K.Popper ortalığa qoymuşdur.[81]

O qeyd edirdi ki, dövlətin təbii sərhədləri ola bilməz. Və, ümumiyyətlə, sərhəd konvensional anlayışdır. Həqiqətən də, bu gün iri iqtisadiyyata malik ölkələrin gerçək iqtisadi sərhədlərini yalnız konvensional prosedurla müəyyənləşdirmək mümkündür. Eyni zamanda, sərhəd anlayışı təkcə məkanla deyil, həmçinin zamanla bağlıdır. Belə ki, ən azı xronoloji dəyişmə növbəliliyi nöqteyi-nəzərindən sosial zaman tipləri arasında da "sərhədlər" mövcuddur. Bu anlamda geomədəni, geoiqtisadi, geosiyasi məkanlarda müxtəlif sosial zamanlarda yaşayan cəmiyyətlərin qarşılıqlı bağlılığına ən güclü təsir qeyd etdiklərimiz arasında mövcud olan sərhəd energetikasıdır.

Sərhədlilik – inkişafın resursudur. Buna görə də, ona coğrafi əraziləri bir-birindən ayıran xəttlər kimi yox, çoxölçülü kommunikativ məkanın energetika zonası kimi yanaşmaq lazımdır.[82]

Qeyd edilən prizmadan əsas şərt həm məkana, həm də həmin məkanda yerləşən cəmiyyətlərin (ölkələrin) yaşadıqları sosial zamana aid olan elementlər arasında harmoniyanın tapılması yaxud yaradılmasıdır. Struktur asılılığın mühüm rol oynadığı bir münasibətlər kompleksində inteqrativ bağlılığa aparacaq trayektoriyanın müəyyən edilməsi ehtimalı məhz həmin harmoniyanın üzvi səciyyə daşımasından asılıdır. Bunsuz – struktur (qarşılıqlı münasibətlərdə) əlaqələr sistemində proporsional uyğunluğun təşəkkülü mümkünsüzdür. Bu da, öz növbəsində funksional səbəbiyyətin "beşikdəcə" boğulmasına gətirib çıxarır. Təəcüblü deyildir ki, əksər regional xarakterli inteqrasiya qruplaşmaları arzu edilən səviyyəyə heç cür çata bilmirlər, və yekunda "...Ayrı-ayrı ölkələrin ziddiyyətli maraqlarının uyğunlaşdırılması olduqca mürəkkəb, bəzən isə həll oluna bilməyən" bir gerçəklik kimi meydana çıxır.[83]

Beləliklə, klassik sərhəd anlayışından geoiqtisadi sərhəd anlayışına keçid əslində siyasi anlamda dövlət sərhədlərinin aradan qaldırılması mənasını vermir. Sadəcə olaraq, həm resurslardan (o, cümlədən ətraf mühitdən) istifadə effektivliyi yüksəlir, struktur proporsiyaları quraşdırmaqla funksional bağlılıqların sinergetik effektini (sərhəd energetikası hesabına)

---

[79] Энциклопедия философских наук. Т.1.1974;с.230
[80] Энциклопедия философских наук. Т.1.1974;с541
[81] К.Поппер. открытое общество и его враги. Т.II.М:1993
[82] В.А.Дергачев. Глобальная геоэкономика. Трансформация мирового экономического пространство. Одесса,2003. Стр.115
[83] Л.Б.Воромский. Економическое пространство России: Вопросы знании в условиях глобализации//http//www.imepi.eurasiya.ru

dəfələrlə yüksəldir və yekun olaraq milli iqtisadiyyatlar arasında inteqrativ asılılıq formalaşdırır. Yəni, qeyd edilən yönümlü yeniləşmə prosesi milli iqtisadiyyatın "millilik" keyfiyyətinə heç bir xələl gətirmir. Ümumiyyətlə isə: "...sərhədlərin aradan qalxması barədə aparılan diskurs yalnız "inteqrasiya etmiş", dinc və çoxdan tanınmış dövlət sərhədlərinə aiddir ki, bu sərhədlər də...dünya üzrə quru milli sərhədlərin ümumi uzunluğunun 5%-dən azını təşkil edir". Yəni, qloballaşmanın intensivliyinə baxmayaraq, qeyd edilən sferadakı bugünkü hərəkətliliyi "normal" qəbul etmək mümkün deyildir.[84]

### §4.3. Müasir konseptual yanaşmanın metodoloji aspektləri.

İqtisadi nəzəriyyənin təkamül tarixinin incələnməsi aydın şəkildə göstərir ki, hətta ən abstrakt xarakterli konstruksiyalar belə milli "yüklü" olur, yəni konkret bir milli iqtisadiyyatın mənafelərini əks etdirir.

Olsevic yazır ki,... "milli amil nəzəriyyəni deterninə edən yeganə amil deyildir. Ancaq, əgər müxtəlif nəzəriyyələr nədəsə fərqlənir, nədəsə üst-üstə düşürsə, bunun səbəblərini ilk növbədə milli-iqtisadi mənafelərin fərqliliyi yaxud eyniyyətində axtarmaq lazımdır."[85] Digər tərəfdən neoliberal modelli qloballaşma təkcə iqtisadi sərhədlərin deyil bütövlükdə milli milli spesifikanın dəyərlər sisteminin inkarı üzərində qurulmaqla dəyərlərin, davranış normalarının, adət-ənənələrin yeni "qlobal" sistemini formalaşdırmağı hədəfləyir... Milli-sivilizasiya amilləri iqtisadi siyasətin hazırlanması və iqtisadi inkişafın spesifikasının öyrənilməsində nəzərdə tutulan amillər sırasından çıxarılırlar.[86] Oxşar situasiya XX əsrin əvvəllərində də baş vermişdir. Yenicə formalaşan milli dövlətin tarix səhnəsindən "silinəcəyi" idda olunurdu. Ümumplanetar miqyasda kapitalın təmərküzləşməsi və mərkəzləşməsi o dövrün əsas qanunlarından biri kimi səciyyələnir (sosial-demokratlar, K.Kautski, V.Lenin və s.) və hakimiyyətin məhz həmin yönümdə transformasiya olunacağı proqnozlaşdırılırdı. Eyni iddialar bu gün də səslənməkdədir (neoliberalizm).

Amma, kapital fenomeni ilə bağlı hərəkətin mahiyyət dəyişkənliyi baş vermişdir. Belə ki, mərkəzləşmə və təmərküzləşmə ilə bahəm kapitalın transmilliləşməsi və virtuallaşması prosesləri böyük intensivliklə getməkdədir. Yəni, milli özünəməxsusluğun "daxildən" silkələnməsi təhlükəsi mövcuddur.

Lakin bu problemlə bağlı təhlükənin reallaşması labüddür tipli neoliberal təsbitlə razılaşmaq yalnış olardı. Belə ki, qeyd etdiyimiz proseslər qaçılmazlıq yox, məqsədyönlülük xarakterinə malikdir. Yəni, o anlamda ki, həmin proseslərə qoşulma öz-özlüyündə milli dövlətlərin ləğv edilməsinə gətirib çıxarmır. Bu mənada hər şey ölkənin geosiyasi, geoiqtisadi mövqelərindən, milli inkişafın strateji hədəflərinin məzmunundan asılıdır.

Eyni zamanda şübhə yoxdur ki, milli iqtisadiyyat tarixi kateqoriyadır. Tarixi təkamül prosesində meydana çıxan, formalaşan əksər kateqoriyalar kimi əvvəli və sonu vardır. Amma, bu gün ümumplanetar səviyyədə baş verən keyfiyyət dəyişiklikləri həmin "sonu" (milli iqtisadiyyatlara münasibətdə) yaxınlaşdıran dəyişikliklərdirmi? - sualının (neoliberallar istisna olmaqla) birmənalı cavabı yoxdur. Əksinə! Sırf sosio-iqtisadi və sosio-mədəni anlamda ümumbəşəri "vahidliyin", eyniyyətin yaranacağına şübhə ilə yanaşanların sayı getdikcə artmaqdadır.

---

[84] В.Колосов. Теоритическая лимология: новые подходы//международные процессы.2003,№3, стр.55
[85] Ю.Я.Ольсевич. Влияние хозяйственных реформ в России и КНР на экономическую мысль Запада. М:2007, с.246
[86] В.Рязанов. Деглобализация или регулирование вместо дерегулирования//Экономист. 2010, №10, с.4

Nəzəri baxışların müqayisəli təhlili göstərir ki, təkamül aspektində struktur, proses və siyasətin təkamülü daha aktual anlam kəsb edir. Bununla belə, təkamül mexanizminin gerçək mahiyyətinin nədən ibarət olması sualı bu gün də, cavabsız qalmaqdadır. Bu mənada yalnız iki istiqamət mövcuddur: İqtisadi struktur və formaların varisliyi rakursundan təkamül prosesinin ümumi yönümlülüyü və geridönməzlik (özünütəşkil, özünü tənzimləmə və dəyişikliklərin nəticələrinin tənzimlənməsi prosesinin qarşılıqlı təsiri).

Mühüm məsələlərdən biri iqtisadiyyatda mövcud olan milli spesifikanın iqtisadi nəzəriyyədə nəzərə alınması problemidir.Bu problemin aktuallığı əksər tədqiqatçılar tərəfindən qəbul edilir.Aydındır ki, qeyd edilən problemi həll etmədən milli iqtisadiyyat və onun dayanıqlı inkişafı ilə bağlı əsaslı irəliləyişlərə nail olmaq olduqca mürəkkəb və çətindir.

Milli sərhədlər çərçivəsində iqtisadi reallığın "indisi və gələcəyi" haqqında yetərli təsəvvürlər yaratmanın əsas vasitələrindən biri və bəzi hallarda birincisi milli spesifikanın iqtisadi -nəzəri dildə ifadə olunan konstruksiyasının qurulmasıdır.....Sözün müəyyən mənasında bu konstruksiyanı milli iqtisadi nəzəriyyə də adlandırmaq olar. Beləliklə, milli spesifika iqtisadi-nəzəriyyə cütlüyünə münasibətdə fərqli yanaşma ola bilər:

1) Zəruriliyin inkarı: milli spesifika – digər sosial elmlər tərəfindən öyrənilməlidir. İqtisadi nəzəriyyənin "xalis"liyi qorunub saxlanmalıdır. Əks halda, iqtisadi nəzəriyyənin elmi statusu şübhə altına düşə bilər və s. Şübhə yoxdur ki, yuxarıda qeyd etdiyimiz metamorfozanın baş verdiyi təqdirdə iqtisad elminin universallıq keyfiyyətinə müəyyən "zərər" dəyə bilər. Amma, unudulmamalıdır ki, əvvəla nəzəriyyənin özülü, "möhkəm nüvəsi" olduğu kimi qalır; ikincisi, nəzəriyyənin geniş surətdə yararlandığı yüksək səviyyəli abstraksiya "toxunula" biləcək dərəcədə konkretləşir; üçüncüsü, nəzəriyyənin metodoloji bazasında mahiyyət dəyişkənliyi deyil, "yerdəyişmə " baş verir. Metodologiya daha çox eklektik xarakter kəsb etməyə başlayır və s. Digər tərəfdən "iqtisadi nəzəriyyə" ilkin yaranışından "milli yüklü" olmuş, aparıcı dövlətin yaxud eyni sivilizasiyaya aid olan ölkələr qrupunun iqtisadi inkişaf hədəflərinə adekvat şəkildə formalaşmışdır. Buna görə də, təəccüblü deyildir ki, nəzəriyyələr eyni deyil, fərqli anlayışlara istinad etməklə formlaşmışdır. (klassika - sərvət axtarışı, neoklassıka-tarazlıq, institutsionalizm – institutlar və s.)

2) Milli iqtsadiyyatın - milli özünəməxsusluğunu sistemli şəkildə nəzərə alan müstəqil nəzəriyyəsi yaranmalıdır. Müəyyən mənada nəzəriyyənin avtonomluğunu qəbul etmək olar .Lakin,iqtisadiyyatda və daha konkret desək ,iqtisadi hərəkətdə hər kəs və hamı üçün keçərli olan çoxlu sayda oxşarlıqlar, hətta eyniyyətlər mövcuddur.Digər tərəfdən, dünya ölkələrinin böyük əksəriyyəti qlobal qaydalar çərçivəsində hərəkət etmək məcburiyyətindədirlər. Yəni, iqtisadi hərəkətin konseptual məzmununda eyniyyət daha çoxdur, nəinki fərqli yanaşmalar!

Milliliyin prosesə daxil edilməsi ,əslində hamı(əksər dünya ölkələri) üçün keçərli olan eyniyyətin "ümuminin "daxilində formaca fərqlənməsinə gətirib çıxarır. Məsələn, milli iqtisadi inkişaf modelləri kimi! Bütün dünyada məhz 4 modelin (amerikan,yapon, isvec,alman) müxtəlif variasiyaları tətbiq edilməkdədir. Yəni, hər bir ölkənin məhz özünəxas olan (4 model xaric) inkişaf modeli yoxdur. Və, əgər nəzərə alsaq ki, inkişaf modeli konkret iqtisadi nəzəriyyəyə əsaslanır, onda sözügedən "yoxluğu" təbii qəbul etmək lazım gələcəkdir. Beləliklə, milli iqtisadiyyatın nəzəri konstruksiyasının formalaşdırıması zəruriliyinin hər cür elmi şübhədən uzaq olduğu aşıkardır. Lakin qeyd etdiyimiz yönümdə milli-qlobal qarşılaşdırılması nöqteyi-nəzərindən eyniyyət və fərqliliklərin (ələxüsus da ikincinin) konseptual ümumiləşdirmə aspektində dəyərləndirilməsi çətinliyi mövcuddur. İnkişaf yolu yaxud iqtisadi prosesdə eyniyyətdə olanları adi gözlə görmək olar. Amma "fərqliliklərin" (müxtəlif ölkələrdə və

sivilizasiyalar anlamında) “daxili” fərqlilikləri o qədər geniş və rəngarəngdir ki, ümumiləşdirmənin aparılması kriteriyasını müəyyənləşdirmək, prinsipcə mümkünsüzdür.

Qeyd edilən müxtəliflik, fərqliliklərin geniş diapazonda qərarlaşması problemin kateqorial məzmununa metodoloji yanaşmada belə ikitirəlik yaradır. Müasir iqtisadi fikirdə milli iqtisadiyyat anlayışına ikili yanaşma mövcuddur:

1) Deskriptiv yanaşma (təsvirçi): Milli iqtisadiyyat konkret bir ölkənin iqtisadi sistemidir. Tədqiqatçıların böyük əksəriyyəti tərəfindən dəstəklənən bu cür yanaşma anlayışın konseptual məzmununu anlama nöqteyi-nəzərindən yetərsizdir. Eyni zamanda, qeyd olunmalıdır ki, təsvirçilik-təbiətşünaslığın anlama metodikasıdır. Real mövcud olanın təsviri-onun mahiyyətinin deyil, mövcudluq şərtlərinin şəhridir. İqtisadi sferada təsvir-yalnız (hadisə yaxud prosesi) anlama müstəvisində dəstəkçi rolda çıxış edə bilər. Belə ki, mahiyyəti dərketmədən milli iqtisadiyyatın spesifik keyfiyyət xassələrini anlamaq mümkün deyildir. Təsvirçi yanaşma - sadəcə olaraq, konkret bir ölkənin iqtisadi sisteminin makroiqtisadi “dildə” ifadə formasıdır. Yəni, milli spesifika, onun dəyər tutumu bir kənara qoyulur. Buna milli iqtisadiyyatın universal (əksər ölkələr üçün keçici olan) interpretasiyası kimi də baxmaq olar.

2) Analitik yanaşma: deskripsiyadan fərqli olaraq, milli iqtisadiyyatın mahiyyət açıqlanmasının keyfiyyətcə yeni səviyyəsinə çıxış imkanı verir. Aparılan tədqiqatların təhlili göstərir ki, milli iqtisadiyyata analitik yanaşmada da, bir çox hallarda təsvirçiliyə meyl müşahidə edilir. Belə ki, fenomenin həqiqi mahiyyəti deyil, onun mövcud olma şərtlərinin mahiyyəti araşdırılır.

Milli iqtisadiyyatın mahiyyəti və məzmunu ilə bağlı müxtəlif aspektlərdə irəli sürülən baxışlar vardır:

- Milli iqtisadiyyat: ölkə miqyasında iqtisadi fəaliyyətin sahəvi və regional aspektlərdən strukturlaşmış, institutsional sistemi tənzimləyən, ölkənin iqtisadi, siyasi və ideoloji qaydalarının qərarlaşmasına cavabdeh olan yaranışdır.[87]
- Milli iqtisadiyyat: cəmiyyətin iqtisadi quruluşu, milli iqtisadi sistemi kimi, həm ümuminkişaf qanunauyğunluqları, həm də özünəxas spesifikanı, cəmiyyət həyatının qeyri-iqtisadi əsaslarını özündə ehtiva edir.[88]
- Milli iqtisadiyyat: məhsuldar qüvvələr və istehsal münasibətlərinin, ölkədə iqtisadi artımın xüsusiyyətlərinə təsir göstərən dəyərlər və təsərrüfat fəaliyyətinin, sosio-mədəni ənənələrin məcmusudur.[89]

Milli iqtisadiyyatın mahiyyətinə münasibətdə mövcud olan digər yanaşmalarda da oxşar mövqelər sərgilənməkdədir. Göründüyü kimi, birinci halda milli iqtisadiyyata deskriptiv (təsvirçi), ikinci halda funksional, üçüncü halda isə, neomarksist yanaşma irəli sürülür. Bizim fikrimizcə, milli iqtisadiyyat – sistem anlayışı nöqteyi-nəzərindən geniş təkrar istehsal prosesində qarşılıqlı əlaqə və qarşılıqlı təsirdə olan iqtisadi obyekt və subyektlərin, sosio-mədəni dəyərlər sisteminin məcmusudur. Milli iqtisadiyyat – sistemli tamlıq, bütövlük keyfiyyətinə sahibdir. Onun struktur xarakteristikası daxili əlaqələri, elementlər arası qarşılıqlı təsir və qarşılıqlı asılılığı ifadə edir. Tamlıq, bütövlük xassəsi də məhz bu aspektdən formalaşır.

Milli iqtisadiyyatın strukturu və əsas hədəfləri sistemin dinamik xarakteri-proseslərin zamanca gedişində, dəyişikliklər kompleksində, təkamül formalarının (inkişaf və s.) davranış tərzində öz əksini tapır.

---

[87] А.П.Градов. Национальная экономика. СПБ. 2005, с.40
[88] А.В.Сидорович. Курс экономической теории. М:2001, с.402
[89] П.В.Савченко. Национальная экономика. М:2005, с.21

Milli iqtisadiyyatın təkamülü-sözün geniş mənasında, onun elementlərinin, elementlərarası əlaqənin, davranış və fəaliyyət mexanizminin keyfiyyətcə dəyişməsidir. Müasir yanaşmalar təkamülü-yeni keyfiyyətə keçidlə yanaşı, onun (keyfiyyətin) itirilməsi kimi də səciyyələndirirlər (sistemin bütövlüyü və identikliyini saxlamağın zəruri şərti kimi). Bu anlamda, inkişafın əksinin tənəzzül deyil, sistemin tam şəkildə dağılması olduğu ön plana çıxarılır.[90] Hesab edirik ki, bu qəbildən olan yanaşmalar gerçəkliyə daha yaxındır. Axı, məlumdur ki, inkişafın, o cümlədən təkamülün geriyə dönüşü yoxdur. Həmçinin, məlumdur ki, yeni keyfiyyət mərhələsinə keçid çoxmərtəbəli, çoxlaylı və inkişafın xarakterinə münasibətdə müxtəlif yönümlüdür. Belə ki, müxtəlif cəmiyyət tiplərində baş verən inkişaf prosesi eyni məzmunlu deyildir. Yəni, inkişaf fenomeninin özü müxtəlif məna tutumlu keyfiyyət yeniləşməsini ehtiva edir. Bu konteksdən eyniyyətin yoxluğu kriteriyaların müxtəlifliyini doğurur. Ona görə də, inkişafın ölçü prosedurunun vahidliyindən danışmağın gerçəklikdə hər hansı bir bağlılığı olmur. Deyilən aspektlərdən eyniyyətin yoxluğu, inkişaf trayektoriyasının da müxtəlifliyini, çoxistiqamətli və çoxyönümlü olmasını real fakt kimi ortalığa qoyur. Yəni, milli iqtisadiyyatların spesifik özünəməxsusluğu inkişaf trayektoriyasının vahidliyini bəribaşdan mümkünsüz edir.

Milli sərhədlər daxilində təsərrüfat sisteminin formalaşması və inkişafı çoxsaylı amillərin (həm obyektiv, həm də subyektiv) təsiri altında baş verir. Bu mənada ilkin başlanğıcda dayanan və sistemin formalaşma mexanizminin bazası kimi çıxış edənlər sırasına aşağıdakılar aid edilir:

1) Coğrafi mühit: Söhbət, həm iqtisadi həm də siyasi inkişafda coğrafi determinizmin aparıcı rol oynamasından gedir. Tarixi aspektdən də açıq şəkildə görmək olar ki, bəşəriyyətin inkişaf tarixinin ilkin mərhələlərində məhz o ölkələr daha yüksək səviyyəyə çatmışlar ki, onlarda təbii-iqlim və coğrafi mühit daha əlverişli olmuşdur. Müasir dövrün xarakteri rakursundan isə qeyd edilən amil daha çox həlledici deyil, dəstəkləyici statusda çıxış edir;

2) Resurslarla təminat səviyyəsi: Bu aspekt resursların keyfiyyət xarakteristikasından asılı olaraq qiymətləndirilməlidir. Məsələn, industrial təsərrüfat tipində inkişafın əsas amilləri postindustrial dövr üçün kifayətedici deyildir;

3) Əhalinin sayı və sıxlığı: Uzun tarixi dövr ərzində inkişaf dinamikasının əsas resurslarından biri rolunu oynamışdır. Təsərrüfat sisteminin formalaşmasında əhaliyə (millətə, xalqa) xas olan dəyərlər sistemi, mentalitet, dini dünya görüşü və s. heç də az əhəmiyyətli deyildir, əksinə müəyyən situasiyalarda həlledici təsir gücünə malik ola bilərlər;

4) İqtisadi məkanın ölçüləri: Bu halda söhbət hansısa abstraksiyadan deyil, milli sərhədlər çərçivəsində mövcud olan konkret məkandan gedir... Müasir qloballaşma və inteqrasiya prosesləri isə həmin məkanın sərhədlərini surətlə aradan qaldırmaq yönümündə hərəkət edirlər. Lakin, bu cür milli konkretlilikdən uzaqlaşma təsərrüfat sisteminin formalaşması və inkişafında (effektiv iqtisadi siyasətin mövcudluğu şəraitində) elə bir çətinlik yaratmır.

Milli iqtisadiyyatın strukturu-mürəkkəb ierarxik quruluşa və əlaqələr sisteminə malikdir. Struktur aspektdən 3 səviyyəni fərqləndirirlər:[91]

1) İqtisadi quruluşun xarakteri və mənimsəmə üsulu üzərində formalaşmış sosio-iqtisadi münasibətlərin məcmusu;

2) Makroiqtisadi sabitliyi və ümumiqtisadi tarazlığın təminatını, resurslardan rasional istifadə üzrə fəaliyyəti əks etdirən və iqtisadiyyatda əmtəə, resurs və maliyyə axınlarının hərəkəti prosesində formalaşan funksional əlaqələrin məcmusu;

---

[90] М.Б.Табачникова. Теоритичсекие концепции эволюционных изменений социально-экономических систем. М:2016

[91] В.М.Кульков. Национальная спецификация экономических систем//Вестник. М:2014, с.57

3) İqtisadiyyatda qərarlaşan institutların məcmusu.

Milli iqtisadiyyatın – milli iqtisadi sistemin əsas xarakterik cəhətlərinə aşağıdakıları aid etmək olar:

1) Ölkənin aid olduğu lokal sivilizasiyanın iqtisadiyyata proyeksiyası və bu amilin əlahiddə əhəmiyyətə malikliyi;

2) Milli ideya, milli inkişaf məqsədləri və hədəfləri ilə, milli spesifikanın bütün kompleksi ilə sıx bağlılığı;

3) İnteqral və çoxtərəfli xarakteri;

4) Ekzogen mühitlə milli spesifikanın müəyyən proporsiyalarda qarışıqlılığı.

Milli iqtisadiyyat – sosio-iqtisadi proseslərin keçmişi, indisi və gələcəyini özündə ehtiva edən inteqral yaranışdır. Təkrar istehsal prosesinin milli bütövlüyünü özündə əks etdirən milli iqtisadiyyatın bütün zaman moduslarına aidliyi genetik bağlılığın aparıcı rolda olması anlamında başa düşülməməlidir. Hətta, F.Xayek yazırdı ki: "Tarix olduğu kimi təkrar olunmasa da, digər tərəfdən heç bir hadisənin inkişafında labüdlük müşahidə edilməsə də, keçmişdən müəyyən dərsləri almaq mümkündür. Yaxınlaşan fəlakəti anlamaq üçün peyğəmbər olmağa ehtiyac yoxdur."[92]

Əslində, milli iqtisadiyyat üçün "keçmiş" anlayışı iki prizmadan şəhr edilə bilər:

1. Ümumiyyətlə keçmiş: Milli iqtisadiyyatın təkamül prosesinin keçmişdə qalan və müasir dövr üçün əhəmiyyət kəsb etməyən tarixi sürəci;

2. "Yaxın" keçmiş: Milli iqtisadiyyatın hal-hazırda olduğu iqtisadi dalğanın geridə (keçmişdə) qalan hissəsi.

F.Xayekin "keçmişdən müəyyən dərsləri almaq mümkündür" təsbiti məhz "yaxın" keçmişə aid olandır. Eyni iqtisadi dalğa çərçivəsində gedən takamül prosesində tsiklik dəyişmələrin növbələşməsi baş verir ki, bu da həmin tsiklin müxtəlif fazalarında həyata keçirilən iqtisadi siyasətin adekvatlıq dərəcəsini yoxlama imkanı yaradır. Bu baxımdan yuxarıda qeyd etdiyimiz təsbitin-sosial-iqtisadi proseslərin ümumiyyətlə deyil, "yaxın" keçmişi, indisi və gələcəyinin inteqral bütövlüyü-milli iqtisadiyyata münasibətdə daha uyğun yanaşma hesab oluna bilər. Bununla belə, dəyər (məqsəd) yanaşması nöqteyi-nəzərindən milli iqtisadiyyat üçün əsas olan zaman modusu-gələçəkdir. Əsas olan gələcəkdə gözlənilənlərin reallaşmasıdır. Bu mənada milli iqtisadiyyatın təkamülü prosesi bir növ məqsədyönlü, "tənzimlənən" proses statusuna yiyələnir.




***Şəkil 4.3. Milli iqtisadiyyatın əsas hədəfləri.***

---
[92] Ф.фон Хайек. Дорога к рабству. Пер. с англ. М:1992, с.3

Şəkildən göründüyü kimi milli iqtisadiyyatın istinad etdiyi dəyərlər və əsas hədəflərin sistemli bütövlüyü mövcuddur.

Əsas hədəflərə nəzər yetirmək kifayətdir ki, milli iqtisadiyyatın ictimai sistemin tərkib ünsürü olduğunu, cəmiyyətin digər sferaları ilə, ələlxüsus sosio-mədəni dəyərlər sistemi ilə sıx qarşılıqlı bağlılıqda fəaliyyət göstərdiyini görə biləsən. Məhz buna görə də, milli iqtisadiyyatın təkamülü prosesi sistem məcmuluğu xarakteri daşıyır. Təkamül prosesinin geridönməzlik keyfiyyəti (milli iqtisadiyyatda) də məhz həmin məcmuluğun sistemli formada yeniləşməsi dərəcəsi ilə müəyyənləşir.

Dünya iqtisadiyyatının sistem keyfiyyətində formalaşdığı dövrdən (XIX əsrin sonu XX əsrin əvvəlləri) bu günə qədər bərabər hüquqlu iqtisadi münasibətlər (əsasən mübadilənin ekvivalentliyi nöqteyi-nəzərindən), sırf liberal yozumlu azad rəqabət, bütün subyektlər aspektindən bərabər effektivlik və s. müşahidə edilməmişdir. Əksinə, dünya iqtisadiyyatının arxitekturasının iyerarxik strukturu formalaşmışdır. Postindustrial, industrial və ənənəvi cəmiyyət tiplərində yaşayan ölkələr arasında əksər göstəricilər (inkişaf səviyyəri, effektivlik və s.) üzrə "uçurum" yaranmışdır. A.S. Skoroboqatov yazır ki, postindustrial ölkələr həm iqtisadi, həm də siyasi üstünlükləri öz əllərində cəmləməklə beynəlxalq mübadilədən gələn gəlirlərin böyük əksəriyyətini mənimsəyirlər.[93]

Qlobal səviyyəli inkişaf trendləri, sözsüz ki, milli iqtisadiyyatın gələcək planda təkamülü prosesinə son dərəcə güclü təsir göstərirlər. Lakin, bu təsirin müsbət nəticələrlə (təkamül aspektindən) yekunlaşacağına, bu günkü reallıqlardan çıxış etməklə birmənalı qiymət vermək mümkün deyildir.

Ekzogen təbiətli proses və hadisələrin milli iqtisadiyyatda struktur və funksional bağlılıqlara təsiri müxtəlif yönümlü ola bilər. Sözügedən təsirin xarakteri isə yalnız konkret situasiyaların tədqiqi əsasında aşkarlanır. Yəni, hər hansı bir universallıqdan danışmağın yeri yoxdur.

Təbii ki, təsirin mənfi effektindən qorunmağın yeganə yolu ölkədə fəaliyyətdə olan sosio-iqtisadi sistemin dayanıqlılığı və yeniliyə adaptasiya olunma mexanizminin effektivlik dərəcəsidir.

Qlobalaşma prosesi - qlobal münasibətlər sisteminin dominatlığını təmin etməklə müxtəlif inkişaf səviyyələrində olan müxtəlif mental dəyərlər sisteminə malik ölkələrdə iqtisadi proseslərin tənzimlənmə metodları və institutsional mühitin məcmunca yaxınlaşmasına gətirib çıxarmışdır. Lakin, müxtəliflik aradan qalxmamış milli spesifika bu gün də mühüm rol oynamaqda davam edir. Yəni, milli iqtisadiyyatlara münasibətdə (dayanıqlı inkişaf aspektindən) universal→lokal ikiliyi öz varlığını sürdürməkdədir..Lokal (milli) səviyyənin dayanıqlılığı milli iqtisadiyyatın nəzəri aspektdə əlahiddələşməsinə ,konkret elmi status almasına səbəb olmuşdur. Milli iqtisadiyyat –iqtisadi nəzəriyyənin milli spesifikaya uyğunlaşdırılması və milli təsərrüfatın spesifik inkişaf amillərinin nəzəriyyəyə daxil edilməsi əsasında nəzəri istiqamət kimi formalaşmışdır.[94] İqtisadi nəzəriyyənin universal səciyyəli müddəalarının ölkənin iqtisadi quruluşuna proyeksiyası forma yaxud məzmun dəyişikliyinə məruz qalır. Ən ümumi formada milli iqtisadiyyat:

- Ölkənin məcmu iqtisadi potensialının strukturunu;
- Konkret təsərrüfat sistemində geniş təkrar istehsal prosesinin spesifikasını;

[93] А.С.Скоробогатов. Перспективы постиндустриального общества в России в свете иерархичности национальных и региональных экономик//Экон.Вестник Рост. Государственного Университета. Том 6. №2. 2008, с.23
[94] В.Н.Шишов, А.Н.Быков, Л.М.Крюков. Национальная экономика: теоретическо методологические вопросы формирования и развития//Белорусский экономический журнал. №1, 2012, с.4

- Makroiqtisadi tənzimləmə siyasətini özündə birləşdirir.

Milli iqtisadiyyatın komponent və elementlərinin qarşılıqlı bağlılığı (hər bir ölkədə) milli özünəməxsusluğu və unikallılığı ilə fərqlənir. Milli iqtisadiyyat nəzəriyyəsinin yaxud milli iqtisadiyyata nəzəri baxışların (hələ ki, tam şəkildə formalaşmış nəzəriyyədən danışmaq mümkün deyil) spesifikliyini aşağıdakılar əsasında şəhr etmək olar:

İqtisadi artım sadələşdirilmiş məhdud saylı amillər əsasında modelləşdirilir (Kobb Duqlas, Solou modeli və s.). Real iqtisadi sistemin və iqtisadi gerçəkliyin çoxsaylı amillər kompleksi nəzərə alınmır. Milli İqtisadiyyat nəzəriyyəsində isə iqtisadi artım – bütövlükdə geniş təkrar istehsal prosesinin rəvan və yüksələn xəttlə gedişinin nəticələrindən biri kimi meydana çıxır. Yəni, prosesə baxış sırf pozitiv xarakter daşıyır. Digər tərəfdən, milli iqtisadiyyat – geniş təkrar istehsal prosesinin milli bütövlüyündən, sistemli tamlığından çıxış edir. Əks-təqdirdə, yəni iqtisadi nəzəriyyənin abstrakt-universal yanaşmasının gerçəkliyi halında milli iqtisadiyyatın fiaskosu baş verə bilər. Milli iqtisadiyyatın "milliliyi", məhz geniş təkrar istehsal prosesinin milli bütövlüyü ilə ölçülür. Eyni zamanda, qeyd etmək istərdik ki, milli iqtisadiyyatda normativ→pozitiv tipli yanaşma fərqliliyi yoxdur. Ona görə ki, belə bir bölgünün özü yalnışdır. Məqsəddən çıxış etdikdə, əslində hər iki suala cavab verilməlidir: "necədir" və "necə olmalıdır". Birinci suala (pozitiv) cavab verədən ikinci haqqında danışmağın mənası qalmır. Bu kontekstdə, iddia etmək ki, milli iqtisadiyyat nəzəriyyəsi yalnız pozitiv yanaşma sərgiləyir - məsələnin birtərəfli qoyuluşuna dəstək vermək anlamına gəlir.

Milli iqtisadiyyat – özündə milli varlığın dəyərlər sistemini "daşıyır". İnkişaf – məqsəd olmaqla, mövcud dəyərlərdən qaynaqlanır. Yəni, məqsəd – dəyərlərin yaratdığıdır... Belə olan halda, necə demək olar ki, milli iqtisadiyyat nəzəriyyəsi "necə olmalıdır"? sualına cavab vermir. Məqsəd varsa (o, sosio-iqtisadi proseslərə münasibətdə həmişə var), bu elə "necə olmalıdır" deməkdir.

- Sosio-iqtisadi prosesin makroiqtisadi tənzimlənmə siyasəti: Milli iqtisadiyyatda 3 əsas amilin qarşılıqlı təsinə məruz qalır:
- İnkişaf etmiş ölkələrdən götürülən analogiya: Azad rəqabət, "görünməyən əl"-ən ümumi, universal xarakter daşıyır. [95] Yəni, liberal, açıq, dövlət müdaxiləsinin minimum səviyyədə olduğu sistemi formalaşdıracaq makroiqtisadi tənzimləmə olmalıdır.
- Ölkənin makroiqtisadi siyasətinin məqsədləri və prioritetləri: Başqa sözlə, eyniyyətdə olan deyil, fərqli bazar iqtisadiyyatı modeli qurula bilər. Modelin seçimi, bir tərəfdən, ölkənin sosio-iqtisadi və texnoloji inkişaf səviyyəsi, ölkənin böyüklüyü (yaxud, kiçikliyi), milli mentalitetlə, digər tərəfdən siyasi iradə və əhalinin hökümətə etimad dərəcəsi ilə gerçəkləşir.
- Geoiqtisadi situasiya: Qlobal səviyyəli dəyişikliklərin intensivliyi, qeyri-müəyyənliyin dərinləşməsi və genişlənməsi, yüksək risklərin mövcudluğu və s. makroiqtisadi tənzimləmə modelinin formalaşmasına son dərəcə güclü təsir göstərir.

Digər tərəfdən, ölkənin "ölkə-sistemə" transferi milli iqtisadiyyatın sadəcə miqyas genişlənməsi deyildir. İqtisadi sərhədlərin regionlaşması (qloballaşması) milli iqtisadiyyatda əsaslı məzmun və istiqamət dəyişikliyi ilə müşaiət olunur. Başqa sözlə, milli geniş təkrar istehsal prosesinin ənənəvi gedişinin pozulması, geoiqtisadi məkana sistemli çıxışı baş verir ki, bu da milli iqtisadiyyatda dayanıqlılığı ən mühüm problem kimi ortalığa qoyur.

Beləliklə, inkişafın təhlükəsizliyi, inkişafın dayanıqlılığı milli iqtisadiyyatın gələcəyini müəyyənləşdirən əsas oriyentirlərə çevrilirlər.

---

[95] Я.С.Ядгаров. История экономических учений. М:2009, с.109

# V FƏSİL. İQTİSADİ İNKİŞAF KONSEPSİYASI: VAHİDLİK – MÜXTƏLİFLİK DİLEMMASI.

Klassik bazarın formalaşdığı dövrdən etibarən müasir dövr də daxil olmaqla dünya ölkələrinin əsas problemi inkişaf problemi olaraq qalmaqdadır. Məlumdur ki, industrializmə qədərki dövr – natural təsərrüfatın hökmran olduğu uzun tarixi zaman ərzində inkişaf nəinki funksional fəaliyyət trayektoriyası, hətta bir anlayış kimi mövcud olmamışdır. İqtisadi elminin yararlandığı «inkişaf» kateqoriyası sosioloqların «tərəqqi» anlayışının sinonimi kimi çıxış edir.

Tərəqqi ideyası – modernizmə məxsusdur. Modern paradiqması təkamül prosesində zaman axıcılığının yüksələn xətlə getdiyinə, tərəqqinin permanent səciyyə daşıdığına möhkəm inam bəsləyirdi. Amma 1960-ci illərdən sonra modern dəyərlərin, o cümlədən tərəqqi ideyasının böhranı baş verdi.

Tərəqqinin fasiləsiz olmadığı, diskret və sonlu olması və bütövlükdə modern dəyərlər sisteminin daha çox nəzəri əhəmiyyət daşıdığı aşkarlandı. Lakin aparıcı dünya ölkələrində cəmiyyət tipinin dəyişməsi və qlobal iqtisadi reallığın keyfiyyətcə əsaslı şəkildə yenilənməsinə baxmayaraq, inkişaf problemi yenidən aktuallaşdı.

Bütün bunlarla bahəm, bu günə qədər prosesin bütün məziyyətlərini sistemli şəkildə əhatə edə biləcək vahid, sinkretik inkişaf nəzəriyyəsi hələ də tam olaraq formalaşmamışdır. «Hətta inkişaf nədir?» sualına verilən cavabların əksəriyyəti birtərəfli səciyyə daşımaqdadır.

Fərqli anlayışlar olmasına baxmayaraq, inkişafla modernləşmə prosesinin eyniləşdirilməsi belə kütləvi hal almaqdadır.

## §5.1. Nəzəri baxışlarda müxtəlifin panoraması.

Bu sırada anlayışın iqtisadi interpretasiyası xüsusilə geniş əhatəli və biramilli variasiya müxtəlifliklərini özündə ehtiva edir.

İqtisadi inkişaf anlayışına verilən interpretasiyaları aşağıdakı kimi qruplaşdırmaq olar:

1) İnkişaf – nail olunan nəticədir. İqtisadi inkişaf – həyat şəraitinin yaxşılaşması, əhali tələbatının ödənilməsi, adambaşına düşən gəlirlərin artımıdır (Q.Murdal, X.Tomas, A.Kruqer və s.)

2) inkişaf - prosesin qanunauyğunluğu ilə müəyyənləşir. Onun mahiyyəti iqtisadi artım, müdaxilə, tsikl kontekstində formalaşır (Q.Klark və b.).

3) inkişaf – çoxölçülü prosesdir: istehsalın əsas amilinin dominantlığı şəraitində müxtəlif sahələrdə baş verən dəyişikliklər kompleksidir (P.Nureev, Q.Arndt).

4) inkişaf – qayda – xaos əvəzlənməsidir (V.Branski və b.)

Əksər variantlardan göründüyü kimi iqtisadi inkişaf «tərəqqi» anlayışının sərhədlərindən kənara çıxmır.

İqtisadi inkişafın kəmiyyət ölçüsü, mahiyyətcə elə iqtisadi artım deməkdir. Yaxud keyfiyyət aspektləri, keyfiyyətcə sistemli yeniləşmə yoxdursa, kəmiyyət çoxalması iqtisadi inkişafı əks etdirmir.

Müasir dövrdə iqtisadi inkişaf anlayışının interpretasiya müxtəlifliyi daha da dərinləşmiş, müxtəlif davranış hipotezlərinə istinadla bir-birindən əsaslı surətdə fərqlənən nəzəri konstruksiyalar formalaşdırılmışdır.

İqtisadi inkişafı iqtisadi artımla, rəqabət qabiliyyətliliyin yüksəlməsi ilə, sənaye siyasəti ilə, ətraf mühitin dayanıqlılığı ilə, əməkhaqqının artımı, təhsil səviyyəsinin yüksəlməsi ilə və s. eyniləşdirirlər.

Sırf iqtisadi inkişafla bağlı son dövrlərdə formalaşdırılmış konkret nəzəri konstruksiyaların sayı kifayət qədər çoxdur. (Bax: şək. 5.1)




***Şəkil 5.1. İqtisadi inkişaf nəzəriyyələrinin məzmun fərqliliyi.***[96]

*Mənbə: E.Emil; Eduard J.Feser. Understanding Local Economic Development/ Putqers University, 1999.*

Qeyd edək ki, müasir elmi fikirdə iqtisadi artım və iqtisadi inkişafın üç əsas nəzəri cərəyanı mövcuddur:

[96] E.Emil; E.J.Feser. Understanding Local Economic Development/Putqers University. 1999

1) Neoklassik istiqamət: iqtisadi artım – xalis iqtisadi mexanizmlər məcmusunun qarşılıqlı təsirindən doğur və süni şəkildə dövlət tərəfindən idarə edilə bilməz (M.Fidman; A.Marşall).

2) Yenikeynsçi istiqamət: iqtisadi artımın inteqrativ anlamından çıxış edir. Və, hesab olunur ki, artım (inkişaf) həm iqtisadi, həm də qeyri-iqtisadi amillər məcmusunun təsiri ilə bağlıdır (D.Tobina, S.Fudsino və s.).

3) Təkamülçü istiqamət: iqtisadi artım – milli iqtisadiyyatın fasiləsiz inkişafı və mürəkkəbləşməsinin məhsuludur.

Keynçi yanaşmaya görə inkişaf:

– Yüksək artım templərinin sinonimidir (iqtisadi artım mərhələləri modeli).

– İqtisadiyyatın əsas sahələrini əhatə edən dərin struktur dəyişikliklərdir («Böyük təkan» modeli).

– Xarici maliyyələşmə mənbələrinin daxili mənbələr tərəfindən sıxışdırılması, idxal mallarının yerli məhsullarla əvəzlənməsi, xarici maliyyə asılılığının aradan qaldırılması üçün şəraitin yaradılmasıdır (ikidefisitli iqtisadi artım modeli).

Neoklassik yanaşmaya görə inkişaf:

– Ənənəvi və müasir iqtisadiyyat, industrializməqədərki və industrial, natural və bazar təsərrüfatları arasında dualizmin aradan qaldırılmasıdır (izafi əmək təklifi modeli).

– Hər bir ölkənin müqayisəli üstünlüklərinin beynəlxalq ticarətdə tam şəkildə istifadəsidir (müqayisəli üstünlüklər konsepsiyası)

İnstitutsional aspektdən inkişaf:

– Cəmiyyətin əksər üzvlərinin əsas tələbatlarının ödənilməsi dərəcəsinin yüksəlişidir («Asiya dramı» modeli);

– Təkcə iqtisadi artım templərinin yüksəlməsi deyil, eyni zamanda insan kapitalına qoyulan investisiyaların artımı və yoxsulluğun aradan qaldırılmasıdır (insan kapitalı konsepsiyası);

Sol radikal yanaşmaya görə inkişaf:

– Qeyri-ekvivalent mübadilənin aradan qaldırılması imkanlarıdır (qeyri-ekvivalent mübadilə modeli).

– İnsan kapitalının daha effektli formada yığılması və iqtisadiyyatda praktiki realizasiya üçün zəruri şəraitin yaradılması prosesidir (Solou modeli, Menkyu modeli və s.).

– Təkcə sürətli urbanizasiyanın neqativ nəticələrinin ləğvi və kəndin kompleks inkişafı deyil, həmçinin kənd və şəhər arasındakı «uçurumun» azaldılması, bütövlükdə iqtisadiyyatın harmonik bütövləşməsi prosesidir (T.Peter modeli).

Müasir iqtisadi fikirdə Y.Şumpeter iqtisadi inkişaf nəzəriyyəsinin banisi hesab olunur. Y.Şumpeter, hələ keçən əsrin əvvəllərində iqtisadi artım və inkişaf anlayışlarının kəmiyyət → keyfiyyət rakursundan fərqli məzmun daşıdıqlarını ortalığa qoymuşdur. Fərqin məhz nədən ibarət olduğunu da dəqiq şəkildə ifadə etmişdir: nə qədər istəyirsiniz poçt faytonlarını ard-arda düzün – dəmiryolu əldə etməyəcəksiniz! İnkişaf prosesinin əsas hərəkətverici qüvvələri kimi sahibkarlıq və innovasiyalar səciyyələndirmişdir.[97]

İqtisadi artım dövründə əmtəə və pul axınları müəyyən edilmiş qaydada qarşı-qarşıya gəlir, bir-birinə doğru hərəkət edirlər. Y.Şumpeter bu hərəkəti iqtisadi həyatın sirkulyar axını kimi qəbul edirdi. İqtisadi inkişaf – həmin axının rəvan gedişini pozmaqla yeni sənaye sahələrini meydana çıxarır (köhnə sahələrin fəaliyyətini dayandırır). Bununla belə, inkişaf fasiləsiz ola

[97] И.Шумпетер. Теория економического развития. М; Прогресс; 1982

bilməz. Sadəcə olaraq, ona görə ki, yeni ideyalar hər gün yaranmırlar. İnkişaf, eləcə də innovasiya fasiləlidir. Məhz bu fasilələlik (diskretlik) iqtisadi tsikllərin əsasında dayanır. Həmçinin sirkulyar axında dəyişikliklər yalnız kəmiyyət səciyyəli olurlar. Bu anlamda da, iqtisadi inkişafa tətbiqi məhduddur. Eyni zamanda keyfiyyət dəyişikliklərini, yaxud inkişaf prosesinin mövcudluğunu yalnız innovasiyalarla əlaqələndirmək qəbul oluna bilməz. Bu anlamda yenilik, inkişaf prosesinin məntiqi yekunu kimi meydana çıxan yeni yaranış, o halda öz təyinatına uyğun gələ bilər ki, o, sistemli səciyyə daşısın. Başqa sözlə, innovasiya öz-özlüyündə deyil, digər şərtlərlə qarşılıqlı bağlılıqda yeniliyi sistemli hala gətirə bilər.

Araşdırmalarımız göstərir ki, Y.Şumpeterin inkişaf nəzəriyyəsinin əsas məhdudiyyətləri və çatışmazlıqları sırasına aşağıdakılar aid edilə bilər:

1) Nəzəriyyənin çıxış nöqtəsi, mahiyyətcə özündə tarazlı vəziyyəti ehtiva edən «təsərrüfat dövriyyəsidir». Məlumdur ki, tarazlıq – fiksiyadır və onun statik şərhi, əslində, gerçək olanın yalnış qiymətləndirilməsi anlamını daşıyır;

2) Mənfəət və faiz yoxdur, istehsalçılar yalnız xərcləri ödəyirlər:

3) Təsərrüfat əlaqələri dəyişməzdir;

4) Tam şəkildə azad rəqabət mövcuddur:

5) istehsalın həcmi əvvəlki satışın nəticələrindən asılı olaraq müəyyən edilir;

6) Tələb=təklif bərabərliyi mövcuddur;

7) İqtisadiyyat hərəkətsizdir.

Aydındır ki, statik yanaşma milli iqtisadi inkişaf nəzəriyyəsinin real məzmunlu konseptual sxemini qurmaq prizmasından yetərli deyildir. İnkişaf – prosesdir, dinamikadır. Bu anlamda statik baxış həmin prosesin avtonom xarakterli çoxlu sayda kiçik hissəciklərə parçalanması, mahiyyətin ardıcıl surətdə dəyişən təzahür formaları rakursundan «açıqlanması» deməkdir ki, bu da heç bir halda gerçəkliyin adekvat təsviri səciyyəsini daşıya bilməz.

Statik yanaşma ifrat dinamizmi ilə seçilən inkişaf prosesini ayrı-ayrı «avtonom» hissəciklərə (zaman kəsiklərinə) bölür ki, belə bir «bölgü» bəri başdan apriori olaraq bir sıra məhdudiyyət şərtlərinin tətbiqi zəruriliyini doğurur. Yəni, inkişafın proses olma etibarı ilə konseptual «sərhədləri» gerçəkliyin mahiyyət özəlliklərindən deyil, nəzəri təxəyyülün əqli-nəticələrindən qaynaqlanmaqla formalaşır. Daha konkret ifadə ilə, bu halda, söhbət həqiqi mahiyyətdə təzahür edən inkişafdan daha çox onun nəzəri proyeksiyasından gedir.

Yeni keynsçi yanaşmalarda əsas vurğu texniki-iqtisadi parametrlərin dəyişməsi üzərinə düşür. Neoklassika hesab edir ki, bu halda sosial-iqtisadi şərtlər kompleksi nəzər-diqqətdən kənarda qalır: iqtisadi inkişaf ekzogen deyil, endogen resurslara istinad etməlidir. Eyni zamanda qeyd etmək lazımdır ki, hər iki cərəyan arasında əhəmiyyətli fərqlərə baxmayaraq, metodoloji-baza çox oxşardır. Bu aspektdən institutsionalizm, sözün həqiqi mənasında, mahiyyətcə fərqli məzmun daşıyır. Məhz institutsional müstəvidə aparılan tədqiqatlar göstərdi ki, inkişaf – təkcə iqtisadi alt-sistemi deyil, eyni zamanda qeyri-iqtisadi olanların geniş spektrini (o cümlədən formal və qeyri-formal institutları, mədəniyyəti, dəyərlər sistemini və s.) özündə ehtiva edir. Əks-təqdirdə, tamqiymətli inkişafdan danışmaq mümkün olmazdı. İnkişaf aspektindən qarşılıqlı bağlılığı Hayaminin sxemindən əyani şəkildə görmək olar. (şəkil 5.2.)




***Şəkil 5.2. İqtisadi inkişaf üçün zəruri olan sistem bağlılığı.***[98]

*Mənbə: Y.Hayami. Development Economics: From the to wealh of nation. Oxford. 1997; p.11*

Beləliklə, sosio-iqtisadi inkişaf (elə onun dayanıqlılığı problemi də) – ekzogen təsirlərə verilən reaksiyalar seriyasının ardıcıllığı ilə deyil, endogen məzmunlu və özünütəşkil xarakteri daşıyan aktların məcmusu formatında reallaşır. İqtisadi inkişaf problematikasına təkamül paradiqması çərçivəsində yanaşma prosesə daha çox «təbiilik» görüntüsü verməsi aspektindən diqqət cəlb edir. Məlumdur ki, həm inkişaf, həm də təkamül (sosio-iqtisadi anlamda) iqtisadi hərəkətin təzahür formalarıdır. Hər ikisi üçün də eyni olan xassə geriyə dönüşün yoxluğudur. Yəni bu proseslərin məntiqi sonluğu kimi ortalığa çıxan yeni yaranışlar heç bir halda əvvəlki vəziyyətlərinə qayıda bilməzlər.

## §5.2.Təkamülçü-sinergetik paradiqmanın mahiyyət özəllikləri

Təkamülçü inkişaf iqtisadi sistemin strukturu və sistemdaxili qarşılıqlı əlaqələrinin kəmiyyət-keyfiyyət xarakteristikasının çoxpilləli və məqsədyönlü dəyişməsi prosesidir. Və bu mənada iqtisadi artımın klassik-ənənəvi yozumunu inkar edir. Belə ki, ənənəvi anlamda iqtisadi artım cari inkişaf prosesinin konkret intervalında baş verir və tənəzzüllə əvəzlənir (tsiklik formada). İqtisadi artım konsepsiyaları (C.Kuznes, R,Solou, U.Rostou və s.) bir qayda olaraq, kəmiyyət parametrlərinin artımı, yaxud azalmasının, yaxud onların müxtəlif nisbətli kombinasiyasının iqtisadi sistemdə keyfiyyət yeniləşməsinə təsirinin təsvirini verilər. Yəni, həm zaman, həm də funksional aspektdən məhdudiyyətlər mövcuddur və bu anlamda təkamül prosesinin yalnız bir pilləsini ehtiva edə bilirlər. Başqa ifadə ilə, təkamülçü inkişaf prosesinə bütövlükdə deyil, yalnız fraqmentar aspektdən yanaşırlar. Sübut etməyə ehtiyac yoxdur ki, bir pillə çərçivəsində yeniləşmə prosesinə təsir kafi qiymətləndirilə bilməz. Təkamül prosesinin tədrici, fasiləsiz və kumilyativ proses halında olmasını nəzərə alarıqsa, onda yuxarıda qeyd etdiyimiz amilin rolunun o qədər də həlledici olmadığını görə bilərik.

Sinergetik paradiqma (İ.Priqojin, İ.Moiseyeva və s.) «artım nöqtələrini» aşağıdakı ardıcıllıqla sıralayır:

- Gələcəyə münasibətdə təkamül prosesinin determinasiya amillərinin öyrənilməsi;
- Gələcəyin birmənalılıqdan azad olduğunun, «müxtəlif» gələcəklərin gerçəkliyinin qəbulu;
- Sosio-iqtisadi sistemin inkişaf yollarının (attraktor) tədqiqi;

[98] Y.Hayami. Development Economics: From the poverty to wealth of Nation. Oxford; 1997. p.11

- Elementlərin müxtəlifliyinin, çoxsəviyyəli bazar şəraitinin yaradılmasının konstruktiv rolunun qəbul edilməsi;
- Gələcəyin, yaxud gələcəkdən idarəetmə imkanlarının tədqiqi;
- Zamana qənaət rejiminin tətbiqi və sosio-iqtisadi sistemin təkamül prosesinin sürətlənməsi.

Nəzəri baxışların müasir mərhələsində (S.Uinter, V.Maevski, C.Xocson və s.) problematika ilə bağlı aşağıdakılara diqqət yetirilməsi məqsədəuyğun hesab edilir. (şəkil 5.3)

Sineqretik yanaşma, açıq sistemlərin inkişafı prosesində iki tipin olduğunu qeyd edir: Adaptasiya və bifurkasiya!

N.Moiseev yazır ki, açıq sistemlərin tarixi inkişaf prosesi onların kəmiyyət xassələrinin dəyişməsinin «sakit» mərhələlərinin sistemin strukturunun keyfiyyətcə mürəkkəbləşməsinə səbəb olan «inqilabi» dəyişikliklər mərhələləri ilə növbələşməsi prosesidir.[99] Yəni adaptasiya prosesləri, tez, ya gec, məntiqi zərurətlə bifurkasiya nöqtəsinə (sərhəd situasiyasına) gətirib çıxarır. Sonrakı mərhələdə, yəni sistemin bifurkasiya nöqtəsindən sonra nəyin alınacağı, yaxud alınmayacağı məsələsi isə açıq qalır. Eyni zamanda, bu aspekt çox geniş diapozonı əhatə edir: arzu edilənlərlə onun tam əksinin reallaşması mümkündür. Hansı variantın alınacağı isə xarici təsirin yaratdığı təsadüflərdən asılıdır. Başqa sözlə, sosio-iqtisadi sistemin spesifikası əsaslı hesab olunmur və təbii sistemlərlə (təkamül-inkişaf rakursundan) eyniləşdirilir. Hər iki sistem arasında qeyd edilən aspektdən, müəyyən oxşarlıqların mövcudluğu heç bir şübhə doğurmur. Amma hər hansı bir məqamla bağlı tam şəkildə üst-üstə düşmə, prinsipcə qəbul edilə bilməz. Təbii sistemlərdən fərqli olaraq, sosio-iqtisadi sistem – məqsədi olan sistemdir və subyektiv aspektin həlledici əhəmiyyəti vardır. Yəni ən azı proses – məqsədyönlü tənzimlənəndir (təbii sistemlərdə belə xassə mövcud deyildir). Mahiyyətcə fərqli olanların yalnız «sistem» adlandırıldıqlarına görə eyni məxrəcə gətirilməsi, əlbəttə də ki, məqsədəuyğun hesab edilə bilməz.




***Şəkil 5.3. Təkamülçü inkişaf prosesinin tədqiqi metodikası: müqayisəli qiymətləndirmə***

[99] Н.Н.Моисеев. Человек и неосфера. М:1990; с.44

Təkamülçü-sinergetik paradiqma uzunmüddətli iqtisadi inkişafın əsas qanunauyğunluqları sırasına aşağıdakıları aid edir:

– İqtisadi konyunkturanın uzun dalğalarının növbələşməsindəki qeyri-bərabərlik (dalğanın uzunluğu aspektindən);

– Dünya iqtisadiyyatının mütəmadi olaraq böhrana məruz qalması iqtisadi artım amillərin nisbətini, sistemi, strukturu və sistemdaxili qarşılıqlı əlaqələri kardinal şəkildə dəyişikliyə uğradan texnoloji irəliləyişlərlə bağlıdır;

– Texniki-iqtisadi inkişafın natarazlığı;

– İnkişaf trayektoriyasının, texnologiyaların yayılması və dəyişməsinin qeyri-xəttiliyi;

– Texniki-iqtisadi inkişafın müvafiq istiqamətinin həyat tsiklinin başlanğıcında texnoloji trayektoriyanın qeyri-müəyyənliyi və alternativliyi (rəqabətin zəifləməsi, inhisarın yaranması);

– Texnologiyanın təkamül tsiklinin fazaları arasında «uçurumun» mövcudluğu (innovasiya və investisiya institutlarının vəziyyətindən asılı olaraq, aradan qaldırma imkanının olması).

Sözügedən paradiqma hesab edir ki, inkişaf (təkamül) qlobal miqyaslı və obyektiv prosesdir və bu proses universal xarakterlidir, labüddür, qaçılmazdır.

İnkişafın, bir proses olmaq etibarı ilə tsiklik xarakter daşıması bazarın fəaliyyət mexanizminin məntiqi nəticəsi olmaqla müasir dövrdə xüsusi aktuallıq kəsb etməkdədir. Belə ki, bir tərəfdən, dünyanın inkişaf səviyyəsi yüksək olan regionlarında cəmiyyətin tip dəyişkənliyi (industrial eradan postindustrial sistemə keçid), digər tərəfdən, qloballaşma prosesinin doğurduğu «yeni bərabərsizlik» tsikl və iqtisadi dalğalarla bağlı problematikanın miqyasca genişlənməsinə gətirib çıxarmışdır. Bu mövzu, əslində, yeni bir şey deyildir. İnkişafın tsikliyi problemi son 200 illik tarixi dönəmdə araşdırma problemi olaraq qalmaqdadır (K.Marks, C.Keyns, N.Kondratyev, C.Kuznes, A.Toffler, S.Cevons, T.Maltus və s.).

İqtisadiyyatda tsiklik dəyişmələrin səbəbləri müxtəlif məzmunda interpretasiya olunur. Bununla belə, dəyişmələrə bu və ya digər şəkildə təsir göstərmə iqtidarında olanlar sırasına aşağıdakılar aid edilir:

1) iqlim dəyişikliyi;
2) qeyri-müəyyənlik;
3) psixoloji səhvlər;
4) yeni texnika və texnologiya (tərəqqi anlamında);
5) ümumi istehsal artıqlığı;
6) bank əməliyyatları, pul axınlarının hərəkət mexanizmi;
7) sair.

***Cədvəl 5.1. İqtisadi tsikllərin tip müxtəlifliyi***

| Tsikllər | Tsiklin zaman intervalı | Müəllifi | Spesifik xüsusiyyətləri |
|---|---|---|---|
| **1. Qısa müddətli** | 2-4 il | Kitçin | Ehtiyatlar – ÜDM-un dəyişməsi; inflyasiya, məşğulluq; biznes tsiklləri |
| **2. Orta müddətli** | 7-12 il | Juqlyar | İnvestisiya tsikli – ÜDM dəyişməsi; inflyasiya, məşğulluq. |

| | | | |
|---|---|---|---|
| **3. Uzun müddətli** | 16–25 il | S.Kuznes | Gəlir, immiqrasiya, yaşayış binalarının tikintisi, məcmu tələb; |
| **4. Çox uzun müddətli** | 40-60 il | N.Kondratyev | Texniki-texnoloji tərəqqi; struktur dəyişikliklər |
| **5. Dalğa xarakterli** | 200 il | Forrester | Enerji və materiallar: |
| **6. Uzun dalğa** | 1000-2000 il | A.Toffler | Sivilizasiyanın inkişafı |

Kondratyev tsiklləri («uzun dalğalar») inkişaf problematikası nöqteyi-nəzərindən böyük diqqət cəlb edir.[100]

N.Kondratyev «uzun dalğaların» (Böyük tsikllərin) qanunauyğunluğunu fərqləndirirdi:

1) «Yüksəklik dalğasının» əvvəlində (başlanğıcında) iqtisadiyyatda dərin keyfiyyət dəyişiklikləri baş verir: əhəmiyyətli texniki-texnoloji kəşflər, bunun əsasında növbəti elmi-texniki tərəqqi və yeni texnologiyaların tətbiqi; Ticarətin və pul dövriyyəsinin təkamülü;

2) Sosial təlatümlər: müharibələr, inqilablar və s. (Böyük tsikllərin yüksələn dalğaları şəraitində).

3) «Enən (enişə doğru) dalğalar» şəraitində aqrar sferada durğunluq yaranır;

4) «Yüksələn dalğa» – böhran və depressiyaların zamanca uzunluğunu qısaldır; iqtisadi canlanma və iqtisadi artıma dəstək verir; «Enən dalğa» – isə əks istiqamətdə təsir göstərir, iqtisadi inkişaf imkanlarını azaldır.

Və qeyd olunur ki, «uzun dalğaların» başlıca səbəbi əsas kapitalın passiv hissəsinin kütləvi şəkildə yeniləşməsidir.

İqtisadi inkişafın model identifikasiyasının idxal → ixrac yönümləri üzərində proyeksiyası bir çox hallarda birmənalı konseptual məzmunda təqdim olunur. O mənada ki, idxaləvəzetmə və ixracatyönümlü modellər əks-qütblülük aspektindən fərqləndirilirlər.

***Cədvəl 5.2. İqtisadi inkişafın model identifikasiyası: strateji yönümlülük***

| Əsas kateqoriyalar | İdxaləvəzetmə strategiyası | İxracatyönümlü strategiya |
|---|---|---|
| **1. Məqsəd** | Milli təkrar istehsal prosesinin bütövlüyü və təhlükəsizliyi | Milli təkrar istehsal prosesinin effektivliyi, xarici əməliyyatlardan uduşun maksimumlaşdırılması |
| **2. Dünya iqtisadiyyatına inteqrasiya** | Selektiv inteqrasiya | Strateji inteqrasiya |
| **3. İnkişafın təhlükəsizliyinin təminatı** | Proteksionizm, tarif və qeyri-tarif tənzimlənmə, məhdudiyyətlər sistemi | – Beynəlxalq rəqabət qabiliyyətliliyin yüksəldilməsi;<br>– Azad ticarət; |
| **4. Bazar yönümlülüyü** | Daxili bazar | – Dünya bazarı |
| **5. Əsas istinad nöqtəsi** | İqtisadiyyatın diversifikasiyası | – Xarici tələbin həcmi |
| **6. Əsas hədəf** | İdxal asılılığının minimuma endirilməsi | Dünya bazarında maksimum pay əldə edilməsi |

*Mənbə: müəllif tərəfindən tərtib olunmuşdur.*

[100] Н.Д.Кондратьев. Суздальские письма. — М.: Экономика, 2004. — 879 с

Tarixi-xronoloji aspektdən yanaşdıqda görmək olar ki, idxaləvəzetmə modeli 1950-60-cı illərdə, ixracyönümlülük isə 1980-ci illərdən sonra populyarlıq qazanmışlar.

Yönüm fərqliliklərinə baxmayaraq, hər iki model üçün əsas məsələ sənayeləşmə məsələsidir. Sadəcə olaraq, sənayeləşmə prosesinin idxaləvəzetmə modelində daxili tələbə istinadla həyata keçirilməsi istənilir, ixracyönümlülükdə isə xarici tələbə (ixracın strukturunun dəyişməsi: xammaldan emal sənayesi məhsullarına keçid) adekvat olan yanaşma sərgilənir. Yeri gəlmişkən, qeyd edək ki, bəzi araşdırmalarda bu sıraya üçüncü modeli də daxil edirlər (innovasiyaya yönümlü model).[101] İnnovasiyaların mühüm əhəmiyyət kəsb etdiyi şübhəsizdir. Lakin onu əvvəlki iki modellə bir sıraya qoymaq düzgün deyildir. O, həmin iki model kimi özü-özündə mövcud olan deyil, əksər inkişaf modellərinin funksional məzmununda yer alandır. Bu aspektin mövcudluğu və inkişaf səviyyəsi inkişaf modellərini oxşar məzmuna gətirən, yəni universal «örtüyə» bürüyən əsas amildir.

İnkişafın irxracyönümlü, yoxsa idxaləvəzetmə modelinin tətbiqi ilə bağlı məsələdə isə əksər tədqiqatçılar tərəfindən dəstəklənən seçim birincinin üzərinə düşür. Və bu seçimin əsaslandırma tipi də qəbul olunandır: xarici bazarlara çıxış olmadan idxaləvəzetmə modeli uzunmüddətli dövr üçün effektiv deyildir. Bu deyimin məntiqi prizmadan yalnış olmadığı aydındır. Lakin:

1) Uzunmüddətli dövr deyəndə hansı uzunluqda zaman intervalı nəzərdə tutulur: Əgər söhbət bu gün yaranmış, mövcud olan və ölkənin gələcəyi (uzunmüddətli dövrü) üçün əsas təhlükə mənbəyi kimi çıxış edən problemli situasiyanın aradan qaldırılması zəruriliyindən gedirsə, onda bizi, qısa və orta dövr daha çox maraqlandırmalıdır;

2) Xarici bazarlarda (emal sənayesi məhsulları üzrə) vakansiya, «boş» nişa yoxdur. Ölkənin həmin bazarlarda rəqabətqabiliyyətliliyinin əsas amili ucuz işçi qüvvəsidir. (Cənub-şərqi Asiya ölkələri kimi).

3) Bu amil – əhalinin süni yoxsulluq rejimini yaradan və dəstəkləyən amildir. Və, bu da nəinki siyasi-etik anlamda, eləcə də effektivlik nöqteyi-nəzərindən problematikdir; Həmçinin nəzərə alınmalıdır ki, müasir dövrdə rəqabət üstünlüyü – ucuz işçi qüvvəsinə deyil, işçi qüvvəsinin ixtisas səviyyəsinə, məhsuldarlığına və innovativliyinə istinadla formalaşır.

4) İşçi qüvvəsinin ucuzluğu uzunmüddətli dövr üçün keçərli deyildir. İqtisadi prosesin gedişində «ucuzluq» tədricən aradan qalxır. Əks-təqdirdə işçi qüvvəsinin təkrar istehsalı prosesində problemli situasiyaların meydana çıxması qaçılmaz olacaqdır.

Beləliklə, digər şərtlərin dəyişmədiyi təqdirdə ixracyönümlülük də idxaləvəzetmə kimi, uzunmüddətli dövr üçün «yararsız» hala düşür.

Müasir situasiyanın sistemli təhlili, amillər kompleksinin bu günə formalaşmış kombinasiyasına istinadla birmənalı olaraq inkişafın indiki mərhələsində daxili bazara istiqamətlənmə daha prioritet səslənir. Yəni:

– Daxili bazarın ekstensiv böyüməsi (regional inteqrasiya vasitəsi ilə).

– Məcmu tələbin artımı, eləcə də infrastrukturun inkişafı hesabına bazarın intensiv genişlənməsi;

– Əks-inhisarlaşma siyasətinin (xarici bazarlar istisna olmaqla) radikal formada tətbiqi;

---

[101] П.Р.Кругман; Международная экономика. 5-е издание. СПб, 2003, с.292




*Şəkil 5.4. Klark-Fişer modeli*

Geoiqtisadi yanaşma prizmasından inkişaf modelləri ilə iqtisadiyyatın sektorları arasında birbaşa bağlılıq mövcuddur. Belə modellər sektor dəyişikliyinin (aqrar→sənaye→xidmət) ardıcıllığını özündə ehtiva edir. Məsələn, Klark-Fişer modeli bu anlamda daha çox populyarlıq qazanmışdır.

Bu model – ümumiqtisadi inkişaf prosesində yeni iş yerlərinin yaradılması aspektindən iqtisadiyyatın müxtəlif sektorlarının əhəmiyyətlilik dərəcəsinin dinamikasını nəzəri cəhətdən əsaslandırır.

## §5.3. İnkişaf problemlərinə sözardı: nəzəri mülahizələr.

Geniş yayılmış elmi baxışlar içərisində iqtisadi inkişafın məna tutumu və əhatə dairəsi ümumcəmiyyət miqyasında səciyyələndirilir.

- Iqtisadi inkişaf ictimai münasibətlərin inkişafını özündə ehtiva edir. Buna görə də, konkret tarixi dövrlərdə (müxtəlif texnoloji ukladlar və maddi nemətlərin bölgü müxtəlifliyi) prosesin gedişi müxtəlif cür təzahür edir.[102]
- Iqtisadi inkişaf – insan həyatının keyfiyyətcə yaxşılaşdırılması, həyat səviyyəsinin yülsəldilməsi, özünəhörmət və azadlığın qərarlaşması prosesidir.[103]

Belə alınır ki, iqtisadi inkişaf ictimai həyatın bütövlükdə inkişafını özündə ehtiva edən universal anlayışdır. Və, prosesin effektivlik dərəcəsi iqtisadiyyatın dövlət tənzimlənməsinin, dövlət institutlarının və nəhayət dövlətin özünün effektivliyi ilə müəyyənləşir. Başqa sözlə,

[102] Экономический словарь.http//ekslovar.ru/slovar/r-/razvitiye-ekonomicheskoye.html
[103] М.П.Тодаро. Экономическое развитие. М; Юнити.1997; с.667

iqtisadiyyatın tənzimlənməsi sferasında dəyişikliklərin idarə edilməsi problemi mahiyyətcə iqtisadi inkişafın gerçəkləşməsi anlamında qəbul olunur. Və, maraqlı cəhət də ondan ibarətdir ki, sözügedən aspekt ictimai həyatın, demək olar ki, bütün spektrini əhatə edir. Bu anlamda T.Norbertin konsepsiyası səciyyəvi hesab edilə bilər.[104] Şəkildə verilən sxematik təsvirdən göründüyü kimi, əvvəla, inkişaf – bir proses olma etibarı ilə dövlət tərəfindən tənzimlənir yaxud idarə olunur. T.Norbert bu xüsusu ön plana çıxarmaqla, təbii olaraq, effektiv hökümət konsepsiyasının aktuallıq dərəcəsini bir növ "əbədiləşdirir". Eyni zamanda, cəmiyyətin bütün spektri (iqtisadi inkişaf nöqteyi-nəzərindən) vahid "məxrəcə" gətirilir. Ifadə tərzində açıq-aydın şəkildə hiss edilən sarkazm onunla bağlıdır ki, sözügedən konseptual baxış yaxın keçmiş üçün (milli dövlətlərin və industrial təsərrüfat tipinin hökmran olduğu) yararlıdır. Dayanıqlı inkişafın qlobal miqyasda ifrat dərəcədə aktuallaşdığı və inkişaf etmiş trans-regionların postmodernizmə keçidi müasir dövrdə artıq ənənəvi hesab edilən yanaşmaların elmi dövriyyədə qalmaları məntiqi ziddiyyət doğurmaqdan qeyri bir şeyə yaramır.




***Şəkil 5.5. İqtisadi inkişafın gerçəkləşmə prosesinin komponentləri.***

Insan → təbiət qarşılıqlı münasibətlərində baş verən dəyişikliklərin spesifik xüsusiyyətləri sırasında iki cəhət xüsusi ilə qabarıq şəkildə təzahür edir.

---

[104] Т.Норберт. Управление изменениями// Проблемы теории и практики управления. 1998;№1

I. Təkamül prosesinin “diqtəsi altında sistem yeniləşməsi prosesi, bir qayda olaraq tarazlığı pozulmuş – nataraz proseslərin növbələşməsi formasında baş verir. Sistemin istənilən forma və məzmunda yeni hesab edilə biləcək mərhələyə keçidi yeni məzmunlu tarazlığın formalaşması ilə nəticələnir. Prosesin zamanca hərəkət sürəti yüksəlir və yeni natarazlıq meydana çıxır. Bu aspekt, təbii və digər sistemlərdən fərqli olaraq, iqtisadi sistemlərdə daha qabarıq şəkildə təzahür edir. Beləliklə, bizim inkişaf adlandırdığımız prosesin mahiyyətində natarazlığın növbələşməsi, yeni keyfiyyət çalarlarının meydana çıxması, keyfiyyətcə yeni səviyyəyə yüksəliş dayanır. Eyni zamanda, qeyd etdiyimiz növbələşmə prosesinin (natarazlıq → tarazlıq və əksinə) baş vermə tezliyindən asılı olaraq təkamülün (yaxud, inkişafın) sürətlənməsi baş verir. Məqsədyönlü proses (inkişaf – məqsədyönlü prosesdir) çərçivəsində iqtisadi axınların zamanca sürətlənməsi, ilk baxışdan zaman resursundan effektiv istifadə görüntüsü yaratsa da, sonuc etibarı ilə iqtisadi tsiklin növbəti fazasına (artım → tənəzzül yaxud durğunluq) keçidi “tezləşdirir” ki, bu da bir çox hallarda sistem böhranı ilə nəticələnir. Zamanın ən bahalı resurs olduğu və zamanca sürətlənmənin cəmiyyətdə məcmu effektivliyi yüksəltdiyi məlumdur. Amma, o da məlumdur ki, iqtisadi prosesin daxili və xarici komponentləri arasında zaman sürəsi qeyri-bərabər bölünmüşdür. Deməli, sözügedən sürətlənmə heç bir halda sistemli səciyyə (orta və uzunmüddətli dövr ərzində) daşıya bilməz. Məhz qeyd etdiyimiz müxtəliflik, müxtəlif sürətlilik sistemin yeni keyfiyyət mərhələsinə keçidi prosesinin daima yüksələn xəttlə gedişini mümkünsüz edir. Sistemin tarazlığa dönüşünün digər və çox önəmli olan aspekti də təbiətlə qarşılıqlı əlaqələrin məhz “qarşılıqlıq” dərəcəsi ilə səciyyələnir. Inkişaf prosesinin ətraf mühitdən “aldıqları”, eyni həcmdə olmaqla “geri” qaytarılmalıdır. Əks-təqdirdə, təbiət “verdiklərini” çox kəskin bir formada geri alacaqdır.

II. Məhz buna görə də, sistemin daxili sabitliyi, daxili dayanıqlılığı inkişafdan da çox önəm daşıyır. Bu halda söhbət, inkiaşafın deyil, iqtisadiyyatın, iqtisadi sistemin dayanıqlılığından gedir. Inkişaf – sistemdaxili proseslərin gedişini özündə ehtiva edir. Buna görə də, sistemin dayanıqlılığı inkişafın dayanıqlılığını təmin edən əsas baza rolunu oynayır. Eyni zamanda, aydındır ki, sistemdaxili dayanıqlılıq xarici şoklardan mühafizə sisteminin effektivlik dərəcəsindən birbaşa asılılıqdadır. Həmçinin, o da aydındır ki, inkişafın (eləcə də sistemin) dayanıqlılığı ölkənin geoiqtisadi məkandakı yeri, rolu və fəaliyyət səmərəliliyi ilə səbəbiyyət bağlılığındadır. Iqtisadi fəaliyyətdə problemlər yaradan, vahid iqtisadi prosesi “daxili-xarici” kəsimlərə bölən dövlətlərarası münasibətlər sistemi dəyişmədikcə sosial rifahın etibarlı təminatına nail olmaq imkanlarının genişlənəcəyinə bəslənən ümidlər real məzmun daşımırlar. Fikrimizcə, yeganə çıxış yolu qlobal səviyyədə milli iqtisadiyyatlararası inteqrativ bağlılıqların formalaşmasıdır. Qlobal səviyyəli inteqrativ bağlılıq, qloballaşmadan fərqli olaraq mənafe tarazlığının qorunmasında çox əhəmiyyətli rol oynaya bilər. Məlumdur ki, qloballaşma prosesi, birmənalı olaraq ölkələrarası münasibətlərdə mövcud olan məhdudiyyətlərin və sərhədlərin “aradan” qaldırılması prosesi kimi təzahür edir. buna görə də, böyük ölkələr daha çox böyüyür, kiçik ölkələr isə daha çox kiçilir və birincilərdən birbaşa asılılığa düşürlər. Ölkələrin sayı nə qədər çoxdursa, qarşılıqlı münasibətlər kompleksində effektin paylanması bir o qədər qeyri-bərabər səciyyə daşıyır, ədalətsizlik prinsipi bir o qədər pozulur.

Bəşər tarixi, ümumbəşəri idarəetmə sistemləri nöqteyi-nəzərindən imperiyaların yaranması və parçalanması tarixi kimi də nəzərdən keçirilə bilər. Böyük coğrafi kəşflərdən sonra qərbi Avropa ölkələrinin böyük imperiyaları meydana çıxdı. Məsələn, qərbi Avropa ölkələrinin ərazisi (əsasən, Fransa, İngiltərə, Niderland, İspaniya və Portuqaliya) 1400-cü ildə 50 mln.kv.km-dən 1600-cü ildə 310mln.kv.km-ə çatdı. Məhz XVI əsrdən etibarən modernizm erasına keçid başlandı. Bu iki hadisə arasındakı məntiqi bağlılığın mövcudluğunu inkar etmək,

yəqin ki, düzgün olmazdı. Bu gün Böyük Britaniya imperiyasının yerində 50-dən çox, Böyük Osmanlı imperiyasının yerində 52 dövlət mövcuddur.

1950-ci ildə yer kürəsində cəmi 50 dövlət mövcud idisə, hal-hazırda onların sayı 230-a çatmışdır ki, bunlardan 210-u suveren dövlətlərdir. Yerdə qalanlar defakto mövcud olan və dünya birliyi tərəfindən de yure tanınmayan azsaylı etnik qrupların kiçik ərazilərdə yaratdıqları "dövlətlər" və ərazilərdir. Təbii ki, qlobal səviyyəli inteqrativ bütövlüyün yaradılmasının imperiya əsarəti ilə heç bir bağlılığı yoxdur. Amma, vahid geoiqtisadi məkanın konkret sərhədləri olan kiçik hissəciklərə parçalanması bəşəriyyət üçün yaxşı heç nə vəd etmir. Kiçik hissəciklərin durmadan artması, hər şeydən əvvəl elə onların özü üçün böyük və həlli müşkül olan problemlər yaradır.

Görünən odur ki, bir çox hallarda müasir dövrlə ayaqlaşmayan, artıq ümidsiz şəkildə köhnəlmiş zehniyyəti, təfəkkür tərzini "müasirlik" libasına bürüməyə cəhd edir və nə qədər anlaşılmaz olsa da, buna nail ola bilərlər. Beləliklə, qlobal miqyaslı pərakəndilik, dağınıqlıq keçmişə aid olan anlayışlar kimi bu gün müxtəlif kalibrli problemlər doğurmaqdan qeyri bir məna daşımırlar. Bu günün və gələcəyin mövcudluq forması inteqrativ bütövlüyün formalaşdırılmasıdır.

Dövlət → iqtisadiyyat münasibətlərinin konseptual yönümləri aşağıdakı cədvəldə əks olunmuşdur.

***Cədvəl 5.3. Dövlət – iqtisadiyyat münasibətləri: iqtisadi siyasət.***

| Iqtisadi fikir cərəyanları | Müəllif | Iqtisadi siyasət | |
|---|---|---|---|
| | | **Mahiyyəti** | **Xarakteristikası** |
| **1. Keynsçilik** | C.Keyns | Iqtisadiyyatın dövlət tənzimlənməsi | - Istehlak yönümlülüyü;<br>- Kapitalın marginal effektivliyi<br>- Faiz norması. |
| **2. Alman tarixi məktəbi** | V.Oyken | Məcmu dövlət tədbirlərinin iqtisadi proseslərə təsiri | - əsas məsələ təhlükəli təmayüllərin yaranmasına yol verməmək. |
| **3. Institutsionalizm** | D.Byukenen | Dövlət və subyekt arasında könüllü mübadilə prosesi | - Siyasi bazar ticarətdən azad deyil. |
| **4. Yeni Institutsionalizm** | E.Atkinson<br>C.Stiqlist | Hökümətin iqtisadi fəaliyyəti və sosial obyektlərlə qarşılıqlı əlaqəsi | - Dövlət xərcləri haqqında qərar qəbulu;<br>- Hökümətin fəaliyyətinin məntiqi və kriteriyaları. |
| **5. London iqtisadi məktəbi** | Makmillan | Dövlətin iqtisadiyyata münasibətdə davranışı | - Konkret situasiyada rifahın optimumu. |

*Mənbə: müəllif tərəfindən tərtib olunmuşdur.*

Göründüyü kimi, hansısa bir formada uyğunluq yaratma mümkünsüzlüyü mövcuddur.

Keyns yazırdı ki, "...Dövlət məmurları, siyasətçilər, hətta təbliğatçıların istifadə etdiyi ideyalar ən yeni ideyalar deyildir. Amma, gec ya tez, eqoist mənafelər deyil, məhz ideyalar xeyir və şər üçün təhlükə yaradırlar".[105]

Iqtisadi siyasət:

- Dövləti idarəetmə incəsənətidir;
- Bu və ya digər sosial mənafelərin mühafizəsinə yönəlik ictimai fəaliyyətdir;
- Dövlətin vəzifələri və onları həyata keçirmə vasitələri haqqında elmdir.

[105] В.Д.Камаев. Экономическая теория. 2002. ВУЗ: СГЭУ

Iqtisadi sitasətə ümumyanaşmanın ana xətti ondan ibarətdir ki, o əhalinin mənafelərini və rifah halının yüksəlişini ehtiva edir. Başqa sözlə, məcmu faydanın maksimumu əsas hədəf halına gəlir. Iqtisadi siyasətdə həm ziddiyyətlilik, həm də sosiumun inamsızlığı siyasi seçkilər dövründə iqtisadiyyatın "ölçüsüz" "siyasiləşdirilməsindən" doğur. Əslində, iqtisadiyyat və siyasət arasında birbaşa asılılıq yoxdur. Asılılığı formalaşdıran "vasitəçi" sosial-psixoloji" amildir. Digər tərəfdən, sözügedən bağlılığın zaman ölçüsü mövcuddur. Siyasi dəyişiklik elə həmin anda da iqtisadiyyatda adekvat nəticə doğurmur.

Müəyyən zaman kəsiyi ərzində yeniliyə adaptasiya olunma prosesi gedir. Və, bu zaman kəsiyinin interval uzunluğu həmişə fərqli olur. Buna görə də, tərəflərarası asılılıq yaxud əlaqələr o qədər də sadə məzmunlu deyildir. Əlaqələrin formalaşması prosesi aşağıdakı ardıcıllıqla (müəyyən zaman məsrəfləri əsasında) gedir: problemin aşkarlanması – ~~zaman~~ - siyasət qurumların problemi "görmələri" – ~~zaman~~ – Qərar qəbulu – ~~zaman~~ – qərarın tətbiqi. Göstərilən keçid nöqtələrində zamanın interval uzunluğu bir qayda olaraq çox olur. Hətta, o dərəcədəki, yeganə düzgün qərar qəbul edilsə də belə öz vaxtinda tətbiq edilmədiyi üçün (çox ləng hərəkər etdikdə) problemli situasiya daha da kəskinləşir.

Dövlət → iqtisadiyyat ikiliyinin ziddiyətli "bütövlüyü" bütün təfərrüatı ilə ortalıqdadır. Bu qarşılıqlı münasibətləri 3 formada ifadə etmək olar:[106]

1) Dövlətin iqtisadiyyatda iştirakı;
2) Dövlətin iqtisadi rolu;
3) Dövlətin iqtisadiyyata müdaxiləsi;

Sonuncu bazarın tam şəkildə "küncə" sıxışdırılması anlamını verir.

Real məzmun daşıyan variant dövlətin iqtisadiyyatda iştirakıdır:




***Şəkil 5.6. dövlətin iqtisadiyyata təsirinin sadələşdirilmiş blok-sxemi.***
*Mənbə: M.Бункина. Национальная экономика. (учебник) M:2002. C.209.*

Hesab edirik ki, dayanıqlı inkişafın təminatı üçün zəruri olan qlobal inteqrativ bağlılıq məhz göstərilən sferada "yumşalma" yönümlü hərəkətlilikdən müəyyən asılılıqdır.

Proseslərin gedişi (həm qlobal reallıqda, həm də elmi tədqiqatların yönümlüyündə) göstərir ki, XX əsrin əvvəllərində olduğu kimi, bugünki qlobal situasiyada da dövlətin "taleyi" məsələsi aktuallaşmaqdadır. Bəli, təxminən 100 illik bir zaman sürəsi ərzində eyni məsələ eyni aktuallıqla gündəmə daxil olmaqdadır. Məlumdur ki, dünya iqtisadiyyatının və dünya bazarının formalaşdığı dövrdə (XIX əsin sonu XX əsrin əvvəlləri) kapitalın təmərküzləşməsi özünün

[106] А.Пороховский. Экономически эффективное государство: американский опыт// Вопросы Экономики; 1998;№3

maksimum səviyyəsinə çatmış, qlobal sosiumla bağlı az ya çox əhəmiyyətli məsələlər üzərində mütləq hegemonluğu təmin edilmişdir. Məsələn, I dünya müharibəsi dövlətlərin deyil, şirkətlərin müharibəsi olduğunu, yəqin ki, heç kim inkar etməz. Məhz həmin dövrdə əksər sosial-demokratlar (K.Kautski və b.), eləcə də bolşeviklərin rəhbəri V.İ.Lenin (1916-cı ildə "Dövlət və inqilab" əsərində) gələcəkdə dövlətin yeri olmadığını əsaslandırırdılar. Məsələ burasındadır ki, onların fikrincə inqilab baş verdikdən sonra qurulacaq kommunizm cəmiyyətində də eyni nəticə olacaqdır. Baxmayaraq ki, dövlətin "ayağının altını qazan" prosesi, iri kapitalın təmərgüzləşməsi prosesini kapitalizmin qanunu kimi səciyyələndirirdilər, bununla belə "ideal cəmiyyət" hesab etdikləri kommunizmdə də dövlətin olmayacağını yazırdılar. Yəni, bu "olmamaqlıq" kapitalla əlaqəli deyil, "ideal" cəmiyyətin birgə yaşayış qaydalarının "ideal" prinsiplərindən qaynaqlanacaqdır.

Təbiidir ki eyni problemlə bağlı bugünkü situasiyanı özünün tarixi analoqu ilə müqayisə etməyə lüzum yoxdur. Dövlətlə bağlı bugünkü "getməlidir" nidası hansısa bir abstrakt xarakterli əqli nəticələrdən deyil, reallığın daxili məntiqindən doğur.

Şübhə yoxdur ki, industrial təsərrüfat tipinin hökmran olduğu cəmiyyətlərdə (ölkələrdə) dayanıqlı inkişafın təminatı sferasında milli dövlətlərin həlledici rola malik olmaları tam şəkildə anlaşılandır. Amma, müasir qloballaşma prosesinin gətirdiyi yeniliklər, həmçinin postindustrial cəmiyyət tipinə keçid, eləcə də milli iqtisadiyyatın mürəkkəb sosio-iqtisadi sistem kimi formalaşması söz açdığımız problemlə (milli dövlətlərin yeri və rolu) bağlı ənənəvi baxışların gerçəkliklə uzlaşmadığını ortalığa qoyur:

1) Ölkənin "ölkə-sistemə" çevrilməsi: Bu anlamda ən parlaq nümunə kimi ABŞ-nı göstərmək olar. Bu ölkənin "ölkə-sistemə" çevrilməsi, tam şəkildə qloballaşması elə bir səviyyəyə çatıb ki, artıq bu ölkə dünya iqtisadiyyatında qlobal korporasiya kimi çıxış edir.

2) Yuxarıda da, qeyd etdiyimiz kimi, milli iqtisadiyyat – mürəkkəb sosio-iqtisadi sistem formasını almışdır. Bu modernist paradiqma çərçivəsində gəlinə biləcək ən yüksək nəticədir. Yəni, son "dayanacaqdır" və bundan sonrası yalnız cəmiyyət tipinin dəyişməsi hesabına davam edə bilər. Yeni cəmiyyət tipi (postindustrializm) əvvəlki dövrə aid olanları, o cümlədən milli dövlətlərə münasibət məsələsini kəskin şəkildə dəyişərək tam fərqli bir müstəviyə keçirir. Nə dövlət, nə də sosium (millət, xalq və s.) deyil, insan, ayrıca götürülmüş individium həm yaşadığı coğrafiyada, həm də beynəlxalq arenada mərkəzi fiqura, "əsas söz sahibinə" çevrilir və idarəetmə sistemi birmənalı olaraq üfiqi şəbəkələr şəklində formalaşır. Aydındır ki, belə bir situasiyada dayanıqlı inkişafın ölkə mənsubiyyəti arxa plana keçir, qloballaşır və yekun etibarı ilə elə həmin səviyyədə inteqrativ bağlılıqların formalaşması zəruriliyini ortalığa qoyur;

3) Məlumdur ki, mürəkkəb sistemlərin effektivliyini təmin edə biləcək idarəetmə mexanizmi heterogen xarakterli olmalıdır. Bu aspektdən şəbəkə sistemi, kooperasiya və birgə inkişaf qaçılmazlığı, qlobal səviyyəli "razılaşmalar" və s. "müstəqil dövlət" konsepsiyasını abstrakt əqli-nəticələr sinifinə keçirir. Ona görə də, təəcüblü deyildir ki, sözü gedən konsepsiyanın "ömürünü" uzatmaq məqsədilə müxtəlif səpgili interpretasiyalar ortalığa qoyulmuşdur: "əməliyyat suverenliyi", "pozitiv və neqativ suverenlik" və s.[107] Amma, prosesin təbii xarakter daşıdığını inkar edə yaxud şübhə altına sala biləcək hər hansı bir konseptual baxış mövcud deyildir.

4) Fikrimizcə, problemi aktuallaşdıran əsas məsələlərdən biri dayanıqlı inkişafın sonlu, hüdudlu olması və bu yönümdə ekologiyanın həlledici rol oynamasıdır. Sübut etməyə

[107] М.Ильин. Политическая глобализация: институтциональные изменения. Грани глобализации. М;2003

ehtiyac yoxdur ki, heç bir ölkə ekoloji problemi təkbaşına həll edə bilməz. Eyni zamanda, təbii resurslardan effektiv istifadə üçün zəruri olan yeni texnologiya dünya ölkələrinin böyük əksəriyyətində yoxdur. Bu mənada (hər iki amil dayanıqlı inkişafın əsas şərtləri sırasındadır) yeganə çıxış yolu ümumplanetar səviyyədə, heç bir ayrı-seçkiliyə yol vermədən inteqrativ bağlılıqların yaradılmasıdır.

Bu gün inamla söyləmək olar ki. cəmiyyətin inkişaf təmayüllərinin yaranışı ölkə yaxud xalqların spesifik özəlliklərinin kəsişdiyi müstəvidə təzahür edir. Həm sosial, həm də iqtisadi davranış tərzi həmişə milli "rəng" daşıyıbdır. Problem ondadır ki, qeyd edilən aspektin (ayrı-ayrı millətlərin intellektual fəallığını) hansısa bir əmsal formasında ölçmə imkanı yoxdur. Bununla belə, milli imkanların böyüklüyünü (digər millətlərlə müqayisədə), milli "müstəsnalığı" iddia edənlər də olmamış deyildir. Məsələn, nasional-sosialistlərin interpretasiyaında alman xalqı, eləcə də ən qədim və tanrının seçdiyi yəhudilər, hətta, nə qədər paradoksal səslənsə də...ermənilər özləri haqqında çox yüksək fikirdədilər. Lakin, elmi əsası olmayan iddialar – bəşər tarixinin göstərdiyi kimi – ya faciə, ya da ümumbəşəri gülüşlə sonuclanır. Bununla yanaşı, milli adət-ənənə və mentalitet ictimai həyatın bütün sferalarını, o cümlədən milli iqtisadiyyatı özünə xas məna ilə "yükləyir". Emipirik səviyyədə isə sadalananların təsiri çoxcəhətli səciyyə daşıyır. Buna görə də, milli psixologiyanın öyrənilməsi həm ölkənin sosio-iqtisadi modelinin, həm də dövlət quruluşu və siyasi fəaliyyət modelinin formalaşdırılmasında müstəsna əhəmiyyət kəsb edir. Milli dəyərlər sistemi yeganə institutdur ki, onun "indi"si və "gələcəyi" keçmişlə çox sıx səbəbiyyət bağlılığındadır. Məhz buna görə də, sosio-iqtisadi sistemdə baş verən kardinal dəyişikliklər və yekun olaraq təsərrüfat tipinin dəyişməsi – yeni tipin formalaşması müəyyən zaman kəsiyində cəmiyyət tərəfindən "həzm" edilə bilmir. Başqa sözlə, cəmiyyətin sosio-mədəni tipi direktiv göstərişlə deyil, tədrici gedişlə (əgər, geriyə dönüş baş vermirsə), təkamüllə və uzunmüddətli zaman surəsində yenilənir.

Inkişaf prosesinin rəvan gedişinə əks təsir göstərən əsas problemlərdən biri sosial bərabərsizlik problemidir. Sosial bərabərsizliyin aradan qaldırılması əksər hallarda iddia edildiyi kimi – hamının və hər şeylə təminat baxımından "eyniyyətə" gəlməsi anlamını vermir. Sosial bərabərsizlik –sosial differensasiyanın struktur disproporsiyasından qaynaqlanan fenomendir: ayrı-ayrı fərdlər, sosial qruplar, bir sözlə vətəndaş cəmiyyətinin struktur bölmələrinin şaquli sosial iyerarxiyada sosial və mədəni tələbatlarının ödənilmə imkanlarının qeyri-bərabər olduğu müxtəlif pillələrdə yer tutmalarıdır. ...Müxtəlif sosial qruplar arasında gedən kəskin rəqabətin (sosial və digər nemətlərə çıxış məqsədi ilə)...tənzimlənməsi üsulu kimi sosial bərabərsizlikdən istifadə olunur.[108] Seçim imkanlarının həyata keçirilməsi proseduru sözügedən bərabərsizliyin ən mühüm səciyyəsi kimi təzahür edir.

Qeyd edək ki, göstərilən problemlə bağlı dünya ölkələrinin heç birində "ideal" situasiya mövcud deyildir. Və, ümumiyyətlə industrial cəmiyyət tipinin sosial komponenti prinsipcə homogenləşə, eyniyyətə yaxud bərabərliyə gələ bilməz. Yəni, sosial bərabərsizliyin bu növü "təbii" xarakterlidir. Onun sıfır variantı ilə aradan qaldırılması imkanları son dərəcə məhduddur. Amma, onun da konkret nisbətləri mövcuddur: yəni, mümkün və böhranlı bərabərsizliklər heç də eyni məzmun daşımırlar. Böhranlı hala gəlindiyi təqdirdə makrososial sabitlik xaosla əvəz oluna bilər. Əsas təhlükə məhz burdadır.

P.Burdiye hesab edirdi ki, mental və iqtisadi, simvolik və maddi strukturlar bir-birindən "çin səddi" ilə aralanmayıblar, yəni bunlar arasında əsaslı bir fərq yoxur.[109] "Total sosial fakt" –

---

[108] Шкаратан О., Иванов И., Инясевский С. Анализ социально-экономического неравенства россиян//ОНС;№2005

[109] П.Бурдье. социальные структуры экономики. М;2002

hər şeyi, o cümlədən “iqtisadi faktı da” ehtiva edir. Bu anlamda iqtisadi olanın avtonomlaşdırılması, yekun olaraq iqtisadi müstəvinin sosial varlıqdan ayırır tipli təsbitlər yanlış təsbitlərdir. Yəni, iqtisadi varlıq – sosial varlığın üzvi bağlılıqda olan alt sistemindən başqa bir avtonomiyaya malik deyildir.

Bu gerçəklik heç də əksəriyyət tədqiqatçılar tərəfindən etiraf olunmur. Bizim yanaşmamızda yuxarıda qeyd edilən baxışlar tam şəkildə üst-üstə düşmür. Hesab edirik ki, Burdyenin ifadə tərzi, “total sosial fakt” anlayışı sosial sferanın mütləqləşdirilməsi anlamını daşıyır. Bu baxımdan onu iqtisadiyyatı “mütləqləşdirən” “imperialistlərin” antipodu yaxud “astar üzü” hesab etmək olar. Fikrimizcə, “total ictimai fakt” mövcuddur (ictimai həyatın bütün sferalarını əhatə edən) və həm sosial, həm də iqtisadi sfera həmin “fakt”ın bərabər gücdə olan altsistemləridir. Hər ikisinin avtonomiyası da mahiyyər yox, təzahür xarakterlidir. Yəni, üzvi bağlılıqda və üzvi vəhdətdədirlər. Və, yekun olaraq, qeyd edim ki, “total ictimai fakt” konkret insanölçülü faktdır.

Şəkildə əks etdirilən tipologiya sosio-iqtisadi prosesin bir məcmuluq halında olduğunu, eyni zamanda differensial müxtəlifliyin həqiqi məzmun daşıdığını ortalığa qoyur. Daha çox sosioloji anlam daşıyan sxematik təsvir həqiqətən də sosial və iqtisadi sferaların mahiyyətcə üzvi bağlılıqda olduğunu, cəmiyyət miqyasında iqtisadi hərəkətin sosial örtükdə baş verdiyini əyani şəkildə ortalığa qoyur. Digər tərəfdən, “xalis” sosial fəaliyyət heç də o anlama gəlmir ki, sosio-iqtisadi prosesin ikili məzmunundan biri olaraq inkişafla bağlılığı yoxdur. Sosial fəaliyyət – məzmunca sosiumun həyat fəaliyyəti deməkdir. Yəni, məcmu tələbatları ödəyəcək maddi-mənəvi və sosial nemətlərin geniş təkrar-istehsalı, sosio-iqtisadi inkişaf isə məqsədli və dəyər yönümlü yeniləşmə prosesi kimi təzahür edir. Bu mənada sosio-iqtisadi prosesin ikili məzmun daşıdığını mütləq formada anlamaq olmaz. Belə ki, sosial fəaliyyət – “nemətlərin geniş təkrar istehsalı prosesidir” və bu prosesdə, ələxüsus “geniş təkrar istehsaldan” söhbət gedirsə, inkişafa yönəlmə yaxud istiqamətlənmə məntiqi zərurətlə formalaşır. Yəni, istənilən halda və formada nələrsə dəyişir, təkmilləşir yaxud yeni modifikasiyada meydana çıxır ki, bu da məntiqi bağlılıqla sosio-iqtisadi inkiaşaf meyllərinin yaranması ilə nəticələnir. Bir sözlə, sosial fəaliyyət və iqtisadi fəaliyyət ayrı-ayrılıqda deyil, özünün bütün təzahür formalarında sosio-iqtisadi fəaliyyət kimi çıxış edir ki, bu da məqsədli yönlənmə xətti üzrə dəyər yeniləşməsinə yaxud yeni keyfiyyət səviyyəsinə, başqa sözlə inkişafa gətirib çıxarır. Beləliklə, sosio-iqtisadi proses – həmişə inkişaf yönümlü olur. Amma ... inkişaf (yekunda) baş verirmi sualına, təbiidir ki, birmənalı cavab vermək mümkün deyildir. Bunu yalnız nəticəyə istinadla təsbit etmək mümkündür.




*Şəkil 5.7. Sosio-iqtisadi prosesin tipologiyası.*

Məhz bu anlamda dayanıqlı inkişafın təminatı nöqteyi-nəzərindən sosial kapital önəmli əhəmiyyət kəsb edir. Düzdür, elmi fikirdə bu anlayış müxtəlif yönlərdən interpretasiya olunur. Metodoloji baxış bucağından əsas çıxış nöqtəsi ondan ibarətdir ki, nəinki dayanıqlı inkişafı, ümumiyyətlə istənilən nəticəni (cəmiyyət miqyasında) yalnız xərclərdən yaxud məsrəflərdən alınan effektlə ölçmək, qiymətləndirmək birtərəflilik səciyyəsi daşımaqla yalnış təsəvvürlərin formalaşmasına rəvac verir. Bu anlamda, sosial kapital – sırf iqtisadi fenomen deyildir.

Geniş yayılmış yanaşmaya görə, sosial kapital – davranışın qeyri-formal normaları kimi təzahür etməklə formal hüquqi institutları tamamlayır.[110] Yəni, sosial kapital – iqtisadi, siyasi, sosial, mənəvi, ideoloji, dini və s. vektorların kəsişdiyi nöqtədə formalaşan yaxud qarşılıqlı bağlılıqda təzahür edən dəyərlər məcmusunun üzvi vəhdətidir.

Bir sıra tədqiqatlarda sosial kapitalın komponentlərini sıralayırlar:




***Şəkil 5.8. Sosial kapitalın daxili komponentləri.***

*Mənbə: 1) M.Woolcock. Social capital and economic development: Theory and Society; 1998*

*2)J.Kitzen, W.Easterly, M.Woolcock. On "Good" Politicians and "Bad" Policies: Social consession, institutions and Growth. World Bank. 2000*

Sosial kapitaldan "gözlənilən" nəticə sosial əməkdaşlığın dayanıqlı inkişafıdır. Onun daxili komponentlərinin gerçək roluna sistemli şəkildə yanaşılarsa, onda sosial kapitalın nəinki inkişafın, eləcə də bütövlükdə sosio-iqtisadi sistemin dayanıqlığında əvəzedilməz rol oynadığını aydın şəkildə görmək olar. Əslində problemin bu aspektdə qoyuluşu çox sadə bir məntiqə söykənir.

Makrosabitlik → dayanıqlı inkişaf cütlüyünün fundamentində dayanan əsas şey sosial həmrəylik → sosial-ədalət → ictimai rifah üçlüyünün reallaşması prosesidir. Və, bu üçlükdə ilkin istinad nöqtəsi sosial həmrəyliyin formalaşmasıdır. Və, nəzərə alsaq ki, "sosial həmrəylik" – sırf dəyər tutumludur, qeyri-formal institutların bilavasitə aktiv "iştirak" etdiyi yaranışdır, onda və yalnız o halda makrososial sabitliyin, eləcə də inkişafın dayanıqlılığından, uzunömürlülüyündən danışmaq olar. Əslində sosial kapital – sosial həmrəylik və onun daha yetkin forması olan sosial əməkdaşlığın "məhsuludur". Həmçinin, qeyd olunmalıdır ki, insan inkişafı prosesində, insan kapitalının formalaşması və inkişafında sosial kapitalın adekvat səviyyəli mövcudluğu son dərəcə önəmli rol oynayır. Eyni zamanda, xüsusi vurğu ilə göstərmək olar ki, inkişaf etmiş sosial kapital insan kapitalının formalaşması və inkişafında fərdlərarası rəqabəti "birgə" fəaliyyətlə əvəzləmə iqtidarındadır. Və, nəhayət, sosial kapital ümumi olanı, xalqı, milləti, insan kapitalı isə individiumu, təkcəni təcəssüm etdirir. Göründüyü kimi birgə yaşayışın ədalətli və inkişaf yönümlü olması sosial kapitalın mövcudluğu ilə düzmütənasib bağlılıqdadır.[111]

S.Kuznes isə hesab edir ki, iqtisadi inkişafda – bir proses olmaq etibarı ilə - həlledici rol insan kapitalına məxsusdur. Məhz insan kapitalının yoxluğu, yaxud kifayətedici səviyyədə

[110] J.Coleman. Foundation of Social Theory. Cambridge;1990
[111] M.Woolcock. Social capital and economic development: Theory and Society; 1998

olmaması iqtisadiyyatın rəqabətqabiliyyətli texnoloji ukladını formalaşdırmağa imkan vermir. Bu deyim o qədər əsaslı və düzgündür ki, hər hansı bir şəhrə ehtiyac duymur.[112]

Hal-hazırda dünyanın inkişaf etmiş ölkələrində məcmu kapitalın strukturu kardinal şəkildə dəyişmişdir. Modern erasının başlanğıcından yanaşmaqla struktur dəyişikliyini açıq şəkildə müşahidə etmək olar:

I. XVI əsrdən XIX əsrin əvvəllərinə qədər olan dövrdə fiziki kapital (torpaq, təbii resurslar və s.) ön planda olmuşdur;

II. Sənaye inqilabından 1980-ci illərə qədər olan dövr: Maliyyə kapitalı həlledici yeri tuturdu;

III. 1980-ci illərdən bugünə qədər əsas yer insan kapitalına məxsusdur.

Bir xarakterik xüsusiyyət vardır ki, insan kapitalı əsasən postindustrial cəmiyyət tipinə sahib olan ölkələrdə inkişaf edir. Bu ölkələrdə, əvvəllər qeyd etdiyimiz kimi, iqtisadiyyatın strukturu da adekvat şəkildə dəyişmiş, xidmət sektoru böyük xüsusi çəki ilə ön plana çıxmış, informasiya cəmiyyətinin formalaşması prosesi demək olar ki, yekunlaşmışdır.

Insan inkişafı – sosio-iqtisadi inkişafın əsas məqsədi, məzmunu və nəticəsidir. Yəni, insan inkişafı – həm proses, həm nəticə, həm də məqsəddir. Aydındır ki, iqtisadi nəzəriyyənin "iqtisadi insan" anlayışından çıxış etməklə, sözügedən inkişafın mahiyyətini anlaşılan bir dildə şəhr etmək mümkün deyildir. Insan inkişafı anlayışına kompleks və sistemli şəkildə yanaşılmalıdır:

1) Insan inkişafı – həyat şəraitini formalaşdıran proseslərdə insanların aktiv iştirakı və nəticə olaraq həyat səviyyəsinin yüksəlişini özündə ehtiva edir. Yəni, insan – sosio-iqtisadi, siyasi, ideoloji və s. proseslər məcmusunun həm çıxış nöqtəsi, əsas hərəkət verici və tənzimləyici qüvvəsi, həm də sonu, nəticəsidir. Başqa sözlə, cəmiyyətin inkişafı prosesinin gerçək məzmunu və mahiyyətidir. Cəmiyyətdə mövcud olan bütün sistemlər, o cümlədən dövlət İNSANA xidmət etmək üçün yaradılmışlar. Bu aspektdən ənənəvi olaraq elmi leksikonda yer alan bir sıra konseptual baxışların, məsələn insan resursları, əsas tələbatlar və rifah nöqteyi-nəzərindən əlahiddə şəkildə aparılan araşdırmaların tədqiqata ən azı pərakəndəlik elementi gətirdiklərinə görə "köhnəlmiş" hesab edilməldirlər. İnsan inkişafı bu konsepsiyası aspektləri sıx qarşılıqlı bağlılıq və qarşılıqlı asılılıqda öyrənməyə daha əlverişli imkan yaradır.

2) Insan inkişafı – insan azadlıqlarının dönmədən genişləndirilməsi prosesidir. Bu anlamda həm pozitiv, həm də neqativ azadlıqlar nəzərdə tutulur. Ən mühüm olanı isə seçim azadlığının sərhədlərinin genişləndirilməsi, seçim imkanlarının real məzmunluğunun təminatıdır.

3) Və, nəhayət insan inkişafı – gerçək azadlıqlara istinadla sosial ədalətin qərarlaşması prosesidir.

Sadalananların reallaşdırılması, öz məzmunu etibarı ilə elə insan kapitalının təşəkkülü və inkişafının məhək daşı kimi çıxış edir.

---

[112] S.Kuznes. Economic development, the family and income distribution selected assays. Cambridge University Vrecs, 2002.




***Şəkil 5.9. Qlobal səviyyədə insan inkişafının əsas prinsip və əsas problemlərinin paradiqmal təsviri.***

*Mənbə: Доклад о человеческом развитии 2016. ООН. UNDP əsasında müəllif tərəfindən hazırlanmışdır.*

## §5.4. İqtisadi artım anlayışına sistemli yanaşma

Inkişaf kontekstində ən çox diqqət çəkən məqam iqtisadi artımla bağlıdır. Aydındır ki, iqtisadi inkişafın gerçəkləşmə mexanizminin əsas hərəkətverici amilləri sırasında iqtisadi artım mühüm yer tutur. Iqtisadi artım problematikası, əslində modern dövrünün törəməsidir. Bazar prinsipləri bazasında formalaşan industrial təsərrüfat tipi sabit-qədəmli və kompleks səciyyə daşıyan iqtisadi artımsız nəinki gələcək planda inkişaf edə, həmçinin mövcud ola bilməz. Zaman axıcılığının tərəqqi yönümlülüyü, başqa sözlə daima yaxud periodik olaraq yüksələn xəttli artım – industrial təsərrüfat tipinin əsas konseptləri arasında xüsusi yer tutur. Postindustrial təsərrüfat sistemində isə (iqtisadi artımla bağlı) dayanıqlıq və keyfiyyətlilik aspektləri ön plana çıxır. Daha konkret ifadə ilə desək, iqtisadi artımın necəliyi ilə cəmiyyətin təsərrüfat tipi arasında sıx məntiqi bağlılıq mövcuddur. Bu aspektdən iqtisadi artıma münasibətdə əksər dünya ölkələri üçün keçərli

ola biləcək “universal” müddəaların sayı kifayət qədər azdır. Yəni, iqtisadi artım – onun davamlılığı, dayanıqlılığı və keyfiyyət səviyyəsi, eləcə də digər aspektləri, həm konkret məzmunludur, həm də, bu və ya digər formada milli spesifika ilə funksional bağlılıqdır.

Iqtisadi fikir tarixinin konseptual ümumiləşdirilməsinə istinadla iqtisadi artım probleminə ikili yanaşmanın olduğu qənaətinə gəlinmişdir:

1) Təkrar istehsal yanaşması

2) Funksional – makroiqtisadi yanaşma

Müqayisəli təhlilin nəticələri göstərir ki, hər iki yanaşma sistemlilik keyfiyyətindən xali deyildir. Bununla belə, yanaşmalar arasında həm metodoloji, həm də praqmatik anlamda əsaslı fərqlər mövcuddur. Əsas fərq ondan ibarətdir ki, təkrar-istehsal yanaşması, birmənalı olaraq industrial təsərrüfat tipinə aiddir: Milli dövlətlərin öncüllüyü, geniş təkrar istehsal prosesinin ölkə çərçivəsində yaxud milli bütövlüyü, maddi istehsalatın primatlığı və s. ön planda tutulur. Eyni zamanda, bütövlükdə iqtisadi dinamikaya həm sistemli yanaşılır, həm də əsas diqqət mahiyyətə yönəldilir. Bir sözlə, təkrar-istehsal yanaşması – siyasi-iqtisadi prizmadan formalaşan yanaşmadır. Ikinci yanaşma isə (funksional-makroiqtisadi) əsasən funksional bağlılıqlardan çıxış etməklə iqtisadi dinamikaya, prosesə deyil, nəticəyə istiqamətlənir. Daha çox postindustrial təssərüfat tipi üçün xarakterik olan funksional yanaşma metodoloji aspektdən ziddiyətli məqamlarla kifayətqədər zəngindir.(Bax şəkil 5.10)

Müqayisəli təhlilin nəticələri göstərir ki, qeyd edilən formalı yanaşma üsulları yalnız o halda gözlənilən effekti verə bilər ki, hər ikisi birlikdə tətbiq olunsun. Yəni, nəzəri-metodoloji aspekt xaric, sırf praqmatik müstəvidə qeyd etdiyimiz birlik qaçılmazdır, əks təqdirdə iqtisadi reallığın adekvat təsvirindən tutmuş iqtisadi artımın gerçəkləşmə imkanları da daxil olmaqla effektiv nəticə gözləməyə dəyməz.

Bu amillər arasında son dərəcə mürəkkəb qarşılıqlı asılılıq və qarşılıqlı bağlılıq mövcuddur. O dərəcədə ki, qarşılıqlı təsirin nəticəsi olaraq prosesin hansı yönümdə gedəcəyinin bəri başdan verifikasiyasını aparmaq mümkün deyildir… Mümkünlülük bir sıra amillərin məna tutumunun birmənalılıq dərəcəsindən birbaşa funksional asılılıqda və səbəbiyyət bağlılığındadır:

1) Cəmiyyətin tipi – qərarlaşmış dəyərlər sistemi, yaxud yeni tipə keçid prosesinin hal-hazırda olduğu mərhələ;

2) İnstitutsional mühit – formal və qeyri-formal institutların keyfiyyət dəyişikliyi, yaxud yeni keyfiyyət halına keçid prosesinə adekvatlıq dərəcəsi;

3) Milli təsərrüfat sisteminin dünya iqtisadiyyatına açıqlıq (həm funksional, həm də institutsional aspektdən) dərəcəsi;

4) İqtisadi azadlığın qərarlaşma dərəcəsi və s.




***Şəkil 5.10. İqtisadi artıma yanaşma üsullarının müqayisəli qiymətləndirilməsi***

Göründüyü kimi təkrar-istehsal yanaşması – iqtisadi dinamikanın ön planda tutulmasına, və modern erasının təməl prinsiplərinə istinadla həyata keçirilir. Bu, əslində problemə siyasi iqtisad nöqteyi-nəzərindən olan baxışdır. Funksional - makro-iqtisadi yanaşmada isə əsas vurğu iqtisadi dinamikanın (bütövlükdə) üzərinə deyil, funksional bağlılıqların öncüllüyü üzərinə düşür. Yəni, aydın olduğu kimi söhbət neoklassik nəzəriyyənin “Ekonomiksindən” gedir. Axı, məlumdur ki, neoklassik nəzəriyyə üçün əsas olan şey – “indi” baş verəndir. Yəni, gələcək və bu anlamda dinamik proseslər bu nəzəriyyəni o qədər maraqlandırmırlar. Məhz buna görə də, yuxarıda da, qeyd etdiyimiz kimi, iqtisadi artıma yanaşmada (sırf metodoloji nöqteyi-nəzərdən) hər iki baxış eyni statusda istifadə olunmalı və bu yolla da bir-birini tamamlamalıdır. Əgər, nəzərə alsaq ki, funksional yanaşma daha çox postindustrial cəmiyyət tipi üçün yararlıdır, onda birinci yanaşmanın “ömürü” söhbət açdığımız “birgə”likdə davam edə bilər.




***Şəkil 5.11. İqtisadi artım amillərinin təsnifatı***

Təsnifat əlamətlərindən göründüyü kimi, iqtisadi artım çoxölçülü, müxtəlif məzmunlu və ictimai həyatın əksər sferalarında formalaşmış situasiyaların birmənalı olmayan təsirini özündə ehtiva edən mürəkkəb quruluşlu pozitiv hərəkətlilik kimi çıxış edir. Iqtisadi artımın inkişaf yönümlüyünün qiymətləndirilməsində yol verilən xətalar, birtərəflilik və yanılmaların da əsas mənbəyi məhz fenomenin mürəkkəb məzmunluluğundan doğur. Hətta o dərəcədə ki, “iqtisadi artım inkişaf yönümlüdür” tipli sualların meydana çıxmasına səbəb olur. Amma o da məlumdur ki, artım anlayışını – onun mənbəyinə, sferasına və s. nəzər salmadan konkret rəqəmlərlə ifadə etmək, yəni, sırf kəmiyyət göstəricisi üzərindən fərqli məzmunlu spekulyasiyalar aparmaq həm kifayətqədər asan və həm də daha “inandırıcı” görünür. Qısaca olaraq, qeyd edək ki, artım-qətiyyən “birölçülü” deyildir. Mürəkkəb mahiyyətə malikliyi, yalnız “mürəkkəblik” təyininə görə onun “çoxölçülü” göstərici olduğunu ortalığa qoyur.




*Şəkil 5.12. İqtisadi artımın tarixi tipləri: təkamül prosesi*

Digər tərəfdən, qeyd edilən metodoloji tələbə əməl edilmədiyi təqdirdə, yəni yanlış qiymətləndirmə apardıqda, onun (iqtisadi artımın) sonrakı mərhələdə necə olacağını heç bir halda dəqiq proqnozlaşdırmaq mümkün olmayacaqdır. Iqtisadi artım – tarixi kateqoriyadır. Bəşəriyyətin iqtisadi inkişaf tarixinin ayrı-ayrı mərhələlərində fərqli məzmun daşımış, eyni zamanda artımla bağlı əksər kateqoriyalar üzrə təsir yönümlülüyü fərqli şəkildə təzahür etmişdir. (şək.5.12.)

Təsərrüfat tiplərinin dəyişməsi xronologiyasına uyğun olaraq, iqtisadi artımın həm aparıcı sahələri, hərəkətverici qüvvələri və həm də əsas hədəfləri dəyişmişdir. Bu anlamda ənənəvi cəmiyyət tipi, modern və postmodern cəmiyyətlər arasında kardinal fərqlər mövcuddur. Bu o deməkdir ki, iqtisadi artım, eləcə də inkişaf prosesi tarixi dövr və sosial zamanların dəyişmə məntiqinə təm şəkildə adekvatlıq nümayiş etdirirlər. Yəni, hər dövrün, hər bir ayrıca götürülmüş cəmiyyət tipinin özünəxas olan inkişaf (iqtisadi artım) trayektoriyası mövcud olmuş və bu gün də qeyd edilən səbəbiyyət asılılığı bütün parametrləri ilə davam etməkdədir. Bu aspektdən iqtisadi artımın hərəkətverici qüvvələrinin dəyişmə prosesi xüsusi diqqət cəlb edir: Demoqrafiya (əhali) → ixtisaslaşma → texnika-texnologiya → innovasiya-bilik aspektində baş verən yeniləşmə ilk baxışdan sanki insanla başlayıb insanla yekunlaşan proses təsiri bağışlayır. Amma hər iki halda insana münasibət tam fərqli məzmun daşıyır. Birinci halda (ənənəvi cəmiyyət) insan sadəcə iqtisadi artım üçün enerji sərf eliyən amil formasında çıxış edirsə, ikinci halda (postindustrial cəmiyyət) insan iqtisadi artımın əsas hədəfi olaraq ön olana çəkilir. Yəni, iqtisadi artım insan varlığının yüksəlişinə yönəldilir.

İqtisadi artımın xarakteri ilə bağlı problematikanın xüsusi əhəmiyyət kəsb etməsi, keyfiyyət aspektləri baxımından qiymətləndirmənin zəruriliyi, müəyyən kriteriyalar əsasında onun (iqtisadi artımın) təsnifləşdirilməsini qaçılmaz edir. (şəkil 5.13)




*Şəkil 5.13. İqtisadi artımın təsnifat kriteriyaları*

İqtisadi artımın keyfiyyətliliyi probleminin araşdırılması yönümündə bir sıra yanaşma üsulları formalaşmışdır:

1) Struktur yanaşma: V.Kamayev[113] əminliklə göstərir ki, iqtisadi artımın keyfiyyətlilik dərəcəsi sosio-iqtisadi məkanda baş verən struktur yeniləşməsinin, yaxud təkmilləşməsinin məzmunu ilə müəyyən edilə, yaxud ölçülə bilər;

2) Məhsulun (son) keyfiyyəti və rəqabətqabiliyyətliliyi aspektindən yanaşma (V.Zubov və b.).[114] Nəticənin məhz deyilən aspektdə təzahürü iqtisadi artımın keyfiyyətliliyindən xəbər verir.

3) Resursların keyfiyyətliliyi aspektindən yanaşma (Y.Yaremenko):[115] ilkin başlanğıcın (istehsal prosesi prizmasından) həllediciliyi, birmənalı olaraq nəticənin adekvatlığını təmin etmək iqtidarındadır.

4) Sosial yanaşma (T.Kuznetsova və b.):[116] əsas hədəf prosesin sosial müstəvidəki proyeksiyasıdır. Artımın keyfiyyətliliyi sosial sferada mövcud olan situasiyanın keyfiyyətcə yaxşılaşma tezliyi əsasında qiymətləndirilməlidir.

Sadalanan yanaşmaların birtərəfliliyi adi gözlə müşahidə edilir. Keyfiyyətli iqtisadi artımın əsas komponentləri sırasına aşağıdakıları aid etmək olar (şəkil 5.14).




***Şəkil 5.14. Keyfiyyətli iqtisadi artımın əsas komponentləri***

---

[113] В.Д.Камаев. Экономическая теория. 2002. ВУЗ: СГЭУ

[114] В.М.Зубов. Качество экономического роста: (Теоретические и методологические аспекты статистической оценки). — Красноярск: Изд-во Краснояр. ун-та, 1991. — 138 с.

[115] Ю.В.Яременко. Об экономике. — М.: МАКС Пресс, 2015. — 272 с.

[116] М.П.Кузнецова. Экономика и социум» №4(23) 2016

“Keyfiyyətli iqtisadi artım - potensial ÜDM-in intensiv artımı və istehsal amillərinin keyfiyyətinin yüksəldilməsi əsasında faktiki ÜDM-in artımıdır”.[117]

Bizim fikrimizcə, keyfiyyətlilik fenomeninin qeyd edilən tərzdə interpretasiyasını vermək prosesin özündən çıxış edərək özünə qiymət vermək deməkdir. Ona görə ki, əvvəla, əgər söhbət milli iqtisadi inkişafın amilindən gedirsə, onda keyfiyyətlilik fenomeni yalnız iqtisadi məzmun daşıya bilməz. Milli iqtisadiyyat – sistemli yaranışdır və eyni zamanda daha böyük sistemin (milli varlığın) üzvi xarakter daşıyan alt-sistemlərindən biridir. Bu anlamda:

1) İqtisadi artımın keyfiyyətliliyi təkcə iqtisadi deyil, həm də sosio-mədəni sferada formalaşan münasibətlər kompleksinə mahiyyət uyğunluğu aspektindən adekvat olmalıdır;

2) Artımın keyfiyyətliliyi – onun sistemlilik dərəcəsi ilə müəyyənləşə bilər. Yəni bu halda, keyfiyyətlilik ictimai həyatın bütün sferalarında keyfiyyət dəyişikliyini dəstəkləyən, sözün müstəqim mənasında inkişafa keçidi təmin etmək gücündə olan əsas təkanverici qüvvə kimi çıxış etməlidir.

Hesab edirik ki, sadalananların gerçəkləşmədiyi bir şəraitdə iqtisadi artımın keyfiyyətindən danışmağın mənası yoxdur.

İkincisi, iqtisadi artımın keyfiyyəti bir çox tədqiqatlarda iqtisadi inkişafla eyniləşdirilir.

Aydındır ki, keyfiyyətli iqtisadi artım iqtisadi inkişafın həlledici amilidir, lakin onun özü deyildir.

İqtisadi artım modelləri (Kobb-Duqlas, R.Solou və s.) nəinki universal xarakterli deyildirlər, həm də konkret ölkə iqtisadiyyatının hansı tsiklin hansı fazasında olmasından birbaşa asılılıqdadırlar. Ələlxüsus, cəmiyyətin tip dəyişkənliyi prosesində bu qəbildən olan ölçü prosedurları əks-istiqamətli təsir də göstərə bilərlər. Belə ki, sözügedən modellər tam şəkildə qərarlaşmış industrial dəyərlər sisteminin sabitliyinə istinadla hansısa bir məna kəsb edirlər. Digər tərəfdən, daimi olaraq işçi qüvvəsinin artması immiqrasiya proseslərini doğurur və bu proses ölkədəki sosial-siyasi situasiyanı gərginləşdirə bilir. Eynilə kapitala olan tələbatın artması – iqtisadi artımı təmin etmək prizmasından – yekun etibarı ilə xarici borcun artımına səbəb olur. Və nəhayət, bu qəbildən olan modellər iqtisadi strukturun təkmilləşdirilməsi zəruriliyi, yeni texnologiyalardan istifadə etmə hesabına əmək və material resurslarına qənaət etmə vacibliyi kimi mühüm əhəmiyyət kəsb edən məsələlərə, ümumiyyətlə, «diqqət» yetirmirlər.

İqtisadi artım nəzəriyyələri gələcəyi nəzərə almadan, yalnız «indi»ki zaman intervalında tarazlığın, dayanıqlılığın, böhransızlığın axtarışını yalnız iqtisadiyyatda aparmış və hesab etmişlər ki, tarazlığın əldə edilməsinin əsas vasitəsi dövlət tərəfindən tənzimlənən bazardır.

Gələcəyə diqqət yetirməmək və iqtisadiyyatı «xalis» formada – ictimai həyatın digər sferalarından təcrid edilmiş şəkildə nəzərə almağın yanlış olduğunun sistemli tənqidi ilk dəfə C.Helbreyt tərəfindən həyata keçirilmişdir. O, haqlı olaraq qeyd edirdi ki, siyasi sferadan, sosial institutlar və mədəniyyətdən təcrid olunmuş iqtisadi nəzəriyyə – öz-özlüyündə yetərsizlik keyfiyyəti nümayiş etdirir. Və, buna görə də iqtisadi nəzəriyyə və sosiologiyanı birləşdirməklə daha böyük tutumlu nəzəriyyə – məsələn, «iqtisadi sistemin ümumi nəzəriyyəsi», yaxud «yüksək səviyyəli iqtisadi inkişaf» adında nəzəriyyə formalaşdırılmalıdır. Onun konseptual baxışlarının əsas müddəaları kimi aşağıdakılar çıxış edirdi:

– Müasir iqtisadiyyat – sosial institutlar, iri şirkətlər, həmkarlar ittifaqı və dövlətin həlledici təsiri altında fəaliyyət göstərir;

– Əsas təsərrüfat subyekti – iri şirkətdir; Və, məhz bu şirkətlər bazar qaydalarını diktə edirlər. Bu qaydalardan hər hansı bir asılılıqda deyildirlər (klassik yanaşmanın əksi).

---

[117] И.М.Теняков. Качество экономического роста как фактор национального развития \\ автореферат. М.; 2007, стр.13

– Ətraf mühitin effektiv mühafizəsi aydın şəkildə formalaşdırılmış ciddi hüquqi qaydaların tətbiqini tələb edir.[118]

Sırf metodoloji rakursdan artım və inkişaf anlayışlarına münasibətdə iki əsas yanaşma mövcuddur:

1) İqtisadi artım – sənaye sisteminin fəaliyyətinin, yəni getdikcə artan miqyasda müasir elmi biliklərə əsaslanan sənaye istehsalının nəticəsidir. Eyni zamanda, o, həm də də struktur dəyişiklikləri ehtiva edir (yeni sənaye sahələrinin yaranması cəmiyyəti dəyişikliklərə təhrik edir)[119].

2) Neoklassika (ekonomiks), əsasən, iqtisadi artım proseslərinə diqqət yetirir. İnkişafın dinamikasına isə adekvat nəzər yetirilmir. Nəticədə müasir iqtisadi problemlərin adekvat dərki və qiymətləndirilməsində yanlışlığa yol verilir. Və, yekun olaraq, yaranmaqda olan böhranlı situasiyalar cəmiyyət tərəfindən adekvat reaksiya ilə qarşılaşmırlar. Böhran – «qəflətən» baş verir.[120]




***Şəkil 5.15. İqtisadi artım və inkişaf anlayışları arasında spesifik fərqlər***

---

[118] Дж.Гелбрейт. Экономические теории и цели общества. М.; 1979, с.362. 1966

[119] S.Kuznets. Six Lectures on Economic Growth. 1966

[120] R.Brinkman. Economic growth versus Economic development: Towards a conceptual clariqication // Journal of Economic issues, Vol XXIX, № 4. December, 1995

İnkişaf – qanunauyğun dəyişmə prosesi, bir vəziyyətdən daha təkmil olan digər vəziyyətə keçiddir; köhnə keyfiyyət səviyyəsindən yenisinə, sadədən mürəkkəbə, ibtidaidən aliyə keçid prosesidir.[121]

Artım isə inkişaf prosesində orqanizmin, yaxud onun ayrı-ayrı orqanlarının böyüməsi, kəmiyyətcə və ölçülər baxımından çoxalmadır.

Müasir interpretasiyalarda iqtisadi artım – ölkədə makro-iqtisadi göstəricilərlə (ÜDM, MD, MMM) xarakterizə olunan məcmu istehsal və istehlakın miqyasca artımıdır.[122]

İqtisadi inkişaf – iqtisadi sistemin fəaliyyətinin konkret mərhələsində baş verən keyfiyyət dəyişiklikləri, sistemin təşkilinin, təsərrüfat və texnoloji ukladın elementləri arasında əlaqələrin mürəkkəbləşməsi, idarəetmə mexanizmləri, təsərrüfat subyektlərinin davranışı və s. ilə xarakterizə olunur.

İnkişaf – mürəkkəb quruluşla və mürəkkəb qarşılıqlı bağlılıqlarla xarakterizə olunur. Onun ölçü prosedurası da mürəkkəbdir. Göstəricilər çoxluğu, rəqəmlərlə ifadə oluna bilməyən dəyişikliklərin ziddiyyətli xarakterə malik olması, zaman amilinin mühüm əhəmiyyət kəsb etməsi, kəmiyyət→keyfiyyət çevrilmələrindəki assimetriklik və s. inkişafın bir proses kimi qiymətləndirilməsində problemli situasiya yaradırlar. Ona görə də inkişaf – bir qayda olaraq, nəticə aspektindən dəyərləndirilir (yəni, proses başa çatdıqdan sonra!). Beləliklə, hər iki anlayış arasında sıx qarşılıqlı bağlılıq mövcuddur. Bununla belə, konkret sərhədlər də olmamış deyildir. Belə ki, artım – dəyişikliyin kəmiyyət, inkişaf isə keyfiyyət xarakteristikasını özündə ehtiva edir.

Bir sıra araşdırmalarda qeyd olunur ki, artım və inkişaf hadisənin (prosesin) müxtəlif aspektlərini əks etdirirlər. Belə ki, artım sistemdə əhəmiyyətli dəyişikliklərin getmədiyi bir situasiyada kəmiyyətcə çoxalmanı özündə ehtiva edir və zamanca geridönəndir. İnkişaf isə ziddiyyətli dəyişiklikləri, sistemin təşkilinin dəyişməsini, bir sözlə, keyfiyyət dəyişikliklərini təcəssüm etdirir.[123]

İnkişaf – milli varlığın sistemli xarakter daşıyan keyfiyyətcə yeniləşməsi prosesi, yeni keyfiyyət mərhələsinə keçididir. Onun zamanca geridönümü, yaxud tənəzzülə uğraması mümkün deyildir.[124]

Həmçinin o da məlumdur ki, inkişaf düzxətli deyil, sıçrayışlar formasında baş verir. İnkişaf prosesi tsiklik xarakter daşıyır. Tsiklin müəyyən fazalarında həm kəmiyyət, həm də keyfiyyət dəyişiklikləri müşahidə edilə bilər. Eyni zamanda kəmiyyət→keyfiyyət çevrilmələri arasında da xətti bağlılıq yoxdur. Yaxud yeni keyfiyyət səviyyəsinə keçid müəyyən sayda sırf kəmiyyət çoxalmalarından sonra baş verir tipli məntiqi bağlılıq da mövcud deyildir. Bu mənada, birmənalı şəkildə təsbit etmək olar ki, məsələn, uzunmüddətli anklav xarakaterli artım keyfiyyətin (yeni keyfiyyətin) sistemli qərarlaşması prosesinə hər hansı bir təsir göstərmir. O yalnız (ən yaxşı halda) aid olduğu sahədə müəyyən keyfiyyət yeniləşməsinə şərait yarada bilər.

«İqtisadi inkişaf prosesi – öz-özünü dəstəkləyən, özünü doğuran, təkrar istehsal edən prosesdir» deyimində məntiqi ziddiyyət yoxdur. Lakin endogen mühit amillərinin təsiri altında baş verən inkişaf prosesini – özü-özünü yaradan proses kimi, ekzogen mühitin dominant olduğu hallarda isə «təşkil» olunan proses kimi səciyyələndirmək yanlışlıq olardı. Ona görə ki, əvvəla, müasir dövrdə ekzogen→endogen tipli bölünmə sırf şərti xarakter daşıyır. Qloballaşmanın müasir mərhələsində «endogen» deyilən və birmənalı qiymətləndirilməsi mümkün olmayan heç

---

[121] С.И.Ожегов; Н.Ю.Шведова. Толковый словарь русского языка. М., 1994

[122] А.Б.Борисов. Большой экономический словарь. М., 2001

[123] Т.П.Черкасова. Категориальлная определенность понятий «Экономического развитие» и «экономический рост» \\ Наука и образование. 2011, №6, с.25

[124] Ə.Bayramov. İqtisad elminin fəlsəfəsi: zaman, həqiqət və azadlıq. Bakı, 2016, səh.8

nə yoxdur. Digər tərəfdən, əvvəlki tsikldə ekzogen olan prosesin sonrakı gedişində endogenə çevrilir. Ekzogen→endogen çevrilmələrin intensivliyi o qədər yüksəkdir ki, onun bir sıra hallarda verifikasiyasını da aparmaq mümkün olmur; ikincisi, inkişaf – keyfiyyət xarakteristikasıdır (iqtisadiyyatın, yaxud bütövlükdə cəmiyyətin), onun spontan şəkildə yaranma ehtimalı sıfıra yaxındır. Kəmiyyət→keyfiyyət çevrilmələri «idarəolunan» prosesdir. Spontan xarakterli çevrilmələr prinsipcə, mümkün deyildir. İnkişaf zamanın funksiyasıdır və məqsədlə sıx determinoloji bağlılığı mövcuddur. Düzdür, iqtisadiyyatın – bir fəaliyyət sferası kimi öz-özlüyündə məqsədi olmur. Amma, bu sferada baş verən proseslərin (əsasən, əsas proseslərin) yaradıcı «mexanizmi» məhz məqsədlə, seçilmiş hədəflərlə determinasiya olunur.

## VI FƏSİL. MİLLİ İQTİSADİ İNKİŞAF ANLAYIŞI: DAYANIQLILIQ PROBLEMİ.

Dünya ölkələrinin təcrübəsi göstərir ki, inkişaf fenomeninin abstrakt anlayışlarla şərhi iqtisadi reallığın nəzəri dərki və iqtisadiyyatın perspektivləri ilə bağlı problemlərin aradan qaldırılması nöqteyi-nəzərindən hər hansı bir formada praqmatik əhəmiyyət daşımır. Qarşılıqlı asılılığın maksimum səviyyəyə çatmasına baxmayaraq, ölkələrarası fərqlər getdikcə dərinləşməkdədir. Dünya iqtisadiyyatının müasir arxitekturasına ötəri nəzər salmaq kifayətdir ki, inkişaf prosesinə münasibətdə hər hansı bir «ümumi» yaxud «vahid» trayektoriyanın olmadığını (əksər ölkələr üçün keçərli olan) əyani şəkildə görə biləsən. Əslində, qeyd edilən sferada bir pərakəndəlik mövcuddur. Ölkələrin konkret spesifikasından, özünəməxsusluğun təməl prinsiplərindən və hal-hazırda fəaliyyət göstərdiyi inkişaf mərhələsinin xarakterindən asılı olaraq inkişaf vektorları və trayektoriyaların ifrat müxtəlifliyi, ifrat çoxluğu ilə qarşılaşırıq. Qlobal iqtisadi reallığın təhlili göstərir ki, dünya ölkələrinin «vahid» inkişaf trayektoriyasına keçidi, həm nəzəri-metodoloji, həm də praktiki nöqteyi-nəzərdən imkansızdır.(hələki)

Həmçinin müxtəlif məqsəd və hədəflərə doğru irəliləyən ayrı-ayrı ölkələrin «vahid axara» salınması istəyinin hər hansı bir formada əsaslandırma tipi belə mövcud deyildir. Başqa ifadə ilə, inkişafın «vahid yolu»nun reallığını heç nəzəri təxəyyül də iddia edə bilməz.

Əvvəllərdə də göstərdiyimiz kimi, həm iqtisadiyyat, həm də onun varlıq forması olan iqtisadi hərəkətin əksər təzahür formaları, o cümlədən inkişaf, modern dövrün başlanğıcından bu günə qədər bütün tarixi dövrlərdə milli səciyyə daşımış, milli «yük»lü olmuş və hal-hazırda da həmin «yükü» (daha da mürəkkəbləşmiş bir formada) daşımaqda davam edir.

### §6.1. Milli iqtisadi inkişaf konsepsiyası.

Milli iqtisadi inkişaf – ümumiyyətlə, iqtisadi inkişafın müəyyən sərhədlər, spesifik məqsəd və hədəflərlə səciyyələnən aspektini özündə ehtiva edir. Belə ki, ümumiyyətlə, iqtisadi inkişaf abstraksiyası kosmopolit xarakterli olmaqla, bizim araşdırdığımız problem prizmasından hər hansı bir konkretliliyi özündə ehtiva etmir. Eyni zamanda yuxarıda da qeyd etdiyimiz kimi, məlumdur ki, əksər ölkələr üçün keçərli ola biləcək vahid inkişaf resepti yoxdur. «Vahidlik» adı altında formalaşdırılan nəzəri konstruksiya çılpaq abstraksiyadır. Həmçinin bir sıra hədəflər prizmasından da (məsələn, milli rəqabət qabiliyyətliliyi, milli dəyərlər sistemi və s.) hər hansı bir oxşarlıqdan danışmaq mümkün deyildir. Yuxarıda sadalananlar milli iqtisadi inkişaf və onun dayanıqlılığı probleminin, ümumiyyətlə, iqtisadi inkişaf anlayışından əhəmiyyətli dərəcədə fərqli məzmun daşıdığını ortalığa qoyur. Beləliklə, milli iqtisadi inkişaf – inkişaf prosesinin sadəcə olaraq ərazicə çərçivələnməsi deyil, dəyər tutumunun fərqli (ümumiyyətlə inkişafdan) məzmun

daşıdığı və cəmiyyətin bütün sferaları ilə sıx qarşılıqlı bağlılıqda formalaşan fenomenal kateqoriyadır. Əhatə dairəsinin, daxili strukturu və funksional bağlılıqlarının əyani şəkildə "görünməsinə" baxmayaraq, sözügedən kateqoriyanın məzmun və mahiyyətinin konkret formada və hamı tərəfindən qəbul olunmuş vahid interpretasiyası yoxdur. Hətta o dərəcədə ki, bəzi tədqiqatçılar inkişafın (tərəqqi anlamında) fiksiya olduğunu qeyd edirlər: «…Biz tərəqqiyə olan inamı itirmişik və hesab edirik ki, tərəqqi anlayışı yalançı anlayışdır. Bəşəriyyət heç də fasiləsiz olaraq kamilləşmir, əksinə, o azmaqdadır və hər bir epoxa hansısa inama söykənir, sonralar isə bu inamın yalan olduğu üzə çıxır.» [125] «Tərəqqi – XIX əsrdən miras qalmış ən zərərli yanılmalardan biridir.»[126]

Beləliklə, «Milli iqtisadi inkişaf nədir?» sualına verilən cavabların geniş polyarlığı mövcuddur.

Milli iqtisadi inkişaf:

- Tərəqqi, yaxud onun formalarından biri – təkamül prosesidir;
- İqtisadi artımla eyniyyətdədir;
- İqtisadiyyatda struktur dəyişiklikləri prosesidir (adambaşına gəlirin artması ilə əsaslanan);
- Təsərrüfat sistemi və institutların qarşılıqlı təsiri prosesidir;
- İqtisadi fəaliyyət mexanizminin təkmilləşdirilməsi prosesidir və s.

Bu yanaşmaların hər biri inkişaf prosesində müəyyən rol oynayırlar. Amma heç biri ayrılıqda götürülmüş formada inkişafla eyniləşdirilə bilməz.

Digər tərəfdən, inkişaf prosesində iqtisadiyyatın təkcə strukturu deyil, həm də sistemdaxili əlaqələr kompleksi, qarşılıqlı münasibətlərin xarakteri, eləcə də fəaliyyət mexanizmi dəyişir. Həmçinin struktur dəyişikliyi – inkişaf prosesinin nəticələrindən biri statusunda çıxış edir. Yəni inkişafın səbəbi yox, nəticəsidir. Eynilə də, inkişafla iqtisadiyyatın fəaliyyət mexanizminin eyniləşdirilməsi yolverilməzdir. Bunlar, sadəcə olaraq, müxtəlif anlayışlardır. Bir sıra tədqiqatlarda (N.Y.Petrakov, V.İ.Rotar) milli iqtisadi inkişafı məqsəd anlayışı ilə bağlayırlar. Yəni inkişaf – subyektiv amilin «idarə etdiyi» məqsədyönlü prosesdir və onun spontan qaydada gedişi, prinsipcə mümkün deyildir. Tamamilə haqlı hesab etdiyimiz yanaşmanın əleyhinə olanlar, belə bir təsbitdən çıxış edirlər ki, milli iqtisadiyyat – öz-özlüyündə məqsədli sistem deyildir. Başqa sözlə, məqsədi olmayan sistemin inkişafına məqsədli yanaşma yanlışdır. Milli iqtisadiyyat – spontan qaydada inkişaf prosesinə başlayır və onu (bizim istəyimizdən asılı olmayaraq) məntiqi sonluğa çatdırır.

Bu cür baxışlarla razılaşmaq mümkün deyildir. Milli iqtisadiyyat – milli ideyanın yaratdıqlarından biridir və təsərrüfat sisteminin necəliyindən asılı olmayaraq, həmin ideya ilə determinə olunan məqsədlərə xidmət edir. O, özü üçün «yaşayan» varlıq deyildir! Milli iqtisadi münasibətlər sistemində şüurlu elementin dominantlığı mövcuddur. Məqsəd – subyektiv amilin formalaşdırdığı, «gələcəyi» qurma yönümlü mental yaranışdır. Spontan qaydanın məqsədi ola bilməz və nəhayət, əgər tənqidçilərin fikri həqiqətdirsə, onda «milli» sözönündən istifadə etməyə, milli iqtisadi inkişafdan heç danışmağa dəyməz.

İnkişaf – yeni keyfiyyət səviyyəsinə keçiddir (proses olma etibarı ilə). Bu halda söhbətin nədən getdiyini yalnız prosesin subyektini müəyyənləşdirməklə anlamaq olar. Yəni nəyin, yaxud kimin yeni keyfiyyət mərhələsinə keçidindən söhbət gedir. Bu rakursdan iki subyekt ola bilər:

1) Anonim sosium;

---

[125] С.Л.Франк. Крушение кумиров // Сочинения, М; 1990. С.141

[126] Ю.Бохеньский. Сто суеверий. М; 1993; с.120

2) Milli sosium.

İnkişafın neoliberal modeli əsas vurğunu birincinin üzərinə qoyur. Bu cür baxışı heç ifrat ideallaşdırma da adlandırmaq mümkün deyildir. Anonim sosium – olmur! Bütün cəmiyyətlər – istisnasız olaraq – konkret milli dəyərlərlə «yük»lüdürlər. Əks halda, ümumiyyətlə, nə tərəqqi, nə də inkişaf baş verə bilməzdi. Ona görə ki anonimlik – konkret məqsədləri müəyyənləşdirə bilməzdi. Məqsədsiz – inkişaf yoxdur. Eyni zamanda, son 10 min il ərzində formalaşmış müxtəlif cəmiyyətlərin çox qısa bir zaman kəsiyində milli spesifikalarını itirəcəyi və anonimləşəcəyini iddia etmək heç bir elmi tənqidə davam gətirmir. Və, nəhayət, milli iqtisadiyyatın həqiqiliyinə şübhə edilmədiyi bir halda, onun inkişafının «anonim»liyinin mümkünsüz olduğu aşkardır.

Məlum təsbitlərdən biri ondan ibarətdir ki, milli təsərrüfatın inkişafı yalnız iqtisadi dildə ifadə oluna bilməz. Gerçək qiymətləndirmə nöqteyi-nəzərindən yararlı olan kriteriyaların çoxu iqtisadi nəzəriyyədən kənardadır. Eyni zamanda əhalinin və milli sərvətin artımı ilə müşahidə olunan yüksəlişə (iqtisadiyyatda) də inkişaf prosesi kimi yanaşmaq yanlış olardı. Ona görə ki, bu qəbildən olan artım öz-özlüyündə keyfiyyətcə yeni hesab edilə biləcək bir hadisəni yaratmır. Ən yaxşı halda, qarşılıqlı uyğunlaşma prosesinə təkan verir (sinergetiklərin adaptasiyası).

Beləliklə, aydın olur ki, iqtisadi hadisənin səbəbini onun yozumu (izahı) səbəbi kimi (əgər hadisənin mahiyyətini anlama imkanı verirsə) xarakterizə etmək lazımdır. Prinsipcə təsir və əks-təsir (hansısa amilə münasibətdə) arasında fərq qoyulur. Yekunda, iqtisadi inkişafın şərhetmə prinsipi müəyyənləşir. Və, bunun mahiyyətindən doğan nəticələri Y.Şumpeter «inkişafın təsiri» adlandırır. Bu müstəvidən kənarda olan, digər prinsiplərlə şərh edilən hadisələr, inkişafla bağlılıq dərəcəsindən asılı olmayaraq, «inkişafın əks təsiri» kimi səciyyələndirilir.

O, hesab edirdi ki, istənilən formalı konkret inkişaf prosesi, son nəticədə əvvəlki inkişafa söykənir. Amma həm də qeyd edir ki, inkişafın səbəbi əvvəlki inkişafın nəticəsi kimi xarakterizə olunmalıdır. Beləliklə, Y.Şumpeterin baxışlarında inkişaf = yeni kombinasiyaların həyata keçirilməsi eyniyyəti mövcuddur və bu anlayışın konseptual məzmunu aşağıdakıları özündə ehtiva edir:

1. İstehlakçıya məlum olmayan yeni nemətin, yaxud nemətin yeni keyfiyyət modifikasiyasının hazırlanması;
2. Yeniliyin tətbiqi: sənayenin müəyyən sahəsində praktiki olaraq mövcud olmayan yeni istehsal üsulunun (metodun) tətbiqi (bunun əsasında yeni elmi kəşfin dayanması məcburi deyil); yaxud yeni kommersiya üsulunun tətbiqi;
3. Yeni (əvvəllər olmayan) satış bazarına çıxış;
4. Xammal, yaxud yarımfabrikatların yeni mənbəyinin əldə olunması;
5. Müvafiq yenidən təşkilin həyata keçirilməsi: inhisarçı mövqenin təminatı (trest yaratmaqla), yaxud digər subyektin inhisarçı mövqeyini aradan qaldırmaq.

E.Toffler yazırdı: «…Tərəqqi – yalnız texnologiya, yaxud həyat səviyyəsinin maddi standartları ilə ifadə oluna bilməz… Sosial quruluş… ekoloji, əxlaqi-etik normalar… siyasət» mühüm rol oynayır.»[127] Milli iqtisadiyyat və onun inkişafı prosesi "xalis" iqtisadi anlam daşımır. Milli iqtisadiyyat milli sosio-iqtisadi sistem formasında fəaliyyət göstərir.

Sosial-iqtisadi sistem – özünün bütün təzahür formalarında mürəkkəb sistemlər sinfinə aiddir. Ənənəvi olaraq hesab edilir ki, sistemin dinamikası subyektiv amilin (qərar qəbul edənlərin) seçim və fəaliyyət prinsiplərindən səbəbiyyət asılılığındadır. Bu mənada (subyektiv amilin davranış tərzinin) gerçəkliyə adekvatlıq problemi mərkəzi problem statusu alır.

[127] Э.Тоффлер. Третья волна. М., с.474

Öngörmənin mümkünsüzlüyü fenomeni gerçəklik haqqında informasiyanın əhəmiyyətli dərəcədə qeyri-müəyyənliyindən doğur. Qeyri-müəyyənlik – hadisə və proseslərin gələcək inkişaf vektorunu dəqiq qiymətləndirməyə əngəl törətməklə, sosio-iqtisadi dinamikanın dayanıqlılıq keyfiyyətinə mənfi təsir göstərir.

Bu rakursdan ehtimallı-induktiv məntiqlə qurulan modellər, bir qayda olaraq, əsaslandırma tipinin qeyri-müəyyənliyi və yetərsizliyi, nəticələrin interpretasiyasında informativ tutumun kasadlığı ilə səciyyələnir və hətta alınan nəticələrin real proseslərə adekvatlığı problemi meydana çıxır.[128]

Bir sıra tədqiqatçılar tərəfindən mürəkkəb sosial-iqtisadi sistemlərin yeni fəaliyyət konsepsiyası hazırlanmışdır. Elmi fikirdə mərkəzi yer tutan yeni konsepsiyanın əsas məzmunu aşağıdakı müddəalara istinad edir:

1. Sistemin dinamikası əhəmiyyətli dərəcədə determinik xarakter kəsb edir. Başqa sözlə, determinləşmiş proseslər (müəyyən mənada) dominantdır.
2. Sistemin inkişafının - bir, yaxud bir neçə fərd tərəfindən açıq-aydın şəkildə formalaşdırılmış məqsədi yoxdur. Və, unikal proses sistemdaxili elementlərə və alt-sistemlərin qarşılıqlı təsiri (rəqabətli, kooperativ və s.) nəticəsində baş verir.
3. Sistemdaxili proseslər sinerqetik xarakterlidir və onun (sistemin) dayanıqlı tarazlığı (bu və ya digər göstəricilər üzrə) daha çox istisna hallarda baş verir.
4. Normal olaraq fəaliyyət göstərən sistem, hətta xarici təsirlərin olmadığı halda da, mürəkkəb davranış dinamikası ilə səciyyələnir. Yəni, bu kontekstdə sistemin optimal vəziyyətindən danışmaq mənasızdır. Söhbət, yalnız onun (sistemin) optimal davranış dinamikasından gedə bilər.
5. Sistemin davranış dinamikasının müxtəlifliyi, sözün mütləq mənasında, onun strukturunun mürəkkəbliyindən həmişə asılı olmur.

Milli iqtisadiyyat – məhz mürəkkəb sosio-iqtisadi sistem keyfiyyətində fəaliyyət göstərir. İnkişaf prosesi sürətləndikcə və milli sərhədlərdən kənara – geoiqtisadi məkana çıxış sistemli və kompleks xarakter aldıqca, sistemin mürəkkəbləşməsi və genişlənməsi baş verir. Təbiidir ki, bu təmayüllər inkişaf prosesinin dayanıqlılığına mənfi təsir göstərirlər.

Sistemlilik keyfiyyəti milli iqtisadi inkişafın sahə və sferalarının kumulyativ xarakterə malikliyini dəstəkləyən əsas amildir. Blok-sxemdən (bax: şək.6.1) də göründüyü kimi milli iqtisadi inkişaf – proses olmaq etibarı ilə sistemli bütövlük keyfiyyəti nümayiş etdirir. Əhatə dairəsi və sferaların məntiqi ardıcıllığına nəzər yetirmək kifayətdir ki, prosesin konkret məqsəd çərçivəsində getdiyini görə biləsən:

Milli rəqabətqabiliyyətlilik → sosio-iqtisadi münasibətlər sistemi – kreativ potensial → ekoloji tarazlıq! Neoliberalizmin spontan qaydası yalnız sosio-iqtisadi münasibətlər sistemində, hansısa bir formada funksional rol oynayır. Yəni onun (spontan qaydanın) milli iqtisadi inkişafa təsiri nə yönəldici, nə də tənzimləyici səciyyə daşımır. O, yalnız məqsədli şəkildə formalaşdırılmış konkret tənzimləmə (mikrosəviyyədə) sistemi çərçivəsində dəstəkçi rol oynayır. Onun «dəstəyi» də yalnız tənzimləmənin məntiqi çərçivəsində, yəni özü-özlüyündə deyil, gerçəkləşə bilir.

---

[128] В.М.Месковин, А.В.Журавка. Концептуальные проблемы социально-экономической динамики//Экономическая кибернетика. Донецк, 2003, № 1-2, с.4–7




*Şəkil 6.1. Milli iqtisadi inkişafın əsas sferaları*

Beləliklə, milli iqtisadi inkişafın reallaşması prosesi hansısa bir formada hissəvi səciyyə daşımır və zatən daşıması da mümkünsüz görünür. Sadalanan sferalar arasındakı struktur bərabərlik prinsipi ümumiləşdirici rol oynamaqla bütövlükdə cəmiyyətin yeni keyfiyyət mərhələsinə transferini gerçəkləşdirir. Və, bütün bunların reallaşdırılması prosesi ölkədə həyata keçirilən iqtisadi siyasətin effektivliyi və adekvatlıq dərəcəsindən birbaşa asılılıqdadır. Məhz bu anlamı rəhbər tutan tədqiqatçılar effektiv hökumət konsepsiyasının vazkeçilməz olduğunu əsaslandırmağa cəhd edirlər. Hətta, formal məntiq çərçivəsində yanaşdıqda da bu aspektin həyati zərurət halına gəldiyini qəbul etməmək mümkün deyildir. Kumulyativ xarakterli milli iqtisadi inkişaf - vahid mərkəzdən «idarəolunan» sistemli prosesdir. Belə ki, cəmiyyət miqyasında prosesin məqsədyönlülüyü birmənalı olaraq «vahid mərkəzin» mövcudluğunu tələb edir. Və, bu anlamda – «vahid mərkəz» milli hökumətin sinonimi kimi işlədilir.

Mühüm məsələlərdən biri milli iqtisadi inkişafın ölçülməsi problemidir.

Çox geniş yayılmış qənaətlərə görə, istənilən ölkənin iqtisadi inkişafının əsas göstəriciləri (universal səviyyəli) kimi aşağıdakılar xüsusi əhəmiyyət kəsb edir:

1) Məhsul və xidmət istehsalının uzunmüddətli dövr ərzində dayanıqlı artım;

2) Milli iqtisadiyyatda baş verən struktur dəyişikliklər onun ayrı-ayrı sahələrini deyil, bütövlükdə iqtisadi sistemi əhatə etməlidir;

3) İqtisadi artım – iqtisadi resurslardan istifadə effektivliyinin artımı ilə müşayiət olunmalıdır.[129]

Göründüyü kimi, ölçü proseduru prosesə şamil edilir və birmənalı olaraq sırf iqtisadi məzmun daşıyır. Təbii ki, bu qəbildən olan baxışlarla razılaşmaq mümkün deyildir. Belə ki:

1) Ölçü proseduru nəticəni yox, prosesin gedişini «ölçür»;

2) «Uzunmüddətli dövr» anlayışının rasional karkulyasiyası mövcud deyildir;

3) Resurslardan istifadə effektivliyi səbəb yox, nəticədir;

[129] И.В.Бойко. Основы инновационного развития и новой экономики. СПб. 2015, стр.10

4) Yanaşma hissəvi xarakter daşıyır.

Bizim fikrimizcə, inkişafın ölçülməsi, nəticədən çıxış etməklə ardıcıl surətdə növbələsən müxtəlif keyfiyyət səviyyələrinin müqayisəsi əsasında aparılmalıdır. Yalnız bu halda proses → nəticə eyniləşdirilməsindən yan qaçmaq olar. Keyfiyyət yüksəlişinin isə əsas istinad nöqtəsi – şəxsiyyətin hərtərəfli inkişafı prizmasından əlverişli situasiyanın formalaşdırılmasıdır. Yəni, təkcə iqtisadi olan deyil, həm də təhsil, səhiyyə, azadlıq, iş vaxtı (tədricən qısaldılması) və s. Digər sferalarda da adekvatlığın təminatı çox mühümdür.

Milli iqtisadi inkişafın amillər sistemi, sözün həqiqi mənasında sistemli xarakter daşımaqla, sıx qarşılıqlı təsir və qarşılıqlı asılılıqda olmaqla son dərəcə mürəkkəb məzmunlu konfiqurasiyada ortalığa çıxır. Qruplaşmış formada sözügedən amilləri aşağıdakı ardıcıllıqla sıralamaq olar:

1) Keyfiyyətli iqtisadi artım;

2) Sosio-mədəni mühit;

3) İnstitutsional mühit;

4) Adekvat iqtisadi siyasət;

5) Təbii-ekoloji və qlobal iqtisadi inkişaf təmayülləri, yaxud geoekoiqtisadi mühit.

Əksər tədqiqatlarda keyfiyyətli iqtisadi artım əsas, yerdə qalanlar dəstəkləyici amillər kimi səciyyələndirilir. Əlbəttə, iqtisadi artım – xüsusi əhəmiyyət kəsb edən amildir. Lakin həlledici deyildir. Artım - məntiqi zərurətlə digər sferaları inkişaf prosesinə qoşur tipli neoklassik baxış bu günün reallığı prizmasından qəbul edilə bilməz. Postindustrial təsərrüfat tipinə keçidlə insan amilinin ön plana çıxması yuxarıda sadalananlar arasında hansısa bir iyerarxiyanın (nə əsas, nə törəmədir formasında) qurulmasını mənasız edir. O anlamda yox ki, iqtisadi-texniki məsələlər arxa plana keçir. O anlamdaki, iqtisadi yaxud sosio-iqtisadi amillərin öncüllüyü sosio-mədəni «süzgəcdən» keçməklə gercəkləşə bilir. Yəni, milli iqtisadi inkişafın amillər sistemi, məhz sistem halındadır və bu keyfiyyət statusunu nəzərə almadan tamqiymətli inkişafa nail olmaq mümkünsüzdür. Digər tərədən, milli iqtisadi inkişaf həm proses, həm də nəticə kimi dəyərləndirilməlidir. Proses olaraq, inkişaf həmişə tarazlıqdan, bütün sahə və sferalara münasibətdə assimmetriklikdən, yaxud anklav xarakterlilikdən xali deyildir. Yəni, inkişaf – həmişə natarazlıq doğuran bir proses halındadır. Sırf iqtisadi-texniki məsələlər, bir qayda olaraq, adekvat iqtisadi siyasətin mövcudluğu halında ilkin olaraq həll edilir, yaxud inkişaf yönümlü keyfiyyət dəyişikliklərinə məruz qalırlar.

Sosio-mədəni sferada isə keyfiyyət dəyişiklikləri daha çox zaman resursları tələb edir. Bu aspekt milli iqtisadi inkişafın sistemliliyinə mənfi təsir göstərməklə (sosio-iqtisadi situasiyanın keyfiyyətcə yeniləşməsinə baxmayaraq) kəskin disporporsiyalar yaradır. Bir sıra hallarda isə «yerində saymaq» effektinin sərhədlərindən kənara çıxma imkanlarını aradan qaldırır. Və, nəticədə inkişaf deyil, yalnız keyfiyyətli iqtisadi artım baş verir ki, onun da geriyə qayıdışı tamamilə real məzmun kəsb edir. Deməli, milli iqtisadi inkişaf – cəmiyyətin sosio-iqtisadi və sosio-mədəni tiplərinin dəyərcə adekvatlığından doğan bir hadisədir. Yəni, istənilən situasiyada ictimai fəaliyyət sferaları arasındakı struktur bərabərlik (izomorfluq) prinsipindən kənara çıxa bilməz.

Milli iqtisadi inkişaf – spontan şəkildə baş verə bilməz. Bu prosesin həm başlanğıcı, gedişi, həm də hədəflənən nəticələrlə yekunlaşması subyektiv amilin dominantlığı şəraitində gerçəkləşir.

Qeyd edilən nöqteyi-nəzərdən hökumətin yeritdiyi iqtisadi siyasət mühüm əhəmiyyət kəsb edir. İqtisadi siyasət – keyfiyyətli iqtisadi artımın dəstəklənməsi və keyfiyyətli institutsional dəyişikliklərə yönəlməklə inkişafın rəvan gedişinə böyük təsir göstərir. Amma iqtisadi siyasət –

öz-özlüyündə cəmiyyətin sosio-mədəni tipində adekvat dəyişikliklər yaratmaq gücündə deyildir. Yaxud iqtisadi siyasət «xalis» formada deyil, sosial yüklü ünsürlərə təsir etmə gücündə olan sosio-iqtisadi siyasət mahiyyəti daşıyarsa, yuxarıda qeyd etdiyimiz assimmetriklik daha qısa müddət ərzində aradan qalxa bilər.

Beləliklə, əvvəllərdə də qeyd etdiyimiz kimi, milli iqtisadiyyatların konkret məzmunlu spesifikası ilə inkişaf vektorunun seçilməsi arasında səbəbiyyət bağlılığı mövcuddur. Effektiv hökumət konsepsiyası da məhz bu aspektdən dəyərləndirilir: seçilən yolla (yaxud hədəflənən məqsədlə) sərəncamda olan potensial arasında uyğunluğun təsbiti! İnkişafın müxtəlif mərhələlərində olan milli iqtisadiyyatların seçim variantları məhz bu prizmadan müəyyənləşir. Bununla belə, sözügedən çoxluğu ümumiləşdirmə nöqteyi-nəzərindən qruplaşdırmaq mümkündür. Düzdür, istinad etdiyimiz qruplaşdırma kifayət qədər bəsit səciyyə daşıyır. Qruplaşdırmanın əsasında yalnız bir kriteriya dayanır: Neoliberalizmin «eyniləşdirmə» istəyinə münasibət.

Ölkənin inkişaf vektorunun seçimində iki yanaşma mövcuddur:[130]

1) Qloballaşma: inkişaf yolu və hədəflər əksər ölkələr üçün eynidir;

2) Sivilizasiyalı baxış: müxtəlif ölkələrin inkişaf trayektoriyası və məqsədləri müxtəlifdir.

Bir sıra tədqiqatlarda qeyd olunur ki, qloballaşma prosesi qlobal səviyyədə inkişafın «…sinxronlaşdırılması və unifikasiyası» prosesidir.[131] Hesab edirik ki, yanaşma tərzi həm nəzəri, həm də praqmatik nöqteyi-nəzərdən müasir iqtisadi gerçəkliyin daxili məntiqinə ziddir. Ona görə ki, əvvəla, belə bir fakt mövcud deyildir; ikincisi, dünya ölkələri arasındakı kəskin fərqlilik, onların hamısı üçün yetərli ola biləcək «vahid» yanaşmanın nə vaxtsa formalaşacağına olan inamı bəri başdan aradan qaldırır; üçüncüsü, neoliberal modelli qloballaşma inkişafın deyil, iqtisadi hərəkətin prinsip və təmayüllərini unifikasiya etməyə cəhd göstərir. Başqa sözlə, inkişafa aparan yolun «eyniliyini» sübut etməyə çalışır. Və, aydındır ki, «yolun» eyniliyindən «məqsədin» eyniliyinə keçid bir an məsələsidir.

Bir proses olmaq etibarı ilə qloballaşma – sosial «örtüklü» iqtisadi hərəkətin digər sferalarda proyeksiyasının doğurduğu yaranışdır. İdeoloji aspekti bir kənara qoyarsaq, onda görməmək mümkün deyildir ki, sözügedən proses – faydalılıq funksiyasının miqyas genişlənməsi, özünəxas qanunauyğunluqlar, prinsiplər və hədəflərlə ümumplanetar səviyyədə qərarlaşması prosesidir: faydanın qloballaşması prosesidir. Bu aspektin öncüllüyündən çıxış edənlər qloballaşmada iqtisadi aspektin həllediciliyini ön plana çəkirlər. Hesab edirlər ki, digər sferalarda gedən qloballaşma prosesi bu aspektin törəməsindən başqa bir şey deyildir. Beynəlxalq səviyyədə iqtisadiyyatın dominantlığı, əvvəlki dövrdən (milli dövlətlər çərçivəsində) heç də az deyildir.[132]

K.Sokolovun haqlı olaraq qeyd etdiyi kimi: «… İqtisadiyyat – bütün dövrlər və xalqlar üçün nəzərdə tutulan hansısa bir universal texnologiya deyildir… O, mədəniyyətin spesifik fenomenidir.”[133]

Bizim fikrimizcə, qeyd etdiklərimiz (fayda fenomeni ilə bağlı) qloballaşma prosesində iqtisadi alt-sistemin aparıcı rol oynadığını, dominantlılığını, lakin həlledici olmadığını ortalığa qoyur.

---

[130] Э.Рустамов. Принципы эволюционной модернизации переходных экономик//Вопросы экономики. № 6; 2009, с.85
[131] Е.П.Качуровский. Современная мировая экономика. Минск, 2012, стр.43
[132] С.И.Долгов. Проблемы глобализации. Полемика продолжается. Шок глобализации//Внешнеэкономический бюллетень. М., 2002, с.4-15
[133] К.Б.Соколов. Глобализация: История, современность и искусство. М., 2012, стр.115

Eyni zamanda, nəzərə alsaq ki, prosesdaxili müstəvidə iqtisadi hərəkətin digər sferalara proyeksiyası heç də biristiqamətli xarakter daşımır: Digər sferalar da iqtisadi hərəkətə güclü əks-təsir göstərirlər. Hətta o dərəcədə ki, müəyyən mərhələdə onun sürətinin ifrat dərəcədə yavaşımasına, ətalətlə əvəz olunmasına, yaxud «dayanmasına», fərqli konseptual məzmun kəsb etməsinə səbəb ola bilərlər. Məsələn, sosio-iqtisadi və sosio-mədəni sferalar arasında dəyişikliyə münasibətdə proporsionallıq heç vaxt olmur. Sosio-mədəni sferanın yeni keyfiyyət mərhələsinə keçidi birölçülü məntiqlə baş vermir. Yəni, yalnız iqtisadi dəyişikliklərin sözügedən sferada adekvat dəyişikliklər yaratma imkanları ifrat dərəcədə məhduddur. Digər tərəfdən, milli iqtisadiyyatın qloballaşma prosesinə effektiv qoşulma imkanları adekvat institutsional dəyişikliklərin aparılmasını tələb edir. Həm də, bu qəbildən olan dəyişikliklər qloballaşma prosesində əldə edilən müsbət effektlərin nəticə olaraq deyil, həmin effektlərin əldə olunması üçün aparılır. Eyni zamanda, adekvat institutsilonal dəyişikliklər təkcə iqtisadi sferada deyil, bütün cəmiyyət miqyasında, ictimai həyatın bütün sferalarında yer alır. Bu anlamda, birmənalı olaraq, qeyd etmək olar ki, institutsional dəyişikliklərin aparılmadığı bir situasiyada, qloballaşma yönümlü iqtisadi hərəkətin tezlik dərəcəsindən asılı olmayaraq, hədəflənən nəticəni əldə etmək mümkün olmayacaqdır.

Əgər nəzərə alsaq ki, faydanın qloballaşması – onun transmilli təkrar istehsal tsikllərinin «əlinə keçməsi» deməkdir, onda milli iqtisadi inkişafın dayanıqlılığı probleminin də «qloballaşdığını», onun həllində milli «çərçivənin» yetərsiz olduğunu qəbul etmək zərurəti ilə üzləşəcəyik.

Kəmiyyət və keyfiyyət aspektləri ilə birlikdə məcmu fayda (iqtisadi, sosial, siyasi, ekoloji və s.) və onun zaman etibarı ilə proporsional bölgüsü, mahiyyətcə elə inkişafın dayanıqlılığı deməkdir.

İqtisadi, siyasi, sosial və digər sferalarda müşahidə edilən qeyri-xəttilik sosiumun alt-sistemlərinin getdikcə artan qarşılıqlı bağlılığından doğur və qloballaşmanın məntiqi nəticəsi kimi çıxış edir. Qlobal səviyyədə dayanıqsızlığın güclənməsi prosesi, A.Tolstouxova görə:[134]

1) Kapitalın miqrasiyasının sürətlənməsi;
2) Texniki tərəqqinin güclənməsi;
3) Yalnış qərarların nəticəsi olaraq neqativ proseslərin miqyasca genişlənməsinin sistemli təsiri altında baş verir.

Bununla belə, problemin dərin qatlarında yerləşən və mürəkkəb sistemlərə xas olan statistik asılılıq: mürəkkəb sistemin parametrlərinin qarşılıqlı bağlılıq dərəcəsi ilə, həmin sistemin dayanıqsızlıq dərəcəsi arasındakı korrelyasiya əlaqəsi həlledici əhəmiyyət kəsb edir. Mürəkkəb sistemlər nəzəriyyəsinə görə, sistemin parametrlərinin qarşılıqlı təsir dərəcəsinin yüksəlməsi onun dayanıqsızlığının (sistemin) kəskin formada artmasına gətirib çıxarır.

## §6.2. Dayanıqlı inkişafın model identifikasiyası.

İnkişafın dayanıqlılığı problemi – həyati əhəmiyyət kəsb edən problemlər sırasında ön yerlərin birini tutur. Eyni zamanda, sözügedən problemin birdəfəlik həll üsülları mövcud deyildir. Başqa sözlə, problem – iqtisadi inkişaf prosesinin ayrılmaz atributu olaraq, son dərəcə mürəkkəb quruluşa malikdir. Hər şeydən əvvəl, qeyd etmək lazımdır ki, "dayanıqlı inkişaf" ifadəsi (Azərbaycanda bir çox hallarda "davamlı" ifadəsi işlədilir. Bəzən isə hər iki ifadə eyni

---

[134] Л.В.Толстоухов. Глобальный социальный контекст и контуры эко-будущего//Вопросы философии; 2003, стр.53

ardıcıllıqla istifadə olunur) xarici dildən tərcümə olunmuş ifadədir. Lakin, xarici dildə (ingilis, fransız, alman) bu ifadənin mənatutumu daha geniş anlamı əhatə edir.

Məsələn, ingilis dilində "sustainable" ifadəsi – həm dayanıqlı, həm də həyatqabiliyyətli, ekoloji cəhətdən rasional, gələcək tələbatları təmin edən anlamını, "development" isə təkcə inkişafı deyil, həmçinin artımı, təkmilləşməni, təkamülü, istehsalı və s. özündə ehtiva edir.

Eyni situasiya digər xarici dillərdə də (alman, fransız) yer almaqdadır. Ifadənin Azərbaycan dilinə tərcüməsi ifrat dərəcədə dar çərçivəyə salınmışdır. Hətta, o dərəcədə ki, bəzi məqamlarda sözügedən ifadə tərzində məntiqi ziddiyətin olduğu təsəvvürü yaranır. Həqiqətən də, "dayanıqlıq" – tarazlıq mənasında anlaşılır, amma "inkişaf" – proses olmaq etibarı ilə "tarazlıqdan" çıxış – natarazlıq deməkdir.

Amma, ifadə tərzinin yetərsizliyi anlayışın ziddiyyətliliyi anlamında başa düşülməməlidir. Belə ki, hələ 40 il bundan qabaq ekoloqlar "dayanıqlılığın" bütövlükdə iqtisadiyyata aid edilməsini, yəni "iqtisadiyyatın dayanıqlı vəziyyəti" (ekoloji sistemlərlə tarazlıqda olması) kimi dərk edilməsini tövsiyyə etmişlər. Bu ideya sonrakı dövrlərdə daha çox populyarlaşmağa başlamış, ekosistemin dayanıqlı inkişafı, ekoinkişaf yönümlü konkret yanaşmalar ortalığa qoyulmişdur.

«Dayanıqlı inkişaf» anlayışının ilkin definisiyası Brundland komissiyası (1987-ci il) tərəfindən verilmişdir: «Dayanıqlı inkişaf – gələcək nəsillərin öz tələbatlarını ödəmə qabiliyyətini təhlükə altına qoymadan cari tələbatları (indiki zamanda) ödəyən inkişafdır.»[135] Yəni, dayanıqlı inkişaf iki əsas anlayış üzərində formalaşır: Tələbat anlayışı və məhdudiyyətlər anlayışı.

Dayanıqlı inkişaf konsepsiyasının təkamül prosesini 3 mərhələyə ayırmaq olar:[136]

1. Başlanğıc mərhələ (1968 – 1971): elmin ekologiyalaşdırılması; "Roma klubu";
2. Siyasi mərhələ (1972-1992): konsepsiyanın populyarlaşması, beynəlxalq səviyyəli institutların qarşılıqlı təsirinin formalaşdırılması;
3. Sosial-iqtisadi problemlər mərhələsi (1992-ci ildən bugünə qədər): konsepsiya BMT, siyasətçilər və elmi ictimaiyyət tərəfindən qəbul edilir və bir növ ehkam səciyyəsi daşımağa başlayır. Məhz bu mərhələdə konsepsiyanın ideologiyası, yönümlüyü, vəzifə və məqsədləri tam şəkildə formalaşdırılır.

Növbəti illərdə "dayanıqlı inkişaf" konsepsiyası yeni redaksiyada verilir: ikilik (iqtisadiyyat, ekologiya) üçlüklə (iqtisadiyyat, sosial sfera – ekologiya) əvəz olunur.

1970-ci illərin əvvəllərində baş vermiş böhran ekoloji situasiya ilə bağlı böyük problemlərin olduğunu üzə çıxardı. Problemin insanların həyat keyfiyyətinə və rifahına əhəmiyyətli dərəcədə təsir etdiyi empirik araşdırmalarla sübuta yetirildi. Belə ki, məhz həmin dövrdə "dayanıqlı iqtisadi rifah indeksi"ni hesablayan tədqiqatçıların (Q.Deyli, C.Kobb)[137] aldığı nəticələrə görə İngiltərədə 40 il (1950–1990) ərzində adambaşına düşən ÜDM-in 230% artmasına baxmayaraq, adambaşına «dayanıqlı iqtisadi rifah» cəmi 3% yüksəlmişdir.

Dayanıqlı inkişaf konsepsiyası son 200 ildəki təkamül prosesinin məntiqi yekunu kimi formalaşmış ənənəvi iqtisadi inkişaf anlayışını kardinal şəkildə dəyişmişdir. Üç əsas prinsip – maksimum gəlir, maksimum istehlak və maksimum hakimiyyət (iqtisadi gücə sahiblənmə nöqteyi-nəzərindən) gələcək tələbatlarının ödənilməsi zəruriliyi ilə əvəz olunmuşdur. Bu

---

[135] Наше общее будущее. Даклад Международной комиссии по окружающей среде и развитию. М., 1989, с.50
[136] К.Белоусов. Современный этап эволюции концепции устойчивого развития и формирование парадигмы корпоративной устойчивости//Проблемы современной экономики. №1(45).2013
[137] Groning Pains? An index of Sustainable Economic Welfare for the United Kinqdom, 1950-1990 – The New Economics Foundation, p.1

aspektin önəmliliyi o qədər yüksəlmişdir ki, "dayanıqlı vəziyyətin iqtisadiyyatı" tipli konseptual baxışlar meydana çıxmış, sabit, tarazlı iqtisadiyyat artan, yüksələn iqtisadiyyatdan daha mühüm hesab edilməyə başlamışdır.[138]

Tədqiqatçıların bir qrupu dayanıqlı inkişafın ikili məzmuna (həm statik, həm də dinamik aspektdən) malik olduğu qənaətindədirlər:

1) Baş verən dəyişikliklər prosesinə adaptasiya olunma;
2) Tarazlığın qorunub saxlanması.

Tarazlıqla bağlı əvvəllər qeyd etmişik. Dinamikada olan iqtisadi sistem bir qayda olaraq, natarazdır. Tarazlıq – natarazlığın ani dəyişməsidir. «Ani» – çox qısa zaman intervalı deməkdir. Yəni tarazlıq – çılpaq abstraktisiyadan başqa bir məna daşımır. Sırf nəzəri «yaranışdır». Digər tərəfdən, adaptasiya – dayanıqlılığın mahiyyət açıqlanması kimi çıxış edə bilməz. Ona görə ki, dayanıqlı inkişaf – məqsədyönlü şəkildə hərəkət yolunu seçmiş inkişafdır. Bu mənada, iqtisadi prosesin gedişində meydana çıxan dəyişikliklər məhz dayanıqlılığın, dayanıqlı inkişafa keçidin doğurduğu dəyişikliklərdir: dayanıqlılığın təminatına yönələn və elə onun özünün (dayanıqlılığın) doğurduqlarıdır. Adaptasiya prosesi dayanıqlılığın qərarlaşması prosesidir… İndi belə alınır ki, dayanıqlılığın mahiyyəti həmin mahiyyətdən çıxış etməklə şərh olunur.

«Dayanıqlı iqtisadi inkişaf» anlayışının konseptual məzmununun interpretasiya müxtəlifliyi kifayət qədər çoxsaylı və genişdir:

– Gələcək nəsillərə münasibətdə ətraf mühitin potensialını azaltmayan industrial inkişafdır;

– Təbii resursların konservasiyasına istinadla ekoloji nöqteyi-nəzərdən korrekt yolla iqtisadi artıma (əlavə xüsusən inkişaf etməkdə olan ölkələrdə) nail olma cəhdidir.

– Gələcək nəsillərin tələbatının ödənilməsi imkanlarına zərər vermədən cari tələbatları təmin edən inkişafdır.[139]

Bəzi araşdırmalarda dayanıqlı inkişafın faktorlu modellərini fərqləndirirlər.[140]

1) Ənənəvi yanaşma: 3 amilli model – iqtisadi, sosial və ekoloji! Dayanıqlı inkişaf – əldə olunan harmoniyanın dəyişməz olaraq qalmasını (saxlanmasını) deyil, dəyişiklik prosesində cari və gələcək tələbatların ödənilməsi imkanlarını özündə ehtiva edir.

2) Dördamilli model: cəmiyyət, ətraf mühit, elm və texnika, iqtisadiyyat.

3) Beşamilli model: cəmiyyət, ətraf mühit, elm və texnika, iqtisadiyyat, institutlar;

Hal-hazırda, dayanıqlı inkişafın 50-dən çox tərifi var.[141] Eyni zamanda, tərif yaradıcılığı prosesi hələki, davam etməkdədir. A.Ursul haqlı olaraq göstərir ki: "...Təriflərin say artımı hələ davam edəcəkdir. Ona görə ki, prinsipcə qeyri-müəyyən və çoxvariantlı olan gələcək inkişafın dərk edilməsi prosesi davam etməkdədir." [142] Əksər yanaşmalarda ekoloji komponent dominantdır. Yəni,ictimai rifahın artımı = ekoloji effektivliyin artımı eyniyyəti əsas istinad nöqtəsi kimi götürülür. Amma, digər aspekt - ədalətlilik yalnız son zamanlarda aktuallaşdırılmışdır. Nəsillərarası, nəsildaxili və ekoloji ədalətlilik mahiyyətcə, ideala yaxın bir məna kəsb etməkdədir.

Dayanıqlı inkişafın ekoloji problemlərə cavab reaksiyası kimi ilkin müzakirəsi (beynəlxalq miqyasda) 1972-ci ilə təsadüf edir. Məhz həmin ildə Roma klubunun «Artımın

---

[138] A.V.Peter. Managing without Growth. Slower by Design, not Disaster. 2008
[139] Й.Шумпетер. Теория экономического развития. М., «Эксмо», 2007
[140] А.С.Васильева. Пятифакторная модель устойчивости социально-экономического развития//Креативная экономика. Т.6, №4, 2012, с.3–9
[141] М.Игнатьева. Сущность понятия «Устойчивое развитие»//Изв.вузов. Горный журна. №2. 2014, с.21
[142] А.Д.Урсул. Концептуальные проблемы устойчивого развития//Бюллетень РАН.2005.№1.с.30

sərhədləri» adlı məruzəsində belə bir təsbit ortalığa qoyuldu ki sənaye istehsalının artım templərinin olduğu kimi saxlanılması XX əsrin sonunda bəşəriyyəti məhv olmaq təhlükəsi ilə üz-üzə qoyacaqdır.[143]

Elə həmin ildə BMT-nin ətraf mühitə həsr edilmiş konfransında, ilk dəfə olaraq, «ekoiqtisadiyyat» anlayışı ön plana çıxarıldı. 1987-ci ildə dərc edilmiş «Bizim ümumi gələcəyimiz» adlı məruzədə «dayanıqlılıq», «dayanıqlı inkişafın» qacımazlığı əsaslandırılmışdır. Ekoloji problemin digərləri ilə – sosial, iqtisadi, siyasi və texniki – qarşılıqlı əlaqədə həll edilməsinin zəruriliyi ortalığa qoyuldu.[144]

L.Kolduell yazırdı ki: "...Ekoloji böhran ağıl və ruhi böhranın xarici təzahür formasıdır...Sual belə qoyulmalıdır: biz özümüzdə nəyi dəyişməliyik ki, yaşaya bilək?"[145]

Bu qəbildən olan yanaşmalar kifayət qədərdir.

- Siz planetin mühafizəsini müasir dövrün ən mühüm vəzifəsi hesab edrsiniz...Mən razı deyiləm. Həqiqətdə əsas olan çey – insanın maddi deqradasiyadan xilas edilməsidir.
- Ekoloji problem, hər şeydən əvvəl maddi yox, ruhi-mənəvi problemdir. Və, onun nüvəsində ətraf mühit deyil, insanın özü dayanıb"[146]

V.Stepin fikrincə texnogen sivilizasiyanın doğurduğu və bəşəriyyətin mövcudluğunu şübhə altına salan çoxsaylı qlobal problemlərin sırasında aşağıdakılar daha önəmli yer tutur:[147]

1) Kütləvi qırğın silahlarının fasiləsiz təkmilləşdirildiyi şəraitdə sağ qalmaq problemi;
2) Ekoloji böhranın qlobal miqyas alması;
3) Müasir antropoloji-böhran: yəni – insan böhranı."

Ümumiyyətlə, tədqiqatçıların böyük əksəriyyəti inkişafla bağlı böhranı, bəşəriyyətin bu günü və gələcəyi yönümündə yaranan böyük əndişələri ekoloji sfera ilə deyil, insanın özü ilə bağlayırlar. Bir sözlə, ekoloji böhran – dəyərlərin böhranıdır, insan varlığının "əsaslarının" böhranıdır, mənəvi-əxlaqi səciyyə daşıyan böhrandır.

BMT-nin analoji mövzuda keçirdiyi növbəti konfransda (1992, Rio de-Janeyro) iqtisadiyyat və ekologiyanın üzvi vəhdətdə olduğu qeyd edilmiş və bəşəriyyətin – «tərəqqi – məhdudiyyətsiz artımdır»[148] təsbitindən uzaqlaşaraq yeni inkişaf modelinin tətbiqinə keçid üzrə ümumi razılığa gəlinmişdir. 2002-ci ildə keçirilən dünya sammitində əsas məqsəd dayanıqlı inkişafın maliyyələşdirilməsi mənbələrinin axtarışına həsr edilmişdir.[149]

Ümumiyyətlə, sistemlər nəzəriyyəsinin əsas anlayışlarından olan «dayanıqlıq» – sistemin strukturu, davranışı və xarici (ətraf) aləmlə qarşılıqlı təsirinin optimallığını özündə ehtiva edən inteqral göstəricidir. Geniş spektrdən dayanıqlı inkişaf prosesini – ümumbəşəri sivilizasiyanın mövcudluq və inkişaf tipi kimi yozmaq olar. Bu qəbildən olan interpretasiyalarda, söhbət təkcə təbii-resurs potensialının rasional idarəedilməsindən deyil, bütün sosio-iqtisadi və sosio-mədəni sferalarda (mədəniyyət, ideologiya, dövlət institutları və s.) sistemli keyfiyyət dəyişikliklərindən gedir. (şək.6.2.)

Dayanıqlı inkişafın nəzəri metodoloji bazası hələ tam şəkildə formalaşmamışdır.

---

[143] Л.И.Бернасовская, А.Д.Викторов и др. Системный подход к прогнозированию устойчивого развития региона. М., 2010
[144] Х.Боссель. Показатели устойчивогоразвития: Теория, методика и т.д. Тюмень, 2001
[145] А.Евдокимов. Биосфера и кризис цивилизации. М;2008
[146] А.Осипов. Путь разума в поисках истины. М;2010;с.430
[147] В.Степин. Теоритеческое знание. М.1999, с.30-31
[148] Социально-экономический потенциал устойчивого развития. Учебник /под ред. Л.Мельника, Л.Хенса
[149] С.Н.Бобылев. Устойчивое развитие: методология и методика измерения. М., 2011

Bugün yalnız iki nəzəri yanaşma mövcuddur:[150]

1) Antropomərkəzçi yanaşma: inkişafın elementi insandır və proses onun idarəetməsi altındadır;

2) Biosfermərkəzçi yanaşma: insan bioloji varlıq kimi biosferanın vəziyyətindən asılıdır və onun qanunlarına tabe olur.

Əksər tədqiqatlarda ümumqəbul edilmiş baxışa görə, dayanıqlılıq – daxili və xarici mühitdə baş verən dəyişikliklərə və yaranan qeyri-müəyyənliyə münasibətdə sistemin ilkin vəziyyətinin qorunub saxlanması qabiliyyətidir. Sosio-iqtisadi sistemə münasibətdə bu cür müəyyənləşmə qəbul edilə bilməz. Bu qəbildən olan sistemlərdə əsas problemin ilkin situasiyanın qorunması deyil (həm mənasızdır, həm də prinsipcə mümkünsüz), inkişaf trayektoriyasının rəvan gedişinə nail olma istəyidir.

Digər tərəfdən, sosial-iqtisadi sistem həmişə - inkişaf, yaxud tənəzzül və ya durğunluq halında da dinamik səciyyə daşıyır. Bu mənada ilkin vəziyyətin sabit qalması, yaxud deyək ki, iqtisadi tarazlığın əbədiliyi mümkünsüz bir şeydir. İqtisadi proses – ayrı-ayrı zaman intervalında keçici və dəyişkən xarakterli sabitlik doğurur. Başqa sözlə, sabitlik – sosio-iqtisadi sistemin keyfiyyət xarakteristikasının xassələrindən biri kimi deyil, dayanıqlılığın zahiri görünüşlü törəməsi statusunu daşıyır.

Dayanıqlılıq fenomenini neoklassik yanaşma, məlum olduğu kimi, kamil rəqabət şəraitində bazar tarazlığına nail olma anlamında şərh edir. yəni inkişafın deyil, iqtisadi prosesin dayanıqlılığı araşdırılır və dayanıqlılıq tarazlıq prizmasından xarakterizə olunur. Aydındır ki, dayanıqlılıq = tarazlıq eyniyyəti yoxdur. Mahiyyətcə, fiksiya olan tarazlıq da, sabitlik kimi, dayanıqlılığın zahiri görünüşlü törəməsidir. Bu anlayışın geniş yayılmasının fikrimizcə, əsas səbəbi onun «görünən» hala gələ bilməsi, kəmiyyətcə qiymətləndirilməsinin mümkünlüyüdür. Amma inkişaf, həqiqətən, dayanıqlıdırmı? sualına yalnız proses başa çatdıqdan, yəni inkişaf-sistemli şəkildə qərarlaşdıqdan sonra cavab vermək mümkündür. Həm də, onun (dayanıqlılığın) zaman modusları arasında müqayisəsindən qeyri hər hansı bir ölçü proseduru yoxdur.

Təşkilat nəzəriyyəsində isə dayanıqlılıq yeni aspektlərlə «yüklənir»: kəmiyyət və strukturca dayanıqlılıq fərqləndirilir, müxtəlif səviyyəli sistemlərin dayanıqlılığı arasında nisbətin müəyyənləşdirilməsinə cəhd göstərilir. Qeyd olunur ki, sosio-iqtisadi sistemin dayanıqlılığı, onun elementlərinin deyil, həmin elementlər arasında formalaşmış əlaqələrin dayanıqlılığıdır. Yəni dayanıqlılıq – bir proses olma etibarı ilə tənzimlənə, idarə oluna bilər.[151]

---

[150] Н.Пустохина, В.Валиев. Концепция устойчивого развития: основные положения// ИЗВ. Уралского горного университета.№2(38); 2015

[151] А.А.Богданов. Тектология. Всеобщая организационная наука. М., Финансы, 2003




***Şəkil 6.2. Dayanıqlı inkişaf konsepsiyasının tərkib elementləri.***

Problemə neoinstitutsional baxışa görə dayanıqlı inkişaf – gələcəkdə meydana çıxacaq qeyri-müəyyənliyin əhatə dairəsini azaltmaq məqsədi ilə sosio-iqtisadi sistemin elementləri arasındakı qarşılıqlı təsirin dayanıqlılığının təmin edilməsidir. İnstitutlar iqtisadi artımın dayanıqlılığının əsaslarını formalaşdırırlar, buna görə də institutsional mühit ilkin başlanğıcdan sistemin dayanıqlı inkişafının təminatına yönəlmişdir.[152] Beləliklə, hesab edilir ki, iqtisadi institutların dayanıqlılığı problemin mərkəzi məsələsidir. Yəni o, bir tərəfdən sosio-iqtisadi

---

[152] В.Мау. Экономическая политика 2007 года: успехи и риски// Вопросы экономики. №2, 2008

dinamikanı, digər tərəfdən isə dayanıqlı inkişafın əsas amili və sistem yaradan elementi keyfiyyətində çıxış edir. İqtisadiyyatın diversifikasiya dərəcəsinin yüksəkliyi və iqtisadi məkanın (ölkə daxilində) böyüklüyü iqtisadi sistemin dayanıqlılığı nöqteyi-nəzərindən mühüm rol oynayırlar. Lakin qeyd edilən yönümlü müsbət təsir müəyyən bir həddə qədər davam edə bilir. Yəni, təsir zamanca sərhədlidir. İnkişafın, yaxud iqtisadi artımın müəyyən mərhələsində sözügedən amillər iqtisadiyyatda «qapalılıq» effekti doğurmağa, dayanıqlılığın məzmun dəyişikliyinə (durğunluğun «dayanıqlılığı») səbəb olurlar.

Daha konkret və anlaşıqlı formada dayanıqlı inkişaf anlayışını ətraf mühit (təbiət) → sosio-iqtisadi effektivlik → ictimai rifah üçlüyünün vəhdəti kimi səciyyələndirmək olar. Yəni, ekoloji potensial yaxud imkanlar çərçivəsində rasional və ədalətli yaşayışın təminatı. Vurğu birmənalı olaraq həm ekoloji, həm də sosio-iqtisadi dayanıqlılığın üzərinə düşür. Ümumbəşəri səylərlə ekoloji tarazlığı qorumaq mümkündür. Bunun üçün, sadəcə olaraq təbii resurslardan rasional istifadə və tullantıların ləğv edilməsi kifayətdir. Lakin, həm ölkə daxilində, həm də ölkələrarası münasibətlərdə sosio-iqtisadi bərabərsizliyin meydana çıxardığı problemlər kompleksinin dağıdıcı təsirini aradan qaldırmaq, israfçılığı (istehlakda) dayandırmaq və iqtisadi imkanlar çərçivəsində yaşayışın təminatına, ədalətli yaşam standartlarının formalaşdırılmasına necə nail olmaq olar sualına konkret cavab vermək prinsipcə mümkünsüz görünür. Əlbəttə, ideallaşdırma metodundan yaralanmaqla hansısa bir formada məntiqi-nəzəri konstruksiya qurmaq olar. Və, bəşər tarixində qədim dövrlərdən utopistlərə və kommunistlərə qədər belə yanaşmalar mövcud olmuşdur. Lakin, bu qəbildən olan baxışların heç biri praktiki anlamda özünə yer ala bilməmişdir. Mahiyyət aspektindən yanaşdıqda, anlamamaq mümkün deyildir ki, insan üçün, onun rifahı və səadəti üçün həyata keçirilməsi zəruri olan dayanıqlı inkişafın başlıca maneəsi elə insanın özüdür.




***Şəkil 1. Həyatın dayanıqlı inkişafının struktur elementləri.***

Digər tərəfdən, əksər iqtisadi varlıqları əhatə edən çoxsaylı fluktuasiya prosesləri inkişafa münasibətdə «yeganə» amil yaxud “yeganə” mənbə axtarışını mənasızlaşdırır. Təsir gücündən asılı olmayaraq “yeganə” amillə inkişafı anlamaq mümkün deyildir.

«Dayanıqlı iqtisadi artımın» iqtisadi artımdan fərqli cəhətləri kimi aşağıdakıları önə çıxarırlar:

1. Artımın davamlılığı, yəni uzun müddət ərzində baş verməsi;
2. Artıma məqsəd kimi deyil, iqtisadi inkişafın strateji hədəflərinə çatma imkanı kimi baxılmalıdır;
3. Artımın fasiləsizliyi.

Məlumdur ki, iqtisadi proses tsiklik xarakter daşıyır. Bu mənada, aydın olmur ki, uzunmüddətlilik və fasiləsizlik hansı anlamda dərk edilməlidir. Fiziki zaman sərhədləri (bir ay, 1 il, 5 il, 10 il, və s.) hansı zaman kəsiyini ehtiva etməlidir?

Aydındır ki, iqtisadi inkişaf – dalğavarı xarakterlidir, sonludur, diskretdir. Tsikldə faza dəyişkənliyi təbii olaraq, uzunmüddətliliyin fiziki zaman ölçülərini mənasızlaşdırır. Bu rakursdan qeyd edilməlidir ki, dayanıqlılıq aspektindən uzunmüddətlilik yalnız tsiklin konkret fazasında deyil, bütövlükdə artım prosesinin dayanıqlı inkişafın strateji vektoruna adekvatlığı nöqteyi-nəzərindən qiymətləndirilməlidir. Yalnız bu halda iqtisadi artım dayanıqlılıq nümayiş etdirə bilər. Yəni, iqtisadi artımın "dayanıqlılığı" müstəqil bir kateqoriya olaraq dəyərləndirilməməlidir. O, yalnız inkişaf müstəvisində aydın konturları olan iqtisadi hərəkət kimi təcəssüm olunur. Qeyd etdiyimiz uyğunluq yeni yaranışlara, yeni keyfiyyət statusuna keçid prosesinin daxili məntiqinə uyğunluq deməkdir.

Bağlılıq o qədər güclü və üzvi xarakterlidir ki, bir çox hallarda dayanıqlı iqtisadi atımla dayanıqlı iqtisadi inkişaf anlayışları sinonim kimi işlədilir.

Əlbəttə, artımın kəmiyyət ölçülər mühüm əhəmiyyət kəsb edir. Amma… kəmiyyətcə artım keyfiyyət yenilənməsinə yönəlməyibsə, onda ümumiyyətlə, hər hansı bir dayanıqlıqdan bəhs etməyin mənası olmayacaqdır.

Məlumdur ki, iqtisadiyyatda və ümumiyyətlə, sosio-iqtisadi həyatda həm hadisələrə, həm də sistemin özünə baxış xolist paradiqma çərçivəsində həyata keçirilir. Həm hadisə, həm də sistem – bütövlük, tamlıq anlayışlarının prizmasından qəbul edilir. Bu halda hər bir obyekt sistemlilik keyfiyyətinə sahiblənir. Yaranmış vəziyyət (situasiya) prosesə qarşı qoyulmur, situasiya - tarazlıq anlamında dinamik məzmun kəsb edir. Prosessuallıq – universal xarakteristika statusuna yiyələnir. Eyni zamanda, nəzərə alınmalıdır ki sosio-iqtisadi sistemin tərkib ünsürləri də sistem keyfiyyətində çıxış edirlər. Tamlığı, bütövlüyü yaradan da məhz həmin sistemlər çoxluğunun qarşılıqlı asılılıq və qarşılıqlı bağlılığıdır.

Bu aspektdən inkişafın dayanıqlılığı problemi sözügedən sistemlər çoxluğunun davranış tərzi ilə bahəm, mühitin məzmun tutumunun necəliyi ilə sıx bağlılıqda olur. Belə ki, hər hansı bir sistemə tam kimi baxılarsa, onda həmin sistemin fəaliyyətdə olduğu mühit mütləq formada diqqət mərkəzinə gətirilməlidir. Mühit – inkiişaf etmək qabiliyyətinə malik olan determinləşmiş məcmuluqdur. Mühit – potensial olaraq proseslərin müxtəlif formalı lokallaşmasını özündə ehtiva edir. Mühit –sözün müəyyən anlamında hansısa bir şəkildə vahid başlanğıc kimi çıxış etməklə, müxtəlif formalı gələcək yaranışların daşıyıcısı, inkişaf yollarının birmənalı olmayan sahəsi rolunu oynayır. Müasir sosio-iqtisadi gerçəkliyin daxili məntiqindən çıxış etdikdə isə məlum olur ki, mühit – müxtəlif «gələcəklər»dən hansının dominant mövqeyə keçəcəyini bəri başdan müəyyənləşdirmək imkanı verir.

Dayanıqlı inkişaf konsepsiyasının spesifik xüsusiyyətlərindən biri prosesin müxtəlif mərhələlərində digər inkişaf tiplərini (tərəqqi, tsiklik, dalğavari, neytral və s.) özündə ehtiva etmək iqtidarında olmasıdır. Bu xüsusiyyət konkret zaman-məkan kontiumu çərçivəsində sistemin tarazlığını təmin edir. Və, vaxtaşırı problemlər doğuran birölçülü – iqtisadi mərkəzçi yanaşmadan sığortalanmaq imkanı yaradır.

Dayanıqlılığa münasibətdə "təhlükəsizlik" fenomeninin qabardılması, bir tərəfdən, o anlama gəlir ki, ayrı-ayrı sferaların (sosial, iqtisadi, ekoloji, texnoloji və s.) təhlükəsizliyini təmin etmədən yaxud həmin sferalarda hərəkəti "normativ təhlükəsizlik" trayektoriyasına keçirmədən qlobal dayanıqlılığın sistemliliyinə nail olmaq olmaz. Digər tərəfdən, təhlükəsziliyin təmini hələ o anlama gəlmir ki, inkişaf dayanıqlı olacaqdır. Başqa sözlə, təhlükəsiz situasiyada baş verən inkişaf sosio-iqtisadi və sosiomədəni sistemlərdə, yəni bütövlükdə cəmiyyət miqyasında yeni keyfiyyət dəyişikliklərinə səbəb olmursa, onda o, nəinki dayanıqlı, heç ümumiyyətlə inkişaf deyil, ən yaxşı halda iqtisadi artımdır. Buna görə də, strateji inkişaf konsepsiyası dayanıqlıq və təhlükəsizliyi ayrı-ayrı elementlər, ayrı-ayrı məqsədlər kimi deyil, üzvi bağlılıqda, vəhdətdə ehtiva etməlidir. Prosesin yekunu aspektindən bu birləşmə ilə bağlı elə bir "qaranlıq" məqam qalmır. Təhlükəszilik – dayanıqlılığın "məhsulu", həm də əsas şərtidir. Yəni, dayanıqlılıq – sistem təhlükəsizliyi doğuran və ona istinadla gerçəkləşən strategiyadır.




***Şəkil 6.3. İnkişaf və təhlükəsizlik ikiliyinin üzvi vəhdəti.***

Dayanıqlı inkişaf – təhlükəsiz inkişaf tipidir. "Təhlükə" adı altında əksər tədqiqatçılar ekoloji situasiyanın, ekosistemin "təsərrüfat tutumunu" qeyd edirlər. Lakin, "təhlükənin" yarana biləcəyi və ekoloji problemlərdən heç də az təhlükəli olmayan sosial sfera vardır. Bəşəriyyətin kiçik qismi – "qızıl milyard" – israfçılığın tüğyan etdiyi istehlakçı cəmiyyətdə yaşadığı halda, böyük qismi ən elementar tələbatlarını belə ödəməkdə çətinlik çəkirlər. Qlobal səviyyədə artıq formalaşmış "ədalətsizliyin" sərhədləri durmadan genişlənməkdədir... Qlobal dayanıqlılıq – sosial ədalətliliyin qərarlaşdığı zaman – məkan kontiumu çərçivəsində gerçəkləşə bilər.

Eyni zamanda, altını cızmaqla qeyd etmək lazımdır ki, dayanıqlı inkişaf – ayrıca götürülmüş bir ölkənin, bir milli iqtisadiyyatın öhdəsindən gələ biləcəyi bir strategiya deyildir. Qlobal situasiyanın dayanıqlılığına nail olmadan bu istiqamətdə real effekt əldə oluna bilməz. Bunun üçün ilkin olaraq qlobal səviyyədə sosio-təbii – iqtisadi proseslərin hüquqi tənzimlənməsi, hüquqi çərçivəsi (normalar, məhdudiyyət sistemi və s.) qurulmalı və əksər ölkələr tərəfindən bu qaydalara riayət edilməlidir. Əlbəttə, müasir dövrün spesifikası aspektində söylənənlər utopiya kimi səciyyələnir. Məhz həmin "utopiyanın" reallığa çevrilməsi nöqteyi-nəzərindən qlobal inteqrativ bağlılıqların formalaşması obyektiv zərurətə çevrilir.

Bütün təfərrüata varmadan da istehlakın sonsuzluğunu məhdudlaşdıran, konkret sərhədləri olan çərçivəyə salan əsas amilləri aşağıdakı ardıcıllıqla sıralaya bilərik:

1. Iqtisadi inkişafın hüdudluluğu, tsiklik xarakter daşıması; Artım və tənəzzül dövrlərinin növbələşməsi istehlakın fasiləsiz olaraq yüksələn xəttlə artımını məhdudlaşdırır;
2. Innovativ – texnoloji və informasiya sferalarındakı yüksəlişin təbii sərhədlərinin mövcudluğu;
3. Təbii resurslaırn tükənməsi;
4. Modernləşmə və qloballaşma proselərinin dünya ölkələrinin 2/3-dən çoxunu əhatə etməsi;

5. Individual istehlakın zaman məhdudiyyəti;

6. Qlobal ekoloji situasiyanın pisləşməsi.

Müasir dövrdə sadalanan məhdudiyyətlərin təsir gücü o qədər də güclü hiss edilmir. Lakin, yaxın 20-30 il ərzində sadalananların qarşılıqlı bağlılıqda "hərəkətə" keçəcəyi və neqativ aspektli multiplikativ effekt doğuracağı hər cür şübhədən uzaqdır. Məsələn, artıq bu gün enerjidaşıyıcılarının satış qiyməti ilə Qlobal Məcmu Məhsulun artımı arasında konkret tərsmütənasib asılılıq formalaşmışdır. Belə ki, BVF-nun apardığı araşdırmalara görə neftin bir barrelinin satış qiymətinin 10 dol. yüksəlməsi QMM-u il ərzində 0,5% aşağı salır.[153]

Iqtisadi sistemin, əksər sistemlərə xas olan emergentliyi müasir qloballaşma prosesinin təsiri altında qlobal miqyasda təzahür etməklə daha geniş miqyaslı multiplikativ effekt doğurur. Və, bu effekt – situasiyanın məzmunundan asılı olaraq həm mənfi, həm də müsbət səciyyə daşıya bilər.

Əlbəttə, dünya iqtisadiyyatında mövcud olan müsbət yönümlü təmayülləri (innovativ-texnoloji yeniləşmə, məhsuldarlığın artımı və s.) inkar etmək olmaz. Amma, narahatçılıq doğuran əsas məqam ondan ibarətdir ki, müsbət yönümlü təmayüllər yuxarıda sadaladığımız məhdudiyyətləri aradan qaldırmır. Əksinə, həmin məhdudiyyətlərin çərçivəsində dünya iqtisadiyyatının permanent böhranlar silsiləsinə doğru hərəkətini daha da sürətləndirir.

Bir sıra tədqiqatlarda (A.Sen və s.) problemdən çıxış yolu kimi faydalılıq funksiyasının ön plana çıxarılmasının zəruriliyindən bəhs edilir.[154] Başqa sözlə, istehlak sferasında kəmiyyət çoxalması öz yerini keyfiyyətə verir. Amma, qeyd edilən keçidə praktiki müstəvidə necə nail olunmalıdır sualı cavabsız buraxılır. Ümumiyyətlə, ideya təqdirəlayiqdir. Lakin, qlobal miqyasda rəqabət mübarizəsinin (keyfiyyət səviyyəsinin həlledici rol oynadığı) ifrat formada kəskinləşdiyi bir dövrdə keyfiyyətə keçidin əksər ölkələr arasında "bərabər" bölgüsünə nail olmaq, prinsipcə mümkünsüzdür. Bu, yalnız o halda baş verə bilər ki, əksər dünya ölkələri arasında inteqrativ bağlılıq (real məzmunlu) formalaşsın. Dünyanın ən böyük inteqrasiya qruplaşması olan Avropa İttifaqında baş verən mərkəzdən qaçma prosesi sözügedən bağlılığın yaxın gələcəkdə gerçəkləşmə ehtimalının olmadığını göstərir.

Sübut etməyə ehtiyac yoxdur ki, dayanıqlı inkişaf trayektoriyasına keçid, nəinki ayrı-ayrı ölkələrin, dünya iqtisadiyyatının, eləcə də bütövlükdə sivilizasiyanın strateji inkişaf prosesində inqilabi səciyyə daşıyan kardinal dəyişikliyin baş verməsi deməkdir. Uzun illərdir hökmran mövqedə olan nəzəri-konseptual baxışlar dünyanın, bəşəriyyətin gələcəyini "indi"nin mahiyyət çalarlarından çıxış etməklə təsvir edirdilər. Həmçinin, hesab olunurdu ki, "gələcək" mütləq gələcəkdir və nəyin bahasına olursa-olsun inkişaf prosesi davam edəcəkdir. Spontan şəkildə baş verən inkişaf prosesi, mövcudluq şərtlərinin öncüllüyü üzərində təbii axın formasında gedir. Hətta o dərəcədə ki, inkişaf – dünya iqtisadiyyatının qanunu kimi xarakterizə olunurdu. Ayrıca götürülmüş milli iqtisadiyyat prizmasından bu cür (nəzəriyyədə pozitiv yanaşma) yanaşmanın sanki alternativi yox imiş kimi davranılırdı. Əslində isə, belə bir yanaşma (normativ) vardı, lakin "nəyin bahasına olursa-olsun" fəlsəfəsinin çərçivəsinə sığmırdı.

Dayanıqlı inkişaf – normativ yanaşma üzərində qərarlaşa bilər. Yəni, həm resurslara, həm insanlara, həm də ekoloji mühitə münasibətdə konkret normalar və məhdudiyyətlər sistemi tətbiq olunur. Başqa sözlə, inkişafla bağlı sualın qoyuluşu dəyişir: "necə" sualı "necə olmalıdır" sualı ilə əvəzlənir. Və, sadəcə bununla kifayətlənilmir. Dayanıqlılığın həm ölkə, həm də qlobal

[153] V.Cable. The economic consequences of war. N.Y.,2014

[154] А.Сен. Рациональность и свобода. Гарвард. Press.2002

səviyyədə əsas strateji hədəfə çevrilməsi sosial elmlərdə, ələlxüsus iqtisadi nəzəriyyədə adekvat metodoloji dəyişilməni aktuallaşdırır.

Dayanıqlı inkişaf – konseptual anlamda "xalis" iqtisadi nəzəriyyə çərçivəsində dərk edilə bilməz. Onun metodoloji bazası – elmlərarası sintezə söykənir və eklektik səciyyə daşıyır. Bu anlamda, problemə sırf metodoloji prizmadan sinergetik yanaşmanın tətbiqi obyektiv zərurət halına gəlir.

Inkişaf – milli və qlobal sosiumun gələcəyini "quran" prosesdir. Onun spontan şəkildə yaxud öz "axarı" ilə gedişi, kəmiyyət ölçüsü olan göstəricilərin fasiləsiz artımı və s. "gələcəyi" qura bilməz, yaxud gələcəyin çoxvariantlığı şəraitində məhz hansı variantın gerçəkləşəcəyini müəyyənləşdirmək mümkün deyildir. Sosiumun daxilində gedən proseslərlə təbiətdəki prosesləri eyniləşdirmək, eyni məntiqlə yanaşmaq qəbul olunmazdır. Bəşəriyyət üçün mühüm olan dəyişikliyin (prosesdə) mövcudluq şərtləri deyil, mahiyyətidir.

M.Blauq yazırdı ki, "...iqtisadi sistemin "mahiyyəti" haqqında istənilən xatırlatma bizi narahat edir.[155] Essensializmi tam əsasla taksonomaniyanın məntiqi ünsürü hesab etmək olar. "...Mahiyyət yanaşması"... – "naftalin iyi verən metoddur". Bu yanaşma – kəmiyyət təhlili üçün "heç bir yer saxıamır". "Dünənin neandertal essensializminə" dönüşə ehtiyac yoxdur. Fikir – çox aydın və səlis şəkildə ifadə olunubdur. Dayanıqlı inkişafa keçid yalnız mahiyyət üzərindən baş verə bilər. Digər tərəfdən, sirr deyil ki, mövcudluq şərtləri bir qayda olaraq, təsvirçiliklə, mahiyyət isə anlama metodikası bazasında şəhr edilir.

Mahiyyəti naməlum olan varlığın, hadisə yaxud prosesin dayanıqlığına keçid necə baş verə bilər ki? Qlobal dayanıqlılıq – bəşəriyyəti məhv olma təhlükəsindən xilas edə biləcək yeganə strateji hədəfdir. Və, o, heç bir qeyd–şərtsiz "necə olmalıdır" sualına cavab verir. Yəni, normativ məzmunludur, konkret sərhədləri və hüdudları mövcuddur, tənzimlənən və idarəedilələndir...Və, bütün bunlar mahiyyətcə mövcud inkişaf paradiqmasının kardinal şəkildə dəyişdiyini ortalığa qoyur.

Hesab edirik ki, dayanıqlı inkişaf konsepsiyasını olduğu kimi qəbul etmək və onun dəyər tutumunu həddindən artıq, konsepsiyanın daşıya biləcəyindən çox yükləmək yalnışlıq olardı. Əks-təqdirdə "ədalətli cəmiyyət tipi" axtaran utopistlərə, kommunizm cəmiyyəti qurmaq istəyənlərin "hər kəsdən qabiliyyətinə, hər kəsə tələbatına görə" prinsipinə və ümumiyyətlə, bu anlamda kifayətqədər "uzaqlara" gedib çıxmaq olar. Mental dəyərlərin (onların xüsusi önəm daşıdığını unutmamaq şərti ilə) cəlbedici "tələsinə" düşməməyin yolu konsepsiyanın elmi əsasda dəyərləndirilməsindən keçir. Dayanıqlılıq fenomeni mütləq deyil, nisbi anlayışdır. Yəni, konsepsiya çərçivəsində bəşəriyyətin (əgər qlobal həmrəyliyə nail oluna bilinərsə) əldə edə biləcəyi yeganə nəticə ətraf mühitin dağılması prosesinin minimal səviyyədə ləng gedişi və ədalətsizliyin kəskinlik dərəcəsinin qismən azaldılması olacaqdır. Hər hansı bir tədqiqat aparmadan da, təsbit etmək olar ki, təbii resurslar azalmadan iqtisadi inkişaf baş verə bilməz. Məsələn, neft və təbii qaz ehtuyatları – bu günkü istehlak səviyyəsi olduğu kimi qalarsa – birinci (neft) 42 ildən, ikinci (qaz) 71 ildən sonra tükənəcək. Həmçinin, yeni yataqların kəşf olunma ehtimalı da o qədər inandırıcı deyil. Bu azalma, hətta tükənmə deyilsə, bəs nədir? Digər tərəfdən, meşələrin kütləvi şəkildə qırılması ilə bağlı da bərpa etmə aspektindən birmənalılıq yoxdur. Yeni meşə massivinin yaranması üçün uzun dövr lazımdır. Bu dövrü milli iqtisadiyyatlar gözləmə rejimindəmi keçirməlidirlər? Yaxud, sosial ədalətlə bağlı problemin həlli yolları barəsində vahid bir yanaşma varmı? Fəlsəfə 5 konsepsiyadan söhbət açır. Və, sosial ədaləti – yalnız bölgü sferasına aid edirlər. Faktor gəlirlərinin bölgüsü hər bir faktorun sərf etdiyi "enerji" məsrəflərinə

---

[155] M.Blanq. Economic History and the History of Economics. Brighton. 1986; p.265-279

uyğun şəkildə aparılırsa və işsizlər kütləsi bu bölgüdən kənarda qalırsa, bunu ədalətsizlik adlandırmaq olmaz. Əgər kiminsə haqqı – haqq etdiyi qədər özünə çatırsa, buna ədalətsizlik demək olmaz axı! Faktor gəlirlərinin yenidən bölgüsü sferasında sosiumun bir qrupuna elementar yaşayış şəraiti yaradılırsa, bu da ədalətlilik deyil, xeyirxahlıqdır. Insana – insan olduğu üçün yardım etməkdir. Indi, dayanıqlı inkişaf – sosial ədaləti necə bərqərar etməlidir ki? Bölgüdə bərabərçilik prinsipinin tətbiqi iləmi? Sosial ədalətlilik – bir tərəfdən, ölkənin əksar vətəndaşları üçün start vəziyyətinin eyniliyi, bərabərliyi (məsələn, kredit resurslarına çıxış aspektindən), digər tərəfdən isə haqqın haqq sahibinə verilməsidir. Və, bunların ikisi də formal tələblərdir və hüquqi normalarla tam şəkildə tətbiq oluna bilər.

Təfsilata varmağımızın əsas səbəbi ondan ibarətdir ki, əvvəla, ədalətli cəmiyyət – hələ “ideal” cəmiyyət deyildir; ikincisi, ədalətli cəmiyyət dayanıqlı inkişafın şərti, amili yox, nəticəsidir. Ədalət → ekoloji tarazlıq → ictimai rifah (ümummilli rifah) üçlüyünün gedişi (dayanıqlı inkişaf çərçivəsində) hüquqi norma və məhdudiyyətlərin, yəni qanun qüvvəsi olan, qanuni statusu olan məhdudiyyət və qadağaların yaratdığı, tam nəzarət altında olan “koridordan” keçir. Dayanıqlılığın struktur əlaqələrinin genişliyini nəzərə alsaq, onda qeyd etdiyimiz “koridorun” çox dar olduğunu qəbul etməliyik. Başqa sözlə, dayanıqlılıq prizmasından məhdudlaşdırmaya ehtiyacı olan çox şey mövcuddur. O cümlədən, azadlıq! Belə bir aksiomatik təsbit vardır ki, azadlığın istənilən forma və məzmunda (söhbət, praktiki müstəvidə aparılan insan fəaliyyətinin azadlığından gedir) məhdudlaşdırılması iqtisadi effektivliyi azaldır və şəxsiyyətin formalaşma prosesinə mənfi təsir göstərir. Digər tərəfdən, məhdud azadlığın mövcud olduğu cəmiyyətdə sosial ədalət sözün tam mənasında qərarlaşa bilməz. Beləliklə, paradoksal situasiya yaranır.

Insanların (vətəndaşların) yaxud ümumi şəkildə,individiumun seçim azadlığı (məqsədin necə olmasında asılı olmayaraq) məhdudlaşdırılır. Beynəlxalq yaxud milli səviyyəli müəyyən strukturlar çoxvariantlı gələcəyi birvaraintlı gələcəyə çevirir və bu çevirmədə sosium iştirak etmir. 1917-ci ildə bolşeviklərin etdiyi kimi! Və, əgər nəzərə alsaq ki, dayanıqlılıq fenomeni, öz mahiyyəti etibarı ilə yalnız qlobal miqyasda real formada gerçəkləşə bilər, onda seçim prosesi növbəti dəfə bugünki inkişaf paradiqmasını bəşəriyyətə qəbul etdirənlərin – Davos mədəniyyətli yeni Şimalın nəzarətində baş tutacaqdır. Daha doğrusu, baş tuta bilər: əgər sözügedən qruplaşma həqiqətən də dayanıqlılığa keçidin tərəfdarı olarsa!

Beləliklə, ümumbəşəri gələcəyin normal, ədalətli prinsiplər bazasında qurulması ehtimalı nöqteyi-nəzərindən dayanıqlılıq ideyası təqdirəlayiq ideyadır. Lakin, böyük problemlərin və ziddiyətli məqamların bolluğu ucbatından bu strategiyanın reallaşma ehtimalı elə ehtimal olaraq qalacaqdır!

Dayanıqlı inkişaf trayektoriyasına keçid məqsədyönlü prosesdir və bu mənada bazar mexanizminin spontan təbiəti ilə təşkil edilə bilməz. Bazar kriteriyaları – bəşəri dəyərləri (ədalətlilik və s.) ehtiva etmir. Bu anlamda, «…Hətta ən effektiv bazar sistemi belə, kəskin bərabərsizlik yarada bilər»[156] və yaradır da! Dayanıqlı inkişaf şəraitinin formalaşdırılmasında əsas rol dövlətə aiddir. Dövlətin əsl təyinatı – iqtisadi artımın, sabitliyin və iqtisadi effektivliyin stimullaşdırılmasıdır.[157] Başqa sözlə, bazar iqtisadiyyatı çərçivəsində dayanıqlı inkişafa keçid problemi, bütünlüklə dövlətin məsuliyyəti altındadır. Bu aspektdən, yəni dayanıqlılığın təminatı prizmasından dövlət→bazar cütlüyündə formalaşan qarşılıqlı münasibətlərin xarakteri həlledici əhəmiyyət kəsb edir. Aydındır ki, şüurlu elementin, yaxud subyektiv amilin spontan mexanizmə

---

[156] П.Самуэльсон, У.Нордхаус. Роль правительства в рыночной экономике// Америка., 1992, стр.19
[157] П.Самуэльсон, У.Нордхаус. Роль правительства в рыночной экономике// Америка., 1992, стр.17

müdaxiləsi, daha doğrusu, bu müdaxilənin konseptual sərhədlərinin birmənalı şəkildə müəyyənləşdirilməsi imkansızlığı həm nəzəri-metodoloji, həm də praqmatik müstəvidə gerçək məzmun kəsb edir. Problemin dərkedilmə çətinliyi onunla bağlıdır ki, əvvəla, şüurlu element → spontan qayda ikiliyinin real mahiyyətdə adekvatlığını təmin etmək son dərəcə çətin bir məsələdir. Belə ki, spontanlıq kortəbiilik deyil, şüurlu elementin məqsədyönlü yanaşma olmadan doğurduğu mexanizmdir… «Görünməyən əl» – hər halda, subyektiv məzmunludur, subyektiv təsirdən kənarda deyildir. Bu mənada spontanlıq → şüurlu şəkildə formalaşdırılan məqsədyönlülüyün yoxluğudur; ikincisi, spontan mexanizmə müdaxilə, ölkədə formalaşmış bazarın məzmun tutumu, reallıq dərəcəsi və strukturundan asılı olaraq müxtəlif nəticələr, o cümlədən əks-nəticələr verə bilər. Bu mənada, müdaxilənin sərhədlərini (konseptual çərçivədə) müəyyənləşdirmə kriteriyası, yaxud kriteriyalar sistemi nələri özündə ehtiva etməlidir? sualı bu gün də açıq qalmaqdadır. Əgər insana, cəmiyyətə və təbiətə münasibətdə ədalətlilik kriteriyası önə çəkilirsə, bu iqtisadi azadlıqların qərarlaşma dərəcəsinin funksiyası kimi ortalığa qoyulmalıdır. Spontanlıq – iqtisadi azadlıqların yaratdığı mexanizmdir – əksinə deyil! Yəni müdaxilə, müdaxilə olunan mexanizmin mahiyyət çalarları üzərində qurulmalıdır. «Bazara – həzm edə biləcəyi qədər azadlıq verilsin» təsbiti isə sırf ideallaşma səciyyəsi daşıyır. Yaxud bazarın – söhbət abstraksiyadan, yaxud «Nəzəri bazardan» yox, konkret fəaliyyətdə olan ölkə bazarından gedir - «azadlıqtutumunun» həcmini empirik şəkildə qiymətləndirmək mümkünmü ki, onun konkret həcmini müəyyən edəsən? Beləliklə, dayanıqlılığın təminatı nöqteyi-nəzərindən təsir obyektinin ikiləşməsi baş verir: «Real bazar» → «nəzəri bazar». Birinci konkret, praqmatik fəaliyyət göstərəndir, ikincisi isə – abstraksiyadır.

Üçüncüsü, dayanıqlı inkişafa keçidin açar strukturları kimi dövlət → bazar qarşılaşdırılması, əslində (dayanıqlılıq fenomeninin bütövlükdə cəmiyyətə aidliyi …..) birtərəfli, birölçülü xarakter daşıyır. İkiliyin qarşılıqlı əlaqələri rakursundan sistemində «vasitəçi» olmalıdır. Bu anlamda, ikilik üçlüklə əvəz olunmalıdır: Dövlət → vətəndaş cəmiyyəti → bazar! «Vasitəçi» – vətəndaş cəmiyyəti – mənafe müxtəlifliyi ilə xarakterizə olunan strukturdur. Mənafelərin tarazlığı – dayanıqlı inkişafa keçidin əsas bazası rolunu oynaya bilər. Dövlət – milli mənafeni, vətəndaş cəmiyyəti – müxtəlif səpkili mənafeləri, bazar isə faydanı («simasız», anonim subyektin əldə etdiyi faydanı) əsas istinad nöqtəsi kimi götürür. Yəni, milli mənafe → struktur bölmələrin mənafeyi → «simasız» subyektin faydası üçlüyündə müdaxilənin effektivliyini təmin edəcək istiqamətlərin anatomik təsvirini vermə imkanı yaranır. Vahidlikdən (milli mənafe) çoxluğa keçid, çoxluğun sonsuz sayda təkçələrə transformasiyası və hər iki halda (keçid prosesində) rəvanlığın, sinxronluğun qorunması, mahiyyətcə elə dayanıqlılığın proses halına gəlməsinin kafi şərti kimi çıxış edə bilər.

Dördüncüsü, inkişafın dayanıqlılığı problemi industrial təsərrüfat tipinin böhranı və postindustrializmə keçidin ilkin başlanğıcında meydana çıxan problemdir. Bu anlamda, industrial dövrün dövləti və bazarı ilə postindustrial dövrün dövləti və bazarı eyniyyətdə deyildirlər. Dayanıqlılıq fenomeni cəmiyyətin tipi ilə determinə olunandır. Yəni dövlət → bazar cütlüyündə müdaxilənin universal formaları ola bilməz və yoxdur. Həmçinin hər bir ölkənin özünə xas, milli spesifika ilə funksional bağlılıqda olan müdaxilə strategiyası vardır. Bu aspektdən dünya təcrübəsi elə bir rol oynamır. Konkret şəkildə ifadə etsək, söhbət, ümumiyyətlə, Dövlət → bazar ikiliyindən yox, milli dövlət → milli bazar cütlüyündən gedir. Milliliyin dominant mövqeyə çıxışı sözügedən müdaxilənin də «milli» yük daşıdığını şərtləndirir.

### §6.3. İqtisadi artımla cəmiyyət tipləri arasında bağlılığın xüsuyyətləri.

Iqtisadi artım və onun davamlılığı problemi həm nəzəri, həm də praktiki anlamda yüksək aktuallıq səviyyəsini saxlamaqdadır. Digər tərəfdən, nəzəri-konseptual yanaşmalarda müşahidə edilən ziddiyətli məqamlar, interpretasiya müxtəlifliyi problemin mahiyyətcə, adekvat qiymətləndirilməsində problemli situasiyalar yaradır.

İqtisadi ədəbiyyatda «iqtisadi artım» göstəricisi ilə bağlı paradoksların olduğu qeyd olunur:

1. Birinci paradoks – «…İqtisadi artımın illik 2-3%-dən az olması iqtisadiyyatın staqnasiyası deməkdir. Staqnasiya prosesi işsizliyin yüksək səviyyəsi və hissəvi məşğulluğun artımı ilə müşayiət olunur.»[158]

2. İkinci paradoks – daha yüksək iqtisadi artımı inkişaf etməkdə olan ölkələr nümayiş etdirir. İnkişaf etmiş ölkələrdə isə cüzi səviyyədə artım müşahidə edilir.

Qloballaşma prosesi və cəmiyyətin tip dəyişkənliyi – industrial eradan postindustrial təsərrüfat tipinə keçidi iqtisadi artım kateqoriyasının konseptual məzmununda kardinal dəyişikliklərlə müşahidə olunmaqdadır. Artıma münasibətdə uzun tarixi dövr ərzində dominant mövqedə olan kəmiyyət yanaşması keyfiyyət yanaşması ilə əvəz olunmuşdur. Milli iqtisadiyyatın inkişafının təminatı prosesində iqtisadi artımın keyfiyyət parametrləri ön plana keçmişdir. Keyfiyyət probleminin aktuallaşması xronoloji aspektdən 1970-ci illərə təsadüf edir. Roma klubunun problemlə bağlı araşdırmaları («Artım hədləri») uzunmüddətli dayanıqlı inkişafın yalnız kəmiyyətcə çoxalma (iqtisadi artıma münasibətdə) hesabına baş tuta bilmə ehtimalının olmadığı qənaətini ortalığa qoydu. Yeganə çıxış yolu kimi, o dövrdən etibarən aparılan əksər araşdırmalarda, iqtisadiyyatın keyfiyyətcə artımına keçiddən keçdiyi qənaətinə gəlinmişdir (R.Romer, R.Lukas, Q.Menkyu və s.).

Ç.Kindlberqer yazırdı ki, inkişafsız iqtisadi artım mümkündür.[159] Məsələn, keçmiş SSRİ-də hər il daha çox polad, Brazildiyada eyni templə kofe istehsalı tipli artım «heçliyə» aparır. R.Brinkman[160] isə qeyd edir ki, iqtisadi inkişaf prosesləri ilə bağlı olmayan iqtisadi artım – cari situasiyanın sadə təkrar istehsalı deməkdir. Və, iqtisadiyyatın struktur transformasiyası aparılmadığı təqdirdə belə «artım» istehsal artıqlığına və staqnasiyaya səbəb ola bilər. İqtisadi artım modelləri ilə əlaqədar qeyd etdiyimiz kimi, yeniləşmə prosesi ilə bağlı olmayan iqtisadi artımın əldə olunması məqsədilə daha çox resurslar və vəsaitlərin qoyuluşu – əslində, iqtisadiyyatın sistem böhranının reallaşdırılması deməkdir. Məhz buna görə də, iqtisadi artımı ölkənin əsas strateji məqsədi anlamında qəbul etmək yanlışlıqdır. Iqtisadi artım – təkcə kəmiyyətcə çoxalma deyil, ondan daha üstün səviyyədə yeni keyfiyyət səviyyəsinə keçidə istiqamətlənmiş fasiləsiz struktur dəyişiklikləri prosesidir. Bu anlamda, iqtisadi artım konsepsiyaları artımın gerçək məzmununu şərh etməkdə acizdirlər. Şərhin adekvatlıq səviyyəsi yalnız iqtisadi inkişaf nəzəriyyəsi çərçivəsində mümkündür. Digər tərəfdən, iqtisadi artım modellərinin adekvatlığı cəmiyyətin tipi ilə birbaşa bağlılıqdadır.

---

[158] L.Mises. planning from freedom. South Holland 1952; p.162
[159] Investopedia/ http://www.investpedia.com/terms/staqnation.asp.
[160] R.Brinkman. Economic growth versus Economic development: Tousards a conseptual Clarification//Journal of Economic issues/ Vol XXIX, N4, December, 1995

*Cədvəl 6.1. İqtisadi artım modelləri ilə cəmiyyət tipləri arasında bağlılıq*

| Modellər | Əsaslandığı nəzəriyyə | Müəlliflər | Müxtəlif cəmiyyət tiplərinə adekvatlığı | | |
|---|---|---|---|---|---|
| | | | Modern (industrial) | «Hibrid» (qarışıq) | Postmodern (Postindustrial) |
| **1) Yoxsulluğun «qüsurlu» dairəsi** | Keynsçi | Q.Zinger, R.Prebiş[161] | - | + | - |
| **2) Özünü dəstəkləyən artıma keçid konsepsiyası** | + | İ.Rostou[162] | + | +,- | - |
| **3) «Böyük təkan» konsepsiyası** | + | R.Nurkse;[163] A.Rozenşteyn - Rodan;[164] | - | + | - |
| **4) İki defisitli artım modeli** | + | X.Çeneri;[165] M.Bruno və s. | + | + | - |
| **5) İzafi əmək təklifi modeli** | Neoklassika | İ.Luiş, A.Xirşman[166] S.Şats | + | + | - |
| **6) Dualist iqtisadiyyat modeli** | + | Ç.Fey; Q.Ranis[167] | + | + | - |
| **7) «Asiya» dramı konsepsiyası** | İnstitutsionalizm | Q.Mürdal[168] | - | + | - |
| **8) «Başqa yol» konsepsiyası** | Neoinstitutsionalizm | Ş.de Soto[169] | - | + | - |
| **9) Solou modeli** | İnsan kapitalı nəzəriyyəsi | R.Solou[170] | - | - | + |
| **10) Lukas modeli** | + | R.Lukas[171] | - | - | + |
| **11) Menkyu modeli** | + | Q.Menkyu;[172] D.Romer; D.Ueyl. | + | - | + |

*Mənbə: müəllif tərəfindən tərtib olunmuşdur.*

İqtisadiyyatda natarazlıq iki formada olur:

1) Funksional natarazlıq: Mövcud struktur çərçivəsində makroiqtisadi göstəricilərin və iqtisadi subyektlərin davranış tərzinin cüzi dəyişmələrini ortalığa çıxarır. Hər hansı bir keyfiyyət

---

[161] Р.Пребиш. Периферийный капитализм: есть ли ему альтернатива? М., УЛА, 1992
[162] W.Roston. The Stages of Economic Growth: A Non-communist Manifesto. Cambridge. 1960, p.307-331
[163] R.Nurkse. Problems of Capital Formation in Underdevelopment Countries. Oxford. 1995, p.5
[164] P.N.Rosenstein-Rodan. Problems of industrialization of Estern and South-Eastern Europe//The Economics Journal. 1943, Vol.53
[165] Х.Ченери; Н.Картер. Внутренние и внешние аспекты планов и процесса экономического развития//Конференция по долгосрочному планированию и прогнозированию, М., 1972
[166] A.O.Hirshman. The Strategy of Economic Development, 1961
[167] J.Fei; G.A.Ranis. Theory of Economic Development//American Economic Review. 1981, Vol.51
[168] Г.Мюрдаль. Современные проблемы «Третьего мира». М., Прогресс, 1972
[169] Э.де Сото. Иной Путь. М., 1995
[170] R.A.Solow. Contribution to the Theory of Economic Growth//Quarterly Journal of Economics. 1956. P.65–94
[171] R.Lucas. On the Mechanizm of Economic Development//Journal of Monetary Economics. V.22. 1988, p.3–42
[172] G.Mankiw, D.Romer, D.Well. A. Contribution to the Empirics of Economic Growth//Journal of Economics. 1992. 107(2), p.407–437

yeniləşməsindən söhbət getmir. İqtisadi sistemin əvvəlki qaydalarla formalaşmış münasibətlər sistemi mahiyyət dəyişikliyinə məruz qalmır və s.

2) İnkişaf prosesinin doğurduğu natarazlıq;

Bu tipli natarazlıq – keyfiyyətcə yeniləşməyə, inkişafa aparan natarazlıqdır. Proses olmaq etibarı ilə iki zaman kəsiyində mövcud olur;

1) Dəyişikliyə başlanan andan sərhəd situasiyasının (bifurkasiya nöqtəsi) yarandığı ana qədər olan zaman intervalında;

2) Sərhəd situasiyasının yarandığı andan son nəticəyə qədər olan zaman intervalında.

Əlavə araşdırma aparmadan da görmək olar ki, inkişafın gerçəkləşməsi prosesində zaman amilinin rolu əvəzedilməzdir.

İqtisadi inkişafın yeganə mənbəyi, yaxud yeganə hərəkətverici qüvvəsinin axtarışı, tarixi dövrün məziyyətlərindən asılı olmayaraq, gerçəkliyi olduğu kimi anlama imkanı vermir. Başqa sözlə, inkişaf prosesinə münasibətdə «yeganəlik» (mənbə və hərəkətverici qüvvə aspektindən) olmur, yaxud biramilli determinasiya sistemli yaranışın keyfiyyətcə yeni mərhələyə keçidi mexanizmini izah etməkdə acizdir. Hər bir konkret inkişaf prosesi və onun ayrı-ayrı mərhələləri çoxlu sayda mümkün fluktuasiyalar məcmusunun təsiri altında olur, həm də hər bir fluktasiya digərləri ilə birbaşa, eləcə də dolayısı ilə qarşılıqlı əlaqədə baş verir. İqtisadi institutların dayanıqlılığı prosesin müəyyən nöqtəsinə qədər fluktuasiyaları neytrallaşdırma qabiliyyətində olur. Bu anlamda hər cür dəyişikliklər kumulyativ proseslər yarada bilməz. Sistem dəyişikliyinin başlandığı an sistemin sərhəd situasiyasında olduğu andır. Yəni, fluktuasiyanın elə bir səviyyəyə çatması istənilir ki, növbəti etapda prosesin əvvəlki qaydada gedişi mümkün olmasın. Deməli, yuxarıda da qeyd etdiyimiz kimi, həmin dəyişikliyin başlanğıcı situasiyası «yeganəliklə» formalaşa bilməz. Başqa sözlə, sistem dəyişikliyinə keçid (keyfiyyətcə yeniləşmə) anklav xarakterli yeniləşmə ilə deyil, yeniləşməyə təhrikin bütün sahə və sferalar arasında asimmetrik bölgüsünün reallıqda yer alması ilə determinə olunur. Bu anlamda inkişaf prosesi iki halda sistemlilik keyfiyyəti nümayiş etdirir:

1) Sərhəd situasiyasının formalaşmasında;

2) Nəticədə

Eyni zamanda, inkişafın hər iki mərhələsi arasında sistemlilik keyfiyyətinin dayanıqlılığı aspektindən eyni nəticəlilik olmur. Belə ki, birinci halda (sərhəd situasiyasının formalaşması) asimmetrik bölgü (yeniləşməyə canatma nöqteyi-nəzərindən), neoklassik tarazlıq kimi, davamlı olmur. Sahə və sferalardan hansısa önə çıxır (yeniləşmə sürətinə görə) və yeni keyfiyyət mərhələsinə keçid anklav xarakter daşıyır ki, bu da yekun etibarı ilə tam yeni deyil, köhnə→yeni simbiozu formasında keyfiyyət «yüksəlişi» doğur. Yəni, həm cəmiyyətin tip dəyişkənliyi baş vermir, həm də sosio-iqtisadi və sosio-mədəni cütlüyündə ikincinin yeniləşmə sürəti ifrat dərəcədə zəifləyir. Ətalətlilik - iqtisadi və sosio-iqtisadi hərəkətin əsas xassəsinə çevrilir. Nə qədər paradoksal səslənsə də, bu halı çox vaxt makrosabitlik kimi xarakterizə edirlər. Cəmiyyətin sosio-iqtisadi və sosio-mədəni tiplərinin yeniləşmə meyilliliyi, bağlılığın üzvi xarakter daşımasına baxmayaraq, onsuz da fərqli olur. Sosio-mədəni tip – mental dəyərlərlə sıx bağlılıqda olduğu üçün – daha ləng hərəkətlə yeniləşir… Qeyri-effektiv tənzimləmə, yaxud siyasət isə bu ləngliyi, ümumiyyətlə, dayandıra bilir.

Şəkildəki (şək 6.4.) ekzogen mühitin dəyişənlər çoxluğunun hansı istiqamətlərdə fluktuasiyalar yarada biləcəyini sadəcə hesaba almaq kifayətdir ki, dayanıqlı inkişafın mütləq "daxili məsələ" olmadığını anlamaq mümkün olsun. Buna görə də, tədqiqatçıların böyük əksəriyyəti (biz də həmin mövqeni dəstəkləyirik) ekzogen mühitə qarşı dayanmaq, qorunmaq və böyük xərctutumlu müdafiə strategiyası tətbiq etmək yerinə "birgə" inkişaf trayektoriyasına

çıxışın daha səmərəli olduğu qənaətindədirlər. Yalnış anlaşılmamaq üçün qeyd edək ki, söhbət dövlət müstəqiııiyi probleminin aktuallaşdırılmasında getmir. Bu aspektdə sadəcə olaraq, əsas problemin – dayanıqlı inkişafa və artıma nail olma probleminin həllinə maksimum səviyyədə yaxınlaşmaq imkanı yaranır.

Dayanıqlılıq – iqtisadi inkişaf prosesinin dalğavari hərəkəti və hər bir dalğanın növbələşən tsiklləri arasında funksional bağlılığın təbiəti ilə determinə olunandır.




***Şəkil 6.4. Milli iqtisadiyyatda ekzogen fluktuasiyaların mühitlə bağlılığı***

*Qeyd: Yeri gəlmişkən, qeyd edək ki, K.Popper[173] ideyanı da iqtisadi fluktuasiya amilləri sırasına daxil edirdi.*

---

173 К.Поппер. Открытое общество. М., 1992. Т.2, с.128




***Şəkil 6.5. Dalğavarı iqtisadi inkişaf prosesinin konseptual məzmunu***
*Mənbə: müəllif tərəfindən tərtib olunmuşdur.*

Tsikl – iqtisadi sistemin təkamül prosesinin gedişi «mexanizmi», kəmiyyət→keyfiyyət dəyişikliklərinin mənfi, ya müsbət aspektli «mərhələləri» və onların məntiqi şəkildə ardıcıl növbələşməsidir. Tsiklin fəaliyyət «mexanizminə» müdaxilə, əlelxüsus böhranlı situasiyalarla bağlı bu «mexanizmi» poza biləcək radikal səciyyəli müdaxilə, nəticə etibarı ilə təkamül prosesini mahiyyətcə deformasiyaya uğratmaq deməkdir. İqtisadi böhran – iqtisadi inkişaf prosesinin gedişi məntiqi ilə determinik bağlılıqda olan bir situasiyadır. Böhranlı situasiyaların

yaranması iqtisadi prosesin sosio-iqtisadi təbiətindən doğan, asimmetriklik və asinxronluğun zaman-zaman kritik səviyyədə aktuallaşmasından qaynaqlanan və təkamül prosesinin mahiyyət özəlliklərinə tam şəkildə adekvat olan bir situasiyadır. İnkişaf prosesi - aramsız olaraq assimmetriklik və asinxronluq doğurur. Keyfiyyət dəyişikliklərini «daşıyan» bir prosesin alternativ qaydada gedişi yoxdur və əslində, bu aspektdən alternativlik heç mümkün də deyildir. Amma qeyd etməliyik ki, qısa şəkildə şərh etməyə çalışdığımız böhran→inkişaf bağlılığı, yalnız onun (böhranın) sırf tsiklik, yəni ilkin yaranışı nöqteyi-nəzərindən dərkinə istinad edir. Belə ki, böhranlı situasiya adekvat siyasət və tənzimlənmə üsullarının yoxluğu şəraitində daha böyük gərginlik (sosio-iqtisadi) doğura biləcək hala qədər «inkişaf» potensialına malikdir. Ardıcıllıq aspektindən prosesin «dərinləşməsi» böhranın mənatutumunun tsiklik→struktur→sistemli yönümdə dəyişməsini özündə ehtiva edir. Bu üçlük, sözün məcazi mənasında, uyğunsuzluq→ziddiyyət→əkslik yönümlü dəyişmə anlamını daşıyır. Və, sistem böhranı – artıq təkcə iqtisadiyyatın deyil, bütövlükdə cəmiyyətin böhranı - siyasi, sosial və mədəni böhran kimi təzahür edir. Tsiklik böhran - iqtisadiyyatın ən zəif halqasından, struktur və funksional rakursdan mövcud sistemə ən zəif formada «qovuşan» sahənin fəaliyyət spesifikasından qaynaqlanan fəsadlı situasiya kimi meydana çıxır. Bu baxımdan, obyektivlik onda təzahür edir ki, sistemin inkişaf səviyyəsindən asılı olmayaraq, dəyişikliyin baş verdiyi bütün mərhələlərdə ən azı bir «zəif» halqa olur ki, bu da inkişaf prosesinin təbii şəkildə doğurduğu natarazlıqla determinə olunur. Əsas məsələ iqtisadi gerçəkliyin düzgün qiymətləndirilməsi və həmin «zəif» halqanın vaxtında aşkara çıxarılmasına («gizlədilməsi», ört-basdır edilməsi deyil) nail olmaqdadır.

Böhranın əvvəli və sonu var! Əvvəl və son arasındakı interval uzunluğunun qısaldılması isə bütünlükdə həmin aspektdən həyata keçirilən iqtisadi siyasətin effektivlik dərəcəsindən asılıdır. Yəni böhranla bağlı mübarizədə spontan qayda tam şəkildə yararsızdır. Bu mənada əsas problem – böhranın aradan qaldırılması yönümündə həyata keçirilən tədbirlərin spontan qaydanın məzmun deformasiyasına gətirib çıxarmamasıdır. Aydındır ki, iqtisadi prosesin «daxili işlərinə» kobud müdaxilə inkişafın yeni (böhrandan sonrakı) trayektoriyasına keçidi deyil, böhranın «gizlədilməsi» effektini doğurur.

Spontan qayda – böhranı aradan qaldırmaq gücündə deyildir. Lakin o, aradan qaldırımanın, yaxud böhrana gətirən səbəb/amillərin aşkara çıxarılmasında müstəsna əhəmiyyət kəsb edir. Bu mənada, yalnış investisiya qərarları, yalnış strateji yönümlülük, yalnış idarəetmə üsulları (o cümlədən, kadrlarla əlaqədar və s.) məhz spontan qaydanın aşkarladığı neqativlərin kiçik bir hissəsidir.

Böhranlı situasiyanın yanlış qiymətləndirilməsi, milli iqtisadiyyatda adekvat struktur dəyişikliklərin aparılmaması, işgüzar aktivlik və məşğulluğun dayanıqlılığı görünüşünün yaradılması, sadəcə olaraq, problemin həllinə deyil, zaman itkisinə səbəb olur. Və, bu itki sürəcində fəsadlı situasiya sistemin daha dərin qatlarına «işləməklə» xaos yaradır və gələcəyə aparan inkişaf trayektoriyasını «görünməz» hala gətirir.




*Şəkil 6.6. İqtisadi tsiklin gedişi prosesi*

Tənəzzül və tərəqqinin kəsişən sahəsi o anlamı daşıyır ki, iqtisadi inkişaf prosesi çərçivəsində hər iki situasiya (tənəzzül və tərəqqi) ayrı-ayrı müstəqil qütblər deyil, biri digərini doğuran, bir-biri ilə səbəbiyyət bağlılığında olan fenomenlərdir. Əks təqdirdə, tsikllərdən danışmağa belə dəyməzdi. Göründüyü kimi, böhranlı situasiyanın ilkin şərtləri iqtisadi tərəqqinin ən yüksək mərhələsində, iqtisadi artımın şərtləri is böhrandan sonrakı mərhələdə – depressiya situasiyasında formalaşır. Başqa sözlə, yüksəliş, böhran və iqtisadiyyatın canlanması arasında həm təkamül, həm də məntiqi aspektdən çox sıx bağlılıq mövcuddur.

Milli iqtisadiyyatın dayanıqlı inkişafının təminatında (xarici mühitə münasibət aspektindən) ən optimal yol qlobal səviyyəli dəyişikliklərə adaptasiya olunma, «oyun qaydalarına» riayət etməkdən keçir. Milli iqtisadiyyat (yeni «şimal qruplaşması» istisna olmaqla) qlobal dəyişikliklərin gedişinə təsir göstərmək gücündə deyildir. İnkişaf etməkdə olan ölkələrin böyük əksəriyyəti dünya gəlirinin formalaşması və bölgüsündə iştirak etmirlər. Bu aspektdən qlobal səviyyəli «oyun qaydalarının» formalaşması, yaxud yeniləşməsi prosesinə müdaxilə imkanları yoxdur. Buna görə də adaptasiya olunma - müasir qlobal iqtisadi reallıq çərçivəsində optimal yol hesab olunur. Adaptasiya mexanizminin nədən, yaxud nələrdən ibarət olması nöqteyi-nəzərindən ikisəviyyəli yanaşma mövcuddur:

1) Universal xarakterli olanlar;

2) Sırf milli spesifika ilə bağlı olanlar.

Universallıq – bu anlamda o deməkdir ki, həyata keçirilənlər adaptasiya problemi ilə qarşılaşmış əksər milli iqtisadiyyatlar üçün eyni məzmun daşıyır:

– İqtisadi artımın innovasiya yönümlülüyü; Qlobal iqtisadi gerçəklik elədir ki, rəqabət üstünlüklərinə (ən azı, hansısa bir sahə, yaxud məhsul üzrə) malik olmayan ölkə ənənəvi yolla situasiyanı yaxşılığa doğru dəyişə bilməz. İnnovasiyadan istifadə dünya bazarında dayanıqlı paya və yüksək gəlirə sahib olma imkanı yaradır. Və, hətta binar məntiq çərçivəsində belə, müsbət

yönümlü (təsir və əks-təsir prizmasından) iqtisadi «zəncir» formalaşır. Qloballaşma şəraitində ən böyük fayda məhz inkişafın innovasiya modeli əsasında əldə edilir.

– Adaptasiyanın heç də az əhəmyyətli olmayan amillərindən biri transmilli təkrar istehsal tsikllərinə və ticarət şəbəkəsinə qoşulmadır. Dünya gəlirinin formalaşması və bölgüsü prosesində iştirak etmə qlobal sistemə adaptasiyanın həlledici amilidir.

– İqtisadi strukturun modernləşdirilməsi, milli istehsalın diversifikasiyası prosesinin intensivləşdirilməsi; «Anklav» xarakterli və kəskin dəyişikliklər doğuran inkişaf tipi hissəvi yeniləşmədən qeyri bir nəticə ortalığa qoymur. İqtisadiyyatın monostrukturlaşması nəinki qlobal sistemə adaptasiyanı mümkünsüz hala gətirir, eləcə də inkişafın dayanıqlılığını illyüziyaya çevirir. Xarici investisiyaların cəlb edilməsi məhz diversifikasiyaya xidmət etməlidir. Yəni xarici investisiyaların müqayisəli şəkildə yüksək artım tempi müşahidə edilən sahələrə qoyuluşu, araşdırdığımız problem nöqteyi-nəzərindən heç bir əhəmiyyət kəsb etmir.

Sırf milli spesifika ilə bağlı olanlar sırasına isə aşağıdakıları aid etmək olar:

– İqtisadi azadlığın optimal sərhədlər çərçivəsində qərarlaşması zəruriliyi; Dünya bazarının konyukturasında baş verən dəyişikliklərə adekvat reaksiya verilməsi, eləcə də iqtisadi rasionallıq və effektivliyin normal səviyyədə qərarlaşması direktiv göstərişlə həyata keçirilə bilməz.

– Dövlət→bazar qarşılaşması (təmizləmə prizmasından) elə bir mütənasiblikdə qərarlaşmalıdır ki, nə inkişafın təhlükəsizliyinə, nə də iqtisadi azadlığın gerçək məzmununa xələl gətirməsin.

– Möhtəkir kapital axınlarından mühafizə sistemi qurulmalıdır:

– Milli varlığın – dəyərlər aspektindən mühafizəsi həyata keçirilməlidir. Yəni, adaptasiya prosesində cəmiyyətin sosio-iqtisadi tipi liberal, sosio-mədəni tipi isə mühafizəkar əsasda iştirak edir.

Şübhə yoxdur ki, iqtisadiyyatın sistemli modernləşdirilməsinin eyni zaman intervalında (hər hansı bir qradasiya aparmadan) həyata keçirilməsi dövlət xərclərinin kəskin artımına səbəb olur, eyni zamanda bir çox hallarda gözlənilən iqtisadi effektivlik alınmır. Buna görə də iqtisadi, ələlxüsus sənayeləşmə siyasətində prioritet sahələrin seçilməsi və modernləşmə prosesinin ilkin olaraq məhz bu sahələrdə həyata keçirilməsi gərəkir. Sahələrin seçimi ixtiyarı formada, yaxud bu günün tələbatlarından çıxış etməklə deyil, seçilən sahələrin qısa zaman kəsiyində multiplikativ effekt yarada bilmə imkanlarına istinadla aparılmalıdır.

Modernləşmə prosesinin əsas məqsədi kəmiyyətcə çoxalmağa nail olmaq deyil, keyfiyyət dəyişikliklərini həyata keçirmək, yaxud həmin dəyişikliklərə aparan hərəkət trayektoriyasının düzgün seçimidir. Həmçinin, bu prosesdə əsas ağırlıq mərkəzi maliyyə resurslarının bölgü iyerarxiyasının qurulması, ardıcıllığın təminatı yox, dayanıqlı iqtisadi inkişafın aparıcı determinantlarının müəyyənləşdirilməsi üzərinə düşür.

## §6.4. Dayanıqlı inkişafın ölçmə metodikası.

Təəssüflə qeyd etmək lazımdır ki, iqtisadiyyatda ölçmə problemi, riyazi üsullardan istifadə imkanlarının əhəmiyyətli dərəcədə genişlənməsinə baxmayaraq, problem olaraq qalmaqdadır. Axı, inkişaf trayektoriyasının düzgün seçimi real situasiyanın adekvat şəkildə qiymətləndirilməsinə istinadla aparılır. Start vəziyyətinin necəliyi, nəyi yaxud nələri ehtiva etməsi, yekun etibarı ilə seçilən trayektoriya üzrə həyata keçiriləcək iqtisadi proseslərin effektivlik dərəcəsinə bir-başa təsir göstərmək iqtidarındadır. Və, əgər nəzərə alsaq ki, bir qayda olaraq kəmiyyətcə ifadə edilə bilənlər ölçülür, əvvəl və sonra arasındakı konkret və bir-birini

əvəzləyən situasiyaların keyfiyyət xarakteristikaları nəinki ölçülmür, heç müqayisə də olunmur, onda inkişafın həm proses, həm də nəticə olaraq adekvat dəyərləndirilməsi aspektindən müşkül problemlərin meydana çıxması qaçılmaz olur. Yəni, həm real situasiya və onun gerçək məzmunu ilə bağlı, həm də həmin zaman kəsiyində əldə edilmiş nəticələrin düzgün dəyərləndirilməsində xətalara yol verilir ki, bu da inkişaf proqnozlarının həqiqiliyini şübhə altına alır. C.Stiqlist yazır ki, 2008-ci il qlobal maliyyə böhranına bir ay qalmış bir toplantı keçirdik və yaxın gələcəkdə baş verə biləcək deyişiklikləri müzakirə etdik. Lakin, heç kimin ağlına gəlmədi ki, cəmi bir ay sonra bütövlükdə qlobal sistemi silkələyəcək bir sistem böhranı baş verəcəkdir.

Yaxud, başqa bir misal!

Məsələn, vaxtilə qlobal sistemin təhlükəsizliyinin öyrənilməsi üçün dinamik sistemlər nəzəriyyəsi bazasında Forresterin dinamik modeli tərtib edilmişdir...Məlumdur ki, bu model əsasında artımın həddləri haqqında gəlinən nəticə...əslində, real gerçəkliyin deyil, qapalı sistemlərin aksiomalarından biri kimi ortalığa qoyulmuşdur. Bu "aksioma" əsasında verilən proqnoz riyazi nəzəriyyələrin aksiomasından başqa bir şey deyildir. O vaxt, 1960-cı illərin əvvəlində proqnozlaşdırılmışdır ki, kəşf olunmuş neft ehtiyatları 42 il ərzində tükənəcəkdir. Yəni, haradasa 2003-2005-ci ilərdə dünyada neft ehtiyatları tam şəkildə qurtarmalı idi. Maraqlıdır ki, bu gün də hesab olunur ki, neft 42 ildən sonra tükənəcək???

Reallığın təsvirində yer alan yalnışlığın yaxud natamamlığın anatomiyasına ötəri nəzər salmaqla problemin harada "gizləndiyini" üzə çıxarmaq mümkündür. Rəqəm – yalnız nəticəsi hesablana bilən proses və hadisələrin təsvirində müəyyən əhəmiyyət kəsb edir. Inkişaf prosesində sosio-psixoloji amillərin əvəzedilməz rol oynamağına baxmayaraq, kəmiyyətcə qiymətləndirmə imkanlarına sahib deyildir. Məsələn, qərar qəbul etmə prosesinin gedişini araşdırmaqla nə qədər mürəkkəb və ölçüyə gəlməz amillərin yer aldığını görmək olar. Eləcə də, iqtisadi subyektlərin davranış tərzini dəyişmələrinin nədən baş verdiyini heç də həmişə anlamaq mümkün olmur. Bir çox hallarda intuitiv qərarlar qəbul olunur ki, onun da rasional elmi dərki son dərəcə müşkül məsələdir.

Artıq heç bir şübhə yoxdur ki, inkişaf prosesində uğur qazanmağın əsas ağırlıq mərkəzlərindən biri psixologiyanı özündə ehtiva edir. Və, məlum olduğu kimi, psixoloji olanlar yalnız subyektiv yolla (sorğu və s.) dəyərləndirilə bilir. Bu aspekt reallığın gerçək mənzərəsini anlamanın obyektiv əsaslarını əməlli – başlı erroziyaya uğradır.

Iqtisad elmində iqtisadi inkişaf səviyyəsinin ölçmə metodikası - ən mühüm metodoloji problem olaraq qalmaqdadır. "İqtisadi inkişafın əsas göstəricisi nədir?" sualına iqtisadi fikir tarixində müxtəlif cavablar verilir:

1) Marksist yanaşma: Kapitalın üzvi quruluşunun yüksəlməsi;
2) Neoklassik yanaşma: Emaledici sənayenin xüsusi çəkisinin artımı;
3) Postindustrial yanaşma: üçüncü sektorun – xidmət sektorunun xüsusi çəkisinin yüksəlişi.

Göründüyü kimi, sadalanan yanaşmalar birmənalı olaraq, kəmiyyət xarakterlidirlər və inkişaf prosesinin keyfiyyət aspektinin şərhi baxımından yetərli deyildirlər.

Eyni zamanda, birinci iki yanaşma – industrial eranın problemə yanaşma tərzini özündə ehtiva edir və mahiyyətcə inkişaf prosesinin elementləri statusundan kənara çıxşır. Həmçinin, xidmət sektorunun artımı da inkişafın universal göstəricisi kimi çıxış edə bilməz. Ən azı, ona görə ki, bu sektorun artımının müəyyən sərhədləri mövcuddur və o sonsuzluğa qədər davam etmə iqtidarında deyildir.

Uzun illər ərzində, sırf metodiki prizmadan yəni inkişaf səviyyəsinin konkret formada müəyyənləşdirilməsi aspektindən də çox sadə bir asılılıq ortalığa qoyulmuşdur:

$İ_i = İ_a + H_y$ ;

Burada:

$İ_i$ → iqtisadi inkişaf;

$İ_a$ → iqtisadi artım;

$H_y$ → həyat səviyyəsinin yüksəlişi;

Sonuncunun qiymətləndirilməsində 32 göstəricidən (qida rasionundan tutmuş adambaşına kağız istehlakına qədər) istifadə olunurdu. Amma, bu aspektdə qiymətləndirmə populyarlıq qazanmamışdır. Aədətən, inkişaf = artım eyniyyətindən çıxış edilirdi. Yəni, elmi nöqteyi-nəzərdən keçmiş zamanla əlaqələndiririk. Əslində isə hələ də sözügedən eyniyyət öz varlığını saxlamaqdadır.

Beləliklə, apardığımız nəzəri-metodoloji araşdırmalar da göstərir ki, mahiyyətcə keyfiyyət dəyişiklikləri sistemi kimi çıxış edən inkişaf prosesinin universal xarakterli kəmiyyət göstəricisi yoxdur və olması da prinsipcə mümkün deyildir. Əvvəllərdə qeyd etdiyimiz kimi, növbələşən müxtəlif situasiyaların müxtəlif keyfiyyət səviyyələrinin müqayisəsindən qeyri bir universal ölçmə üsulu yoxdur. Eyni zamanda, bu nöqteyi-nəzərdən (mütləq "yoxluq" anlamından) bir aspektə diqqət yetirilməsini məqsədəuyğun hesab edirik. Belə ki, inkişafın əslində iki istiqamətdə ölçülməsini istəyirik: həm proses, həm də nəticə kimi! Hesab edirik ki, çıxılmazlıq situasiyasının yaranması (hesablama üsulunda yaxud adekvat göstəricilərin seçimində və əsaslandırılmasında) əsasən inkişafın proses kimi qiymətləndirilməsində müşahidə edilir.

Yəni, dinamik prosesi yaxud iqtisadi hərəkəti "gediş" dövründə, məqsədə çatmanın hansı mərhələdə olduğunu müəyyənləşdirmək üçün dəyərləndirmənin mürəkkəbliyi, hətta mümkünsüzlüyü tamamilə təbii-obyektiv səciyyə daşıyır. Inkişaf baş tutdumu sualına yalnız prosesin sonunda, yəni nəticədə adekvat qiymət vermək olar. Başqa sözlə, keyfiyyət səviyyələrinin müqayisəsi əvvəl və sonun müqayisəsinə istinadla aparılmalıdır. Hesab edirik ki, əks yanaşma, yəni prosesi ölçmə cəhdləri ən yaxşı halda hissəvi xarakterli kəmiyyətcə qiymətləndirmədən kənara çıxa bilməyəcək və keyfiyyət aspektini "görməməzlikdən" gəlməklə uğursuzluğa ürcah olacaqdır.

Ümumiyyətlə, ölçmə ilə bağlı problemin qoyuluşu belədir ki, mövcud metodika mürəkkəb sosio-iqtisadi sistemlərdə inkişafın səviyyəsi və effektivliyini üçlü vəhdətdə (iqtisadi effektivlik, sosial ədalət, ekoloji təhlükəsizlik) əks etdirə bilmir. Bununla əlaqədar olaraq, BMT (Dayanıqlı inkişaf üzrə komissiya, ətraf mühitin mühafizəsi proqramı və s.), "Roma klubu", Beynəlxalq sistemli tədqiqatlar institutu və s. və i.a. dayanıqlı inkişafın monitorinqi və səviyyəsini ölçmə imkanı yarada biləcək göstəricilər (indikatorlar) sistemi ilə bağlı araşdırmalar həyata keçirirlər. Və, hesab edilir ki, bu aspektdən bütün səviyyələr – qlobal, milli, ölkələr qrupu, regional, lokal və s. əhatə olunmalıdır. Yalnız qlobal, yaxud milli səviyyədə dayanıqlı inkişafın gedişi (monitorinqi) və nəticəsi (səviyyəsi) aspektində həyata keçirilən ölçmə proseduru reallığı tam və sistemli formada təcəssüm etdirməyə kifayət deyildir. Bu təsbitlə razılaşmaq olar. Federativ quruluşlu ölkələrdə qeyd edilən səviyyə müxtəlifliyi həqiqətən də mühüm yer tutur. Dayanıqlı inkişafın gedişinin monitorinqi müxtəlif səviyyələr üzrə aparıldığı təqdirdə, problem yaradan yaxud yaratma ehtimalı olanların aşkarlanması və preventiv tədbirlərin görülməsi aspektində daha əlverişli şərait formalaşa bilər. Amma, yuxarıda da qeyd etdiyimiz kimi dayanıqlı inkişafın proses olaraq qiymətləndirilməsi yaxud bu rakursdan hər hansı bir inteqral göstəricinin tətbiqi çox müşkül bir problemdir. Yekun etibarı ilə, bu anlamda inkişaf trayektoriyasının gedişini ehtimallı – induktiv məntiqlə "seyr" etmək olar, lakin onun konkret

sərhədlərini və prosesin gedişində ardıcıl olaraq baş verən “yerdəyişmələrin” məhz “inkişaf” olduğunu qiymətləndirmək mümkünsüzlüyü prinsipal səciyyə daşıyır.

Inkişafın ölçü proseduru dünya ölkələrinin əksəriyyətində ÜDM-un artım templəri üzərində bərqərardır. Hesab edirik ki, ölçü proseduru keyfiyyətində ÜDM-a istinadla tətbiq edilən paradiqma situasiyanın gerçək mahiyyətini anlamağa yardımçı ola bilməz. Məsələn, əksər ərəb ölkələrində ÜDM-un artımı enerjidaşıyıcıların satışı əsasında baş verir və dünya bazarının konyukturasindan mütləq asılılıqdadır. Bu, eyni zamanda, yalançı inkişaf illyuzasiyası yaratmaqla bahəm dayanıqlılığın əks istiqamətində yer alır. Beləliklə, sözügedən ölkələrdə yalnız “indi”, yalnız “bugün” aktual olur. Uzunmüddətli dövrdə sonrakı nəsillərin hansı fəlakətlərlə qarşılaşacaqları “gələcəyin işi kimi” bir kənara qoyulur.

Digər tərəfdən, ÜDM-un adambaşına düşən hissəsi konkret deyil, ümumiləşdirilmiş göstəricidir. Belə ki, bölgünün real mənzərəsini əks etdirmir. Əhalinin maddi təminat və həyat səviyyəsinin həqiqətdə necə olduğunu bu göstərici əsasında müəyyənləşdirmək müşkül məsələdir. Real gəlirlər üzrə əhali qrupları arasında 1:100-ə və daha çox fərq ola bilər və olur da! Yəni, müəyyən qrup istisna olmaqla əhalinin böyük hissəsinin həyat səviyyəsi heç də yüksək olmur və s.

Qısaca şəkildə desək, ÜDM – sosial ədalət və ekoloji təhlükəsizliklə bağlı hər hansı bir informasiya daşıyıcısı deyildir. Yəni, sosio-iqtisadi sisteminin dayanıqlılığı nöqteyi-nəzərindən çox mühüm əhəmiyyət kəsb edən sosial ədalət və ekoloji təhlükəsizliklə bağlı vəziyyətin necə olduğunu bu sferalarda nələrin baş verdiyini özündə ehtiva etmir. Gələcəkdə normal, dayanıqlı cəmiyyətin mövcudluğunu şərtləndirən iki əsas sfera nəzər-diqqətdən kənarda qalır. Buna görə də, ÜDM-u inkişafın universal göstəricisi kimi səciyyələndirmək və onun artım templərinə istinadla inkişaf proqnozları hazırlamaq mənasızdır. Hal-hazırda dünya, əsasən inkişaf etmiş ölkələr dayanıqlılığın inteqral göstəriciləri kimi Dünya Bankının hazırladığı korrektə olunmuş xalis yığımı indeksi və insan inkişafı indeksindən istifadə edirlər.[174]

Göstəricilər sistemi kimi BMT-nin 2015-ci ildə qəbul etdiyi Dayanıqlı inkişafın Məqsədləri (2016-2030) də istifadə oluna bilər.[175] Sözügedən DİM sistemi 17 məqsədi, 169 vəzifəni və 230 göstəricini özündə ehtiva edir. 17 məqsədin 7-i sosial sferaya, 4 – iqtisadi, 2 – siyasi, 4 – ekoloji sferaya aiddir. Əsas diqqət – sosial inkişaf sferasına yönəlmişdir. Bu məqsədlərin elmi cəhətdən əsaslandırılmasını birmənalı şəkildə qiymətləndirmək mümkünsüz görünür. Belə ki, həm siyasi, həm də sosial sferada məqsəd – arzuedilən gələcəyin subyektiv obrazı kimi anlaşıla bilər. Yəni, obrazın gerçəkləşmə ehtimalı hər hansı bir elmi bazaya söykənmir. Bu rakursdan hər şey dəyərlərin qarşılıqlı bağlılıq dərəcəsindən asılı olur ki, bu bağlılığın da məqsədyönlü şəkildə təşkili haradasa imkansızdır. Buna görə də, hesab edirik ki, qeyd edilən sferalara münasibətdə (dayanıqlı inkişaf kontekstindən) məqsədliliyin (sırf elmi prizmadan) istiqamətlilik anlayışı ilə əvəz olunması daha düzgün sayıla bilərdi: yəni, prosesin yönləndirilməsi.

Başqa sözlə, dayanıqlı inkişafla bağlı konkret məqsədləri deyil, “seçilmiş yol”un (inkişaf yolunun) məqsədyönümlüyü ön plana çıxarılmalı və monitorinq də məhz bu xüsusi gerçəkçi formada dəyərləndirilməlidir.

Göründüyü kimi, dayanıqlı inkişafın ölçülməsi problemi bu gün də problem olaraq qalmaqdadır. Nəzəri metodoloji bazanın adekvat şəkildə formalaşmaması metodiki aparatın analoji situasiyada qalmasını şərtləndirən əsas amildir. Digər tərəfdən, ümumiyyətlə inkişaf

---

[174] Human Development Report. 2015. N.Y. UNDP

[175] С.Н.Бобылев, С.В.Соловьева. Новые идеи для новой экономики//Мир новой экономики. №1; 2016

prosesinin (dayanıqlı ya dayanıqsız) ölçmə prosedurunda mövcud olan problemlər, yeni keyfiyyət aspektinin ölçüyə gəlməməsi də bu rakursdan əngəl törədən amillər sırasındadır.

Dayanıqlı inkişafın ölçülməsi üzrə BMT-nin eqidası altında aparılan tədqiqatlarda iki müxtəlif yanaşma ortalığa qoyulmuşdur: 1) Göstəricilər yığımı; 2) Kompleks göstəricilər; Fərq ondadır ki, ikinci variantda beynəlxalq müqayisənin aparılması birinci varianta (göstəricilərin say çoxluğu) nisbətən daha asandır. Lakin bu halda alınan nəticənin gerçəkliyi şübhəli olur. Sonrakı araşdırmaların yekununda (2012-ci il) dayanıqlı inkişaf göstəricilərinin (kapital və siyasətdən kombinə olunmuş formada) 3 qrupda qruplaşmasının məqsədəuyğun olduğu qeyd edilmişdir: 1) 60 göstərici yığımı; 2) 90 göstərici; 3) 24 göstərici yığımı; Bununla belə, ayrı-ayrı ölkələr də öz milli metodikalarını hazırlamaqda israrlıdırlar. Bu məqsədlə bir çox hallarda insan inkişafı indeksinin insanın dayanıqlı inkişafı indeksi kimi modifikasiyasını (dayanıqlıqla bağlı göstəricilər əlavə etməklə) həyata keçirilər.

Hesablama metodikası aşağıdakı formada təqdim olunur:

Idii = $\sqrt[4]{i_1 \times i_2 \times i_3 \times i_e}$ ;[176]

Burada:

Idii – insanın dayanıqlı inkişaf indeksi;

$I_1$ – orta ömür uzunluğu indeksi;

$I_2$ – Təhsil indeksi;

$I_3$ - ÜDM-un dəqiqləşdirilmiş indeksi;

$I_e$ – ekoloji indeks.

Və, hər bir indeks İİİ-də olduğu kimi hesablanır:

Indeks = $\frac{faktiki\ göstərici - minimal\ göstərici}{maksimal\ göstərici - minimal\ göstərici}$

Belarusun statistika xidmətində yuxarıda təsvir etdiyiniz düstur aşağıdakı formada verilir:

Idii = $\frac{i_1+i_2+i_3+i_4}{4}$ [177]

Ədalət naminə, qeyd etmək lazımdır ki, ölçünün indeks metodikası real situasiyanın məzmunu ilə bağlı heç də dəqiq və təfsilatlı məlumat vermir. Məsələn, əgər hansısa bir ölkədə təhsil alanların xüsusi çəkisinin 10% aşağı düşməsi kifayətdir ki, göstəricinin səviyyəsi kəskin şəkildə aşağı düşsün. Və, əgər bura indekslərin hesablanması üçün zəruri olan informasiyaların toplanması və əldə edilməsi üsullarını da əlavə etsək, onda bu məsələ ilə bağlı hansısa bir riyazi dəqiqlikdən bəhs etməyin mənasız olduğunu anlamaq o qədər çətin olmayacaqdır.

Bir sıra tədqiqatlarda da, iii-nin universallıq dərəcəsi qəbul olunmur. Bu indeks:

1) Insan inkişafının kompleks ölçüsü deyildir;
2) Mövcud imkanların yalnız üç aspektini: ÜDM, təhsil və ömür uzunluğu – özündə ehtiva edir;
3) Insan inkişafının qısamüddətli dövrünü ölçməkdə acizdir;
4) Ölkədaxili müstəvidə insan inkişafındakı fərqlilikləri nəzərə almır.[178]

Və, məhz buna ğgrə də, indeksə - ən azı – ekoloji təhlükəsizlik göstəricisi də əlavə olunmalıdır. Amma, sosial ədalətlə necə davranmaq lazımdır (indeksə daxil etmək rakursundan) sualının üstündən sükutla keçilir.

---

[176] Измерение устойчивого развития / В рамках проекта Счета Развития ООН. 2012. http||www.unece.org|stats|document.2012.10qeviron.html

[177] Национальная комиссия по устойчивому развитию Республики Беларусь. 2004. http||un.by|pdHOONsmallrus.pdf

[178] Как измерять человеческое развитие: пособие. Нью – Йорк. ПРООН.2007.с.41

C.Stiqlist və A.Senin rəhbərliyi altında fəaliyyət göstərən (2008, Fransa) sosial tərəqqi və iqtisadi effektivliyin ölçmə problemləri üzrə Beynəlxalq Komissiya, həyat səviyyəsinin ölçülməsində subyektiv rifah göstəricisindən (ev təsərrüfatlarının sorğusu əsasında) istifadəni təklif etmişdir.[179] Və, 2010-cu ildən etibarən İƏİT rifah indeksini hesablamaqdadır. Rifah anlayışının tərkib elementləri kimi aşağıdakılar götürülür:

1) Fiziki şərait – mənzil şəraiti, gəlirlər, iş yeri;

2) Həyat keyfiyyəti - ətraf, təhsil, ekologiya, vətəndaş haqları, səhhət, həyatdan məmnunluq, təhlükəsizlik, iş və şəxsi həyat arasında balans – yəni, asudə vaxtın interval uzunluğu;

Dayanıqlı inkişafın monitorinqi və qiymətləndirilməsində istinad edilən metodoloji müstəvi kifayət qədər rəngarəngdir (şək.6.7). Şəkildən göründüyü kimi, ölçmə proseduruna metodoloji prizmadan iki yanaşma, 7 model (metodiki anlamda) tətbiq olunur. Və, hər bir metodiki model fərqli çıxış nöqtəsinə istinad edir.




***Şəkil 6.7. Dayanıqlı inkişafın ölçülməsinə metodoloji yanaşmalar.***

---

[179] S.Stiqlist, A.Sen, J.P.Firdoussi. Report by the Comission on the Measurement of Economic Performance and Sosial Proqress. Paris, 2009

Mənbə: Л.Лагодич. Измерение устойчивого развития: проблемы теории, методолокии, практики.// Экономика и управление. 2014. № (40).с.4-7 - əsasında müəllif tərəfindən tərtib olunmuşdur.

Bununla belə, göstərmək lazımdır ki, ölçmə metodikalarının qısa zaman kəsinyində təkamülü prosesi də müşahidə edilməkdədir. (şək.6.8). Dayanıqlı inkişafın ən çox populyar olan metodikalarına aşağıdakılar aiddir.




***Şəkil 6.8. Dayanıqlı inkişafın ölçmə metodikalarının dəyişmə xronologiyası.***

Qeyd etmək lazımdır ki, ölçmə metodikalarının təkmilləşmə təmayülünə baxmayaraq, əvvəlki yanaşmalar hələ də öz varlığını saxlamaqdadır.

Maraqlıdır ki, inteqral göstəricilərlə bağlı problemlərin mövcudluğuna baxmayaraq, 2006-cı ildən etibarən dayanıqlı cəmiyyət Fondu tərəfindən cəmiyyətin dayanıqlılığı indeksi hesablanır və bu əsasda beynəlxalq müqayisələr aparılır.[180]

Ictimai inkişafın dayanıqlılığını ölçən Fond nəticələri iki ildən bir nəşr etdirir. Indeks – iqtisadi, sosial və ekoloji sferaları əhatə edən 24 göstərici əsasında hesablanır və 0 (ən aşağı) → 10 (ən yuxarı) intervalında qiymətləndirilir. 2012-ci ildə aparılan qiymətləndirməyə görə dünya üzrə indeks 4,8-ə bərabər olmuşdur. Ölkələr üzrə qiymətləndirmə isə - “sürprizlərlə” çox zəngindir. Birinci beşlikdə ənənvi olaraq İsveç, Avstriya, Norvec və Litva (4-cü yer) gəlir. Şri-lanka – 10-cu yer, Kamboca 14, Almaniya 22, Homduras – 26-cı yer, İngiltərə - 28-ci yer, Uqanda – 30-cu yer, Laos – 36-cı yer, Cənubi Koreya – 57-ci yer...ABŞ – 116-cı yerdə qərar tutur. Paradoksallığın bu qədər geniş bir diapazonda təzahürü onunla izah edilə bilər ki, ya informasiyaların (toplanan) həqiqiliyində böyük problemlər var, ya indeksin hesablandığı 3 əsas sfera arasında düzgün proporsionallıq gözlənilməyibdir ki, bu da birtərəfli qiymətləndirməyə yol açıb, ya da ölçmə metodikasının özü yalnışdır. Məsələn, ölkədə işsizliyin səviyyəsinin qiymətləndirilməsində, bir qayda olaraq, Beynəlxalq Əmək Təşkilatının tövsiyyələrindən istifadə olunur. Amma, ölkələrin bir xeyli hissəsində rəsmi qeydiyyatdan keçənlərin sayı əsas götürülür ki, bu da aydındır ki, sözügedən sferada reallığı olduğu kimi əks etdirmir.

---

[180] Elektron resurs. http//www.ssfindex.com/

Problemin həlli məqsədilə hələ 2012-ci ildə 2015-ci ildən sonrakı dövr üçün BMT-nin yeni inkişaf konsepsiyasını hazırlamaq üçün Məqsədli Qrup (50 ixtisaslaşmış idarənin mütəxəssislərindən ibarət) yaradılmış və bu qrupun qarşısına konkret vəzifələr qoyulmuşdur:

Inkişafın ölçülməsində sistemli tamlığa nail olmaq məqsədilə aşağıdakılara xüsusi diqqət yetirilməlidir:

1) Sosial inkişafın sistemli şəkildə öıçülməsi;
2) Iqtisadi inkişafın sistemli ölçü metodikasının hazırlanması;
3) Ekoloji dayanıqlılığın təminatı;
4) Sülh və təhlükəsizlik.[181]

Dayanıqlılığın qiymətləndirilməsində istifadə olunan göstəricilərin say çoxluğu ölçü metodikasından asılı olaraq dəyişir. Bununla bahəm, son dövrün təcrübəsi göstərir ki, göstərici sayı daha çox azalma meyllidir. Məsələn, BMT-nin dayanıqlı inkişaf üzrə Komissiyası ilkin göstəricilərin sayını (132) iki dəfədən çox, ABŞ-da göstəricilər sistemindəki sayı (400) 10 dəfə azaltmışdır. İƏİT isə cəmi 10 baza göstəricisindən istifadə edir.

Beləliklə, apardığımız araşdırmalar dayanıqlı inkişafın həm monitorinqi, həm də nəticə kimi qiymətləndirilməsində kifayətqədər böyük problemlərin olduğunu ortalığa qoydu.

Fikrimizcə, vəziyyətdən effektiv çıxış yolu ölçmə probleminin nəzəri-metodoloji bazasına daha diqqətli nəzər yetiməkdən, gerçəkliyə maksimum adekvat olan göstəricilər sistemini seçməkdən, spekulyativ baxışlardan yan ötməkdən keçir. Bu aspektdən bəzi nüanslara fərqli prizmadan yanaşmanı məqsədəuyğun hesab edirik.

Əvvəla, inkişaf – dayanıqlı ya dayanıqsız fərq etməz – zamanın funksiyası kimi çıxış edir. Iqtisadi tsiklin inkişaf fazasının zaman sərhədlərini yaxud inkişafın hansı zaman intervalından (1 il, 5-10 il və s.) sonra başa çatacağını əvvəlcədən dəqiq şəkildə müəyyənləşdirmək mümkünsüzlüyü mövcuddur. Buna görə də, inkişaf səviyyəsinin, bir qayda olaraq bir illik müddət ərzində qiymətəndirilməsi təcrübəsinin məntiqi əsaslarını anlamaq mümkün deyildir. Bir illik müddətdə iqtisadi artım tempini, ekoloji zərərin həcmini və s. dəyərləndirmək olar. Əsas olan zaman kəsiyi – tsiklin inkişaf fazasının əvvəli və sonudur. Bu müxtəlif interval uzunluğunda ola bilər. Və, inkişaf – bir proses kimi – başa çatmadan yeni keyfiyyətin sistemli qərarlaşması baş vermir. Bu müddəti birillik hissələrə bölmək və hər bir hissədə (bir ildə) inkişafın səviyyəsini ölçməyə cəhd göstərmək açıq-aydın şəkildə təzahür edən yanılmadan başqa bir məna kəsb etmir. Çox zəif və şübhəli ehtimalla bu cür metodiki yanaşmanı inkişaf prosesinin monitorinqi yaxud diaqnostikası kimi qəbul etmək olar.

Ikincisi inkişaf fenomeni - yeni keyfiyyətin yaranması prosesidir. Və, keyfiyyət – sözün ən konkret formasında – yararlı (oxu:faydalı) xassələrin məcmusudur. Buna görə də, təəccüblü deyildir ki, iqtisadi nəzəriyyənin mərkəzi hədəfi faydalılığın əldə olunması məsələsidir. Yəni, müəyyən anlamda ölçülən şey – faydalılıq yaxud yeni "yaranan" yararlı xassələrdir. Elə həmin abstraksiyadan çıxış etməklə ölçü problemini sadə bir şəkildə həll etmək olar:

$$İ_m = \frac{\Sigma F}{t} \times 100\%$$

Burada:

İm – milli iqtisadiyyatın inkişafı;

ΣF – məcmu fayda;

T – zaman sürəci

Məcmu fayda – təkcə iqtisadi və sosial sferada deyil, ictimai həyata bütün spektri üzrə əldə edilmiş faydaların cəmidir:

---

[181] «Превращая в реальность будущее, которого мы добиваем для всех» Доклад. ООН.2012.(Электронный ресурс). С.2.

$\sum F = (f_1 + f_2 + f_3 + ... + f_n)$

Amma problemi müşkülə salan məsələ faydanın kəmiyyətcə qiymətləndirilməsinin qeyri-mümkünlüyüdür. Ona görə də, qiymətləndirmədə istifadə olunan göstəricilərin sayı getdikcə artmaqdadır. Bununla bahəm, alternativ yol, hər halda mövcuddur. Məsələn, institutsional aspektdən faydalılığın (yəni, keyfiyyətin) artımı kimi Azırbaycanda yaradılan ASAN xidmət institutunu göstərmək olar. Həm zaman, həm də maliyyə məsrəflərinə ciddi qənaət asoektində, həqiqətən də yüksək keyfiyyət səviyyəsinə nail olunmuşdur.

Deməli, əvvəldə də göstərdiyimiz kimi, inkişaf – yalnız nəticədə "təzahür" edir. Qiymətləndirmə də məhz bu yönümdə aparılmalıdır.

Üçüncüsü, dayanıqlı inkişafın – istinad nöqtəsi olan insana münasibətdə yaknız inkişaf aspektindən çıxış etməklə gerçəkliyin problemlər kompleksini (dayanıqlılıq aspektindən) bütün təfsilatı ilə aşkarlamaq mümkün deyildir. Buna görə də, hesab edirik ki, insan inkişafı ilə yanaşı insan yoxsulluğu indeksi də hesablanmalıdır. Insan yoxsulluğu üç aspektdən dəyərləndirilir. Yəni, təkcə gəlirin səviyyəsinə (adambaşına düşən ÜDM – alıcılıq qabiliyyətinin pariteti əsasında hesablanmış) görə deyil, əsas tələbatlar və imkanlar baxımından qiymətləndirmək zəruridir. Əvvəlki dövrlərdə çox populyar olan insan yoxsulluğu indeksi aşağıdakı qaydada hesablanır:

$İYİ = [(P_1^3 + P_2^{3 +} P_3^3):3 ]^{1/3};$

Burada:

İYİ – insan yoxsulluğu indeksi;

$P_1$ – 40 yaşına çatmamış ölənlərin xüsusi çəkisi;

$P_2$ – Savadsızların xüsusi çəkisi;

$P_3$ – iqtisadi təminat göstəricisi.

Iqtisadi təminat göstəricisi $P_3$ – ün hesablanma metodikası:

$P_3 = (P_{31} + P_{32} + P_{33}):3$

Burada:

$P_{31}$ – Tibbi xidmətlə əhatə olunmayanların xüsusi çəkisi;

$P_{32}$ – Təmiz (içməli) su ilə təminatı olmayanların xüsusi çəkisi;

$P_{33}$ – 5 yaşına qədər olan uşaqlarda çəkisi normadan az olanların xüsusi çəkisi;

Göründüyü kimi, iqtisadi təminat göstəricisi tam alternativ formada dəyərləndirilir. Eləcə də, sosial ədalətlə bağlı (ölçmə prizmasından) hələ ki yeganı olan göstəricidən – Cinni əmsalından istifadə edilməsi məqsədəuyğundur.

Dördüncüsü, söz yox ki, dayanıqlı inkişafın səviyyəsini adekvat formada qiymətləndirmək üçün, ilkin olaraq analitik bazanın yaradılması, məsələn, ekoiqtisadi uçotun Milli Hesablar Sisteminə daxil edilməsindən başlanmalıdır. Ənənəvi ölçü proseduru və istifadə edilən göstəricilər artıq reallığı əks etdirməkdə acizlik nümayiş etdirirlər. Problemə yanaşmada bizim məqsədimiz sırf praqmatik anlamda göstəricilər sisteminin hazırlanması deyildir. Biz, əsasən ölçü prosedurunun konseptual – metodoloji aspektlərinə aydınlıq gətirməyə çalışdıq. Bununla belə, müasir dünya təcrübəsindən çıxış etməklə dayanıqlı inkişaf səviyyəsinin qiymətləndirilməsində korrektə olunmuş yığım indeksi, insan inkişafı indeksi, ekoloji dayanıqlılıq indeksi, real tərəqqi indeksi, qlobal rəqabətqabiliyyətliliyi indeksi, ekoloji nailiyyətlər indeksi (məsələn, 1kq enerjidaşıyıcısına düşən ÜDM-un həcmi və s.) bilik iqtisadiyyatının inkişaf indeksi kimi ölçü prosedurlarından kompleks şəkildə yanaşmanı məqsədəuyğun hesab edirik. Sosial ədalət konsepti ilə bağlı ölçünün – hər hansı bir formada – prinsipcə mümkün olmadığını, onu yalnız nəticədə (inkişaf prosesinin) yalnız dolayısı ilə qiymətləndirməyin mümkünlüyünü qəbul etmək gərəkir. Eyni zamanda, dayanıqlı inkişafın həm

ölçü proseduru, həm də göstəricilər sistemi ölkələr bölümündə fərqliliklər nümayiş etdirirlər. Bu, o deməkdir ki, məsələn Azərbaycanda dayanıqlı inkişafın qiymətləndirilməsi ölkənin özünəxas olan spesifikasından çıxış etməklə aparılmalıdır.

### §6.5. İnkişaf prosesində problemli situasiyalar: konseptual baxış.

İnkişaf prosesinin normal gedişinə nail olma problemi, əksər ölkələr (inkişaf səviyyəsindən asılı olmayaraq) bölümündə, müasir dövrün ən aktual probleminə çevrilmişdir. Dayanıqlıq, effektivlik və rasionallıq sosio-iqtisadi prosesin təşkili və tənzimlənməsinin fundamental bazasına kimi həlledici əhəmiyyət kəsb etməyə başlamışdır.

Milli iqtisadiyyat nöqteyi-nəzərindən sözügedən problem xüsusilə böyük aktuallıq kəsb edir. Bir tərəfdən, qlobal münasibətlər sistemi və dünya iqtisadiyyatında baş verən dəyişikliklər, qlobal bütövlüyü «parçalayan» ziddiyyətli proses və fəsadlı situasiyalar, adaptasiya mexanizminin praqmatik məzmununun yetərsizliyi, digər tərəfdən isə milli iqtisadi situasiyanın müxtəlif mənatutumlu amillər çoxluğu, qlobal səviyyədən birtərəfli asılılığa düşməsi, kapitalın transmilliləşməsi nəticəsində ölkənin «ölkə-sistemə» transferi və s. inkişafın dayanıqlılığı probleminin son dərəcə mürəkkəb mahiyyətdə formalaşdığını ortalığa qoyur.

Problemin nəzəri dərki sferasında da belə metodoloji kasadlıq qabarıq şəkildə ifadə olunmaqdadır.

Bu aspektdən müasir elmi fikirdə dominant mövqeni problemin neoliberal modelli bəsit həll üsulları tutur. İlkin çıxış nöqtəsi kimi iqtisadiyyatın açıqlıq dərəcəsi götürülür. Və, bütün bundan sonra gələn konseptual müddəalar məhz həmin «nöqtəyə» istinadla formalaşır.

Fikrimizcə, qeyd edilən aspektin əhəmiyyətliliyini mütləq anlamda qəbul etmək yanlış olardı. İqtisadiyyatın həm funksional, həm də institutsional açıqlıq (ikincinin öncüllüyü prizmasından) dərəcəsi konkret ölkənin konkret inkişaf səviyyəsindən, geoiqtisadi məkanda sərgilədiyi mövqenin xarakterindən və milli iqtisadi inkişafın strateji məqsədlərindən asılı olaraq formalaşır.

İqtisadiyyatın açıqlığı yaxud qapalılığı istənilən situasiyada nisbi səciyyə daşıyır:

1) Hər bir milli iqtisadiyyat ekzogen təsirə fərqli mövqe sərgiləyir. Bütün təsirlərə açıqlıq mümkün deyildir. Belə olan halda iqtisadiyyatın «milliliyi», tamlığı, bütövlüyü olmayacaqdır.

2) Açıqlıq/qapalılıq selektiv xarakterlidir. Bəzi sferalarda açıqlılıq, bəzilərində qapalılıq, üçüncülərdə isə hər ikisinin müxtəlif nisbətli kombinasiyası ola bilər;

3) Mütləq anlamda açıqlıq, yaxud qapalılıq, prinsipcə mümkün deyildir.

«Açıq» iqtisadiyyatın əsas xassələri sırasına aşağıdakıları aid etmək olar:

1) Spontan qaydanın dominantlığı: Endogen və ekzogen xarakterli fluktuasiyaların fasiləsiz axınını doğurmaqla milli iqtisadiyyatın dinamikliyini, fasiləsiz dəyişkənliyini və natarazlığını meydana çıxarır;

2) İqtisadiyyat – özünütəşkil keyfiyyəti əxz edir;

3) Əksər ünsürlər (elementlər) arası əlaqə bazar məzmunlu olur və bu elementlərin özü də açıq xarakter daşıyır;

4) İqtisadiyyat – polisentrik hala gəlir («çoxşaxəli»).

5) Təklifi limitləşdirən rolunda resurs təminatı deyil, tələb çıxış edir (Qapalı iqtisadiyyatdan fərqli olaraq). Potensialdan istifadə gərginliyi yaranmır;

6) İnvestisiyaların idarə edilməsi normalara əsaslanır;

7) Və, nəhayət, açıq iqtisadiyyat həmişə natarazlıq halında olur.




***Şəkil 6.9. Milli iqtisadiyyatın inkişaf prosesinə sineqretik baxışın sadələşdirilmiş blok-sxemi***

*Mənbə: müəllif tərəfindən tərtib olunmuşdur.*

Sineqretikanın bifurkasiya nöqtəsi adlandırdığı sərhəd situasiyasının dövlət tənzimlənməsinin aşağıdakılara adekvatlığını inkişaf prosesinin daxili məntiqindən doğan zərurət kimi qəbul etmək gərəkdir:

1) Tənzimləmənin zamanca özvaxtlılığı; Vaxtında edilməyən hərəkət, sonrakı mərhələlərdə nəinki gözlənilən effekti vermir, hətta neqativ xarakterli geridönüşü mümkün olmayan dəyişikliklərə rəvac verməklə inkişaf prosesində çoxlu sayda problemli situasiyalar yarada, yaxud prosesi ümumiyyətlə "dayandıra" bilər.

2) Tənzimləmə – iqtisadiyyatda baş verən dəyişikliklərin əsas təmayülünə, prosesin daxili təbiəti və məntiqinə adekvat olmalıdır. İnkişaf prosesinin məqsədyönlülüyü o demək deyildir ki, reallığa adekvat olmayan, anaxronizm, yaxud futuroloji məzmun daşıyan elementləri prosesə daxil etmək olar. Subyektiv amilin dominantlığı – prosesdaxili determinasiyanın xarakterinə istinadla mövcud ola bilir. Əks halda, anarxiya və xaosun yaranması, inkişaf oriyentirlərinin itirilməsi baş verəcəkdir.

3) Tənzimləmə – iqtisadi proseslərlə əks-əlaqəni nəzərə almalıdır. Əks-əlaqənin zəruriliyini əsaslandıran başlıca məqam tənzimləmə üsul, metod və prinsiplərinin verifikasiyası ilə şərtlənir. Ümummiyyətlə, tənzimlənmənin (inkişaf prosesini) seçilən məqsədə, yaxud strateji oriyentirə uyğunluğunu yoxlamağın digər bir yolu mövcud deyildir. Əks-əlaqənin nəzərə alınması prosesin nəticələrini gözləmədən tənzimlənmənin inkişaf trayektoriyasına adekvatlığını təmin etməyə, müxtəlif məzmunlu və müxtəlif kəmiyyətli itkilərdən qorunmağa imkan verir. Bir sözlə, inkişaf prosesinin normal gedişinin təminatında mühüm əhəmiyyət kəsb edən amillərdən biri kimi çıxış edir.

Mühüm problemlərdən biri (iqtisadi inkişafın dayanıqlılığı ilə bağlı) inkişaf etməkdə olan ölkələrin dünya iqtisadiyyatına inteqrasiyasının (qloballaşma anlamında) dərəcəsi ilə bağlıdır. Nəzəri baxışları, bu aspektdə 4 qrupa bölmək olar:

1) Neoklassik (neoliberal) modelli qloballaşma: əsas ideya ondan ibarətdir ki, qloballaşma prizmasından inkişaf etməkdə olan ölkələr inkişaf etmiş ölkələrin hərəkət trayektoriyasına adaptasiya olunmalıdırlar. Son 30 ilin təcrübəsi göstərir ki, deyilən aspektdə «təqlidçilik» qloballaşmadan gözləntilərin gerçəkləşməsi nöqteyi-nəzərindən daha çox istisnalar sinfinə aiddir.

2) Yenikeynsçi yanaşma: qloballaşmanın müsbət yönümlü təsiri inkar olunmur. Lakin hesab edilir ki, beynəlxalq ticarət razılaşmalarına, eləcə də inkişaf etməkdə olan ölkələrə qarşı yeridilən siyasətə yenidən baxılmalı, qloballaşma mexanizmi yenidən qurulmalıdır. İnkişaf etməkdə olan ölkələrə inkişaf etmiş ölkələrdə hazırlanan modellər deyil, «Dayanıqlı, ədalətli və demokratik artımı»[182] təmin edə biləcək siyasət lazımdır. İnkişaf məhz bunun üzərində qərarlaşır. O.Kolodko da eyni mövqeni paylaşır.[183] Qloballaşmadan bir qrup fayda əldə edir, digər qrup isə zərərə düşür. Hansı ki, təsir göstərə bilərdilər.[184]

3) Dünya – sistem yanaşması: əyalət iqtisadiyyatı konsepsiyası – F.Brodelin dünya – iqtisadiyyatları tezisinə istinad edir. Müasir dünya – sistemi 3 qruplaşmanı özündə ehtiva edir: 1) «Mərkəz»; 2) Yarıməyalət; 3) Əyalət. İ.Vallerstain hesab edir ki, müasir dünya-sistemi transformasiya dövrünə qədəm qoyubdur. Və, onun konkret konturları 25–50 ildən sonra aşkarlanacaqdır. Eyni zamanda, yeni sistemin qərb iqtisadi modeli əsasında formalaşacağı anlamında heç bir zərurət yoxdur.

---

[182] Дж.Стиглиу. Глобализация: тревожные тенденции. Пер. с англ. М., 2003, с.7
[183] Г.Колодко. Мир в движении. Пер. с польск. М., 2009, с.160
[184] И.Валлерстайн. Анализ мировых систем и ситуация в современном мире. Пер. с англ. М., 2001, с.14

4) Siyasi trilemma yanaşması: əsas ideya ondan ibarətdir ki, tam qloballaşma qlobal bazar deməkdir və qlobal hökumətdən söhbət belə gedə bilməz, reallıqda isə bu təsbit suveren milli dövlətlərlə və müvafiq olaraq, fərqli milli iqtisadi siyasətlərlə bir araya sığmır. D.Rodrikin fikrincə, müxtəlif milli iqtisadi modellərin diferensiasiyasından doğan milli institutlar arasındakı fərqliliklər əcnəbi ölkədə qeyri-rezidentlərin transaksiya xərcləri ilə bağlı böyük problemlər yaradır ki, bu da tam formatlı qloballaşmanı inkar edir. Yalnız milli suverenlikdən və müstəqil milli iqtisadi siyasətdən imtina milli iqtisadiyyatların tam şəkildə qloballaşmasına yol aça bilər. Və bu halın yalnız konkret çərçivəli inteqrasiya bloklarında reallaşması mümkündür. Təbii, çox uzun müddətli zaman intervalı çərçivəsində həyata keçə bilər. Buna görə də dünya iqtisadiyyatına tam şəkildə inteqrasiyaya canatma həm məqsədəuyğun deyildir, həm də reallaşma mexanizmi nöqteyi-nəzərindən sırf nəzəri təxəyyül səciyyəsi daşıyır. «Bizə yol hərəkətinin elə qaydaları lazımdır ki, müxtəlif ölçülü, formalı və dəyişkən sürətli avtomobillərlə digər avtomobillər arasında öz yolunu açmağa imkan versin – Bütün avtomobillər üçün eyni tip və sürət tətbiq olunmasın»[185].

Bizim araşdırdığımız problemin mahiyyəti prizmasından qloballaşmanı milli (dövlət) institutların, fəaliyyət subyektlərinin və münasibətlər məcmusunun qlobal sistemin qanunauyğunluqları və inkişaf təmayüllərinə adaptasiya prosesi kimi təsəvvür etmək olar. Əgər nəzərə alsaq ki, inkişafın dayanıqlılığı problemi ilə sözügedən adaptasiyanın real məzmunluğu arasında funksional bağlılıq mövcuddur, onda fəaliyyətin konseptual vektorlarını da adekvat müstəviyə keçirmək qaçılmaz hala gələcəkdir. İqtisadi anlamda milli bütövlüyün anaxronizmə çevrildiyi bir situasiyada inkişafın dayanıqlılığı problemi də «qloballaşır».

Bununla yanaşı, qlobal səviyyədə aparılan sinxronlaşma və unifikasiya proseslərinin ayrı-ayrı ölkələrin dayanıqlı iqtisadi inkişafına təsiri problemi heç də birmənalı xarakter daşımır və əksər hallarda asimmetrik effektlə yekunlaşır.

Digər tərəfdən, qloballaşmanın mahiyyət çalarları arasında yer alan qarşılıqlı asılılığın güclənməsi təmayülü ilə bağlı problemin ziddiyyətli məzmun daşıması məsələsi bu gün də açıq qalmaqdadır. Ölkələr və regionlar arasında formalaşan qarşılıqlı asılılıq birmənalılıqdan uzaqdır və mahiyyət etibarı ilə asimmetrik səciyyə daşıyır. Bir sıra tədqiqatçıların[186] da qeyd etdiyi kimi, inkişaf etməkdə olan ölkələrin böyük əksəriyyəti inkişaf etmiş ölkələrdən birtərəfli asılılığa düşmürlər. Son illər bu təmayül getdikcə daha intensiv xarakter almağa başlamışdır. Asılılığın birtərəfliliyi, əsasən, aşağıdakı istiqamətlər üzərində formalaşır.

İnkişaf etmiş ölkələrdə:

1) Bəşəriyyətin intellektual və texnoloji potensialının əhəmiyyətli hissəsinin bu ölkələrdə təmərküzləşməsi;

2) Ticarət dövriyyəsinin böyük həcminin sözügedən ölkələrdə təmərküzləşməsi;

3) İnvestisiya axınlarının əsas hissəsinin bu qrup çərçivəsində təmərküzləşməsi;

4) İnkişaf etməkdə olan ölkələrdən gələn miqrasiya axınlarının (inkişaf etmiş ölkələrə yönəlik) məhdudlaşdırılması.

Hesab edirik ki, qloballaşmanın doğurduğu nəticələrə münasibətdə milli iqtisadi inkişafın dayanıqlılığı iki aspektdən dəyərləndirilə bilər:

1) Sosio-iqtisadi, sosio-mədəni, o cümlədən institutsional prizmadan məcmu faydalılığın ümumcəmiyyət miqyasında proporsional paylanması imkanlarının mövcudluğu;

---

[185] D.Rodrik. The Globalization Paradox. Demokracy and the Future of the World Economy. №-4. London. 2011. p.243

[186] В.Иноземцев. Глобализация национальных хозяйств и современный экономический кризис. М., 2010

2) Məcmu faydalılığın ən azı ortamüddətli (7–10 il) dövr üçün zərərlə əvəz olunmaması; ortamüddətli dövr, nəinki baş verən prosesin inkişaf olub-olmamasını, həm də inkişafın keyfiyyətcə yeniləşmə prosesinə təsiri dərəcəsini müəyyənləşdirmək üçün optimal zaman kəsiyidir. Belə ki, qısamüddətli (1–3 il) dövr ərzində nəyin baş verdiyini birmənalı şəkildə dəyərləndirmək mümkün deyildir. Eynilə uzunmüddətli zaman intervalında (20–30 il) – yəni uzaq gələcəyə münasibətdə keyfiyyət dəyişiklikləri vektorlarının «davranış» xarakterini bəri başdan müəyyənləşdirmək imkansızlığı mövcuddur.

Bu prizmadan neytrallıq (fayda→zərər ikiliyində) yoxdur (inkişafın dayanıqlılığı nöqteyi-nəzərindən). «Neytral» faydalılıq - dayanıqlılığı deyil, sabitliyi ifadə edir. Yəni, dinamiklikdən xalidir, situasiyanın statik vəziyyətdə olduğunu ortalığa qoyur. Məlumdur ki, statiklik – əslində, proses→mərhələ qarşılaşdırılmasının abstraksiyasından başqa bir məzmun daşımır. Başqa sözlə, statiklik (sabitlik) çox qısa bir zaman kəsiyində mövcud olur. Və, zaman kəsiyinin ifrat qısalığı ucbatından onun (statik situasiyanın) gerçək məzmununu belə aşkarlamaq çətinliyi yaranır.

Qlobal miqyasda baş verən dəyişikliklərin milli iqtisadiyyata təsir gücü sürətlə artmaqdadır. O dərəcədə ki, ölkə iqtisadiyyatının inkişafında dayanıqlılığa nail olma imkanları bütünlüklə qlobal sistemin «səlahiyyət» dairəsinə keçmişdir. Fasiləsiz dəyişikliklərin (xarici mühitdə) getdiyi bir situasiyada milli iqtisadi inkişafın dayanıqlılığına nail olma, sözügedən dəyişikliklərə adaptasiya olunma dərəcəsindən birbaşa asılılığa düşmüşdür. Adaptasiya olunma – inkişaf trayektoriyası və bütövlükdə dinamik prosesin qlobal proseslərə sinxron olmaq anlamını daşıyır.

Təbii ki, o prosesləri qabaqlamaq iqtidarında olan və gələcəyə yönəlik resurs (o cümlədən zaman resursu)potensialına malik milli iqtisadiyyat inkişaf prizmasından daha böyük üstünlüklər əldə etmə imkanını qazanır. Və aydındır ki, yaranmaqda olan problem nə qədər tez aşkarlanırsa, onun həlli nəticəsində əldə edilən effekt bir o qədər çox olur.

İnkişaf – proses olma etibarı ilə gələcəyə yönələndir. Gələcəyin «qurulması» prosesidir. Sosio-iqtisadi proseslərin dinamizmində qabarıq formada təzahür edən mürəkkəblik, çoxvariasiyalılıq və qeyri-müəyyənlik inkişafın proses olmaq etibarı ilə kəmiyyətcə qiymətləndirilməsində böyük çətinliklər doğurur. Yəni, prosesin ölçü proseduru, həqiqətdə «işləmir». Eyni zamanda, dinamik proseslərə xas olan cəhət - zamanca yaxın və uzaq olan hərəkətlərin nəticələrinin prinsipcə əksyönümlü olması birmənalı dəyərləndirməni mümkünsüz edir. Yaxud, aşkar şəkildə həyata keçirilən fəaliyyətdən gözlənilməz nəticələr əldə edirik.[187] Bu anlamda gələcək inkişafın proqnozlaşdırılmasında hansısa bir optimallığa nail olmaq imkanları, prinsipcə, mümkün olmur.

İnkişaf prosesinin nəzəri dərki ilə bağlı mövcud olan problemlər kompleksinin mühüm bir hissəsi gələcəklə bağlılıqda meydana çıxan anlaşılmazlıqlarla şərtlənir. İnkişaf – gələcəyə istiqamətlənən, gələcəkdə reallaşma prosesini başa çatdıran bir fenomendir. Bu anlamda, inkişaf siyasətinin, yaxud bütövlükdə, cari dövrdə həyata keçirilən iqtisadi siyasətin gələcəkdə nələrlə yekunlaşacağını əvvəlcədən birmənalı şəkildə dəyərləndirmək qeyri-mümkündür. Elmin araşdırdığı zaman kəsiyi keçmişi və «indi»nin bir parçasını ehtiva edir. Elm – gələcəyi araşdırmır. Və, elmin edə biləcəyi (öngörmə prizmasından) yeganə təsbit ondan ibarətdir ki, cari dövrdəki şərtlərin («oyun qaydalarının» və s.) sabit qalacağı təqdirdə gələcək situasiya bugünkündən elə də fərqlənməyəcəkdir. Problemi gəlizləşdirən əsas məsələ də məhz ondan ibarətdir ki, sözügedən sabitliyin gələcəkdə də davam edəcəyini öncədən müəyyənləşdirmək qeyri-mümkündür. Bu məqsədlə tətbiq edilən riyazi modelləşdirmə (statik modellər) gələcəyi

---

[187] П.Сенге. Пятая дисциплина: искусство и практика самообучающейся организации. М., 1999

«görə bilmir», yalnız «indi»nin hansısa bir intervalını əhatə edir və buna görə də gələcək inkişafı təmin edə biləcək resurslar haqqında «məlumatsız» olur. Bu aspektdən dinamik modellər daha üstün mövqedədir. Amma bu modellər zamanca dəyişməni diqqət mərkəzinə gətirsələr də, davranış tərzini və bütövlükdə prosesdə dominant olan subyektiv amilin rolunu, eləcə də digər sferaların (siyasi, mədəni, sosial və s.) təsir imkanlarını proqnozlaşdırmaqda acizdirlər.

Milli iqtisadiyyatın inkişaf tipi, yaxud inkişaf vektorlarını onun keçmişi ilə əlaqələndirmək, keçmişin müəyyən rol oynadığını əsas kimi ortalığa qoymaq müəyyən mənada anlaşılmazlıq doğurur. İqtisadiyyatın təxminən (neolit inqilabından başlayaraq) 10 min ilə yaxın keçmişi var. Bu mənada, söhbətin hansı keçmişdən getdiyini dəqiq ifadə etmək lazımdır. Yaxud «keçmiş» dediyimiz zaman modusu nəyi ifadə edir: Adi xronologiyanımı, əvvəlki cəmiyyət tipinimi, yoxsa iqtisadiyyatın hal-hazırda olduğu dalğanın hansısa əvvəlki tsikllərindən birinimi?

Məsələn, Azərbaycana münasibətdə – milli iqtisadiyyatın cəmi 25 yaşı var. Bugünkü iqtisadi inkişaf vektorlarının seçimində sovet-sosialist «keçmişi» ilə bağlılığın mənası varmı? Ritorik xarakterli suallar problemin, hesab edirik ki, mahiyyətini anlamaq nöqteyi-nəzərindən yetərlidir. "Keçmiş"dən ibrət dərsi almaq nöqteyi-nəzərindən yalnız bir variant mövcuddur: Hal-hazırda gedən iqtisadi dalğanın əvvəlki tsikllərində buraxılan yanlışlıqlar! Məsələn, Azərbaycan üçün əsas ibrət dərsi (keçmişdən alınan) anklav xarakterlilik, keyfiyyət→kəmiyyət dəyişikliklərinin sistemli xarakter almaması inkişaf prosesində problem yaradan amil kimi çıxış edir.

Digər tərəfdən, inkişaf prosesi keçmiş→gələcək bağlılığının mahiyyət özəlliklərindən yaranan hərəkət trayektoriyasıdır. «Keçmiş» – inkişafın, yəni gələcəyə istiqamətlənən, gələcəyi «quran» prosesin bir növ fiziki «sərhədləri», konkret məzmunlu məhdudiyyətlər sistemi kimi çıxış edir. «Məhdudiyyətlərin» fəaliyyətə keçdiyi nöqtə isə – bifurkasiya nöqtəsi, yaxud sərhəd situasiyasıdır. Məhz bu nöqtədən sonra inkişafa münasibətdə vektor seçimi baş verir. Eyni zamanda, seçim variantları sonsuz sayda olur və keçmişdəki inkişafın «indiki» dövrdə proyeksiyasının çərçivəsi daxilində seçim aparılır (yəni, inkişafın əldə olunan səviyyəsi, iqtisadi potensialın ölçüləri və s.).

Keçmişin aktuallaşdırılması aspektində konkret məzmunlu konseptual baxış da mövcuddur – inkişafın əvvəlki yolundan asılılığı konsepsiyası.[188] Konsepsiyanın müəllifləri (Artur–Devid) inkişafın əvvəlki yolundan, yəni keçmişdən asılılığını iki yönümdə interpretasiya edirdilər:

a) Pozitiv – keçmişdən asılılıq mənfi yüklüdür. Və, daha çox bu qəbildən olan proseslərin istisnalar sinfinə aiddir.

b) Neqativ – «keçmişdən» azad olma imkansızlığı əvvəlki inkişaf yolundan asılılıq doğurur. İnkişafın nəzəri konstruksiyası, yaxud modeli dinamik proseslərin spesifikası ilə təsadüfi hadisələrin (proseslərin) simbiozuna istinadla konkret məhdudiyyətlər çərçivəsində qurulmalıdır.

Beləliklə, əvvəlki yoldan asılılıq konsepsiyası yalnız seçimin (qeyri-effektiv institut və texnologiyaların) önlənməsi və prosesdə «qapanma» yarada biləcək hadisələrin öngörümünün çox müşkül məsələ olduğunu ortalığa qoyur.

Sözügedən konsepsiyanın neoklassik [189] yozumu isə asılılıqla bağlı məzmun fərqləndirilməsinə istinadla üçlü qradasiyaya söykənir:

---

[188] Arthur W.B. Increasing Returus and Path Dependence in the Economy. Ann Arbor. The Inuversity of Michigan Press. 1994

[189] S.Z.Liebowits, S.E.Marqolis. Path Dependense Lockin, and History//Journal of Law, Economics and Orqanization. VOL II NI 1995, p.205

1) Seçilən yolun (keçmişlə bağlılıqda) keyfiyyət dərəcəsinin əvvəlcədən müəyyənləşdirilməsi qeyri-mümkündür. Qeyri-mümkünlük – öngörmənin anlaşılmazlığı ilə səbəbiyyət bağlılığındadır. Yol müxtəlifliyində məhz hansı variantın daha effektiv olduğu prosesin gedişi və yekununda, yəni gələcək zamanda aydınlaşır: düzdür, bu yanaşma qeyri-effektivliyin təbiəti ilə bağlı suala susmaqla cavab versə də, əlaqənin mövcudluğunu hər halda, təsbit edir.

2) İnformasiyanın yetərli olmadığı situasiyalarda yolun, eləcə də qəbul edilmiş qərarın effektivliyi retrospektiv aspektdən qeyri-effektivlik kimi səciyyələnə bilər.

Yəni neoklassiklər hesab edirlər və əmindirlər ki, zaman moduslararası effekt yanlışlığının miqyasını genişləndirmə gücündədir.

3) Və, nəhayət, qeyd olunur ki, texnologiya, yaxud institutların seçimində (səbəbin necəliyindən asılı olmayaraq) daha effektiv variantların olduğu şəraitdə belə daha az effektiv olanlar seçilə bilər.

İlkin şərtlərlə bağlı həssaslığın asılılıq anlamında doğurduğu seçimin qeyri, yaxud az effektli olması mümkündür, eyni zamanda həmin yanlışlıqdan qaçma imkanları da mövcuddur.

Keçmişdən asılılığı özünəməxsus tərzdə şərh edən digər bir yanaşma «cari epoxa» konsepsiyası adlanır.

Bu konsepsiyada zaman moduslarına spesifik baxış mövcuddur: ümumiyyətlə, «keçmiş» yox, «yaxın keçmiş»in «indi» ilə birliyi; Bu «birliyin» mənatutumu ziddiyyətlilikdən xali deyildir. Belə ki, «yaxın keçmiş» – hər halda keçmişdir, «indi» deyildir. Belə alınır ki, «indi» dediyimiz zaman kəsiyində mövcud olan münasibət və əlaqələr yaxın keçmişdən qalmadır! Başqa sözlə, hər iki modus – hər hansı bir prosesə (problemə, hadisəyə və s.) münasibətdə eyni şərtlərin eyni dərəcəli sabitliyini özündə ehtiva edir. L.Mizes yazırdı ki, buna görə də fəaliyyətin müxtəlif istiqamətlərində «indi»nin konsepsiyası müxtəlif cür təzahür edir. Digər tərəfdən, sözügedən sabitlik – gələcək üçün də keçərlidirmi, yaxud «yaxın» gələcəyin hansı intervalını əhatə edəcək sualına hər hansı bir cavab verilmir. «…Biz başa düşməliyik ki, təmayüllər dəyişə bilərlər. Keçmişdə dəyişənlər gələcəkdə də dəyişmə iqtidarındadırlar.»[190]

---

[190] Л.Музес. Человеческая деятельность. М., 1992, с.97

## ƏDƏBİYYAT SİYAHISI


### Azərbaycan dilində

1. Ə.Bayramov. İqtisad elminin fəlsəfəsi: zaman, həqiqət və azadlıq. Bakı, 2016. səh.57
2. Ə.Bayramov. İqtisad elminin fəlsəfəsi: zaman, həqiqət və azadlıq. Bakı, 2016, səh.8
3. Ş.Hacıyev, Ə.Bayramov və b. İqtisadiyyat fəlsəfəsi / elmi redaktor Ə.İ.Bayramov. Bakı. 2010. s.284

### İngilis dilində

1. A.O.Hirshman. The Strategy of Economic Development, 1961
2. A.V.Peter. Managing without Growth. Slower by Design, not Disaster. 2008
3. Arthur W.B. Increasing Returus and Path Dependence in the Economy. Ann Arbor. The Inuversity of Michigan Press. 1994
4. D.Held, A.McGrew: Global transformations. Combriedge, 1999, p.49
5. D.Rodrik. The Globalization Paradox. Demokracy and the Future of the World Economy. №-4. London. 2011. p.243
6. E.Emil; E.J.Feser. Understanding Local Economic Development/Putqers University. 1999
7. Elektron resurs. http//www.ssfindex.com/
8. F.Machlup. The Production and Distribution of Knowledge in the United States. Princeton University Press. 1962.p.49
9. G.Gourvitch. Determinismes sociauxet liberte humanaivie. Paris.1963. p.261.
10. G.Mankiw, D.Romer, D.Well. A. Contribution to the Empirics of Economic Growth//Journal of Economics. 1992. 107(2), p.407–437
11. Groning Pains? An index of Sustainable Economic Welfare for the United Kinqdom, 1950-1990 – The New Economics Foundation, p.1
12. Human Development Report. 2015. N.Y. UNDP
13. Investopedia/ http://www.investpedia com/terms/staqnation.asp.
14. J.Coleman. Foundation of Social Theory. Cambridge;1990
15. J.Fei; G.A.Ranis. Theory of Economic Development//American Economic Review. 1981, Vol.51
16. J.Kitzen, W.Easterly, M.Woolcock. On “Good” Politicians and “Bad” Policies: Social consession, institutions and Growth. World Bank. 2000
17. J.Scholte. Qlobalization: A criticial introduction. L.Macmillan. 2000, p.92
18. L.Mises. planning from freedom. South Holland 1952; p.162
19. M.Blanq. Economic History and the History of Economics. Brighton. 1986; p.265-279
20. M.Freedman. Frec to Choice. №4.1980. p.198
21. M.Waters. Globalization.L.№4.1995. p.4
22. M.Woolcock. Social capital and economic development: Theory and Society; 1998
23. P.Drucker The New Society.(1950)
24. P.N.Rosenstein-Rodan. Problems of industrialization of Estern and South-Eastern Europe//The Economics Journal. 1943, Vol.53
25. R.A.Solow. Contribution to the Theory of Economic Growth//Quarterly Journal of Economics. 1956. P.65–94
26. R.Brinkman. Economic growth versus Economic development: Tousards a conseptual Clarification//Journal of Economic issues/ Vol XXIX, N4, December, 1995

27. R.Brinkman. Economic growth versus Economic development: Towards a conceptual clariqication // Journal of Economic issues, Vol XXIX, № 4. December, 1995
28. R.Cilpin. The political economy of international reeations. Princeton.1987
29. R.Lucas. On the Mechanizm of Economic Development//Journal of Monetary Economics. V.22. 1988, p.3–42
30. R.Nurkse. Problems of Capital Formation in Underdevelopment Countries. Oxford. 1995, p.5
31. R.Robertson. Globality, global culture, and images of world. Haferkamp and smelser.1992.p.400
32. S.Kuznets. Economic development, the family and income distribution selected assays. Cambridge University Vrecs, 2002.
33. S.Kuznets. Six Lectures on Economic Growth. 1966
34. S.Stiqlist, A.Sen, J.P.Firdoussi. Report by the Comission on the Measurement of Economic Performance and Sosial Proqress. Paris, 2009
35. S.Z.Liebowits, S.E.Marqolis. Path Dependense Lockin, and History//Journal of Law, Economics and Orqanization. VOL II NI 1995, p.205
36. The state and changing model. Washington. 1997, p. 7-12
37. V.Cable. The economic consequences of war. N.Y.,2014
38. W.Roston. The Stages of Economic Growth: A Non-communist Manifesto. Cambridge. 1960, p.307-331
39. Y.Hayami. Development Economics: From the poverty to wealth of Nation. Oxford; 1997. p.11

**Rus dilində**

1. А.А.Олейников. Экономическая теория. Политическая экономия национального хозяйства. М: 2011
2. А.А.Богданов. Тектология. Всеобщая организационная наука. М., Финансы, 2003
3. А.Б.Борисов. Большой экономический словарь. М., 2001
4. А.В.Сидорович. Курс экономической теории. М:2001, с.402
5. А.Вебер. Экологическая политика: опыт изменение эффективности и цели устойчивого развития//Социологическая наука и социальная практика. №3. 2016
6. А.Г.Кочетов. Геоэкономика. М: 1999
7. А.Д.Урсул. Консептуальные проблемы устойчивого развития//Бюллетень РАН.2005.№1.с.30
8. А.Евдокимов. Биосфера и кризис цивилизации. М;2008
9. А.И.Уткин. Глобализация: процесс и осмысливание. М; Логос,2002.
10. А.Н.Лащенов. Аналитика постиндустриального общества: от кибернетических к социологическим теориям//Социология и социальная антропология. Том IX. №4; 2006
11. А.Осипов. Путь разума в поисках истины. М;2010;с.430
12. А.П.Градов. Национальная экономика. СПБ. 2005, с.40
13. А.Пороховский. Экономически эффективное государство: американский опыт// Вопросы Экономики; 1998;№3
14. А.С.Васильева. Пятифакторная модель устойчивости социально-экономического развития//Креативная экономика. Т.6, №4, 2012, с.3–9

15. А.С.Скоробогатов. Перспективы постиндустриального общества в России в свете иерархичности национальных и региональных экономик//Экон.Вестник Рост. Государственного Университета. Том 6. №2. 2008, с.23
16. А.Сен. Рациональность и свобода. Гарвард. Press.2002
17. Б.А.Райзберг. Современный социоэкономический словарь. М: 2012, с.330.
18. Б.В.Прыгин. Новейшая теоретическая экономика. Гиперэкономика.М: ЮНИТИ; 1998
19. Большаков Б.Е., Полынчев Д.А. Методология моделирования устойчивого развития страны. // Наука и промышленность России. 2005. №1-2, с.12
20. В.А.Дергачев. Глобальная геоэкономика. Трансформация мирового экономического пространство. Одесса,2003. Стр.115
21. В.А.Красильщиков. Модернизация: зарубежный опыт и уроки для России. // Модернизация России: условия, предпосылки, шансы.. М; 2009
22. В.В.Глухов; С.В.Коробко; Т.В.Марина. Экономика знаний. СПБ.Питер.2003
23. В.Гельман. Авторитарная модернизация: каковы ее перспективы в России (elekt. resusrs) http//www.eu.spb.ru 2008.
24. В.Д.Камаев. Экономическая теория. 2002. ВУЗ: СГЭУ
25. В.И.Коваленко. Критика новейшик буржуазных конценции государственно – монополистического капитализма. М:1987; с.66-67
26. В.И.Толстых. Глобализация в социокультурном изменении. Труды фонда Горбачова. Т.7. М:2000. стр.220
27. В.Иноземцев. Глобализация национальных хозяйств и современный экономический кризис. М., 2010
28. В.Колосов. Теоритическая лимология: новые подходы//международные процессы.2003,№3, стр.55
29. В.Л.Иноземцев. концепция постэкономического общества: теоретические и практические аспекты. М:1998
30. В.М.Зубов. Качество экономического роста: (Теоретические и методологические аспекты статистической оценки). — Красноярск: Изд-во Краснояр. ун-та, 1991. — 138 с.
31. В.М.Кульков. Национальная спецификация экономических систем//Вестник. М:2014, с.57
32. В.М.Месковин, А.В.Журавка. Концептуальные проблемы социально-экономической динамики//Экономическая кибернетика. Донецк, 2003, № 1-2, с.4–7
33. В.Максименко. Глобализация, риторика, идеология, реальность. Аналитическое обозрение.(ч.1) (Электронный ресурс). URL. www.provoslavie.ru/analitik/ qlobalishtion.html
34. В.Мау. Экономическая политика 2007 года: успехи и риски// Вопросы экономики. №2, 2008
35. В.Н.Малейченко. Глобализация как выражение системного кризиса капитализма. Глобализация и проблемы экономического развития. Россия Россия.М:2002; с.80
36. В.Н.Овчинников. Глобализационные императивы модернизации экономики России//Россия в глобализирующейся мировой экономике. Ростов-на-Дону. 2006,с.4.
37. В.Н.Шишов, А.Н.Быков, Л.М.Крюков. Национальная экономика: теоретическо методологические вопросы формирования и развития//Белорусский экономический журнал. №1, 2012, с.4
38. В.Ойкен. Основные принципы экономической политики. М:1952

39. В.Рязанов. Деглобализация или регулирование вместо дерегулирования//Экономист. 2010, №10, с.4
40. В.Степин. Теоритеческое знание. М.1999, с.30-31
41. Г.Колодко. Мир в движении. Пер. с польск. М., 2009, с.160
42. Г.Колодко. Неолиберализм и мировой экономический кризис//Вопросы экономики. 2010, №3, с.63-64
43. Г.Мюрдаль. Современные проблемы «Третьего мира». М., Прогресс, 1972
44. Г.С.Померанц. Культ этики или диалог культур? Материалы семинара Клуба ученых. Вип.6. М:2001. стр.103
45. Г.Терборн. Глобализация и неравенство (фрагмент). Сумерки глобализации.М.2004; С.80
46. Д.Белл. Грядущее постиндустриальное общества.М:1973
47. Д.Белл. Культурные противоречия капитализма. М:1978
48. Д.Белл.Постиндустриальное общество. «Американская модель»: с будущим в конфликте. М: 1984; с. 19-24
49. Дж.Гелбрейт. Экономические теории и цели общества. М.; 1979, с.362
50. Дж.Стиглиу. Глобализация: тревожные тенденции. Пер. с англ. М., 2003, с.7
51. Дилеммы глобализации. Социумы и цивилизации: иллюзий и риски. М:1992; с.11;10
52. Доклад о человеческом развитии 2016. ООН. UNDP
53. Е.Г.Ясин. Модернизация и общество // модернизация экономики М;2007 и общественное развитие: в 3 кн. кн. 1.
54. Е.Л.Драчева, А.М.Либман. Проблемы глобализации и интеграции международного бизнеса и их влияние на российскую экономику. Маркетинг в России и за рубежом. 2005. №7, с.15-17
55. Е.П.Качуровский. Современная мировая экономика. Минск, 2012, стр.43
56. И.В.Бойко. Основы инновационного развития и новой экономики. СПб. 2015, стр.10
57. И.В.Макарова. Потенциал модернизации машиностроительного комплекса региона. Екатеринбург, 2010, с. 23
58. И.Валлерстайн. Анализ мировых систем и ситуация в современном мире. Пер. с англ. М., 2001, с.14
59. И.Воллерстайн. Конец знакомого мира. Социология XX века. М:2004; с.82
60. И.И.Кравченко. Экологическая проблема в современных теориях общественного развития. М: 1982. с.143-146
61. И.М.Теняков. Качество экономического роста как фактор национального развития// автореферат. М.; 2007, стр.13
62. И.Шумпетер. Теория економического развития. М; Прогресс; 1982
63. Й.Шумпетер. Теория экономического развития. М., «Эксмо», 2007
64. Измерение устойчивого развития / В рамках проекта Счета Развития ООН. 2012. http||www.unece.org|stats|document.2012.10qeviron.html
65. К.Б.Соколов. Глобализация: История, современность и искусство. М., 2012, стр.115
66. К.Белоусов. Современный этап эволюции концепции устойчивого развития и формирование парадигмы корпоративной устойчивости//Проблемы современной экономики. №1(45).2013
67. К.Блюхер. Возникновение народного хозяйства. Директмедиа Паблишинг, М:1997.

68. К.Леви–Стросс. Race et histoire (1952, рус. пер. Раса и история, 2000)
69. К.Поппер. открытое общество и его враги. Т.II.М:1993
70. К.Поппер. Открытое общество. М., 1992. Т.2, с.128
71. Как измерять человеческое развитие: пособие. Нью – Йорк. ПРООН.2007.с.41
72. Л.Б.Воромский. Економическое пространство России: Вопросы знании в условиях глобализации//http//www.imepi.eurasiya.ru
73. Л.В.Толстоухов. Глобальный социальный контекст и контуры эко-будущего//Вопросы философии; 2003, стр.53
74. Л.И.Бернасовская, А.Д.Викторов и др. Системный подход к прогнозированию устойчивого развития региона. М., 2010
75. Л.Лагодич. Измерение устойчивого развития: проблемы теории, методолокии, практики.// Экономика и управление. 2014. № (40).с.4-7
76. Л.Музес. Человеческая деятельность. М., 1992, с.97.
77. Л.Турои. Процесс становления глобальной экономики//Мировая экономика и международные отношения. 1998, №4, с.6
78. Л.Туроу. Процес становления глабальной экономии. Мировая экономика и международные отнашения.1998. №4, стр.134
79. М.Б.Табачникова. Теоритичсекие концепции эволюционных изменений социально-экономических систем. М:2016
80. М.В.Ченцова. Особенности формирования экономики знаний в современных условиях. Автореферой. М:2008. с.11
81. М.Вебер. Избранные произведения. М: 1990, с.44-135
82. М.Вебер. Избранные сочинения М: Прогресс, 1990.
83. М.Е.Листопад. Проблемы постиндустриальной трансформации национального хозяйства в глобальном экономическом пространстве. Проблемы современной экономики. №4. 2008. с.36
84. М.Игнатьева. Сущность понятия «Устойчивое развитие»//Изв.вузов. Горный журна. №2. 2014, с.21
85. М.Ильин. Политическая глобализация: институтциональные изменения. Грани глобализации. М;2003
86. М.К.Бункина. Национальная экономия. М: 2002, с.18
87. М.Кастельс. Глобальный капитализм и новая экономика:значение для России//Посиндустриальный мир и Россия. М:2000, с.75
88. М.Лопухов. Словарь терминов и понятии по обществознанию. М:2013. с.124
89. М.П.Кузнецова. Экономика и социум» №4(23) 2016
90. М.П.Тодаро. Экономическое развитие. М; Юнити.1997; с.667
91. Мировая экономика и международные отношения. 2002, №1, с.29
92. Н.Д.Кондратьев. Суздальские письма. — М.: Экономика, 2004. — 879 с
93. Н.Н.Моисеев. Человек и неосфера. М:1990; с.44
94. Н.Пустохина, В.Валиев. Концепция устойчивого развития: основные положения// ИЗВ. Уралского горного университета.№2(38); 2015
95. Национальная комиссия по устойчивому развитию Республики Беларусь. 2004. http||un.by|pdHOONsmallrus.pdf
96. Наше общее будущее. Даклад Международной комиссии по окружающей среде и развитию. М., 1989, с.50

97. О.Ананина. карл Маркс и его «Капитал»: из XIX в XXI век//Вопросы экономики. №9. 2007, с.51
98. О.Б.Скородумова. Отечественные подходы к интериретации информационного оющества: постиндустриалисткая, синергетическая и постмодернистская парадигмы.М:2007. С.4
99. П.Бурдье. социальные структуры экономики. М;2002
100. П.В.Савченко. Национальная экономика. М:2005, с.21
101. П.Р.Кругман; Международная экономика. 5-е издание. СПб, 2003, с.292
102. П.Самуэльсон, У.Нордхаус. Роль правительства в рыночной экономике// Америка., 1992, стр. 17-19
103. П.Сенге. Пятая дисциплина: искусство и практика самообучающейся организации. М., 1999
104. П.Штомка. Социология. Анализ современного общества: Пер. с польск. СМ. Червонной. М.: Логос, 2005, 664 с.
105. Р.Пребиш. Периферийный капитализм: есть ли ему альтернатива? М., УЛА, 1992
106. С.Бодрунов.Новое индустриальное общество второго поколения: человек, производство, развитие. Общество и экономика: №9. 2016.
107. С.И.Долгов. Проблемы глобализации. Полемика продолжается. Шок глобализации//Внешнеэкономический бюллетень. М., 2002, с.4-15
108. С.И.Ожегов; Н.Ю.Шведова. Толковый словарь русского языка. М., 1994
109. С.Л.Франк. Крушение кумиров // Сочинения, М; 1990. С.141
110. С.Н.Бобылев, С.В.Соловьева. Новые идеи для новой экономики//Мир новой экономики. №1; 2016
111. С.Н.Бобылев. Устойчивое развитие: методология и методика измерения. М., 2011
112. Социально-экономический потенциал устойчивого развития. Учебник /под ред. Л.Мельника, Л.Хенса
113. Социологический словарь(ред.Осипов и др.). 2014. Стр. 292
114. Т.Норберт. Управление изменениями// Проблемы теории и практики управления. 1998;№1
115. Т.П.Черкасова. Категориальлная определенность понятий «Экономического развитие» и «экономический рост» \\ Наука и образование. 2011, №6, с.25
116. Т.Фридмен. Лехис и олива. СПБ.2003.с.321;129
117. Теория и методология исторической науки. Терминологический словарь. М: 2014: стр. 128.
118. У.Бек. Национальное государство утрачивает суверинитет//Сумерки глобализации. М:2004; с. 48;210
119. Ф.Уэбстер. Теория информационного общества. М:2004
120. Ф.фон Хайек. Дорога к рабству. Пер. с англ. М:1992, с.3
121. Ф.Фон Хайек. Дорога к рабству. Пер. с. Англ. М: 1992. С.7
122. Философский словарь /авт.С.Я.Подопригора и др .Ростов 2013. с.138
123. Х.Боссель. Показатели устойчивогоразвития: Теория, методика и т.д. Тюмень, 2001
124. Х.Ченери; Н.Картер. Внутренние и внешние аспекты планов и процесса экономического развития//Конференция по долгосрочному планированию и прогнозированию, М., 1972
125. Шкаратан О., Иванов И., Инясевский С. Анализ социально-экономического неравенства россиян//ОНС;№2005

126. Э.Тоффлер. Третья волна. М., с.474
127. Э.Гиддунс. Социология. М: 2004
128. Э.де Сото. Иной Путь. М., 1995
129. Э.Рустамов. Принципы эволюционной модернизации переходных экономик//Вопросы экономики. № 6; 2009, с.85
130. Э.Тоффлер. На пороге будущего. «Американская модель»: с будущим в конфликте. М: 1984; с. 30-32
131. Э.Тоффлер. Третья волна. М: 1980, с.474
132. Э.Тоффлер. Третья волна. М:2004
133. Экономическая теория на XXI века; Неоэкономика. под.ред. Ю.М.Осипова и др. М:2001
134. Экономический словарь. http//ekslovar.ru/slovar/r-/razvitiye-ekonomicheskoye.html
135. Электронный ресурс . «Превращая в реальность будущее, которого мы добиваем для всех» Доклад. ООН.2012. С.2.
136. Энциклопедия философских наук. Т.1.1974;с.230
137. Энциклопедия философских наук. Т.1.1974;с541
138. Ю.Бохеньский. Сто суеверий. М; 1993; с.120
139. Ю.В.Яременко. Об экономике. — М.: МАКС Пресс, 2015. — 272 с.
140. Ю.Я.Ольсевич. Влияние хозяйственных реформ в России и КНР на экономическую мысль Запада. М:2007, с.246
141. Я.С.Ядгаров. История экономических учений. М:2009, с.109